Azərbaycan Respublikası
Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi
Azərbaycan İlahiyyat İnstitutu

№ 3, dekabr, 2020-ci il

# İLAHİYYAT

## elmi-publisistik jurnal

Təsisçi:
Azərbaycan İlahiyyat İnstitutu

BAKI - 2020

**Baş redaktor**
i.f.d.
Aqil Şirinov

**Redaktor müavini**
Rəhilə Misirxanova

**Ədəbi redaktor**
Rəna Həsrətova

**Texniki redaktor**
Hilal Ağamoğlanov

**Korrektor**
Elnarə Ağaoğlu

**Redaksiya heyəti**

i.f.d., dos.
Mübariz Camalov

f.f.d.
Mirniyaz Mürsəlov

i.f.d., dos.
Elnurə Əzizova

f.f.d., dos.
Anar Qafarov

f.f.d.
Kövsər Tağıyev

f.f.d.
Əhməd Niyazov

f.f.d., dos.
İlkin Əlimuradov

f.f.d., dos.
Elvüsal Məmmədov

f.f.d., dos.
Ələddin Məlikov

i.f.d., dos.
Namiq Abuzərov

s.f.d.
Asəf Qənbərov

# BU SAYIMIZDA


**Rəsmi guşə**

*Noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət edib*.......4

**Təhsil**

*"Mənim qapım hər zaman tələbələrin üzünə açıq olur", AİÎ rektoru Aqil Şirinovla müsahibə*..........10

**Zərifə Əliyeva,** *Təhsil innovasiyaları və onların tətbiqi*.............................................17

**Cəmiyyət və din**

**Anar Qafarov,** *İdeoloji təhlükəsizlikdə din amili*..................................................................20

**Rəhilə Misirxanlı,** *Ümumbəşəri dinlər*..............25

**Emin Orucov,** *Sosial-psixoloji və dini düşüncə sistemlərində dindəyişdirmə*................................30

**Orxan Abışlı,** *Azərbaycan Xalq Cümhuriyyəti dövründə din tədrisi*.........................................32

**Müsəlman mütəfəkkirlər**

**Ələddin Məlikov,** *Sədrəddin Şirazi - Şərqdə transsendental fəlsəfi fikrin banisi* ...................35

**İslam əxlaqı**

**Mehman İsmayılov,** *İslamofobiya: Qarabağ müstəvisində*...................................................38

**Elvüsal Məmmədov,** *İslamda ağıl: mahiyyəti və funksiyaları*.....................................40

**Faiq Əhmədzadə,** *İslamda qadının mövqeyi*....44

**Mehrixanım Miryaqubqızı,** *Şəhidlik məqamı*....48

**Azanə Əhmədova,** *Övlad tərbiyəsi*.................50

**Araşdırma**

**Məmmədəli Babaşlı,** *Qloballaşan dünyada elmi araşdırmaların əhəmiyyəti*........................55

**Cəlil Cavanşir,** *Yalançı peyğəmbərlər*.............57

**Vüqar Səmədov,** *İbn Xəldunun bədəvi (səhrada köçəri həyat sürən ərəblər) ümran nəzəriyyəsinin analizi*......................................60

**Aişə Baxşiyeva,** *Memarlıq abidələri tarixin canlı şahididir*.......................................64

**Baxış bucağı**

**Aslan Həbibov,** *Qurana görə insanın yaranması*.....................................................68

**Hilal Ağamoğlanov,** *Ölümün qardaşı - yuxu*.....70

**Mirhakim Sadıqov,** *Allah həddini aşanları sevmir*..........................................................72

**Nicat Hüseynov,** *İmam Hüseyn (ə) və Kərbəla hadisəsi*........................................................74

**Mehrab Dəmirzadə,** *Ədl*...................................76

**Abidələrimiz**

**Mübariz Camalov,** *Hira: peyğəmbərliyə hazırlıq, yoxsa fikri böhran?!*............................78

**Tərxan Paşazadə,** *Qubanın ən qədim Əbu Muslim məscidləri*........................................80

**Ədəbiyyat**

**Şahin Ələsgərov,** *Valeriya Poroxova ilə müsahibə*.......................................................82

**Elif Yusif,** *Qatil*...............................................87

**R.İsmayılqızı,** *"Bu yağışı dənə-dənə öpərəm"*.........................................................92

**Tural Türksoy,** *Minacat*..................................95



# Noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət edib

## Prezident İlham Əliyevin müraciəti

*-Əziz həmvətənlər.*

Bu gün ölkəmiz üçün tarixi bir gündür. Bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulur. Hesab edirəm ki, indicə imzalanmış üçtərəfli bəyanat məsələnin həlli istiqamətində son nöqtə olacaqdır. Bu bəyanatı Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri imzalamışlar. İstərdim ki, bəyanatın mətni ilə sizi tanış edim:

**"Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin bəyanatı**

Biz Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin aşağıdakıları bəyan edirik:

1. 10 noyabr 2020-ci il tarixində Moskva vaxtı ilə saat 00.00-dan etibarən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olunur. Bundan sonra Tərəflər adlandırılacaq Azərbaycan Respublikası və Ermənistan Respublikası tutduqları mövqelərdə qalacaqlar.

2. 20 noyabr 2020-ci il tarixinədək Ağdam rayonu Azərbaycan Respublikasına qaytarılır.

3. Dağlıq Qarabağda təmas xətti və Laçın dəhlizi boyu Rusiya Federasiyasının 1960 sayda odlu silahlı hərbi qulluqçusundan, 90 hərbi zirehli texnika, 380 ədəd avtomobil və xüsusi texnikadan ibarət sülhməramlı kontingenti yerləşdirilir.

4. Rusiya Federasiyasının sülhməramlı kontingenti erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşdirilir. Rusiya Federasiyasının sülhməramlı kontingentinin qalma müddəti 5 ildir və müddətin bitməsinə 6 ay qalmış hazırkı müddəanın tətbiqinə xitam verilməsi niyyətini Tərəflərdən hər hansı biri bəyan etməzsə, avtomatik olaraq növbəti 5 illik müddətlərə uzadılır.

5. Münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə nəzarətin səmərəliliyinin artırılması məqsədilə atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəz yaradılır.

6. Ermənistan Respublikası 15 noyabr 2020-ci il tarixinədək Azərbaycan Respublikasına Kəlbəcər rayonunu, 1 dekabr 2020-ci il tarixinədək isə Laçın rayonunu qaytarır. Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edəcək və bununla belə Şuşa şəhərinə toxunmayacaq Laçın dəhlizi (5 km. enliyində) Rusiya sülhməramlı kontingentinin nəzarəti altında qalır.

Tərəflərin razılığı əsasında növbəti üç il ərzində Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin

edən Laçın dəhlizi üzrə yeni hərəkət marşrutunun inşası planı müəyyən ediləcək və bununla da həmin marşrutun mühafizəsi üçün Rusiya sülhməramlı kontingentinin gələcək yerdəyişməsi nəzərdə tutulur.

Azərbaycan Respublikası Laçın dəhlizi üzrə hər iki istiqamətdə vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hərəkətinə təhlükəsizlik zəmanəti verir.

7. Daxili məcburi köçkünlər və qaçqınlar Dağlıq Qarabağın ərazisinə və ətraf rayonlara BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Ofisinin nəzarəti altında geri qayıdır.

8. Hərbi əsirlər, girovlar və digər saxlanılan şəxslərin, habelə cəsədlərin mübadiləsi həyata keçirilir.

9. Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin orqanları həyata keçirir.

Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcəkdir.

Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri, Rusiya Federasiyasının Prezidenti".

* * *

*Əziz həmvətənlər, əziz bacılar və qardaşlar.*

Bu bəyanatın tarixi əhəmiyyəti var. Bildirməliyəm ki, bu bəyanat videokonfrans şəklində imzalanmışdır və ilk mərhələdə 3 ölkənin başçısı bu videokonfrans vasitəsilə bəyanatı imzalamalı idilər. Ancaq son anda Ermənistan baş naziri bundan imtina edib. Bu, müəyyən dərəcədə başadüşüləndir. Çünki faktiki olaraq bu bəyanat Ermənistanın hərbi kapitulyasiyası deməkdir. Ona görə bu bəyanatı videokonfrans formatında Rusiya Prezidenti və mən imzalamışıq və bu bəyanat rus dilində tərtib edilibdir. Mənim burada imzam var, bu sənəd bu imzalamadan sonra Rusiya səfirinə təqdim edilib və Rusiya və Ermənistan dövlət, hökumət başçıları bu sənədi imzalayacaqlar.

Bir daha demək istəyirəm ki, Ermənistan baş naziri Paşinyanın bu hərəkəti başadüşüləndir. Halbuki hesab edirəm ki, hər bir insan öz əməllərinə görə cavab verməlidir. Hər bir insan hətta onun üçün, ölkəsi üçün ən ağır, ən kritik vəziyyətdə özünə hörmət saxlamalıdır. Onsuz da Paşinyan bunu imzalayacaq. Biz onu məcbur etdik. Ancaq onu hansısa bağlı bir yerdə, qapalı bir yerdə, kameralardan uzaq bir yerdə qorxaqcasına, namərdcəsinə imzalayacaq. Öz xoşu ilə bunu imzalamır. Bunun - dəmir yumruğun hesabına imzalayır!

Bu bəyanat bizim şanlı qələbəmizdir. Şadam ki, bu gün bu müjdəni Azərbaycan xalqına verirəm. Hesab edirəm ki, bu bəyanatın imzalanmasının səbəblərindən biri də dünən qeyd etdiyimiz parlaq qələbəmizdir, tarixi qələbəmizdir, Şuşanın işğaldan azad edilməsidir, Şuşa Qarabağın tacıdır! Şuşanın azad edilməsi həm böyük siyasi, həm böyük strateji, eyni zamanda, çox böyük mənəvi məna daşıyır. Biz Şuşaya qayıtdıq, biz Şuşanı qaytardıq, biz Şuşada yaşayacağıq və işğaldan azad edilmiş digər bütün torpaqlarda həyat qaynayacaq. İnsanlar o torpaqlara qayıdacaq, orada yaşayacaq, insanlarımızın 30 illik həsrətinə son qoyulur.

Hesab edirəm ki, bu bəyanatın imzalanmasının səbəbi noyabrın 9-da - Dövlət Bayrağı Günündə bizim növbəti şanlı hərbi qələbəmiz olub. Çünki noyabrın 9-da 72 yaşayış məntəqəsini Azərbaycan Ordusu işğalçılardan azad edib. Şuşanın azad edilməsi, noyabrın 9-da 72 yaşayış məntəqəsinin azad edilməsi və sentyabrın 27-dən bu günə qədər 300-ə yaxın yaşayış məntəqəsinin azad edilməsi ilə Ermənistan ordusunun belini qırmışıq. Paşinyan məcbur olub bu bəyanata öz imzasını atır. Amma çox miskin, çox acınacaqlı durumda. Mən isə böyük fəxarət və sevinc hissi ilə bu bəyanata öz imzamı atmışam. Çünki bu bəyanat uzun illər davam edən işğala son qoyur. Bu bəyanat imkan verir ki, hələ də işğal altında olan digər rayonlarımızı - Ağdam, Laçın, Kəlbəcər rayonlarını qan tökülmədən qaytaraq. Qısa bir müddət qoyulur, bu ayın sonuna qədər bu rayonlar bizə qaytarılır. Bu, böyük xoşbəxtlikdir. Mən fürsətdən istifadə edərək, Ağdam, Laçın, Kəlbəcər rayonlarının sakinlərini, bütün Azərbaycan xalqını bu münasibətlə təbrik edirəm. Hər dəfə işğal altında olan hansısa rayon, şəhər işğaldan azad edildə mən o şəhər və rayonların sakinlərini təbrik edirdim, təsəvvür edirəm ki, onların həyatında bu nə deməkdir. Onların bəziləri, bəlkə də bir çoxları görəndə ki, uzun illər ərzində məsələ öz həllini tapmır artıq ümidlərini itirmişdilər. Mən son 17 il ərzində köçkünlərlə çoxsaylı görüşlərimdə, onlar üçün yeni evlərin təqdimat mərasimlərində görürdüm ki, ildən-ilə onların ümidləri azalır. Görürdüm, ürək ağrısı ilə bunu görürdüm. Görürdüm ki, artıq onların bəziləri ümidlərini itirib. Bəli, təşəkkürünü bildirirdilər, təbii ki, onlara yaxşı şərait yaradılırdı, onların problemləri həll olunurdu. Bilirsiniz ki, məcburi köçkünlər üçün Azərbaycanda görülən işlər heç bir başqa ölkədə görülmür. Dünyanın bir çox ölkələrində köçkünlər var, amma bizim köçkünlərimizin vəziyyəti o biri öl-

kələrdə yaşayan köçkünlərlə müqayisəedilməz dərəcədə müsbətdir. Amma onların əsas arzusu doğma torpaqlara qayıtmaqdır və məndən xahiş edirdilər, cənab Prezident, qaytar bizi. Mən də hər dəfə onlarla görüşəndə həm onlarda güclü iradə görürdüm, yenilməzlik görürdüm, dövlətə sədaqət görürdüm, eyni zamanda, onların gözlərində nisgil, həsrət görürdüm. Buna son qoyulub, əziz soydaşlarım, gözünüz aydın olsun, siz qayıdırsınız, biz qayıdırıq, Azərbaycan qayıdır! Azərbaycan öz ərazi bütövlüyünü bərpa edir. Bundan da böyük xoşbəxtlik ola bilərmi!

Məcburi köçkünlər yaxşı bilirlər ki, onların öz dədə-baba torpaqlarına qayıtması üçün biz əlimizdən gələni edəcəyik, işğaldan azad edilmiş bu torpaqları yenidən quracağıq. İndi bütün dünya görür ki, mənfur düşmən bu torpaqları hansı vəziyyətə salıb. Bizim bütün binalarımız dağıdılıb, tarixi abidələrimiz dağıdılıb, muzeylərimiz talan edilib, təbiətimizə böyük ziyan vurulub, məscidlərimiz dağıdılıb, təhqir edilib. Azad edilmiş torpaqlarda yarıdağılmış məscidlərdə vəhşi düşmən bizi təhqir etmək üçün, bizim qürurumuza toxunmaq üçün donuz saxlayırdı. Amma biz onların qisasını artıqlaması ilə aldıq. Xocalı qurbanlarının da qisasını aldıq, şəhidlərimizin də qisasını aldıq.

Mən noyabrın 8-də Şuşanın azad edilməsi ilə əlaqədar xalqıma müjdə verərkən bildirmişdim ki, şəhidlərin ruhu qarşısında baş əyirəm. Birinci Qarabağ və İkinci Qarabağ müharibələrinin şəhidləri bizim qəlbimizdə əbədi yaşayacaq. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Onların qəhrəmanlığı, fədakarlığı nəticəsində biz torplaqlarımıza qayıdırıq. Allah bütün yaralı hərbçilərimizə şəfa versin, onlar tezliklə sağalıb normal həyata dönsünlər, onların sağalması üçün də əlimizdən gələni edirik və edəcəyik. Hətta ən ağır vəziyyətdə olan yaralı əsgərimiz, zabitimiz bilməlidir, əlimizdən gələni edəcəyik ki, onu normal həyata qaytaraq. Biz bu Qələbəyə görə onlara borcluyuq. Onlar torpağımızı işğalçılardan qarış-qarış azad edib, onlar bizim bayrağımızı işğal edilmiş və işğaldan azad edilmiş torpaqlarda qaldırıb, bayrağımızı orada dalğalandırıb. Bu, bizim hamımızın qələbəsidir, bütün Azərbaycan xalqının. Azərbaycan xalqı bir daha göstərdi ki, nə qədər böyük xalqdır, nə qədər vətənpərvər xalqdır, nə qədər dəmir iradəyə malik olan xalqdır. 30 ilin əziyyəti, 30 ilin ümidsizliyi, 30 ilin əzabları xalqımızı sındırmadı, iradəmizə heç bir mənfi təsir göstərmədi. Əksinə, biz daha da bütövləşdik, daha da mətinləşdik, daha da gücləndik, özümüzü toparladıq, dedik ki, artıq yetər, biz bu işğala dözməyəcəyik. Dedik ki, düşməni torpaqlarımızdan qovacağıq! Heç bir danışıqlar bizi maraqlandırmır. Siz də yaxşı bilirsiniz ki, son bir il ərzində mən danışıqlar haqqında, ümumiyyətlə, söhbət aparmıram. Xalqımı aldatmaq istəmirdim, heç vaxt aldatmamışam və aldatmayacağam. Azərbaycan xalqı bunu bilir. Mən müharibədən əvvəl deyəndə ki, mən bilirəm nəyi nə vaxt etmək lazımdır, əminəm ki, xalqımızın mütləq əksəriyyəti başa düşürdü mən nəyi nəzərdə tuturam və səbirlə bu günü gözləyirdi, mənə inanırdı, Prezident kimi, Ali Baş Komandan kimi inanırdı, gözləyirdi və bu gün gəldi. Dedik yetər artıq, bu əsarət yetər! Bizim şəhərlərimiz əsarət altında nə qədər qalacaq?! Mənfur düşmən bizim təbiətimizi nə qədər murdarlayacaq, bizim torpağımızda gəzəcək, yeyəcək, içəcək, rəqs edəcək, bizi təhqir edəcək. Dedik ki, düşmənə yerini göstərəcəyik, düşməni torpaqlarımızdan qovacağıq və qovduq da!

Sentyabrın 27-də nə baş verib, onu tarixçilər deyəcək. Necə başlayıb, onu hesab edirəm ki, bir çoxları bilir. Artıq Azərbaycan xalqının səbri tükənmişdi və mən Ermənistan baş nazirinə son görüşlərdə demişdim ki, siz odla oynamayın, Azərbaycan xalqının səbri ilə oynamayın. Siz Azərbaycan xalqını tanımırsınız, siz tanıyacaqsınız bizi, amma gec olacaq. Düz yola gəlin, çıxın bu torpaqlardan, bu torpaqlar sizə mənsub deyil. Amma nə etdilər? Orada qanunsuz məskunlaşma aparmaq üçün beynəlxalq hüququ, beynəlxalq konvensiyaları, o cümlədən Cenevrə konvensiyalarını kobudcasına pozaraq nümayişkaranə şəkildə xaricdən erməniləri gətirib özü də məhz Şuşaya ki, bizi incitsin. Məhz Şuşada o dəstə başçısı hansı ki, indi deşik axtarır gizlənməyə, xunta başçısı özünə andiçmə mərasimi keçirmişdir və Ermənistan baş naziri gedib orada iştirak edib. Bu, bizə sataşmaq deyildimi? Bunun hesabını sizdən soruşan olmayacaqdımı?! Hesabını soruşduq, diz çökdürdük, diz üstə qoyduq! Onun-bunun ətəyindən yapışıb bu 40 gündən çox bir müddətdə adam qalmayıb ki, zəhləsini tökməsin, yardım istəməsin, özünü alçaltmasın. Biz alçaltmışıq onu, əcəb də etmişik. Bizim üçün müqəddəs olan Şuşa şəhərinin Cıdır düzündə sərxoş vəziyyətdə rəqs edəndə fikirləşəydi ki, bu gün gələcək, cəzasını alacaq, siçan kimi gizlənib bax bu sənədi götürüb ağlaya-ağlaya imzalayacaq. Yerini göstərdik, dərsini verdik. Qovmuşuq onları torpaqlarımızdan, iti qovan kimi qovmuşuq. Demişdim ki, qovacağıq, iti qovan kimi qovacağıq və qovmuşuq, iti qovan kimi qovmuşuq. Qorxularından indi bu sənədə imza atır, bilir ki, biz Ağdama da, Kəlbəcərə də, Laçına da gələcəyik. Heç kim bizi saxlaya bilməz. Hər kəs bizim gücümüzü gördü, hər kəs bizim dəmir yumruğumuz nədir, anladı. Ona görə qovmuşuq onları, əcəb də etmişik.

Onların demək olar ki, bütün texnikasını məhv etmişik, darmadağın

etmişik. Bu 30 il ərzində qurulmuş istehkamları keçmişik, əsgərlərimiz aslan kimi keçiblər, əziblər düşməni keçiblər, əcəb də ediblər, öz torpağında. Biz beynəlxalq hüquqa əməl edirik, biz beynəlxalq hüquqa hörmət göstəririk. Biz mülki vətəndaşlardan intiqam almamışıq, heç vaxt almayacağıq və məhz buna görə mülki vətəndaşlar arasında düşmən tərəfdə itkilər çox azdır. Onlar nə etdilər? Onlar döyüş meydanında duruş gətirə bilmədilər, qaçdılar, ondan sonra ballistik raketlərlə mülki vətəndaşlara atəş açdılar. Bu, hərbi cinayətdir. Onlar bu hərbi cinayətə görə cavab verəcəklər. Gəncə şəhərini Ermənistandan ballistik raketlərlə vurmaq alçaqlıqdır, alçaq hərəkətdir, cinayətdir. Bərdəni kasetli bombalarla atəşə tutmaq hərbi cinayətdir. Mən demişəm Tərtər şəhəri, İkinci Dünya müharibəsi dövründə dağılmış Stalinqrad şəhərinə bənzəyir. Gündə, - özü də böyük şəhər deyil, - yüzlərlə mərmi düşürdü, amma bir nəfər də tərpənmədi. Amma ermənilər qaçıb getdilər. Onların “yenilməz” ordusu məhv oldu, fərarilik başladı, xunta başçısı Dağlıq Qarabağda əmr verdi ki, kim oradan qaçacaq, o, məsuliyyətə cəlb olunacaq. Bizdə BİR nəfər fərari oldumu? Olmadı! Bir nəfər də olmadı! Budur Azərbaycan xalqı! Mülki vətəndaşlar, evi dağılıb, malı batıb, yaxın insanını itirib, yenə də deyir ki, "Vətən sağ olsun". Ancaq irəli, irəli! Mənə yazılan məktublarda deyilir, Ali Baş Komandan, irəli! Dəstəkləyirik səni, get irəli, dayanma və getmişəm, dayanmamışam.

Bu müharibə dövründə 30-a yaxın müsahibə vermişəm. Ömrümdə bəlkə də bu qədər müsahibə verməmişəm və bəziləri deyirlər ki, İlham Əliyev nə üçün müsahibə vermir. Hesab edirdim ki, mən öz mövqeyimi ifadə etmək üçün kifayət qədər imkanlara malikəm, tez-tez bütün məsələlərlə bağlı öz fikirlərimi bildirirəm. Mənim bütün fəaliyyətim şəffafdır, keçirdiyim bütün iclaslar ictimaiyyətə təqdim edilir. Lüzum bilmirdim onda. Amma lazım olan vaxtda 30-a yaxın müsahibə vermişəm və o müsahiblərdə demişəm ki, biz beynəlxalq hüquqa hörmətlə yanaşırıq, biz beynəlxalq hüququ müdafiə edirik, biz ədaləti müdafiə edirik, biz BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra edirik. Demişdim ki, bizim bütün addımlarımız beynəlxalq hüququn norma və prinsipləri əsasında, əxlaq əsasında görülüb və bütün addımlarımız bu istiqamətdə atılıb. İntiqamımızı düşməndən aldıq, işğalçıdan aldıq. Mülki vətəndaşlarla bizim işimiz olmayıb və olmayacaq. Düşmənin məskunlaşdığı, gizləndiyi şəhərlərdə böyük dağıntılar yoxdur. Çünki biz mülki obyektlərə atəş açmamışıq. Bax, bizim fərqimiz bundan ibarətdir.

Mən bu müharibə başlayandan sonra demişdim ki, bir çoxları, demək olar, bu məsələ ilə məşğul olan siyasətçilərin hamısı deyirdi ki, bu münaqişənin hərbi həlli yoxdur. Mən nə deyirdim? Deyirdim ki, var! Məni tənqid edirdilər ki, İlham Əliyev nə danışır? Yoxdur hərbi həlli. Dedim yaxşı yoxdursa, onda bunu sülh yolu ilə həll edin. Sizin əlinizdə bu imkanlar var. Siz böyük dövlətlərsiniz, böyük nüfuzunuz var, böyük imkanlarınız var. Nədir ki, sizin qabağınızda Ermənistan, nədir ki, ona təsir edə bilmirsiniz? Bəlkə təsir etmək istəmirsiniz? Yox, deyirdilər ki, olmaz müharibə aparmaq, sülh yolu ilə. Sülh yolu ilə 1 il, 2 il, daha 30 il sülh yolu ilə? Bizim başımızı nə qədər aldatmaq olar? Amma biz sübut etdik ki hərbi həlli var. Və mən demişdim ki, mən istəyirəm və Paşinyan, deyirəm sənə, bəyanat ver, öhdəlik götür, qrafik ver, cədvəl ver. Müharibənin ilk günündən mən bunu deyirdim. Hər kəs də bunu görə bilər. Müsahibələrimdə, xalqa müraciətlərimdə açıq demişəm, qrafik ver, cədvəl ver, rədd ol, çıx get, mən dayanıram. Yoxsa oradan deyirlər dayanın, buradan deyirlər dayanın. Yaxşı, bizim torpaqlarımızı işğal edəndə niyə bunlara "dayanın!" deyən olmadı? Bizim torpağımızı 30 il əsarət altında saxlayan Ermənistana nə üçün “buradan çıx get!" deyən olmadı! Bu, nədir? Yaxşı, biz indi öz gücümüzə güvənərək bu torpaqları şəhid verə-verə, qan tökə-tökə azad edirik, bizə “dayanın” deyirsən, ona de ki, çıx. Demir. Bizə deyir dayan. Dedim dayanmayacağam mən. Heç kim məni dayandıra bilməz və dedim tələb edirəm səndən Paşinyan, şəxsən özün, sənin xarici işlər nazirin, nə bilim o biri, bu biri yox, şəxsən özün öhdəlik götürməlisən, tarix verməlisən nə vaxt rədd olursan bizim torpaqlarımızdan. Bax bu bəyanatda o öhdəlik var. Məcbur edirik onu, məcbur etdik, zorla məcbur etdik, başına vura-vura məcbur etdik, bütün bəd əməllərinə görə, o donuzları bizim məscidlərimizdə saxladığına görə. Bizim məscidlərimizdə donuz saxlayan özü donuzdur. İndi bu sənəddə öhdəlik var. Dekabrın 1-nə qədər rədd olacaq qalan işğal edilmiş torpaqlardan. Ona görə məsələnin hərbi yolu var. Amma mən deyirdim, istəyirəm ki, bu hərbi mərhələ də dayansın, keçək siyasi mərhələyə. Nə oldu? Mən deyən oldu. Bax, bu gün mən deyən oldu. Hərbi mərhələ başa çatır, keçirik siyasi məsələyə. Demək olar ki, bizə maksimum sərf edən sənəd imzalandı. Paşinyan onu imzaladı. Başqa yolu yox idi. Əslində, bu, məğlubiyyətin etirafıdır. Bu, hərbi kapitulyasiyadır. Prinsip etibarilə mən tələb edə bilərdim ki, gəlsin otursun orada, aşağıda, bax orada imzalasın onu. Amma mən belə adam deyiləm. Mən nə üçün kiminsə alçaldım. O onsuz da özünü alçaldıb. Bu rəzil duruma özü-özünü salıb. Gərək orada qarnını

qabağa verib, sərxoş vəziyyətdə Cıdır düzündə rəqs edəndə bu günü fikirləşərdi ki, gün gələcək hesabını verəcəksən, verirsən. Bax belə. Heç kim bizimlə zarafat edə bilməz. Heç kim Azərbaycan xalqının səbri ilə oynaya bilməz. Heç kim bizi təhqir edə bilməz. Edərsən, dərsini alarsan. Necə ki, dərsini vermişik.

Ona görə məsələnin həlli artıq təmin edilib. Əlbəttə, əgər Ermənistan atəşkəsə əməl etsə, - mən artıq bütün əmrlərimi vermişəm, - komandanlıqlara əmrimi vermişəm, biz dayanırıq. Biz imzamıza hörmətlə yanaşırıq. Qarşı tərəf də dayanmalıdır. Çünki dayanmasa, biz də dayanmayacağıq.

İndi beynəlxalq müşahidəçilər yaxşı bilirlər ki, kim atəşkəsi pozub. Birinci dəfə kim pozub Gəncəni ballistik raketlə bombalayanda, ikinci dəfə kim pozub beş dəqiqə atəşkəs vaxtından keçməmiş və üçüncü dəfə Bərdəni kasetli raketlərlə vurmaqla. İndi bu dəfə də pozsa, artıq mən hesab edirəm ki, özü lap peşman olacaq. Ona görə biz istədiyimizə nail ola bilmişik. Biz düşməni məcbur edə bilmişik. Mən faktiki olaraq onlara ultimatum vermişəm. Demişəm ki, çıxmalısan, çıxmasan sona qədər gedəcəyəm. Sona qədər! Ayın 8-də Şəhidlər xiyabanında demişəm ki, sona qədər gedəcəyəm və heç bir qüvvə məni dayandıra bilməz.

Biz bu qələbəni döyüş meydanında qazandıq. 300-ə yaxın yaşayış məntəqəsi, o cümlədən Füzuli şəhəri, Cəbrayıl şəhəri, Zəngilan şəhəri, Qubadlı şəhəri, Şuşa şəhəri, Hadrud qəsəbəsi, Suqovuşan qəsəbəsi, digər qəsəbələr döyüş meydanında azad edildi.

Bu qələbələr düşməni məcbur etdi ki, Ağdam, Laçın, Kəlbəcər rayonları bizə siyasi yollarla qayıdır. Amma burada Ermənistan tərəfinin xoş niyyətini axtarmaq yersizdir. Onlarda xoş niyyət deyilən anlayış bütövlükdə yoxdur. Sadəcə olaraq, məcbur olub. Çünki bilirdi ki, bu sənədə imza atmasa, özümüz alacağıq bu torpaqları. Hər kəs bunu bilirdi. Mən demişdim ki, qan tökmək istəmirəm, müharibəni dayandırmalıyıq, rədd olsun bizim torpaqlarımızdan! Belə də oldu.

Mən bir məsələni də qeyd etmək istərdim. Mən əziz xalqımı sənədin mətni ilə tanış etdim. Burada yeni nəzarət mexanizmi tətbiq edilir. Bəyanatın beşinci bəndində yazılıb: "Münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə nəzarətin səmərəliliyinin artırılması məqsədilə atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəz yaradılır". Mən deyə bilərəm ki, bu mərkəzdə Rusiya və Türkiyə hərbçiləri fəaliyyət göstərəcək. Beləliklə Türkiyə rəsmi qaydada bu münaqişənin gələcək həlli və atəşkəsə nəzarət etmək işində rol oynayacaqdır.

Mən videokonfrans formatında imzalama mərasimindəki çıxışımda həm Türkiyə Prezidenti, əziz qardaşım Rəcəb Tayyib Ərdoğanın, həm Rusiya Prezidenti Vladimir Putinın səylərini yüksək qiymətləndirdim. Çünki onlar doğrudan da bu 44-45 gün ərzində böyük səylər göstərmişlər ki, məsələ sülh yolu ilə həll olunsun. Eyni zamanda, mən çox şadam ki, artıq münaqişənin dayandırılmasında bu iki lider öz müsbət rolunu oynayıb. Hesab edirəm ki, bu, eyni zamanda, bölgədə gələcək əməkdaşlıq formatını da böyük dərəcədə müəyyən edir. Çünki Türkiyə ilə Rusiya arasındakı əlaqələr bu gün tarixə baxsaq, hesab edirəm ki, ən yüksək səviyyədədir. Hər iki ölkə bizim üçün dost, qonşu ölkədir. Beləliklə, hesab edirəm ki, gələcəkdə bu əməkdaşlıq formatı daha da çoxşaxəli ola bilər.

Digər önəmli məsələ, xüsusilə qeyd etmək istəyirəm ki, Naxçıvan Muxtar Respublikasının Azərbaycanın əsas hissəsi ilə əlaqəsi bu sənəddə təsbit edilir. Həm bütün kommunikasiyaların, yolların açılması, eyni zamanda, burada göstərilir ki, yeni nəqliyyat kommunikasiya infrastrukturu yaradıla bilər və yaradılmalıdır. Biz bunu əlbəttə ki, çox dəstəkləmişik. Deyə bilərəm ki, mənim təkidimlə bu bənd bu bəyanata salındı. Çünki birbaşa Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bu bəndin əlaqəsi yoxdur. Ancaq mənim təkidli tələblərim şadam ki, qəbul olundu. Beləliklə Naxçıvan Muxtar Respublikasını Azərbaycanla, Azərbaycanın əsas hissəsi ilə quru yollarla birləşdirmə istiqamətində tarixi addım atıldı. Çünki mənfur düşmən 1990-cı illərin əvvəllərində və ondan da bir qədər əvvəl Naxçıvanı faktiki olaraq mühasirəyə almışdı. Bütün kommunikasiya xətləri kəsildi, - çünki o vaxt Azərbaycanın əsas hissəsindən oraya enerji resursları ötürülürdü, - faktiki olaraq Naxçıvan Muxtar Respublikası çox ağır vəziyyətdə qalmışdı. Eyni zamanda, Ermənistan ərazisindən oraya hücumlar da edilirdi. Dəfələrlə demişəm, məhz ulu öndər Heydər Əliyevin cəsarəti və fəaliyyəti nəticəsində Naxçıvan işğal altına düşmədi. Erməni vandallarının belə planları da var idi.

Ona görə bu bəndi xüsusilə qeyd etmək istərdim və əziz naxçıvanlıları da bu hadisə münasibətilə təbrik etmək istərdim. Bildirməliyəm ki, naxçıvanlılar da ikinci Qarabağ müharibəsində digər bütün bölgələrdən olan vətəndaşlar kimi fəal iştirak ediblər. İndi müharibə başa çatır, bu günə qədər açıqlanmayan bəzi məsələlər də üzə çıxacaq və hər kəs biləcək ki, başqa bütün bölgələrdən olan hərbçilərlə bərabər naxçıvanlılar da böyük qəhrəmanlıq göstəriblər və torpaqlarımızın azad edilməsi işində fədakarlıq göstəriblər, şəhidlər veriblər.

Mən bir məsələyə də toxunmaq istəyirəm. Bu günlərdə biz Azərbaycan xalqının birliyini gördük. Bütün bölgələrdən ordumuza dəstək gəldi. Bütün bölgələrdə hər bir

vətəndaş böyük həyəcan hissi ilə bu günləri yaşayıb, hər gün televiziya önündə, radio qarşısında, internetdə cəbhədən gələn xəbərləri izləyib, uğurlarımıza sevinib. Bütün bölgələrdə biz bunu gördük. Bir daha gördük ki, ölkəmiz və xalqımız nə qədər gözəl ölkədir və gözəl xalqdır. Ölkəmizdə yaşayan bütün millətlərin nümayəndələri, bütün dini konfessiyaların nümayəndələri cəsarət göstərərək, düşmənlə vuruşaraq Azərbaycanın ərazi bütövlüyünü bərpa etdilər. Bu, bizim böyük sərvətimizdir, böyük dəyərimizdir. Mən bunu dəfələrlə demişəm. Ermənistan bu xoşbəxtlikdən məhrumdur. Çünki monodövlətdir, orada ermənilərdən başqa heç kim yaşamır. Avrasiyada, bizim bölgədə başqa belə ölkə tapmaq mümkün deyil. Çünki heç kim orada yaşaya bilmir. Ya onları qovurlar, azərbaycanlılar kimi etnik təmizləməyə məruz qoyurlar, ya da ki, başqa millətin nümayəndəsi orada yaşaya bilmir, sıxışdırırlar, sıxışdırırlar, sıxışdırırlar. Amma bizim üstünlüyümüz bax, bundadır, çoxmillətli, çoxkonfessiyalı Azərbaycan bu müharibədə də özünü göstərdi, bütün xalqların nümayəndələri birlik göstərdilər, qəhrəmanlıq göstərdilər. Bir daha demək istəyirəm ki, bu müharibə bir çox məsələlərə bir daha aydınlıq gətirmişdir.

Mən bir məsələni də bildirmək, əziz xalqıma çatdırmaq istəyirəm. Yəqin siz fikir vermisiniz ki, bu bəyanatda Dağlıq Qarabağın statusu haqqında bir kəlmə də yoxdur, yoxdur! Bəs hanı Ermənistan tərəfinin tələbləri ki, Dağlıq Qarabağa müstəqillik verilməlidir? Mən onlara muxtariyyət təklif edəndə buna razı olmadılar, dedilər ki, yox, bu, “müstəqil dövlətdir”. Bunlar uzun illərdir “müstəqil dövlət” kimi yaşayır və onlar Azərbaycandan müstəqillik almalıdırlar. Bir kəlmə də yoxdur, Paşinyan. Nə oldu bəs? Bu nə oldu, Paşinyan? Deyəsən, bir çox illər ərzində dillərdə qalacaq. Nə oldu Paşinyan, yol çəkirdin Cəbrayıla. Rəqs edirdin, nə oldu bəs status? Cəhənnəmə getdi status, gora getdi status, gorbagor oldu status, yoxdur status və olmayacaq. Nə qədər ki, mən Prezidentəm, olmayacaq. Ona görə, bu sənədin çox böyük mənası var. Əminəm ki, Azərbaycan xalqı bu sənədə böyük diqqət göstərərək onu dəqiq, böyük diqqətlə oxuyacaq və görəcək ki, biz nə qədər böyük siyasi qələbə qazanmışıq. Bu siyasi qələbənin qazanılmasında hərbi qələbəmiz müstəsna rol oynayır. Əlbəttə ki, son illər ərzində ölkəmizdə aparılan işlər, mövcud olan gözəl abhava, xalq-iqtidar birliyi, siyasi münasibətlərin müsbət səviyyəyə qalxması, beynəlxalq nüfuzumuz, beynəlxalq arenadakı fəaliyyətimiz - bütün bunlar, ordu quruculuğu təbii ki, bu qələbəmizi şərtləndirdi. Mən bu günlərdə bir şeyə də fikir verdim. Hətta fərqli siyasi baxışlara malik olan insanlar, bizim işimizə tənqidi yanaşan insanlar, hətta bir çox hallarda əsassız tənqidlər ifadə edən insanlar bu dövrdə hesab edirəm ki, yüksək şüur nümunəsi göstərdilər. Mən həmişə deyirdim ki, siyasi müstəvidə fərqli baxışlar var, olmalıdır, bu, normaldır. Müxalifət olmalıdır, bu, normaldır. Hər bir demokratik ölkədə olduğu kimi, bizdə də əlbəttə ki, bütün bu azadlıqlar var. Amma bir şey olmamalıdır – dövlətə müxalifətdə olmaq olmaz, dövlətçiliyə müxalifətdə olmaq olmaz. “İqtidara, dövlətə nə qədər pisdir, mənim üçün bir o qədər yaxşıdır” fikri ilə yaşamaq olmaz. Mən deyə bilərəm, bu günlər ərzində mən gördüm ki, milli məsələlərdə biz hamımız birləşə bilirik. Bu da bizim gələcəyimiz üçün çox önəmlidir. Çünki biz hamımız istəyirik ki, Azərbaycan inkişaf etsin, hamımız istəyirik ki, daha güclü ölkə olsun. Gücümüzü göstərmişik, döyüş meydanında, siyasi müstəvidə, istənilən formatda. Müstəqilliyimizi göstərmişik. İndi gün gələcək müharibə dövründə ictimaiyyətə açıqlana bilinməyən bəzi məqamları yəqin ki, açıqlayacaqlar. Ola bilsin ki, mən də hansısa məsələnin üstündən o pərdəni götürə bilərəm. Onda hər kəs görəcək ki, biz nə qədər böyük sınaqlardan çıxdıq, nə qədər böyük təzyiqlərə məruz qaldıq. Demək olar ki, gündəlik rejimdə deyirdilər, dayanın, dayanın, dayanın, dayanın. Amma biz qabağa getdik. Çünki mən xalqın dəstəyini hiss edirdim, xalqın inamını görürdüm. Məni heç nə dayandıra bilməzdi. Çünki mən bilirdim ki, biz haqlıyıq. Biz öz ərazi bütövlüyümüzü bərpa edirik, öz torpaqlarımızı qaytarırıq. Bu müharibə bütün dünyaya Azərbaycan xalqının nə qədər böyük xalq olduğunu göstərdi - yenilməz xalq, dəmir iradəli xalq, müzəffər xalq, müzəffər ordumuz! Fəxr edirik xalqımızla, ordumuzla! Əminəm, hər bir Azərbaycan vətəndaşı hesab edir ki, onun həyatında bu günlər, bu dəqiqələr ən xoşbəxt günlər, dəqiqələrdir. Mən də xoşbəxtəm ki, bu xoş xəbərləri, bu müjdəni Azərbaycan xalqına verirəm. Xoşbəxtəm ki, bu tarixi sənədə imza atmışam. Xoşbəxtəm ki, biz öz Vətənimizə, doğma Qarabağımıza qayıdırıq, Qarabağımızın tacı olan Şuşaya qayıdırıq və bu torpaqlarda əbədi yaşayacağıq! Bundan sonra heç kim bizi o torpaqlardan tərpədə bilməz!

“Qarabağ Azərbaycandır və nida” ifadəsi artıq bizim qələbəmizin rəmzi idi, rəmzinə çevrildi. Bir il bundan əvvəl mən bunu demişəm. Mən fəxr edirəm ki, mənim dediyim ifadə artıq bir milli şüara çevrildi. Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, Füzuli bizimdir, Cəbrayıl bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Laçın bizimdir, Kəlbəcər bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

***AZƏRTAC***

# “Mənim qapım hər zaman tələbələrin üzünə açıq olur”

***AİI rektoru i.f.d. Aqil Şirinovla «Azvision.az» internet saytının müxbiri Tural Tağıyevin müsahibəsini oxuculara təqdim edirik.***

***– Pandemiya dünya təhsil və tədris proseslərinə təsirsiz ötüşmədi. Azərbaycan təhsili, Azərbaycan İlahiyyat İnstitutu bu sınaqdan üzüağ çıxa bilirmi?***

– Təəssüf ki, bu il koronavirus pandemiyası bütün dünyanı öz ağuşuna aldı. Azərbaycanda da mart ayının əvvəlindən etibarən, Təhsil Nazirliyinin tapşırığı ilə COVID-19 səbəbindən bütün məktəblərdə tədris dayandırıldı. O cümlədən, ali təhsil məktəblərində əyani tədrisə son verildi. Bundan sonra müxtəlif universitetlər martın sonunadək yaranmış problemin öhdəsindən fərqli şəkillərdə gəlməyə çalışdı. Bəziləri öz tələbələrinə “Zoom” proqramı üzərindən dərslər keçməyə başlasa da, digərləri bunu videoformat vasitəsilə həyata keçirdi. Bizim müəllimlər mart ayının Novruz bayramına qədər olan dövründə çalışdılar ki, dərslərini videoformat şəklində qursunlar. Bütün bu prosesləri isə həm Azərbaycan İlahiyyat İnstitutunun (AİI) saytında, həm də sosial şəbəkədə yayımladıq. Bundan sonra Təhsil Nazirliyi bizə yeni sistem təqdim etdi ki, bu da “Microsoft Teams” platforması idi. Bu platforma işimizi çox asanlaşdırdı. İnstitutun kollektivi Novruz tətili boyu çalışaraq, nazirliyin köməkliyi ilə bu platformanı tələbələrimiz üçün əlçatan edə bildi. Martın sonundan etibarən isə artıq dərslərimizə davam etdik.

***– Amma hazır olmadığımız onlayn dərslər problemləri ilə də özünü büruzə verdi...***

– Ucqar bölgələrdə olan tələbələrin bir qisminin internetə qoşulma problemləri yarandı. Bəzi ali təhsil müəssisələri ilə müqayisə etdikdə, Azərbaycan İlahiyyat İnstitutunda onlayn dərslərdə iştirak edən tələbələrin kifayət qədər olduğunu söyləyə bilərik. Biz onlayn dərsləri iyun ayınadək davam etdirdik. İyunda da imtahanlarımızı onlayn şəkildə şifahi formatda həyata keçirdik. Deyərdim ki, tələbələrimizə bütün materialları ötürə bilmişdik.

Şübhəsiz ki, onlayn tədrisin müəyyən problemləri də mövcuddur. Bu sistem əyani tədrisin birbaşa verdiyi effekti verə bilmir. İstər tələbə-müəllim münasibətləri, istərsə də tələbələrin sualvermə, müzakirələrin aparılması imkanlarının daha geniş olması baxımından əyani təhsil daha üstündür. Yaranmış yeni situasiyaya isə artıq alışmaq lazımdır. Yeni situasiyada distant təhsil öz əhəmiyyətini büruzə verir və bu cür təhsil, artıq bütün ali təhsil ocaqlarında tətbiq olunur. Əslində, ciddi bir problemlə də qarşılaşmırıq. Hazırkı məlumatı diqqətinizə çatdırmaq istərdim ki, İlahiyyat İnstitutunda onlayn dərslərdə, təqribən, 95 faizdən çox tələbəmiz iştirak edir. Dərslərimiz də cədvələ uyğun şəkildə davam etdirilir. Yəni müəllim internet vasitəsilə “Microsoft Teams” proqramı üzərindən dərsini tədris edir və seminarlarımızı da bu şəkildə həyata keçiririk. Kollokvium və imtahanlarımızı da bu formatda həyata keçirəcəyik. Təhsil Nazirliyinin verəcəyi yeni qərardan asılı olaraq, hər iki formatda olan dərslərə hazırıq.

***– Artıq yeni tədris ili yeni qaydalarla başlayıb. Qeyd etdiyiniz “Microsoft Teams” platformasının hansı üstünlüklərini müşahidə edirsiniz?***

– “Microsoft Teams” platforması təkcə onlayn şəkildə tələbə ilə müəllimin görüşünü təşkil etmir. Bu platforma ilə materialötürmə çox asandır. Yəni müəllim keçəcəyi materialı birbaşa, asan şəkildə ötürə bilir. Bu proqramda seminarları da rahat şəkildə həyata keçirmək mümkündür. Bizim müəllimlərin bir çoxu, hətta bu proqram üzərindən testlər belə hazırlayaraq tələbələrə təqdim edə bildilər. Deyərdim ki, “Microsoft Teams” platformasının digər platformalardan bu baxımdan üstünlükləri çoxdur. Xüsusilə, materialötürmə, imtahanların həyata keçirilməsi baxımından fərqlənir.

***– Azərbaycanda dini sahədə savadlı mütəxəssislərin yetişməsi baxımından bəzi boşluqlar olub ki, bu, hazırda da müəyyən qədər özünü büruzə verir. Azərbaycan İlahiyyat İnstitutu yaxın gələcəkdə bu boşluqları doldura biləcəkmi?***

– Bu problem sovet dövründən irəli gələn bir məsələdir. Bilirsiniz ki, sovetlər zamanı dini təhsil xeyli məhdud səviyyədə həyata keçirilirdi. Yalnız Özbəkistanda Mir Ərəb Mədrəsəsi var idi; daha son-

ralar Daşkənd İslam İnstitutu da fəaliyyətə başladı. Azərbaycandan bura məhdud sayda insanlar gedirdilər. Bunun nəticəsində də dini bilən mütəxəssislərin azlığını müşahidə edirdik. Düzdür, 1989-cu ildə Qafqaz Müsəlmanları İdarəsinə bir mədrəsə açmaq icazəsi verildi. Bu mədrəsə isə müstəqillik əldə etdikdən sonra İslam Universitetinə çevrildi. Eyni zamanda, Bakı Dövlət Universitetinin (BDU) İlahiyyat fakültəsi də din sahəsində tədrislə məşğul olmağa başladı. Bu iki ali təhsil müəssisəsi müəyyən boşluqları doldura bildi. Azərbaycan İlahiyyat İnstitutunun yaradılması ilə ölkədə ali dini təhsil yeni bir mərhələyə qədəm qoydu. Dövlət din sahəsində özünün xüsusi bir ali təhsil müəssisəsini yaratdı. Soruşa bilərsiniz ki, belə bir təhsil ocağının yaradılması nəyə xidmət edir? Birincisi, din sahəsində peşəkar mütəxəssislərin yetişməsi məqsədinə. Belə bir həssas sahədə savadlı mütəxəssislərin yetişdirilməsi o qədər də asan deyildir. Dünyada böyük mərkəzlər var ki, onlarla da rəqabət aparmaq çətindir, amma İlahiyyat İnstitutunda bu potensial mövcuddur. Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsində çox güclü kadrlarımız var idi ki, Aİİ yaradılarkən bu fakültə də İnstitumuzun tərkibinə daxil edildi. Bundan sonra, artıq İlahiyyat İnstitutu qısa zaman kəsiyində peşəkar komanda yaratmağa və güclü təhsil verməyə müvəffəq ola bildi. Əminəm ki, boşluqları doldura biləcəyik, çünki həm potensialımız – müəllim kadrlarımız buna imkan verir, həm də bizi seçən tələbələrin səviyyəsinə də baxdıqda belə başa düşürəm ki, artıq Aİİ sizin qeyd etdiyiniz müəyyən çatışmazlıqları aradan qaldırmağa davam edəcək.

***– İlahiyyat İnstitutunda Azərbaycandakı müsəlman olmayan dini icmalar üçün kadrlar hazırlana bilərmi?***

– Bir var, din xadimi yetişdirmək, bir də var, din mütəxəssisi hazırlamaq. Biz hələlik İslam sahəsində din xadimi yetişdiririk. Gələcəkdə sizin qeyd etdiyiniz istiqamətdə də müəyyən planlarımız var. Nəzərdə tutulub ki, Yəhudilik və Xristianlıq sahəsində belə kadrlar yetişdirilsin. Din mütəxəssisinə gəldikdə isə Yəhudilik, Xristianlıq, Buddizm və digər sahələrdə mütəxəssislər yetişdiririk. Qeyd etdiyim kimi, dinşünaslıqda təkcə İslamı deyil, dünyada mövcud olan böyük dinlərin hamısını tədris edirik.



***– Əcnəbi tələbələr üçün İlahiyyat İnstitutunda geniş təhsil imkanları yaradılırmı?***

– İnstitutumuzda, artıq yerli tələbələrlə yanaşı, əcnəbilər də təhsil alırlar. Biz daha çox xaricdə yaşayan soydaşlarımızın Aİİ-də təhsil almalarında maraqlıyıq. Keçən il xaricdə yaşayan beş soydaşımız İnstitutumuza qəbul olunub. Bu il də Aİİ-yə soydaşlarımızın qəbul edilmələri planlaşdırılır. Çalışırıq ki, onların yarana biləcək problemlərini də həll edək. Onlara müəyyən çətinliklərin aradan qaldırılması üçün dövlət səviyyəsində yüksək təqaüdlər də ayrılıb. Bu təqaüdlər isə imkan verir ki, həmin şəxslər Bakıda rahat şəkildə məskunlaşa bilsinlər və İlahiyyat İnstitutunda uğurlu təhsil alsınlar. Onların paytaxtımızda yaşaması üçün Mənəvi Dəyərlərin Təbliği Fondu da müəyyən təqaüd ayırır ki, bu tələbələr Azərbaycana gələndə mənzil problemi ilə rastlaşmasınlar. Hələlik, yataqxanamız yoxdur, amma gördüyünüz kimi, xarici tələbələrimizə, xaricdə yaşayan soydaşlarımıza olan dövlət qayğısı yüksək səviyyədədir. Burada qayğının göstərilməsində müəyyən məqsəd var. Yalnız Azərbaycanda deyil, xaricdə yaşayan soydaşlarımıza qarşı da müəyyən mərkəzlərdən dini təhdidlər olur. Bu təhdidlərin qarşısını almaq, dini insanlara olduğu kimi – xurafatdan, radikallıqdan uzaq şəkildə təbliğ etmək üçün həmin soydaşlarımızın Aİİ-də təhsil almalarına zərurət var.

***– Xarici tələbələrin təhsil imkanlarını qeyd etdiniz. Bəs xarici dil biliyi necə, yaxşı dinşünas və ya islamşünas olmaq üçün əsas şərt sayıla bilərmi?***

– Bizdə bildiyiniz kimi, iki isti-

qamət mövcuddur ki, bunlar da Dinşünaslıq və İslamşünaslıqdır. İslamşünaslıq sırf İslam din xadimi hazırlamaq üçündür ki, burada da ərəb dili mütləq şərtdir. Məlumdur ki, bizim mənbələrimizin əksəriyyəti ərəbcədir. Ərəb dilini dərindən mənimsəyə bilməyən yaxşı islamşünas ola bilməz. Biz də çalışırıq ki, ərəb dilini tələbələrimizə yaxşı öyrədək. Ərəb dili müəllimlərimizin bir qismi xaricdə sırf bu dil üzrə təhsil almış mütəxəssislərdir. Yəni onlar ərəb dilini, sözün həqiqi mənasında, ərəb kimi bilən insanlardır. Digər qisim isə BDU-nun Şərqşünaslıq və İlahiyyat fakültələrini bitirib ki, onlar da kifayət qədər yüksək ərəb dili potensialına malikdirlər. Qısası, ərəb dili sahəsində də güclü mütəxəssislərimiz var və təkcə dərslərin keçirilməsi ilə də kifayətlənmirik. Boloniya prosesi elədir ki, burada istədiyimiz qədər dərs tətbiq edə bilmirik. Müəyyən məhdudlaşdırma var ki, şübhəsiz, bunun da doğru tərəfləri mövcuddur. Çalışırıq ki, ərəb dilində olan əlavə kurslarla tələbələrimizin dil biliklərini daha da gücləndirək. Bu kursların istər danışıq, istərsə də klassik mənbə oxumada mühüm rolu var.

Bildiyiniz kimi, müasir ərəb dili ilə klassik ərəb dili arasında müəyyən fərqlər mövcuddur. İslam mənbələrinin əksəriyyəti isə klassik ərəb dilindədir. Bu mənbələri oxumaq o qədər asan deyildir. Mütəxəssislərimiz var ki, onlar həmin mənbələri rahat şəkildə oxuya bilirlər. Bu mənada, tələbələrə də o mənbələr effektli şəkildə çatdırıla bilir. Dinşünaslıq sahəsinə gəldikdə isə, burada ingilis dilinin qavranılması çox vacibdir. Müasir dinşünaslıq dedikdə, xaricdə olan dini araşdırma qurumları (religious studies) yada düşür. Biz çalışdıq ki, dinşünaslıq standartlarımızı quranda bunu həmin bölümlərə uyğun həyata keçirək. Yəni burada yalnız İslam deyil, böyük dünya dinləri də tədris olunur. Məlumatları isə deskriptiv yolla veririk. "Bu din düzdür, digəri yanlışdır" anlayışını qəti şəkildə öz proqramımıza daxil etmirik. Xaricdəki universitetlərin dini araşdırmalar bölmələrində necə təhsil verilirsə, dinşünaslıqda o cür təhsili seçmişik. Bu mənbələrin bir qismi isə ərəb dili ilə yanaşı, ingiliscədir. Ona görə də dinşünaslarımızın üzərinə düşən vəzifə daha genişdir. Onlar bir neçə dili mənimsəməlidirlər.

Dinşünaslığın ən önəmli hissələri din sosiologiyası, din psixologiyası, din fəlsəfəsi, dinlərin tarixidir ki, bunların da hamısına dair müasir mənbələrin əksəriyyəti ingilis dilindədir. Düzdür, rus, türk dillərində də mənbələr mövcuddur, amma ən sanballı mənbələr ingilis dilində yazılıb. Bu səbəbdən də çalışırıq ki, ingilis dili problemini həll edək. Dərs olaraq həm ingilis dilini tədris edirik, həm də oktyabrın 1-dən Beynəlxalq Miqrasiya Təşkilatının Bakı nümayəndəliyi ilə birlikdə 50 tələbəmiz üçün ingilis dili kursu açmışıq. Burada da kifayət qədər ingilis dili üzrə məlumatlı olan müəllimlər onlayn şəkildə dərslər keçəcəklər.

***– Bu yaxınlarda İnstitutunuzda təhsilalanların xüsusi geyim forması ilə təmin olunacaqlarına dair məsələ sosial şəbəkələrdə bir qədər yanlış anlaşılmışdı. Əslində, bu, adi bir məsələ deyildimi?***

– Xüsusi təhsil verən ali təhsil müəssisələrində vahid geyim məsələsi çoxdan mövcuddur. Özəl universitetlərin bəzilərində də bunu görmək mümkündür. Geyim məsələsini bəzən çox qabardırlar. Əslində, burada dövlətin əsas məqsədi ondan ibarətdir ki, sadəcə olaraq, İnstituta gələn tələbələri vahid geyimlə təmin etsin. Vahid geyim dedikdə, söhbət hansısa dini geyimdən getmir. Biz dünyəvi bir ölkəyik. Bu geyim də elə bir formada olacaq ki, insanlar onu normal qarşılayacaqlar. Bir çox Avropa ölkəsində, İngiltərənin özündə belə, bu cür geyim formaları standart şəkildə tələbə və şagirdlər üçün tətbiq edilib. Başqa ölkələrdə ali dini təhsil verən universitetlərdə də bunları müşahidə edirik. Bir daha qeyd etmək istərdim ki, bu geyim məsələsinə "dini geyimlər donu" geyindirmək doğru deyildir. Xüsusi geyim forması normal, cəmiyyətdə qəbul edilən geyim olacaq.

***– Əlbəttə, xüsusi geyim formasından da vacib mövzular var ki, bunlardan biri də tələbələrin karyera imkanlarıdır. Məzunlarınız üçün geniş iş imkanları varmı?***

– Öncə onu deyim ki, BDU-nun İlahiyyat fakültəsi Aİİ-nin strukturuna daxil edildiyi üçün artıq məzunlarımız var, yəni hər il məzun veririk. Bu il isə 4-cü kursumuz yoxdur. İlahiyyat İnstitutuna ilk qəbul olunanlar hazırda üçüncü kursdadırlar, gələn il məzun verəcəyik. Məzunların iş imkanlarına gəldikdə isə, dinşünasların daha çox dövlət orqanlarında çalışmaları nəzərdə tutulur. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və digər qurumlarda məzunlar üçün iş imkanları mövcuddur. İslamşünaslar isə din xadimi kimi hazırlandıqları üçün Qafqaz Müsəlmanları İdarəsinin sərəncamına veriləcək. Məzunlar, artıq bu qurum tərəfindən din xadimi kimi dəyərləndiriləcəklər.

***– Aqil müəllim, hər bir universitet üçün başqa ölkələrlə, xarici güclü ali təhsil ocaqları ilə əməkdaşlıq mühüm əhəmiyyətə malikdir. İlahiyyat İnstitutu hansı universitetlərlə əməkdaşlıq qurub?***

– Bizim dünyanın bir çox universitetləri ilə əlaqələrimiz mövcuddur. Məsələn, Türkiyədə bir neçə universitet var ki, onlarla müqavilələrimiz var, "Mövlanə" proqramına da qoşulmuşuq. Bu, bir növ, "Erasmus"un Türkiyə variantıdır. Bu universitetlər arasında İstanbul, Ankara, Mərmərə, Kırıkkale və digərlərini qeyd edə bilərəm. Bundan başqa, Misir Mədəniyyət Mərkəzi ilə kifayət qədər yaxın əlaqələrimiz var. Gələcəkdə, əlbəttə ki, Misir universitetləri ilə də sıx əlaqələr quracağıq. İndoneziyada Əhməd Dahlan Universiteti və Özbəkistan İslam Akademiyası ilə də müqavilələrimiz mövcuddur. Bundan başqa, Rusiyada Bolqar İslam Akademiyası, Moskva İslam İnstitutu ilə geniş əlaqələr qurulub. Eyni zamanda, bu yaxınlarda birgə konfrans keçirdiyimiz, Brüsseldə yerləşən İlahiyyat fakültəsi ilə də sıx əlaqələrimiz yaranıb. Yəni xaricdəki universitetlərlə əməkdaşlıq və əlaqələrimizi daha da gücləndiririk.

***– İnstitutunuzda təhsil tam ödənişsizdir. Bu, İlahiyyat İnstitutunun avantajı və tələbələrə olan ən böyük güzəşti sayıla bilər. Bəs tələbələr üçün başqa hansı güzəştlər mövcuddur?***

– Sizin də qeyd etdiyiniz kimi, təhsilin ödənişsiz olması tələbələrimiz üçün əsas və vacib güzəştlərdən sayılır. İkinci güzəşt kimi təhsilalanlara aylıq yemək xərcinin verilməsini qeyd edə bilərəm. Bildiyiniz kimi, bununla bağlı Nazirlər Kabinetinin qərarı oldu ki, buna əsasən də bu ildən Aİİ-də tələbələrə yeməkpulu veriləcək. Geyim məsələsi kimi bunu də cəmiyyətimizdə səhv anlayanlar olur. Deyirlər ki, bu güzəşt niyə məhz İlahiyyat İnstitutunda tətbiq edilir? Təəssüf ki, bəzən "Belə bir İnstitut bizə lazımdırmı?" kimi suallarla da rastlaşırıq... Mən deyərdim ki, bu, dünyanı tanımamaqdan irəli gəlir. Birincisi, din təkcə inanc işi deyil, həm də təhlükəsizlik məsələsidir. Yəni insanlar dini doğru, xurafatdan, radikalizmdən uzaq bir şəkildə bilməsələr, onda belə insanların yaşadıqları cəmiyyətdə böyük problemlər yaşanar. Biz artıq neçə illərdir ki, Orta Şərqin vəziyyətini də görürük. Bir çox müsəlman ölkəsində yaşananların əsas səbəblərindən biri də məhz onların doğru din təhsilinə malik olmamalarıdır. Digər tərəfdən, bu cür güzəştlər, deyək ki, haqqında söz açdığımız qidalanma ilə bağlı vəsait təkcə İlahiyyat İnstitutunda verilmir axı. Azərbaycanda mövcud olan xüsusi ali təhsil verən bir çox ali məktəbdə tələbələr yeməkpulu ilə də, xüsusi geyimlərlə də təmin edilirlər. Nəinki bizə yaxın olan Türkiyənin, dünyanın da müəyyən universitetlərində bu, adi haldır. Məsələn, Bolqar İslam Akademiyasında da bu cür güzəştli təminatlar var. Biz nə istəyirik? Azərbaycanlı tələbələr başqa yerə getmədən elə öz ölkəmizdə keyfiyyətli təhsil ala bilsinlər. Bir azərbaycanlı gənc, tələbə xaricdəki hansısa dini mərkəzə gedəndə, onu hər şeylə təmin edirlər. Onun qalması, qidası, hətta pulsuz geyimi üçün belə şərait yaradılır. Biz bu adi təminatları da öz üzərimizə götürməsək, o gənc xaricdəki istiqamətlərə yönələcək. Burada, hətta arzuolunmaz məsələlərlə bağlı təsir altına düşmə imkanları da çoxdur. Bu mənada, ölkəmizi dini baxımdan sığortalamaq, eyni zamanda, dini təhsil alan tələbələrimizin başqa istiqamətlərə yönəlməmələri üçün belə güzəştlər zəruri addımlar sayılmalıdır. Dövlətimizə təşəkkür edirəm ki, bu cür şərait yaradıldı və İlahiyyat İnstitutunda tələbələr yemək xərcləri, geyimlə təmin olundular.

***– Bildiyim qədər İlahiyyat İnstitutunda bir neçə xarici dil tədris olunur. Yəqin ki, gələcəkdə dillərin sayı da artar...***

– Aİİ-də, əsasən, ərəb və ingilis dilləri tədris olunur. Magistraturada dinlərin tarixi ixtisaslaşmasında ivrit dilini keçirik. Fars dilində də kurslar açmağı planlaşdırırıq. Gələcəkdə tədris prosesindən asılı olaraq bu dillərin sayını artıra bilərik. Hazırda İnstitutda tədris Azərbaycan dilindədir. Gələcəkdə isə ərəbdilli, ingilisdilli və rusdilli bölmələrin də açılmasını planlaşdırırıq.

***– Bu bölmələrin açılmasından başqa hansısa plan və yeniliklərin tətbiqini nəzərdə tutursunuzmu?***

– Pandemiya şəraiti bir çox universitetdə olduğu kimi, bizim də arzularımızı həyata keçirməyə mane olur. Məsələn, Türkiyə universitetləri ilə müqavilələrimiz var idi ki, "Mövlana" və eyni zamanda, "Erasmus" proqramları vasitəsilə dünyanın digər yerlərinə tələbə və müəllim mübadiləmiz olacaqdı. Hazırda bu mübadiləni həyata keçirə bilmirik. İnşallah, gələcəkdə, pandemiyadan sonra bu planları reallaşdırmağı düşünürük. Eyni zamanda, bizim Kırıkkale Universiteti ilə İslam mədəniyyətində birgəyaşayış ənənəsi ilə əlaqəli çox böyük beynəlxalq simpoziumumuz da gözlənilirdi. Xeyli sayda tanınmış alimlərin də qatılacağı beynəlxalq tədbiri məcbur qalıb 2021-ci ilə təxirə saldıq. Həmçinin tələbələrimiz üçün bir neçə əlavə kurs açmaq planlarımız da var ki, bu kurslar ödənişsiz əsaslarla həyata keçiriləcək. Bu gün ərəb dilində klassik mətnoxuma kurslarımız mövcuddur, onların sayını daha da artıracağıq.

***– Aqil müəllim, xatırlayıram ki, mən ali təhsil alan zaman bir çox hallarda rektorlar tələbələr üçün əlçatmaz olurdular. Dövr, artıq dəyişib, təhsil sistemindəki yeni-***

***liklər təhsil ocaqlarının idarəçiliyinə də öz təsirini göstərib. Hazırda institutunuzda tələbə-rektor münasibətləri necə qurulub?***

– Tam səmimi deyirəm ki, mənim qapım həmişə tələbələrin üzünə açıq olur. Düzdür, indi pandemiya dövrüdür və təhsil, tədris prosesləri ilə bağlı müəyyən tənzimləmələr mövcuddur. Amma həmişə demişəm ki, tələbə ilə müəllimlər, idarəçilər arasında uçurum olmamalıdır. Əgər bu uçurum olacaqsa, tələbəyə verəcəyiniz dərsin, tədrisin keyfiyyəti də aşağı düşəcək. Universitetlər yalnız təlim-tədris məkanları deyil, həm də tərbiyə yerləridir. Tələbə müəllimlərindən nümunə götürməlidir. O görməlidir ki, oxuduğu sahəni kimlər təmsil edir və kimlərdən yaxşı mənada yararlana bilər. İlahiyyat sahəsində də bu məsələlər, xüsusilə önəmlidir. Bu baxımdan da istənilən sahədə tələbə ilə rektor arasında yaranan uçurum arzuolunmazdır. Rektorlar həmişə tələbələr üçün əlçatan olmalıdırlar.

***– Doğru anladımsa, fəaliyyət göstərdiyiniz bu beş ay ərzində hansısa şikayət və ya narazılıqla qarşılaşmamısınız...***

– Hələ ki, belə bir hal müşahidə etməmişəm. İnstitut yaranandan sistem elə qurulub ki, istər dekan, istər prorektorlar, istərsə də rektorun özü tələbələr üçün hər zaman əlçatan olur.

***–– Gələcəyin savadlı kadrları, din xadimləri kimi yetişdirdiyiniz tələbələrə yalnız dini biliklər deyil, dünyəvi bilikləri də öyrədirsiniz. Bəs gənclərimizə – tələbələrə vətənpərvərliyi aşılayan, dövlətçiliklə bağlı hansısa tədbirlər görürsünüzmü? Onlara Vətənə bağlılıq aşılanırmı?***

– Şübhəsiz. Həmişə demişəm ki, bizə təkcə savadlı din xadimi və mütəxəssisi lazım deyildir. Bizə vətənpərvər, savadlı din xadimi və din mütəxəssisi lazımdır. Yəni vətənpərvərlik hər amildən öndə olmalıdır. İnsan Vətənini sevməsə, nə qədər böyük mütəxəssis olur-olsun, xalqına, ölkəsinə xidmət etməyəcək. Keçirdiyimiz mütəmadi tədbirlərdə də bu amilə xüsusi önəm veririk. Məsələn, hazırda “Vətənimin şairləri – şairlər Vətəni” adlı bir yarışma keçiririk ki, müsabiqə bu yaxınlarda yekunlaşmalıdır. Bu cür tədbirlərin təşkil olunmasının əsas məqsədlərindən biri də tələbələrimizdə vətənpərvərlik hissinin daha da gücləndirilməsidir. Bu yarışmada vətənpərvərliyi tərənnüm edən şeirləri önə çəkmişik. Gələcəkdə də mütəmadi olaraq bunabənzər tədbirlərimizi davam etdirəcəyik. Pandemiyadan əvvəl tələbələrimizi Azərbaycanın müxtəlif guşələrinə səyahətlərə də aparırdıq. Bu, ölkəmizin həm tolerant mühitini tələbələrimizə tanıtmaq, həm də Azərbaycanın nə qədər qədim bir tarixə malik olduğunu, xalqımızın adət-ənənələrinə bağlılığını əyani göstərmək üçündür. Müsəlman dini məkanları ilə yanaşı, bir neçə dəfə Nic qəsəbəsində olmuşuq. Bilirsiniz ki, orada Alban-Udi icması fəaliyyət göstərir ki, Qəbələ və Oğuzda yaşayan udilər Azərbaycanın qədim Qafqaz Alban Kilsəsinin mənəvi varisləridir. Eyni zamanda, Azərbaycanın ən qədim yəhudi icmasının olduğu “Qırmızı qəsəbə”yə də səfərlərimiz olub. Tələbələrimiz bir çox tarixi və dini abidələrimizi – müsəlman və qeyri-müsəlman abidələrini ziyarət ediblər. Biz bunları etməklə, əslində, tələbələrimizə həm Azərbaycanın qədim tarixini, həm də vətənpərvərlik duyğusunu aşılamaq istəyirik. Müşahidələrimə əsaslanıb deyə bilərəm ki, İlahiyyat İnstitutunun tələbələri kifayət qədər vətənpərvərdirlər.

***– Bu yaxınlarda Prezident ermənilərin tarixi-dini abidələrimizi dağıtmasını və bəzi məscidlərdə, hətta heyvan saxlamalarını bir daha xatırladaraq bunu sərt şəkildə qınadı. Bu çirkin əməlləri əks etdirən bir çox video və fotosənədlər, sübutlar da var. Yəni doğrudan da bu, təkcə bizə qarşı yox, bütün Müsəlman dünyasına qarşı edilən cinayət sayılır. Sizcə, daha hansı hadisələr və faktlar olmalıdır ki, Ermənistan müsəlman ölkələri tərəfindən ciddi şəkildə qınansın?***

– Bildiyiniz kimi, Qarabağ problemi dini məsələ deyildir. Sadəcə olaraq ermənilər bunu qəsdən dini məsələ kimi təqdim etməyə çalışırlar. Xatırlayıram ki, xarici KİV-lərdən biri Ermənistanı müsəlmanların arasında qalmış “zavallı” xristian azlıq kimi təqdim etmişdi. Yəni bu da erməni təbliğatının nəticəsi idi. Halbuki Azərbaycanda nəinki xristianlara, heç bir dinin nümayəndələrinə qarşı diskriminasiya olmayıb, bu gün də belə hallar mümkün deyildir. Ölkəmizdə digər dinin nümayəndələrinə kifayət qədər hüquqlar verilib, Azərbaycan öz xristian mirasına da sahib çıxır. Yəni biz təkcə müsəlman mirasımıza sahib çıxmırıq axı. Qafqaz Alban mirasımızı da qoruyuruq və o da daim bizim mirasımız sayılıb. Ermənilər isə təəssüflər olsun ki, işğal olunmuş torpaqlarda məlum vəhşiliklərini yalnız müsəlman mirasımıza qarşı etmirlər. Eyni zamanda, xristian Alban mirasına qarşı da anormal yanaşmalar sergilənir. Bizim Alban kilsələrini erməni kilsələri adı altında bərpa edir, müəyyən dəyişikliklərə məruz qoyurlar. Məsələn, Kəlbəcərdə olan “Xudavəng” və “Gəncəsər” məbədləri buna nümunə ola bilər. Alban məbədi olsa da, onu erməni məbədi kimi təqdim edirlər. Qarabağ və İrəvanda məscidlərimizi nəinki dağıdaraq Yer üzündən siliblər, hətta

bu şəhərdəki Azərbaycan mirasını saxtalaşdırmaq üçün bir məscidimizi başqa ölkənin dini məbədi adı altında guya bərpa da ediblər... Bunun özü də böyük bir təhrif və ümumilikdə, dünya dinlərinin tarixinə zərbədir. Təəssüf ki, bizim bu istiqamətdə olan səsimiz də dünya ictimaiyyətinə az çatır.

Bəli, təbliğatımız qurulur, bu istiqamətdə olan təbliğat işləri son illərdə xeyli güclənib də. Sadəcə olaraq, erməni lobbisinin gücü hələ ki, az da olsa, öz sözünü deyə bilir. Buna baxmayaraq, öz haqq səsimizi dünyaya daha çox çatdırmalıyıq. Düzdür, dünyada da ikili standartlar mövcuddur. Bəzən reallığı görsələr belə, bunu sadəcə anlamaq istəmirlər. Ruhdan düşməməliyik, bundan sonra da təbliğatlarımızı fəal şəkildə aparmalıyıq. Düşünürəm ki, bu işdə təkcə dövlətdən gözləntilərimiz olmamalıdır. İctimai təşkilatlar, xaricdə yaşayan soydaşlarımız, tələbələr və b. belə məsələlərdə çox aktiv olmalıdırlar. Dövlətimiz onsuz da öz üzərinə düşəni edir.

***– İkili standartların adi hal aldığı bir dünyada yaşadığımızı dediniz. Yeri gəlmişkən, bəs dünyanın dini mənzərəsi necə, sizi qane edirmi?***

– Çox təəssüf ki, dünyanın dini mənzərəsi o qədər də yaxşı görünmür. Özünüz də müşahidə etdiniz ki, Orta Şərqdə “din, məzhəb” adı altında insanlar kütləvi şəkildə bir-birini necə qətlə yetirdilər. Müəyyən bölgələrdə, hətta radikal buddist qrupların müsəlmanlara hücumlarının, qətliamların həyata keçirildiyini gördük. Afrikanın müəyyən bölgələrində radikal müsəlman və xristian təşkilatlarının fəaliyyət göstərdiyini və onların qətliamlar törətdiyinin şahidi oluruq. Radikal hindu təşkilatlarının müsəlmanları necə təhdid etdiyinin də şahidiyik. Yəni bütün bunlar dinlərin, əslində, əsas məqsədi olan sülhdən uzaqlaşdırılmağa çalışıldığını göstərir. Elə İslam dinini götürək. İslam Allaha “təslimiyyət” deməkdir. “İslam” sözünün kökü “silm” kökündən götürülüb ki, bu da “sülh” deməkdir. Amma baxın görün ki, adı sülhdən gələn İslamı, artıq dünyada necə təbliğ edirlər? Təbii ki, bunu da edənlər xüsusi radikal qruplardır. Düşünürəm ki, burada təkcə dini səbəb görməməliyik. Düzdür, az da olsa, bu məsələlərdə dini səbəblər var. Dinin radikal yozumlarının burada müəyyən rolunun olmasını qəbul edirəm. Eyni zamanda, siyasi və digər səbəbləri də görmək lazımdır. Biz radikallığı təkcə bir dini məsələ olaraq araşdırsaq, yanlış bir yola getmiş olarıq. Radikallıq yalnız dini yox, eyni zamanda, ictimai-siyasi və iqtisadi bir məsələdir. Bunun müxtəlif çalarları mövcuddur. Onları bir arada düşünməliyik ki, radikalizmin kökünü kəsə bilək. Bəli, razıyam ki, məsələnin din tərəfi bizi daha çox narahat etməlidir.

***– Xüsusən də məsələnin dini təhsillə bağlı olan tərəfi...***

– Haqlısınız. Məncə, bütün dünyada müasir standartlara uyğun din tədrisinin zamanı çatıb. Təəssüf ki, bir çox Şərq ölkəsində İslam dini müasir dövrün insanına xitab edəcək şəkildə tədris olunmur. Nəzərdə tutduğum müasir təhsil İslam dininin təhrifi demək deyil. Dini insanlara hər dövrün çağırışlarına cavab verə biləcək şəkildə çatdırmaq lazımdır. Əgər bunu bacarmasaq, bu, gələcəkdə dinin özünə də böyük zərbə olacaq. Qurani-Kərimin “İbrahim” surəsinin 24-25-ci ayələrində deyilir ki, “Xoş söz bir kökü yerdə möhkəm olub budaqları göyə ucalan gözəl bir ağac kimidir. O (ağac) Rəbbinin izni ilə bəhrəsini hər vaxt (ilin bütün fəsillərində) verər”. Burada səslənən “xoş söz” kəlmeyi-şəhadət və İslam dinini nəzərdə tutur. Quran gözəl sözü bir ağaca bənzədir. Deyilir ki, bu ağacın budaqları hər fəsildə bar verir. Bu nə deməkdir? Mən dini ağacın kökünə bənzədirəm. Budaqların isə hər fəsildə yenilənməsi o deməkdir ki, o, hər əsrə xitab edir. Biz də dini insanlara elə çatdırmalıyıq ki, o, hər əsrə, dövrə xitab edə bilsin. Budaqlar köhnə qalsa, onlar kökə də sirayət edəcək və ağacın kökünü də qurudacaq. Yəni bu baxımdan hesab edirəm ki, doğru dini tədris həm din üçün, həm də müasir dünyamız üçün çox əhəmiyyətlidir.

***– Azərbaycanda ekstremizmin, dini radikalizmin olmamasını hansı amillərlə əlaqələndirərdiniz?***

– Bunu dünyanın bir çox yerini gəzmiş birisi kimi deyirəm: həqiqətən də Azərbaycan dini baxımdan nümunəvi ölkədir. Bizdə dinlərarası münasibətlər normal şəkildə davam edir. Hər il Şeyxülislam Allahşükür Paşazadə iftar süfrəsi açır ki, burada cənab Prezident özü də iştirak edir. Bu iftar süfrəsində Qafqaz Müsəlmanları İdarəsi sədrinin yanında yəhudi və xristianların da nümayəndələri otururlar. Bu mənzərənin özü çox şeydən xəbər verir, Azərbaycanda necə tolerant mühitin formalaşdığını nümayiş etdirir. Bu, tariximizdən gələn ənənədir, belə isti yanaşma xalqımızın mülayim xüsusiyyətlərindən biridir. Orta əsrlərdə yaşamış səyyahların bir çoxu da bu barədə yazıb. Məşhur Orta əsr coğrafiyaşünası Yaqut əl-Həməvinin “Mucəm əl-buldan” adlı əsərində qeyd edilir ki, Azərbaycan əhalisi çox mülayimdir... Yəni əhali olaraq tarixi yaddaşımızda mülayimlik həmişə olubdur. Birinci səbəb budur. İkincisi, Azərbaycandakı din anlayışı da daim mülayimliyi ilə seçilib.

Azərbaycanlıların çoxu müsəl-

mandır. Bizdə Orta əsrlərə diqqət yetirdikdə, daha çox irfan ənənəsinin hakim olduğunu görürük. İrfan ənənəsi isə xüsusən insanlara sülhü təbliğ edir, bir-birinə qarşı mehriban olmağı təlqin edir. Belə ənənənin özü də tolerantlığa əsaslanır və bizim indiki durumda olmağımızın əsas səbəblərindən sayılır. Üçüncüsü və ən önəmlisi isə, dövlətin dinə münasibətidir. Azərbaycan dünyəvi dövlətdir. Mən deyərdim ki, dünyəvilik din-dövlət münasibətləri mövzusunda insanlığın ağır təcrübələrindən sonra gəldiyi bir nəticədir. Tarixdən də bilirsiniz ki, Orta əsrlərdə Avropada din-məzhəb müharibələri genişlənmişdi. Bunun nəticəsində də elə yerlər olmuşdu ki, əhalinin üçdəbiri məhv edilmişdi. Həm də müəyyən dini dünyagörüşləri elmin inkişafına mane olurdu. Nəticədə, insanlar bu qənaətə gəldilər ki, dinlə dövlət işlərini bir-birindən ayırmaq lazımdır. Bu da dünyəvilik prinsipində öz əksini tapdı. Biz dinlə dövlət işini bir-birindən ayıranda nələri qazanırıq? Buradan həm din, həm də dövlət qazanır. Dövlət onu əldə edir ki, bütün dinlərə qarşı eyni məsafədə olur və müəyyən bir dini ideologiyaya əsaslanmır. Beləcə, dinindən asılı olmayaraq insanlar bir arada, mehriban yaşaya bilirlər. Eyni zamanda, dövlət şərait də yaradır ki, dinlər rahat şəkildə fəaliyyət göstərsinlər. Din isə onu qazanır ki, dövlət heç bir şəkildə dinin ibadət formalarına və digər daxili işlərinə müdaxilə etmir və s. Azərbaycan bu baxımdan nümunəvi ölkədir. Bizdəki dünyəvilik modeli dinlə-dövlətin bir-birindən tamamilə uzaqlaşdığı bir model deyildir. Azərbaycan dünyəvi modeli dinlə-dövlətin bir-biri ilə əməkdaşlıq etdiyi bir nümunədir. Bilirsiniz ki, bütün dini icmalara hər il dövlət tərəfindən müəyyən məbləğdə vəsait ayrılır. Bu da ölkəmizdə din-dövlət münasibətlərinin müsbət məcrada inkişafı üçün çox önəmlidir.

***– Bəs sizə görə, haqqında söz açdığınız mövzu üzrə müsəlman Şərqinin bir nömrəli problemi nədir?***

– Hansı ölkələr ki, dünyəviliyi bir prinsip kimi qəbul edib, bu, dinlə-dövlətin tamamilə bir-birindən qopması demək deyildir. Bu, əməkdaşlığı əsas götürən bir dünyəvilik sayılır. Məncə, müsəlman ölkələri arasında bu dövlətlər daha müvəffəqdirlər. Müsəlman Şərqində belə ölkələrin sayının çoxalmasını istərdim. Mənə görə, müsəlman Şərqinin birinci problemi hüquqi dünyəvilik prinsipinin bir çox ölkədə qəbul edilməməsidir. Bu, qəbul olunarsa, bir çox ciddi problemlər də öz həllini tapacaqdır.

***– Nəhayət, son günlər Qarabağda baş verən hadisələr haqqında fikirlərinizi öyrənmək istərdik...***

– Mən özüm də kəlbəcərliyəm və açığını deyim, bu günləri çoxdan gözləyirdik. Erməni təcavüzünə son qoymağın vaxtı artıq gəlmişdir. Bu gün Ali Baş Komandanın əmrində olan Azərbaycan əsgəri şanlı bir tarix yazır. Ermənistanın səbatsız rəhbərliyi bunu çoxdan başa düşməli idi ki, Azərbaycan xalqı və rəhbərliyi torpaqlarımızın işğalı ilə heç vaxt barışmayacaq və onun azad olunması üçün əlindən gələni edəcəkdir. Bu gün bu tarixi məqam yetişib. Torpaqlarımız, artıq bir-bir azad olunur. Əsgərlərimizə Allahdan güc-qüvvət arzulayır, onların əzmi və igidliyi qarşısında baş əyirəm. Şəhidlərimizə isə rəhmət diləyirəm. İnşallah, sizinlə növbəti müsahibəni işğaldan azad olunacaq Kəlbəcərdə, Şuşada və Qarabağın digər rayonlarında gerçəkləşdirək.

***– Müsahibə üçün təşəkkür edirəm. İnşallah, tezliklə doğma eliniz olan Kəlbəcərdə “Qarabağ Azərbaycandır” deyək!***

**P.S. Bu müsahibədən sonra 30 il davam edən elan olunmamış müharibəyə son qoyuldu. Azərbaycanın dilbər guşəsi olan Qarabağ işğaldan azad edildi. 10 Noyabr tariximizə qızıl hərflərlə yazıldı. Erməni faşistləri işğal, talan və viran etdikləri torpaqlarımızdan Müzəffər Ordumuzun şücaəti sayəsində qovuldu. Ali Baş Komandan İlham Əliyev 10 noyabr 2020-ci ildə Azərbaycan tarixində misli görünməmiş bir uğura – düşmənin təslimçilik aktına imza atdı. Bu, son 200 ildə heç bir sərkərdənin nail ola bilmədiyi qalibiyyət oldu. Zabitlərimiz, əsgərlərimiz bu yolda canlarından, qanından keçdilər. Torpağımız şəhid qanları ilə suvarıldı. Qarabağ Azərbaycana qayıtdı və !**

**...Düşmən Kəlbəcərdən və digər rayonlarımızdan çıxmağa möhlət istədi, güclə ayrıldı. Qədimliyindən və tarixiliyindən xəbər verən memarlıq abidələrini, qızılını, sərvətini, minerallarını oğurladılar, hətta meşələrini vəhşicəsinə qırıb, evləri qarət etdilər. Görünür, on gün də torpaq daşımaq üçün yalvardılar. Gözü qızmış düşmən ordumuzun qarşısında duruş gətirə bilməyib məğlub oldu. Dünya gördü ki, Qarabağ Azərbaycandır, vəssalam! Qələbəmiz mübarək!**

# TƏHSİL İNNOVASİYALARI VƏ ONLARIN TƏTBİQİ



**Zərifə Əliyeva,**
**AİI-nin Tədris şöbəsinin müdiri**

*Yaradıcılıq – yeniliklər haqqında düşünməkdir. İnnovasiya isə yeniliyi tətbiq etməkdir.*
*Teodor Levit*

Bir fərdin, millətin və bütövlükdə bəşəriyyətin var olması, inkişaf etməsi və uğur qazanması üçün yeniliklərin və innovasiyaların tətbiqi zəruridir. Təhsil sahəsindəki innovasiyalar xüsusi əhəmiyyət kəsb edir, çünki təhsil dayanıqlı gələcəyin təminatında vacib rol oynayır. Buna görə də innovasiya zəruri və müsbət dəyişikliyin təminatçısı hesab edilə bilər. Hər bir fərdin fəaliyyətinin (təhsil, sənaye, biznes və s.) davamlı qalması üçün daim yenilənməsinə, innovasiyaların tətbiq olunmasına ehtiyac duyulur.

**Təhsil innovasiyaları nədir?**

İnnovasiya – yüksək səmərəliliyə malik yeniliyin tətbiqi, intellektual fəaliyyətin, kəşflərin, ixtiraların nəticəsi olaraq yeni və təkmilləşdirilmiş məhsul, texnoloji proses, həmçinin ictimai münasibətlərin müxtəlif sahələrində təşkilati-texniki, maliyyə-iqtisadi və digər hallar hesab olunur. Yenilik etmək hazırda gördüyümüz fəaliyyətdən daha irəliyə baxaraq, onu yeni bir şəkildə icra etməyə kömək edən yeni bir fikrin inkişaf etdirilməsidir.

Yenilik yeni bir şeyin və ya metodun "uğurlu tətbiqi" kimi başa düşülür.

İnnovasiya üç böyük addım tələb edir: ideya, onun tətbiqi və tətbiqi ilə yeniliyə səbəb olan nəticə.

Təhsildə yenilik yeni bir pedaqoji nəzəriyyə, metodik yanaşma, tədris texnikası, təlim prosesi və ya institusional quruluş hesab edilir. Yenilik tətbiq edildikdə tədris və təlim prosesində əhəmiyyətli dəyişiklik yaradır və bu da təhsilalanın daha yaxşı öyrənməsinə səbəb olur. Beləliklə, təhsildəki yeniliklər öyrənmənin səmərəliliyini, təhsilin keyfiyyətini və məhsuldarlığını artırmaq məqsədi daşıyır.

Təhsil innovasiyaları müxtəlif sahələrdə və formalarda yaranır. Onları təhsil sisteminin bir çox sahəsində tətbiq etmək mümkündür: nəzəriyyə və təcrübə, kurrikulumların hazırlanması, öyrətmə və öyrənmə, siyasət, texnologiya, idarəetmə, institusional mədəniyyət, pedaqoji heyətin hazırlanması və s. Müəllimlərin işə qəbulu, hazırlanması, hətta məvaciblərinin ödənilməsində də innovativ yanaşmalar mövcuddur. Ümumiyyətlə, innovasiyalar təhsilalanlara və tədris prosesinə müsbət təsir göstərə biləcək bütün sahələrə tətbiq oluna bilər. Həmçinin təhsil innovasiyaları bütün maraqlı tərəflərə aiddir: təhsilalanlara, valideynlərə, müəllimlərə, rəhbərlərə, tədqiqatçılara, təhsil siyasətçilərinə. Burada onların fəal iştirakı ilə yanaşı, dəstəyi də zəruridir.

Tədrisin keyfiyyətini yüksəltmək deyəndə, professor-müəllim heyətinin təhsili, peşəkarlığı artırması və ömürboyu öyrənmənin inkişafı nəzərdə tutulur. Bura tədris üsulu, motivasiya, bacarıq, sə-



riştə, özünüqiymətləndirmə, özünüinkişaf, yaradıcılıq, məsuliyyət, akademik sərbəstlik, yenilik etmək bacarığı, inzibati təzyiqdən azad olma, müsbət iş şəraiti və digər amillər daxildir.

Bütün təhsilalanların yüksək təlim nəticələrinin əldə edilməsi üçün təhsil müəssisələrindən optimal akademik mühit, şərait və keyfiyyətli tədris materiallarının təminatı tələb olunur. Burada da tədris proqramlarının məzmununda, fənlərin formatında, müəssisənin mədəniyyətində, tədqiqatda, maliyyələşdirmədə, infrastrukturda, idarəetmədə və digər sahələrdə yeniliklərin tətbiq olunması nəzərdə tutulur.

İnnovasiyaları aşağıdakı kimi təsnif etmək olar:

– təkamül (evolutionary) və ya inqilabi (revolutionary);

– davamlı (sustaining) və pozucu (disruptive).

Təkamül innovasiyaları tədricən yaxşılaşmaya səbəb olur, lakin davamlılığı tələb edir. İnqilabi innovasiyalar, adətən, qısa müddət ərzində tamamilə dəyişikliyə və ya köhnənin yenisi ilə əvəz olunmasına səbəb olur. Davamlı innovasiyalar mövcud fəaliyyət göstəricilərini "əbədiləşdirir" (məsələn, tədris planının davamlı təkmilləşdirilməsi), pozucu innovasiyalar isə bütün fəaliyyət sahəsini kökündən dəyişir (məsələn, milli islahatlar və s.).

İnnovasiyalar, həmçinin maddi (məsələn, texnoloji alətlər) və qeyri-maddi (məsələn, metodlar, strategiyalar və üsullar) olur.

İnnovasiyaların növlərini qeyd edən zaman, onların təsir dərəcəsindən də söz açmaq lazımdır. Belə ki, innovasiyaların təsir dərəcəsi 3 səviyyəyə ayrılır:

**1. Prosesin tənzimlənməsi və ya təkmilləşdirilməsi.** Bu zaman yenilik gündəlik performansda baş



verərək, işin daha asan, səmərəli, cəlbedici və ya daha az stresli olmasına səbəb olur.

**2. Prosesin modifikasiyası.** Mövcud məhsulun prosesini, fəaliyyətini və ya keyfiyyətini əhəmiyyətli dərəcədə dəyişdirir.

**3. Sistemin transformasiyası.** Qlobal/inqilabi dəyişimə səbəb olur (məsələn, Bolonya prosesi, tam avtomatlaşdırılmış təhsil sistemləri, müstəqil və ya öz-özünə yönəlmiş təlim, onlayn təhsil və s.).

İstənilən halda bütün innovasiyalar təlim nəticələrinin keyfiyyət və ya kəmiyyət amillərinin dəyişdirilməsinə yönəldilmişdir. Keyfiyyət dedikdə daha yaxşı bilik, daha effektiv bacarıqlar, vacib səriştələr, xasiyyətin inkişaf etdirilməsi, dəyərlər, düşüncə tərzi, səmərəli işlə təminat və s. nəzərdə tutulur. Kəmiyyət dedikdə isə test nəticələri, öyrənilən məlumatların həcmi (optimallaşdırılması), inkişaf etdirilən bacarıq və kompetensiyaların səviyyəsi, tələbə qəbulu sayı, ölçülən tələbə performansı, yerdəyişmə, məzunların sayı, sinifdəki tələbələrin sayı, xərc və vaxt səmərəliliyi nəzərdə tutulur.

İnnovasiyaların səmərəliliyinin qiymətləndirilməsi, eyni zamanda, onların tətbiqinin miqyasına əsaslana bilər: tək/məhdud; müxtəlif/yayılmış/əhəmiyyətli; geniş-sistemli/ümumi.

Təhsili zənginləşdirən innovasiyalar yerli/daxili (sistem daxilində) və ya idxal olunmuş (xarici təhsil sistemindən) ola bilər.

İnqilab, tendensiya və ya yeni bir fikir nəticəsində meydana gələn idxal yeniliklərinə misal olaraq, informasiya texnologiyalarını, sosial media, tibb sahəsindəki inkişaf və ya idrak psixologiyasını aid etmək olar. İnnovasiyalar, eyni zamanda, qabaqcıl beynəlxalq nəzəriyyə və təcrübələrdən götürülə bilər və ya milli islahatlar öz növbəsində innovasi-

yaların yaradılmasına səbəb ola bilər.

İnnovasiyalar ilham, fasiləsiz yaradıcı zehni fəaliyyət, istehsalda yeni texnoloji imkanların mövcudluğu, bazarın və ya cəmiyyətin ehtiyaclarına əsaslanan tələblər nəticəsində yarana bilər.

Hər bir innovasiya potensial səmərəliliyinə görə sınaqdan keçirilməlidir. Tədrisin səmərəliliyinin kökləri təkcə innovativ texnologiyalarda və ya tədrisdə deyil, həm də təhsilalanlarda, onların intellektual, emosional və psixoloji potensial imkanlarını aşkar etməkdədir.

İqtisadiyyat, biznes, texnologiya və mühəndislik sahəsindəki yeniliklər həmişə prosesin nəticəsi ilə bağlı olsa da, təhsildə yenilik mütləq nəticənin yaxşılaşmasına səbəb olmur (yəni tələbələrin gələcək həyat və məşğulluğa hazırlığı).

Test nəticələri, təhsil dərəcələri və diplomlar bir tələbənin gələcək karyerasına tam hazır olduğunu bildirmir. Təhsil nəzəriyyələrində, dərsliklərdə, təlim alətləri və tədris texnikalarındakı innovasiyalar hər zaman öyrətmə və öyrənmənin keyfiyyətində arzuolunan inkişafı təmin etmir.

**İnnovasiyaların tətbiqi prosesində yaranan maneələr hansılardır?**

Əvvəla, təhsilə cəmiyyətin "bilik" ehtiyacını təmin edən vahid bir sistem kimi baxsaq, bütün təhsil səviyyələrinin bir-biri ilə əlaqəli və bir-birindən asılı olduğunu aydın şəkildə görəcəyik. Üstəlik, təhsil özü də bir sistem kimi sosial sistemin tərkib hissəsidir, həmçinin sosial bir qurum olaraq, mənsub olduğu cəmiyyətin bütün dəyərlərini, qanunlarını, prinsiplərini və ənənələrini özündə əks etdirir. Buna görə təhsili bütöv bir sosial varlıq kimi qəbul etməli və mövcud olan problemləri həm təhsil sistemində, həm də cəmiyyətdə həll etməyə çalışmalıyıq. Əgər cəmiyyət təhsildə innovasiyaların tətbiqini dəstəkləyirsə, o zaman təhsil sistemi davamlı olaraq inkişaf edəcək və uğur qazanacaq. Əks halda, təhsil durğunlaşacaq və zəif nəticələr verəcək.

Eyni zamanda, innovasiya yaradıcılıq, risk və eksperiment tələb edir. Bu da təhsil müəssisələrində illərlə qurulmuş və "hökm sürən" rutin həyatı və icraçıların rahatlığını pozur. Bir çox hallarda təhsil müəssisələrində yenilik/innovasiya məsələsi prioritet və aktual olmur, çünki dövlət standartlarına əməl etmək həqiqətən daha rahatdır. İnnovasiya isə təcrübədə tətbiq edilməsə, onun heç bir dəyəri olmayacaq. İnnovasiya sözdə deyil, əməldə olmalıdır. Bundan əlavə, innovasiya yalnız geniş miqyasda istifadə edildikdə əhəmiyyətli təsirə malik ola bilər. İnnovasiyanın səmərəli təsir göstərməsi, yayılması və nəticə verməsi üçün ixtiranın əlverişli şərtlərlə birlikdə icraçı bir komandaya ehtiyacı var.

Məlumdur ki, innovasiyalar, əsasən, müasir texnologiyalarla sıx bağlıdır. Bura da iki növ maneəni qeyd etmək mümkündür: xarici (birincidərəcəli) və daxili (ikincidərəcəli). Xarici maneələr, əsasən, əməliyyat (texnoloji), ikincidərəcəli maneələr isə tətbiqedici (pedaqoji) hesab edilir.

Ən nəhayət, innovasiyalar yalnız əlverişli bir mühitdə inkişaf edə bilər. Əlverişli mühit dedikdə isə təhsilin bütün səviyyələri üzrə yaradıcı, tənqidi düşüncəyə malik, özünə güvənən, ömürboyu öyrənməyə meyilli, problem həll edə bilən tələbə və əməkdaş hazırlayan təhsil sistemi nəzərdə tutulur.

**İnnovasiyaların tətbiqi istiqamətində hansı işlər görülməlidir?**

İnnovasiyaların yaradılması üçün ilk növbədə, xeyli sayda innovatorlara ehtiyac vardır. Yenilik (innovasiya) yaradıcı insanın beynində əmələ gələn parlaq bir qığılcım olsa da, onu alovlandıra biləcək bir mühitə ehtiyac var. Bu mühit təhsil müəssisələri, cəmiyyət, eləcə də inkişaf etmiş iqtisadiyyat tərəfindən formalaşır və qidalanır. İnnovasiya yaranarkən onun inkişafı üçün münbit şəraitin olması zəruridir.

Son illərdə ölkədə innovasiyaların tətbiqi istiqamətində bir çox addımlar atılmasına, davamlı islahatların aparılmasına baxmayaraq, mövcud vəziyyət ürəkaçan deyildir və bu məsələyə ciddi yanaşılmasına ehtiyac duyulur. Belə ki, ölkənin təhsil sistemində bütün təhsilalanların təlim nəticələrinin keyfiyyətinin yüksəldilməsinə səbəb ola biləcək innovasiyaların tətbiqinə böyük ehtiyac var. Bunun üçün təhsil müəssisələrində beynəlxalq təlim-tədris modellərinin uyğunlaşdırılması və innovasiyaların istifadəsi üçün dəstəkləyici mühit yaradılmalıdır. Eyni zamanda, öyrətmə və öyrənmə prosesinin nəzəri və təcrübi yönünü, eləcə də tələbə, müəllim, valideyn və cəmiyyətin rolunu yeniləmək lazımdır. Təhsilalanların iş etikasını, öyrənməyə olan yanaşmalarını, müxtəlif öyrənmə bacarıqlarını inkişaf etdirməklə öyrənmə prosesini daha səmərəli etmək mümkündür.

Həmçinin, təhsil müəssisələri təhsilin dəyərinin və məhsuldarlığının, xərc və zamanın səmərəliliyinin artırılması kimi mühüm məsələlərə diqqət yetirməlidirlər.

# İDEOLOJİ TƏHLÜKƏSİZLİKDƏ DİN AMİLİ



**Anar Qafarov,**
**f.f.d., dos.,**
**Dinşünaslıq kafedrasının müdiri**

Dini-ideoloji təhlükəsizlik məsələsi milli dövlət təhlükəsizliyinin ən mühüm istiqamətlərindəndir. Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin edilməsi dövlətin siyasi-strateji fəaliyyətinin prioritet istiqamətlərindən birini təşkil edir. Milli təhlükəsizlik bir ölkənin tarixi ərazi və ənənələrinin mühafizəsini, ictimai-həyat normalarını, maddi-mənəvi və etik dəyərlərini, o cümlədən dini irsinin qorunmasını ehtiva edir. Azərbaycan Respublikasının milli təhlükəsizlik sahəsindəki maraqlarına suverenlik, ərazi bütövlüyü, konstitusiya quruluşunun təhlükəsizliyi, iqtisadiyyat, elmi-texniki və müdafiə potensialı, ictimai-həyat normaları, maddi-mənəvi və etik dəyərlər, o cümlədən, dini irsin qorunması daxildir.

Müasir dövrdə dünyada dini zəmində baş verən problemlər dinə yalnız inanc sistemi, mənəvi dəyər, hüquqi məsələ, ya da keçmişin qalığı kimi baxmağın doğru bir yanaşma olmadığını göstərir. Əlbəttə, vətəndaşların dinə bu və ya digər qəbildən düşüncə və yanaşmaları demokratik quruluşa əsaslanan dövlətlər tərəfindən hörmətlə qarşılanır. Bununla yanaşı, dövlətlər eyni zamanda dinə cəmiyyətin milli, ictimai və ideoloji təhlükəsizliyi aspektindən də yanaşır ki, belə bir yanaşma bu gün dövlət və cəmiyyətlər üçün xüsusilə vacib məqamlardan birini təşkil edir. Tarixin müxtəlif dövrlərində olduğu kimi, təəssüf ki, dinin dünyada bu gün də siyasiləşdirildiyinin, dövlətlər tərəfindən bir-birlərinə qarşı silah aləti kimi istismar edildiyinin şahidi oluruq. Bu mənada, din bəzən dövlət və cəmiyyətlərin dayaq nöqtəsi, onların müvəffəqiyyətini təmin edən amil olaraq çıxış etdiyi kimi, bəzən də siyasiləşdirilərək bütün bəşəriyyətin "kabus"una çevrilir. Buna görə də müasir dövrdə dövlətlər və cəmiyyətlər dinə daha çox həssas yanaşır, onu ictimai təhlükəsizlikdə mühüm amil kimi görürlər.

Etnik müxtəliflik qədər, dini müxtəliflik də insanların, xalqların və dövlətlərin bir-birinə münasibətlərini formalaşdıran və müəyyənləşdirən əsas meyar kimi hələ də böyük təsir gücünə malikdir. Planetimizdə yüzminlərlə insan milli mənsubiyyəti ilə yanaşı, dini mənsubiyyətinə görə də ayrı-seçkilik və zorakılıqla təcavüzün və işğalın qurbanına çevrilir. Bu gün dünyanın müxtəlif ölkələrində, o cümlədən, postsovet məkanında, Yaxın və Orta Şərqdə, eləcə də Afrikada gedən proseslər bunun bariz nümunəsidir.

Hər kəsə məlumdur ki, böyük dövlətlər və beynəlxalq korporasiyalar hədəf seçdikləri ölkələri iqtisadi sanksiya və təzyiqlərlə öz maraqları istiqamətində yola gətirə bilmədikləri təqdirdə, etnik mənsubiyyəti və xüsusilə, dini öz siyasətlərinin alətinə çevirir və bundan yararlanmamağa çalışırlar. Qeyd edək ki, son dərəcə həssas olan etnik məsələdə olduğu kimi, dini məsələdə də cəmiyyətlərə fərdi və ictimai müstəvidə ideoloji müdaxilə etmək bir o qədər də çətin deyil. Nəticə etibarilə, bir cəmiyyət və dövlət daxilində dini-mənəvi zəmində xaos yaratmaq məqsədi güdən siyasi-ideoloji strategiyalarda din mənəviyyat, hüquq və demokratiya donu geyindirilmiş təzyiq vasitəsi kimi dəyərləndirilir və istifadə edilir. Bu qəbildən strategiyalara məruz qalmış dövlət və cəmiyyətlərdə isə dinə milli, ictimai, hətta ideoloji təhlükəsizlik məsələsi kimi baxılır. Din bir çox cəmiyyətlərin mənəvi-əxlaqi dəyərlərinin və ictimai vəhdət və nizamın əsasında yatan mühüm bünövrə daşlarından biridir. Buna görə də son illərdə dünyada baş verən proses və hadisələrə nəzər salanda, etnik məsələ ilə müqayisədə dini amilin təzyiq və təsir vasitəsi kimi daha çox önə çıxması və dünyada radikalizm və ayrı-seçkiliyin əksər hallarda dini zəmində olması heç də təsadüfi deyildir. Əsas səbəb kimi qloballaşma dövründə etnik kimliyin zəifləməsi fonunda dini kimlik anlayışının güclənməsini və dinin həsas bir məsələ olmasını da göstərmək olar. Din inanc-etiqad məsələsidir. İnanc isə mübahisəni sevmir. Din ilə bağlı bütün bu qeyd edilənlər bu gün din pərdəsi altında terrorizmin, silahlı münaqişələrin dünyada nə üçün daha intensiv və geniş miqyasda yayıldığının məntiqini anlamağa imkan

verir. Belə ki, etnik münaqişələr bir və ya bir neçə xalqı əhatə etdiyi halda, dini zəmində ortaya çıxan münaqişələr çox sayda xalqı, milləti, dövləti, regionu öz ağuşuna alır. Deməli, zaman keçdikcə dinin dövlətlər və xalqlar, eləcə də onların gələcəyi üçün həyati əhəmiyyət kəsb edən məsələyə çevrilməsi son dərəcə təbiidir.

Müstəqilliyini yeni əldə etmiş və ənənələri sarsıdılmış xalqlar üçün din ideoloji təhlükəsizlik baxımından, xüsusilə həssas məsələdir. Müasir dövrdə heç bir gənc ölkə dini zəmindəki ideoloji təhdidlərdən tam şəkildə sığortalanmayıb.

Məlumdur ki, sovet hakimiyyəti illərindən qalan ən mühüm problemlərdən biri də 70 illik əsarət dövründə dinimizdən məhrum edilməyimiz olub. Dövrün uzunsürən totalitar rejimi və ateist ideologiyasının intensiv və rəsmi şəkildə təbliğ edilməsi dini inanc və düşüncənin zəifləməsinə və insanların dini həyat tərzindən uzaqlaşmasına gətirib çıxarıb. Sovet İttifaqı dağılandan sonra isə dinə cəmiyyətdə sərbəstlik verilməsi, milli-mənəvi dəyərlərə qayıdış öz-özlüyündə müsbət proses olsa da, təəssüf ki, müəyyən problemlərlə müşahidə olundu. Belə ki, Sovet İttifaqının dağılması nəticəsində ateizmin təlim və təbliğatlarının ağırlıq təşkil etdiyi bir cəmiyyətdən milli-mənəvi dəyərlərə üstünlük verən cəmiyyətə transformasiya Sovet İttifaqının əsarətindən xilas olaraq müstəqilliyini yeni elan etmiş (18 oktyabr 1991) ölkəmiz üçün bir o qədər də asan olmayıb. Müstəqillik tariximizdən başlayan özünəqayıdış və özünüdərk prosesi daha sonra, milli-mənəvi dəyərlər istiqamətindəki dərin siyasi fəaliyyət sa-



yəsində davam etdirilib. Ölkəmizdə dini-ideoloji təhlükəsizlik istiqamətində atılan siyasi addımlar uzun müddət Sovet İttifaqının özünəyadlaşdırma siyasətinin təsirində qalan vətəndaşlarımızın yenicə əldə edilmiş müstəqillik dövründə zamanın ziddiyyətlərinə ram olmamaları baxımından olduqça əhəmiyyətli idi. Postsovet dövrünün əvvəllərində Azərbaycanda vaxtilə Sovet İttifaqının hakim ideologiyasına xidmət edən, şüurlu və şüursuz şəkildə sovetin özünəyadlaşdırma siyasətinin təbliğatçısına çevrilən bəzi insanlar yolayrıcında qalıblar. Cəmiyyətlərin mövcudluğu baxımından olduqca əhəmiyyətli olan belə bir vəziyyət yəqin ki, mövcudluğun mahiyyət və keyfiyyətini müəyyənləşdirəcək intellektual refleksiyanın təzahürü idi. Postsovet dövrü Azərbaycanda milli-mənəvi dəyərlər istiqamətində icra edilən siyasi strategiya Azərbaycan cəmiyyətinin varlığını məhz öz milli-mənəvi dəyərlərinə əsaslanaraq gələcəyə transformasiya ideyasını daşıyırdı. Müstəqilliyinin ilk günlərindən etibarən milli-mənəvi dəyərlərə münasibətin müsbət istiqamətdə dəyişdiyi və ateizm buxovlarının getdikcə qırılma prosesinin yaşandığı ölkəmizdə 1993-cü ildə yenidən iqtidara gələn Heydər Əliyevin bu istiqamətdəki siyasi addımları ilə milli-mənəvi dəyərlər zəminində yeni bir mərhələyə qədəm qoyuldu. Bu dövrü ölkəmizin mənəvi mədəniyyətinin intibahı kimi qiymətləndirsək, mübaliğə etmiş olmarıq. Ulu Öndərin dini-ideoloji təhlükəsizliyimiz istiqamətində gerçəkləşdirdiyi siyasi və ictimai addımlardan belə bir nəticəyə gəlmək olar ki, o, milli ideologiya siyasətinin tərkib hissəsini təşkil edən milli-mənəvi və dini dəyərləri xalqımızın ideoloji təhlükəsizliyi baxımından ən mühüm istinadgahı olaraq qəbul edib.

Bir cəmiyyətdə onun üzvlərinin din ilə əlaqədar sağlam və etibarlı biliklərə malik olmaması, bəzi dövlətlərin və dairələrin öz maraqları naminə dindən sui-istifadə imkanlarını artırar və onlar üçün əlverişli şərait yaradar. Şübhəsiz ki, ölkəmiz də din pərdəsi altında təhdid və təhlükələrdən tam sığortalanmayıb. Əksinə, digər MDB dövlətləri, hətta Orta Asiyanın

müsəlman ölkələri ilə müqayisədə Azərbaycana din sahəsində təzyiq və təhdidlər daha çoxdur. Əlbəttə, bu, bir çox amillərlə, o cümlədən, Azərbaycanın yerləşdiyi coğrafi-siyasi mövqeyi, qarşısına qoyduğu strateji məqsəd və hədəfləri, habelə sahib olduğu enerji resursları ilə bağlıdır. Üstəlik, üzləşdiyimiz təhdidlər təkcə İslam dini istiqamətli deyil, bəzən digər dinlərlə bağlı təhdidlərlə də qarşılaşmalı oluruq. Üzləşdiyimiz ən ciddi və təhlükəli təhdidlər, əsasən, İslam dini istiqamətlidir.

Bu gün ölkəmizdə dini sahədəki təhdidlərin bir neçə istiqamətdə ortaya çıxdığı görünür. Ümumiyyətlə, İslam dini istiqamətində baş verən həmin təhdidlər arasında dini kimliyimizin milli kimliyimizə qarşı qoyulması, dindar kontingent daxilində dünyəviliyin zəiflədilməsi, dinin siyasiləşdirilməsi, ənənəvi İslamın zəiflədilməsi, dini radikalizmin və dini zəmində xarici qüvvələrin gücləndirilməsi, məzhəb ayrı-seçkiliyi, dini zəmində cəmiyyətdə sosial qütbləşmənin yaradılması, tolerantlığın zəiflədilməsi, xurafatın artırılması, dünyəvi təhsilə qarşı çağırışlar, dini zəmində qadın hüququnun və ənənəvi ailə institutunun pozulması və s. kimi cəhdləri qeyd etmək olar.

Əminliklə deyə bilərik ki, dini kimliyimizin milli kimliyimizə qarşı qoyulması İslamdan qaynaqlanan bir məsələ deyil. Bunun əsas səbəbi şəriət ilə mədəniyyət, ümmət ilə millət arasında fərq qoya bilməyən bəzi qeyri-ənənəvi dini qruplardır. Qeyd edilməlidir ki, Azərbaycan əhalisinin 96%-nin mənsubu olduğu İslam dini milli kimlik anlayışını inkar etmir və hətta Quran bunda bir hikmət olduğunu vurğulayır. Məsələn, "Hücurat" surəsində belə buyurulur: "Ey insanlar! Biz sizi bir kişi və bir qadından yaratdıq. Sonra bir-biriniz ilə tanış olasınız deyə, sizi (ayrı-ayrı) xalqlar və qəbilələr etdik".

Bu və bu qəbildən ayələrə əsaslanaraq deyə bilərik ki, İslam milli kimlik anlayışını qəbul edir. Buradan belə bir nəticə çıxarmaq olmaz ki, İslam dini şovinizmə haqq qazandırır. Əsla belə deyildir! Quranda da qeyd edildiyi kimi, Allah qatında üstünlük etnik mənsubiyyətlə deyil, məhz təqva ilə, yəni düşüncəsində, niyyətində və əməlində Haqqın şüurunda olan, yəni ədalətin, mərhəmətin və s. kimi üstün əxlaqi və mənəvi məziyyətlərin fərqində və keşiyində durmaqla ölçülür. Digər tərəfdən, İslam tarixinin əsas mənbələrindən də məlum olduğu kimi, nə İslam dini, nə də onun peyğəmbəri Həzrət Məhəmməd, ümumiyyətlə, xalqların mənəvi və əxlaqi prinsiplərə zidd olmayan adət-ənənələrinə və mədəniyyətinə qarşı mübarizə aparmayıb. Əksinə, tarixən müsəlmanlar fəth etdikləri ərazilərdə yaşayan qeyri- müsəlmanların cəmiyyət üçün zərərli olmayan adət və ənənələrinə, milli-mədəni dəyərlərinə uyğun yaşaması üçün daim sərbəst mühit formalaşdırıblar. Təəssüf ki, bu gün bəzi qeyri-ənənəvi dini qruplar və cərəyanlar tərəfindən aparılan təbliğatlarda



bu nüanslar məqsədli şəkildə qeyd olunmur, hətta bu tarixi təcrübənin əksi təbliğ olunur. Ən dəhşətlisi isə budur ki, sözügedən dini qruplar, ancaq milli kimliyimizə qarşı deyil, hətta milli adət-ənənələrimizə və mədəniyyətimizə qarşı çıxırlar. Onların bu məzmundakı strategiyaları dini kimliyin milli kimliyimizə, Azərbaycançılıq məfkurəsinə qarşı qoyulması kimi dəyərləndirilməlidir. Halbuki, Azərbaycançılıq mahiyyət etibarilə İslama dair anlayış və prinsipləri də ehtiva edir.

Qeyd edilməlidir ki, din bizim üçün milli ideologiya deyil, amma milli ideologiyamız olan Azərbaycançılığın əsas tərkib hissəsini təşkil edir. Bu ideya özünün ən bariz ifadəsini Azərbaycan Respublikasının Dövlət Bayrağında və milli məfkurəmizdə tapır. Azərbaycan xalqının milli kimiliyi ilə dini kimliyi arasında hər hansı bir ziddiyyət yoxdur. Bu iki anlayış milli məfkurəmizdə bir-birini inkar etmir, əksinə, bir-birini tamamlayır.

İslam Azərbaycan mədəniyyətinin, Azərbaycan mədəniyyəti isə İslam mədəniyyətinin tamamlayıcısıdır. Azərbaycan xalqının milli-mənəvi dəyərləri milli və dini dəyərlərin kompleks şəkildə ifadəsidir. Yəni İslam milli-mənəvi dəyərlərimizin ayrılmaz hissəsidir. Milli-mənəvi dəyərlərimiz, hətta İslam dini ilə o qədər çulğaşıb ki, onların sərhədlərini müəyyənləşdirmək qeyri-mümkündür.

Müşahidələr göstərir ki, bəzi qeyri-ənənəvi dini qruplar hüquqi dünyəvilik prinsipinə əhəmiyyət vermir. Bu dini qrupların təlim və təbliğatları sayəsində az da olsa, dini kontingentin daxilində dünyəviliyin zəifləməsi prosesi gedir. Şübhəsiz ki, bu məsələdə xarici qüvvələrin ideoloji dəstəyinin xüsusi rolu var. Onların əsas məqsədi ölkədəki mövcud dindar kontingentin zehnində dünyəvilik prinsiplərinin cəmiyyətin sosial-iqtisadi, mənəvi və hüquqi problemlərinin ortaya çıxmasında əsas səbəb olduğu fikrini formalaşdırmaq, beləliklə, dindar kəsimə maddi-mənəvi tərəqqi üçün yeganə çıxış yolunun şəriət qaydalarının tətbiqindən keçdiyi ideyasını təlqin etməkdir. Bu qəbildən ideoloji təbliğatların təsirində qalaraq, sözügedən tendensiyanı mənimsəyən dini qruplar bütün dünyəvi dövlətləri özlərinə "darülküfr" (küfr diyarı) elan edirlər. Onlar dünyəvi dövlətləri özlərinə ortaq düşmən hesab edirlər. Təəssüf ki, bu kimi dini qruplar dünyəvi prinsiplərə qarşı çıxmaqla, əslində, xarici qüvvələrin böyük müstəmləkə siyasətlərinin tərkib hissəsinə çevrilirlər. Məsələn, Çar Rusiyası Şimali Azərbaycanı, Orta Asiyanı işğal etdikdən sonra dini xurafat və cəhalətin bu ərazilərdə yayılmasına dəstək olub. Çünki dini xurafat və bəzi dövrü keçmiş şəriət qanunlarının girdabında boğulan cahil əhalini bu yolla idarə etmək Çar hökuməti üçün daha rahat idi. Bu mənada, Həsən bəy Zərdabi, Mirzə Fətəli Axundov, Abbasqulu ağa Bakıxanov, Cəlil Məmmədquluzadə, Əli bəy Hüseynzadə və digər mütəfəkkirlər sayəsində ölkəmizdə maarifçi ideyaların irəli sürülməsi heç də təsadüfi deyildi. Ən diqqətçəkən məqam odur ki, Azərbaycanda həm maarifçi hərəkatın ideoloqları, həm də Azərbaycan Xalq Cümhuriyyəti qurucularının böyük əksəriyyəti ruhani ailəsində dünyaya göz açıb, dini təhsil müəssisələrində və mədrəsələrdə təhsil alıblar. Məsələn, Qafqaz Şeyxülislamının nəvəsi Əli bəy Hüseynzadə, Azərbaycan Xalq Cümhuriyyətinin banisi Məhəmməd Əmin Rəsulzadə və başqaları bunun bariz nümunələridir. Azərbaycan maarifçilərinin dini və dünyəvi prinsiplərlə çuğlaşan dünyagörüşləri və bu görüşlər əsasında Şərqdə ilk demokratik cümhuriyyəti təsis etmələri milli-mədəni tariximizdə ruhani ailəsində yetişib, mədrəsə təhsili alan ziyalılarımızın dünyəvilik tərəfdarı olduqlarını bariz şəkildə ortaya qoyur. Belə bir tarixi təcrübə din ilə dünyəvilik arasındakı münasibətlərin mahiyyətinin dərk edilməsi baxımından bizlər üçün böyük əhəmiyyət kəsb edir.

Din və ideoloji təhlükəsizlik çərçivəsində günümüzün ən akutal təhdidlərindən birini də dinin siyasiləşdirilməsi, dini radikalizm və məzhəbçilik məsələsi təşkil edir. Dinin siyasiləşdirilməsi məsələsi bu gün dünyada müstəmləkə siyasətinin ən mühüm vasitələrindən birinə çevrilib. Azərbaycan dövlətinin güclü olması və xalqın böyük əksəriyyətinin dünyəvilik tərəfdarı olması belə bir ideoloji təhlükənin ölkəmizdə reallaşması imkanını kifayət qədər zəiflədir. Bu gün ölkəmizdə sözügedən tendensiyanı mənimsəyən dini kontingentin özünə kifayət qədər sosial baza formalaşdırmaması da Azərbaycanda dinin siyasiləşdirilməsi istiqamətindəki ideologiyanın özünü açıq şəkildə büruzə verməməsinin əsas səbəbi kimi göstərilə bilər.

Dini və ideoloji təhlükəsizlik zəminində qarşılaşdığımız problemlərdən biri də dini radikalizm və məzhəbçilikdir. Son dövrlərdə Yaxın və Orta Şərq müsəlman ölkələrində dini və məzhəb zəminində baş verən terror və xoşagəlməz hadisələr göstərir ki, dini radikalizm digər cəmiyyətlər və dövlətlərlə müqayisədə müsəlman

ölkələri üçün siyasi və ideoloji baxımdan daha ciddi, təhlükəli və çox mühüm bir məsələdir. Yaxın və Orta Şərq İslam aləmində ortaya çıxan məzhəblərarası münaqişələr müsəlman aləminə qarşı olan cəmiyyət və qurumlar üçün münbit ideoloji və siyasi zəmin hazırlayır. İslam dünyasında hələ də məzhəblərin dinin bəşəri izahı olduğu həqiqətini dərk etməyən bəzi qrup, konfensiya və dini sektalar "tək doğru olan mənim etiqadımdır" zehniyyətinə əsaslanaraq, universal xarakterli bir dini tək məzhəbin dünyagörüşünə həbsetmə cəhdləri ilə Yaxın və Orta Şərqi məzhəb münaqişələrinin dərinləşdiyi coğrafi bir əraziyə çevirdiklərini müşahidə edirik. Qərb dünyası ilə müqayisədə İslam dünyasında bu mənada yaşanan "özgələşdirmə" siyasətinin müsəlmanlıq xaricindəki dini kimliklərə qarşı deyil, məhz İslam dininə mənsub olan etnik və məzhəb zəminində fərqli kimliklərə qarşı həyata keçirildiyi görünür. Problemin ən vahiməli cəhəti isə ondan ibarətdir ki, elm və irfandan məhrum olan bəzi müsəlmanların yuxarıda qeyd etdiyimiz arzuolunmaz mövqeləri onları, təəssüf ki, İslam dünyasına istiqamətlənmiş praqmatik siyasətlərin könüllü oyunçuları halına gətirir.

Qeyd edək ki, din və məzhəb zəminində ortaya çıxan problemlər İslam aləmində birgəyaşayış ənənəsinin və ictimai həmrəylik çərçivəsindəki tarixi təcrübələrin yoxluğundan deyil, bugünün bəzi müsəlmanlarının və müsəlman cəmiyyətlərinin İslam dünyasının bu mənada yaşadığı tarixi təcrübələri, Məhəmməd peyğəmbərin həyat fəlsəfəsini və İslam mədəniyyətinin şifrələrini doğru oxuya bilməmələrindən və dini mətnlərə literal (hərfi) yanaşmalarından irəli gəlir. Tarixə nəzər salanda, Qərb mədəniyyəti ilə müqayisədə Məkkədən Kordovaya kimi İslam mədəniyyətinin birgəyaşayışla əlaqədar bir çox prinsiplərə və zəngin tarixi təcrübələrə sahib olduğunu görürük. Bu mədəniyyətin əsaslarını təşkil edən Quran, hədis və İslamın tövsiyə etdiyi həyat fəlsəfəsini təfsilatlı şəkildə ehtiva edən elmi əsərlərin fərdi və ictimai münasibətlərdə bəşəriyyətə təqdim etdiyi əsas prinsiplər insanlar arasında dini düşüncələrinə, dini və məzhəb mənsubiyyətinə və irqə görə hər hansı bir ayrı-seçkilik etməyi tövsiyə etmir. Bu mədəniyyət ədalətə, haqqa, hüquqa riayəti əmr edir. İslam dini müqəddəs mətnlərin müəyyənləşdirdiyi sərhədlərin çeynənilməsini təkidlə qadağan etməkdə və bəşəriyyətə etnik, milli və dini kimliyindən asılı olmadan hər bir insanın rahat şəkildə yaşaya biləcəyi multikultural bir dünya modeli təqdim etməkdədir. Bunun praktiki nümunəsini isə Mədinə vəsiqəsi (akt) və Vida xütbəsi ilə yanaşı, İslam peyğəmbəri Həzrət Məhəmmədin müsəlman cəmiyyətində yaşayan qeyri-müsəlmanlara dair tövsiyə və təlimatı istiqamətində formalaşan hüquqi və əxlaqi qaydalar, prinsiplər və əsrlərlə müsəlman olmayanların İslam ölkəsində rifah, sülh və güvən içində yaşaması həqiqəti təşkil edir.

Yaxın Şərqdə məzhəbçilik istiqamətində özünü büruzə verən radikalizm ideoloji zəmində Azərbaycandakı bəzi dini qruplara da öz təsirini göstərdi. Bunu radikal cərəyanların məzhəb təəssübkeşliyində və cəmiyyətimizdə aqressiv dindarlıqla səciyyələnən qütbləşmədə görmək olar. Əlbəttə, bu istiqamətdə dindarların sayında sürətli irəliləyiş olduğunu deyə bilmərik. Unutmamalıyıq ki, ölkədə mövcud dini kontingentin müəyyən məzhəbçi və radikal düşüncələr zəminində bir-birinə qarşı barışmaz mövqedə olması milli-mənəvi birliyimiz və sabitliyimizin təhlükəsizliyi baxımından potensial təhdid ünsürü daşıyır. Belə ki, məzhəbçilik zəminindəki ortaya çıxıb alovlana biləcək hansısa bir radikal qüvvə çoxmillətli, çoxkonfessiyalı və multikulturalizm ideologiyasının geniş vüsət aldığı ölkəmizdə sosial-siyasi vəziyyətin arzuolunmaz məcraya yönəlməsinə, o cümlədən, milli ideologiyamıza və dövlət maraqlarımıza zərər verə bilər. Yaxın Şərqdə dini zəmində baş verən proseslər, dini radikalizm və terror hadisələri bizə onu göstərdi ki, heç bir ölkə bu kimi hadisə və proseslərdən sığortalanmayıb. Azərbaycanın Yaxın Şərqin qonşuluğunda yerləşməsi bu riski daha da gücləndirir. Ölkəmizdə bu riskin minimum səviyyəyə endirilməsi isə ənənəvi dindarlığın qorunub saxlanılması, düzgün dini maarifləndirmə və bu istiqamətdə konkret olaraq atılacaq praktiki addımlarla mümkündür. Bu kimi tədbirlər ölkədə, sadəcə, dini radikalizmə qarşı deyil, eyni zamanda, qeyri-ənənəvi qruplar tərəfindən təbliğ olunan xurafat fikirlərə, dünyəvi təhsilə qarşı çağırış və tolerantlığın zəiflədilməsi cəhdlərinə qarşı da köklü bir mübarizə metodu və həll yoludur. Əks halda, radikal dini cərəyanlar və qeyri-ənənəvi dini qrupların ölkədə geniş vüsət almasına sosial zəmin yaradılmış olar.



**Rəhilə Misirxanlı,**
**AİI-nin əməkdaşı**

# Ümumbəşəri dinlər

*"Dinsiz xeyir və şər anlayışlarına malik olmayan hər hansı bir xalq heç bir zaman mövcud olmamışdır".*

***F.Dostoyevski***

Din təbiət və insanlıq meydana gələndən xeyli sonra yaranıb və inanc yerinə çevrilib. Peyğəmbərlər və din xadimləri buyurublar ki, Qurani-Kərim və dinlər Allah tərəfindən göndərilib. İnsanlar inamsız, etiqadsız yaşaya bilməyiblər, daşa, ağaca, hətta hansısa bir heyvana iman gətirərək səcdə edib, rahat ömür sürüblər. Birləşməyin, həmrəyliyin mənasını dinə inamda, etiqadda görüb və güclü inam hissi ilə inanaraq, ondan həmişə kömək gözləyiblər.

Cəmiyyətin sivil tarixi kitablı dinlərin yaranmasından sonra başlayıb.

Məlumdur ki, dünyada irili-xırdalı , məhəlli, yerli dinlər çoxdur. Dünya əhalisinin böyük bir hissəsini və dünya ölkələrinin ərazilərini əhatə edən üç dünyəvi din vardır: Buddizm, Xristianlıq və İslam.

## BUDDİZM

Qədim dinlərdən olan Buddizm keçən yüz ildə inkişaf edib, buddistlərin sayı 450-500 milyonu (təqribən, bir milyonunu rahiblər təşkil edir) keçib. Bu din, əsasən, Cənub, Cənub-Şərqi və Şərqi Asiya ölkələrində, xüsusilə, əhalisi çox olan Çində və Hindistanda, həmçinin Şri-lankada, Nepalda, Butanda, Monqolustanda, Koreyada, Vyetnamda, Kambocada, Tailandda, Tibetdə, Yaponiyada, Laosda, Birmada və qismən də Sinqapur və Malayziyada geniş yayılıb. Keçmiş Sovetlər İttifaqında Buddizmi qəbul edənlər Buryatiya, Kalmıkiya, Tuva, Saxa (Yakutiya) və Xakasiya respublikalarında çox olub. Son illər buddist icmaları Moskva və Sankt-Peterburq şəhərlərində və Baltikyanı ölkələrdə də meydana gəlib. XIX əsrin sonlarından etibarən, Buddizm Avropa və Amerika qitələrində də yayılmağa başlayıb.

Buddizm eramızdan əvvəl birinci minilliyin, təxminən, VII-VI əsrlərində Hindistanda meydana gəlib, müxtəlif yerli xalqların dinləri və mədəniyyətləri, ədəbiyyat və incəsənətləri ilə çulğaşaraq formalaşıb. Buddizmə din, fəlsəfə, ideologiya, həm də həyat tərzi kimi yanaşmaq olar. Bu dinin tarixini tədqiq edənlər Buddizmin banisinin real tarixi şəxsiyyət olduğunu təsdiq edirlər. Qədim mənbələrdə, əfsanələrdə Buddizmin banisi müxtəlif adlarla təqdim olunurdu, onun adı Siddharthadır. Ona Qautama (nəslinin adı) Şakyamuni (Şak tayfasından olan müdrik), Budda (nurlanmış) Talxaqata Cina (qalib) Bxaqavan da deyirdilər. Nəhayət, ən çox yayılan qədim dinin adı Buddanın adı ilə Buddizm adlandırıldı.

Rəsmi Buddizm təqviminə görə, Qautama Buddanın yaşı eramızdan əvvəl 544-cü ildən hesablanır. UNESCO bu tarixə əsasən 1956-cı ildə Buddizmin 2500 illiyini qeyd edib.

Buddanın tərcümeyi-halında onun gerçək və əfsanəvi həyatı bir vəhdətdə təsvir olunub. Siddhartha Budda Qanq çayı vadisinin şimalında yaşamış Şak tayfasının çarı Suddhodanın vəliəhdidir. Firavan həyat sürən şahzadə həddibüluğa çatanda səyahətə çıxır. Bu zaman insanlar arasında xəstəliklər, qocalıq və ölüm kimi iztirablı anlar yaşanmasının şahidi olur və bu kədərlərdən yaxa qurtarmağın yollarını tapmaq üçün sarayı tərk edir. Çox əzab-əziyyətli axtarışlardan sonra, təxminən, 40 yaşında Qaya adlanan yerdə Qautama ilahi surətdə "nurlanır", ona ilahi vergi verilir və Budda olur. O, insanlara iztirablardan xilas olmağın yolunu göstərən müəllimə çevrilir. Ətrafına ardıcılları toplaşır, ilk rahiblər icması yaranır. Budda öz təlimini yayır, rahiblər icmasının məramnamə və nizamnaməsini hazırlayır. Şagirdlərinin müşayiəti ilə 40 il bütün Hindistanı dolaşıb Buddizmi təbliğ edir. Deyilənə görə, 80 yaşında Nayrancani çayının sahilində, Kuşinaqara adlı yerdə vəfat edir, cəsədi yandırılır, külü torpağa basdırıb, üstündə ehram tikdirirlər. Məhz buna görə də buddist ölkələrdə Buddanın qəbri olan müxtəlif memarlıq üslubuna malik ehramlar mövcuddur.

Fəlsəfi təlimlər əsasında yaranan Buddizm durğunluğu qəbul etmir, daim inkişafı və hərəkəti müdafiə edir. Özünü başqa dinlərə

qarşı qoymayan bu dinin əsas ideyası insanları "həyat iztirabları"ndan azad etməkdən ibarətdir. Buddizmə görə həqiqətə aparan yol orta yoldur. Buddanın yolu xeyir və şər arasında yerləşdiyi üçün belə adlanır. "Buddanın yolu" ilə gedənlər karma qanunu ilə idarə olunurlar. Bu yol buddist icması və rahiblər üçün zəruri idi. Rahiblərin fikrincə, insanların ən mühüm vəzifəsi Buddaya, yaxud allahlara səcdə və beş əxlaqi qaydaya riayət etməkdir:

*1. Canlı varlıqlara heç bir ziyan verməmək.*

*2. Yalan danışmamaq.*

*3. Əgər könüllü bəxş etmirsə, heç kimdən heç nə almamaq.*

*4. Əxlaqsızlıq etməmək.*

*5. Spirtli içkilər içməmək.*

Rahibliyə hazırlaşanlar beş şərtə əməl etməlidirlər:

*1. Qarınqulu olmamalı, az yeməli.*

*2. Rəqs, musiqi, mahnı oxumaqdan uzaq olmalı, tamaşaya baxmamalı.*

*3. Ətir vurmamalı, bər-bəzək taxmamalı.*

*4. Hündür oturacaq və yataqlardan istifadə etməməli.*

*5. Heç kimdən qızıl və gümüş almamalı.*

Rahiblik yolunu seçənlər saçlarını dibindən kəsdirməli, sarı (narıncı, yaxud çəhrayı) rəngdə sadə geyim geyinməlidirlər. İki ayda bir dəfə oruc tutmalı və bu müddətdə günahlarını etiraf etməlidirlər.

İlkin Buddizm təlimində dxarmaların təbiəti haqqında qeyri-müəyyən mülahizələrin çoxluğu nəticəsində bu dinin biliciləri üç böyük cərəyana - Hinayana ("dar yol", yaxud "kiçik döyüş arabası"), Mahayana ("geniş yol", yaxud "böyük döyüş arabası") və Vajrayana ("almaz yol") adlanan məzhəblərə bölünüblər.

Hinayana tərəfdarları dxarmanın təbiəti və nirvana nail olmağın etik yolunu əsas götürür və belə izah edirlər ki, bu yol, əsasən, rahiblərin qismətidir və məhz buna görə də rahiblərin dinidir. Mahayana isə hamı üçün müəyyən edilmiş böyük yol sayılır. Hinayana Hindistanın cənubunda, mahayana isə şimalında geniş yayılıb.

Buddizmin hinayana cərəyanına görə, daimi şeylər yoxdur, müdrik adamla ailə qurmamaq, dünyanın gözəlliyinə göz yummaq, vahid Allahı inkar etmək, passiv müşahidəni, fəaliyyətsizliyi, ətaləti, xülyanı ön plana çəkmək lazımdır. Onlar Buddanı Allah səviyyəsinə qaldırır, cənnət və cəhənnəmi qəbul edirlər. Hinayana rahibliyi tövsiyə edir, tərki-dünyalığı məsləhət görür, təbii hissləri boğmağı tələb edir. Bir sözlə, insanı özünün ölümünə hazırlayır.

Mahayana tərəfdarları isə əksinə, dünyada yaşayıb xeyirxahlıqla məşğul olmağı məsləhət görürlər. Buna görə də bu cərəyan Buddizmin "Böyük yolu" adlanır. Qəddar tələbləri loyallaşdıran mahayana insanlara dini yol və məhəbbət vasitəsilə səadətə çatmağı tövsiyə edir.

Buddizmin dövlət dini olduğu ölkələrdə bu dinin bayramları ümumdövlət tədbiri səviyyəsində keçirilir. Yeni il bayramı – "Monlam çxenmo" Tibetdə ümumxalq bayramı kimi təntənəli keçirilir. Bütün buddist bayramlar Qəməri təqvimi ilə qeyd olunur.

Buddistlərin ayinləri heç bir digər dinlərin ayinlərinə bənzəmir. İnsanların öləndən sonra yandırılaraq külünün Qanqa çayının sularına qovuşması adəti yaşayır, unudulmur.

Bütün Yer kürəsində qəbul edilmiş ən qədim din olan Buddizmdən beş əsr sonra Xristianlıq, 1200 il sonra isə İslam dini yaranıb.

## XRİSTİANLIQ

Xristian dini böyük dünyəvi dindir. İlk olaraq Fələstində yaranıb, sonralar Avropaya, Amerikaya və dünyanın başqa ölkələrinə yayılaraq, dünya dini səviyyəsinə ucalıb.

Xristianlığı yaradan İsus Xristos (İsa Məsih) olub. Xristos yunanca "məsh edilmiş" deməkdir. "Xristianlıq" sözü də "xristos" kəlməsindən alınıb. İsa Məsihin həyatı haqqında mübahisəli fikirlər mövcuddur, real həyatı şübhəlidir.

Xristianlıq yaranmağa başladığı ilk dönəmlərdə yəhudi dininin iudaizm təriqətlərinə əsaslanırdı. Eramızın əvvəllərində iudaizm dinində xilaskar ilahi haqqında müxtəlif təriqətlər yaranıb.

Fələstin ərazisində ən çox ərəblər və yəhudilər istismara məruz qalırdılar. İudaizmin "zelot" təriqəti milli xilaskarı xalq qəhrəmanı kimi təsəvvür edirdisə, "essey" təriqəti tərəfdarları həmin xilaskarı mənəvi bir qüvvə kimi qəbul edirdilər. Yəhudilərin çoxlu üsyan və çıxışları ciddi nəticə vermədiyi üçün "essey" təriqətinin mənəvi xilaskarı ideyasına ümid artırdı. Quldarlığa nifrət edənlər bu təriqəti mənəvi xilaskarı, "ədalət carçısı" kimi təsəvvür edərək, yaranmaqda olan Xristianlığı özlərinə daha yaxın qəbul edirdilər. İncildə "mazoray" və "mazoreyli" sözləri insanın ləqəbləri kimi tez-tez işlədilir. Kilsə ənənəsinə görə, İsanın Qaliley əyalətinin Nazarey şəhərində anadan olduğu güman edilir. Tarixdə göstərilir ki, Nazarey adlı şəhər yalnız eramızın IV əsrindən sonra meydana gəlib.

İsanın tərəfdarlarını xristian adlandıranlar əvvəllər bu təriqətin düşmənləri olublar, yalnız II əsrin

ikinci yarısından sonra özlərini "xristian" adlandırıblar.

Xristianlıq Fələstin yəhudiləri arasında deyil, başqa ölkələrdə yaşayan yəhudilər arasında formalaşıb. İsgəndəriyyəli yəhudi Filon Xristianlığın atası sayılır. O, yəhudi ruhu ilə yunan fəlsəfəsinin birliyi əsasında Allahın dünyadan kənarda mövcudluğu ideyasını irəli sürüb. İncilin insanın yaranması haqqında və başqa nağıllarını şərh edib, yəhudilərin monoteist təliminə tərəfdar olub. Onun Allahla maddi dünya arasında vasitəçi olduğu qeyd edilirdi. Allahın oğlu İsa məhz bu fikirlərin əsasında yaranmaqda olan Xristianlığın obrazına çevrildi.



Xristian fəlsəfəsinin görkəmli nümayəndələri Seneka (I əsr), Tertulian (II əsr), Avqustin (IV əsr) və başqaları bu dinin özünəməxsusluğunu yaratdılar.

Eramızın I əsrinin axırlarında xristian icmalarına qeyri-yəhudi dini ünsürlər nüfuz etməyə başladılar. Misirdə, Babilistanda, Suriyada, Mesopotamiyada, sonralar isə Yunanıstanda çoxlu xilaskar allahlar – Osiris, Hörmüz, Adonis, Marduk və b. mövcudluğu məlum oldu.

Xristianlığın nüfuzu yavaş-yavaş artırdı. Roma taxt-tacına sahib olmağa çalışan gələcək İmperator Konstantin məşhur Milan edikti (qanunu) ilə 313-cü ildə Xristianlığı Roma imperiyasındakı başqa dinlərlə bərabərhüquqlu saydı və xristianlar onun imperator olmasına kömək etdilər.

Xristianlığın böyük imkanlarını görən İmperator Konstantin 325-ci ildə xristian dininin Nikey soborunda dövlətin bu dinlə ittifaqını rəsmi elan etdi. Beləliklə, Xristian dini təqib edilən etiqaddan Roma imperiyasının hakim dövlət dininə çevrildi, başqa dinləri sıxışdırmağa başladı və bu işdə xüsusi qəddarlıq nümayiş etdirdi.

Nikey soborunda Xristian dininin ilk simvolikası qəbul edildi, Pasxa bayramının keçirilməsi vaxtı müəyyənləşdirildi, kilsə həyatına dair qanunlar qəbul edildi. 381-ci ildə Konstantinopolda keçirilən II soborda xristianlığın simvolikası dəqiqləşdirildi, təriqətçiliyə qarşı tədbirlər hazırlandı, Allahın üçsimalı olması (Allah-ata, Allah-oğul, Müqəddəs Ruh) haqqında qanun qəbul etdi. İsanın Müqəddəs Ruhdan doğulduğu qəbul edildi, Məryəmin ilahiliyi təsdiq edildi.

IV Xalkidon soboru (451-ci il) İsgəndəriyyə patriarxı Dioskonun təbliğ etdiyi monofizitizmi inkar etdi. İsanın həm həqiqi Allah, həm də ilahimahiyyətli insan olduğu qanuniləşdirildi.

395-ci ildə Roma imperiyası iki hissəyə – Qərb və Şərq imperiyalarına bölündü. Qərbi Roma imperiyası alman tayfaları tərəfindən işğal olundu və orada müstəqil feodal dövləti yarandı. Şərqi Roma imperiyasında (sonralar Bizans dövləti oldu) güclü imperator hakimiyyəti qərar tutdu.

Şərqdə xristian kilsəsi dövlət strukturuna daxil olan tabeli bir dini təşkilat vəziyyətində idi. Qərb və Şərq Xristianlığı get-gedə bir-birindən daha çox uzaqlaşır, ehkam və ayin fərqləri artırdı. Nəhayət, 1054-cü ildə bu kilsə fərqləri tam formalaşdı. Xristianlığın iki böyük cərəyanı yarandı: Qərb Xristianlığı Roma Katolik Kilsəsi, Şərq Xristianlığı isə Yunan Pravoslav Kilsəsi adlanmağa başladı.

Katolisizm – yunanca katolikos – "ən ümumi" sözündəndir, pravoslavlıq yunanca "ortodoks" sözünün rus variantıdır, "ənənələri gözləmək" mənasındadır.

Katoliklik və ya katolisizm (yunan dilində "ümumdünya" mənasını verən "katolikos" sözündəndir) mənsublarının sayına görə ən böyük xristian cərəyanıdır – Xristianlığın bir qoludur. Mərkəzi İtaliyanın paytaxtı Roma şəhərindəki kiçik Vatikan şəhər-dövlətidir. 1929-cu ildə İtaliya dövləti ilə razılaşmaya əsasən, dini-siyasi bir qurum kimi Vatikan dövləti katolik dini mərkəz kimi formalaşıb. Mərkəzin İtaliyada və dünyanın müxtəlif şəhərlərində çoxlu saray,

kilsə və başqa tikililəri fəaliyyət göstərir.

Vatikan dövlətinin mütləq hakimi katolik kilsəsinin başçısı Papadır. Qanunvericilik, icra və məhkəmə hakimiyyəti onun əlindədir. Onun tam titulu – Roma Yepiskopu, İsa Məsihin canişini, həvarilər knyazının (yəni apostol) Pyotrun varisi, Qərb kilsəsinin ali ruhanisi, Qərbin patriarxı, İtaliya priması, Roma əyalətinin arxiyepiskopu və mitropoliti, Vatikan şəhər-dövlətinin hökmdarıdır.

Hər il dekabr ayının 25-də keçirilən İsa Məsihin Miladı katoliklərin əsas dini bayramı sayılır. Katoliklərdə, həmçinin Müqəddəs Məryəmə 16 bayram həsr olunub. Xüsusilə 8 dekabrda keçirilən Bakirə Məryəmin Pak Döllənməsi bayramı təntənə ilə qeyd edilir.

Katoliklərdə xaç dördguşəlidir.

Pravoslavlıq – katolik və protestantlıqdan sonra, Xristianlığın sayca üçüncü ən böyük qoludur. Mənası yunanca ortodoks – "doğru təlim", "həqiqi inanc", "düzgün etiqad" mənasını verir. Pravoslavlıq nəzəri və əməli baxımdan katolisizm təliminə əsaslanır. Dünyada pravoslavların sayı 125-180 milyon arasında dəyişir. Onlar daha çox mühafizəkardırlar. Vahid mərkəzləri olmasa da, ibadət etdikləri Ümumdünya Konstantinopol Patriarxatlığı adlanan Konstantinopol Ortodoks Kilsəsi nüfuzuna görə ən tanınmışıdır.

Dini ayinlərin icra olunması baxımından, Xristian dininin cərəyanları arasında çoxlu fərq mövcuddur. Pravoslav ayinləri içərisində ən məşhuru və təmtəraqlı keçiriləni İsa Məsihin ölümündən sonra dirilməsi və "Pasxa" bayramlarıdır. Bundan başqa, onların müqəddəs əməllər adı ilə bəlli olan bir sıra ayinləri də vardır:

1) Xaç suyuna salmaqla adamları əcdadlarının ilk günahından təmizləyir və Allahın mərhəmətini verir.

2) Miro məhlulunu yaxmaq xaç suyuna salınmış dindarı yeni həyata hazırlayır və möhkəmləndirir.

3) İsanın ətinə və qanına ortaq olmaq, çörəyi şəraba batırıb yemək, əbədi həyata qovuşmaq.

4) Tövbə etmək və günahların bağışlanmasını xahiş etmək.

5) Kilsədə ibadət etmək ixtiyarı verən paklığa nail olmaq.

6) Nikah, uşaq yetirib onları Xristianlıq ruhunda tərbiyə etmək.

7) Xəstələrə şəfa vermək üçün xeyirxahlıq etmək.

Kilsə rəvayətlərinə görə, çarmıxa çəkilmiş İsa Məsih ölümündən üç gün sonra dirilmiş və Allahın dərgahına getməmişdən əvvəl şagirdlərinə buyurmuşdur ki, Allah-Atadan gələn Müqəddəs Ruhu gözləsinlər və yalnız bundan sonra Yerusəlimi tərk edib Xristianlığı dünyanın hər yerinə yaysınlar. İndi bu ədəd dünyada 125-180 milyon arasında dəyişir ki, onun da böyük hissəsi Rusiyada yaşayır.

Protestantlıq – mənsublarının sayına görə Xristianlığın ikinci ən böyük və cavan cərəyanıdır. Dünyada 800 milyona yaxın protestant yaşayır. XVI əsrin əvvəllərində katolisizmdən ayrılaraq formalaşıb.

Protestantlıq İntibah dövrünün humanizmi ilə səsləşən bir dini cərəyan kimi meydana gəldi, obyektiv faktora çevrildi, özünü insanlara sevdirdi. Bu cərəyanın nümayəndələri dindarların öz günahlarının bağışlanması üçün keşişin vasitəçiliyi olmadan, birbaşa Allaha müraciət etməklə də istəklərinə çatmağın mümkünlüyünü qəbul etdilər. Onların fikrincə, bütün dindarlar Oğul-Allah-İsanın xilaskar missiyasına şəxsi inam sayəsində səadətə çatarlar.

## İSLAM

İslam dini Buddizmdən min il, Xristianlıqdan isə altı əsr sonra yaranıb, ən cavan dindir, obyektiv reallığa və yazılı mənbələrə əsaslanır.

İslamın peyğəmbəri Məhəmməd ibn Abdulla olub. O, Qüreyşilərin Haşimi tayfasındandır. Atası Abdulla, anası Əminə tarixi şəxslərdir. Məhəmməd 570-ci ildə Məkkədə doğulub, 595-ci ildə evlənib. 610-cu ildə ona vəhy gəlib, 622-ci ildə Məkkədən Mədinəyə köçüb. Müsəlmanlığın ehkam və ayinlərini müəyyənləşdirib.

Allah-Taala öz yaxın mələyi Cəbrayılın vasitəsilə Məhəmməd peyğəmbərə müqəddəs ayələr göndərib. Peyğəmbər də 610-cu ildən başlayaraq ömrünün sonuna qədər göndərilən bu kəlamları müsəlmanların Müqəddəs Kitabı olan Qurani-Kərimdə cəmləyib.

Müsəlman ənənəsinə görə Quranın ilk ayələri 610-cu ildə ramazan ayının 26-dan 27-nə keçən gecə nazil olub. Bu səbəbdəndir ki, müsəlmanlar ramazan ayının 27-ni Qurani-Kərimin nazil olduğu gün kimi qeyd edirlər.

Qurani-Kərim 114 surədən və 6636 ayədən ibarətdir. Məhəmməd peyğəmbərə gələn vəhylərə əvvəllər inananlar az olub. İslamı təbliğ etdiyinə görə məkkəlilər, hətta öz qohumlarının da bir hissəsi onu təqib və təhqir ediblər. Peyğəmbər hər əzaba dözərək tərəfdarlarının bir hissəsini Həbəşistana və Mədinəyə köçürdükdən sonra özü də dostu və silahdaşı Əbu-Bəkrlə birlikdə Mədinə şəhərinə gəlir. Buna peyğəmbərin hicrəti, köçkün tərəfdarlarına isə mühacirlər deyilir.

Məhəmməd peyğəmbərin Məkkədən Mədinəyə köçdüyü günü Xəlifə Ömər ibn-Xəttab 637-ci ildə İslam tarixinin başlanğıcı elan

etdi. Bu günə qədər dünya müsəlmanları hicri tarixini həmin gündən hesablayırlar.

Mədinədə İslam tərəfdarlarının sayı sürətlə artdı və Məhəmməd peyğəmbər böyük bir dini icmanın rəhbərinə və bu icma əsasında yaranan dövlət qurumunun başçısına çevrildi. Ətrafına çoxlu icmalar toplandı. Müharibələr apardı və onların 28-də özü bilavasitə iştirak etdi.

İslam dini sürətlə dünyaya yayıldı. Həm hərbi (Suriya, Misir, İran, Azərbaycan, Orta Asiya bə b.), həm də dinc missionerlik (Qazaxıstan, Tatarıstan, Başqırdıstan və başqa ölkələrdə) yolu ilə tanındı və qəbul edildi. Dini bayramlar və cümə namazları məscidlərdə keçirilir, əhali çox olduğu halda, ətrafdakı əraziləri də əhatə edirdi.

İslamın yayıldığı ilk onilliklərdə məscidlər təkcə ibadət və ayin yeri deyildi, burada həm də hakimiyyət orqanları yerləşir, ailə-məişət, kəbin, talaq, məhkəmə məsələləri və s. həll edilir, əhalinin həyat problemləri tənzimlənirdi. Peyğəmbərin 623-cü ildə Mədinədə tikdirdiyi ilk məscid binası ibadət yeri olmaqla yanaşı, həm də onun və əshabələrinin dövlət işləri ilə məşğul olduğu yer oldu.

Məscidlər və onların nəzdindəki mədrəsələr, həmçinin tədris müəssisəsi və mədəniyyət mərkəzi rolunu da oynayırdı. Şərqin müsəlman alimləri və mütəfəkkirləri bu mədrəsələrdə mükəmməl təhsil alaraq yetişib ucalıblar. Müsəlman əhalinin dini ayinləri icra etmək və namaz qılmaq üçün tikilən bu ibadət evləri həm də Allahın evi adlandırılırdı. Məsciddə azan verilməsi, beş dəfə namaz qılınması, hər il 30 gün oruc tutmağın zəruriliyi və başqa İslam ayinlərinin icrası həyata keçirilirdi.

Məhəmməd peyğəmbər İslam dinini yaymaq yolunda böyük mübarizələr və müharibələrlə üzləşdi. Bədr, Ühüd döyüşləri, İslam əleyhinə çıxış edənlərin fərdi və məhəlli münaqişələri buna misaldır. Peyğəmbərə sui-qəsdlər də hazırlandı, onu öldürmək də istədilər, lakin bu baş vermədi. Yalnız 632-ci ildə, həcc ziyarətindən qayıtdıqdan, təxminən, üç ay sonra 63 yaşında Peyğəmbər əleyhissalam dünyasını dəyişdi.

Peyğəmbərin vəfatından sonra Əbubəkr ibn Quhafə, Ömər ibn Xəttab, Osman ibn Əffan, Əli ibn Əbutalib xəlifə seçildi. Bunlara Xüləfayi raşidin deyilir.

Dünya müsəlmanlarının milli tərkibi müxtəlifdir, təkcə ərəblər 250 milyon nəfərdir, Hindistanda 200 milyon müsəlman yaşayır. 120-dən artıq ölkədə müsəlman icmaları fəaliyyət göstərir, 40-a qədər ölkədə əhalinin əksəriyyəti, bir sıra dövlətlərdə isə müsəlmanlar güclü və nüfuzlu azlıq təşkil edirlər. Dünyanın 28 ölkəsində İslam dövlət dini elan olunub.

Din insanın mənəvi həyatında olduqca böyük tərbiyəvi rol oynayır. Bəşər mədəniyyətinin tərkib hissəsi olan din ideologiya forması kimi neçə əsrdir ki, yaşayır və insanların dünyagörüşünə, baxışlarına və davranışına ciddi təsir göstərir, onları bərabərliyə çağırır.

Din dünya və ətraf aləm haqqında baxışlar sistemi kimi əxlaq normaları və hüquqi qanunlar qədər insanların və bütünlükdə cəmiyyətin idarə edilməsində güclü tənzimləyici rol oynayır. İnsanlar tərəfindən ciddi əxlaqi-mənəvi normalar sistemi kimi qəbul edilir. İdeya forması kimi dünyanın müxtəlif ölkələrində baş verən irimiqyaslı mürəkkəb hadisələrin və proseslərin idarə edilməsində həlledici əhəmiyyətə malikdir.

Mütəxəssislərin hesablamalarına görə, son yüzillikdə Xristian dinini qəbul edənlər 3,5 dəfə, İslam dinini qəbul edənlər isə 5 dəfə artıblar. 1900-cü ildə yer üzərində xristianlar 558 milyon, müsəlmanlar 216 milyon olduğu halda, 2000-ci ildə müvafiq olaraq onların sayı 1 milyard 995 milyona və 1 milyard 180 milyona çatıb. Göründüyü kimi, hər iki dinin tərəfdarları bir əsrdə inanılmaz dərəcədə artıblar. Bu artımda nisbi üstünlük İslam dini tərəfdarlarına aid olub.

Dünyanın ən qədim dinlərindən biri olan Yəhudi dininə itaət edənlər əsasən, ABŞ-da, Rusiyada və İsraildə yaşayırlar. Onların ümumi sayı 14 milyon ətrafındadır.

Erməni qriqoryan məzhəbi yalnız ermənilərin qəbul etdiyi məzhəbdir. Dünyada dindar ermənilərin sayı 6 milyona qədərdir. Qriqorian kilsələri terrorizmə, separatizmə, kütləvi qırğınlara rəvac və fitva verirlər. Müsəlman məscidlərində isə bu kimi hallara yol verilmir. Əksinə, vəhdət namazları qılınır, insanpərvərlik və humanizm təbliğ olunur. Məhz bu mənada Azərbaycan dünyanın ən sivil və tolerant ölkəsidir, qeyri-müsəlman dinlərinə yüksək səviyyədə dözümlülük göstərən nümunəvi respublikadır. Müxtəlif dinlərə etiqad edən insanlara əsrlər boyu ərazisində yer verən Azərbaycanda vicdan azadlığı maksimum dərəcədə təmin edilib, dinlərarası dialoq və münasibətlər yüksək səviyyədə qurulub.

*Materialın hazırlanmasında internet resurslarıdan istifadə olunub.*



**Emin Orucov,**
**Aİİ-nin əməkdaşı**

# SOSİAL-PSİXOLOJİ VƏ DİNİ DÜŞÜNCƏ SİSTEMLƏRİNDƏ DİNDƏYİŞDİRMƏ

***Müasir dövrün ictimai və dini problemlərini diqqətə aldığımız zaman, bir sıra tədqiqat sahələrinin bu işə cəlb olunduğunu görə bilərik. Bunlardan biri də dini mövzuların tədqiq edilməsidir. Belə ki, qloballaşma prosesində kənar təsirlərə məruz qalan sahələrdən biri elə dinin özüdür. Bununla yanaşı, dinlərin qloballaşması da yeni problemləri ortaya çıxarmış olur. Burada dinlərarası dialoq, dinlərin toqquşması, yaxud mədəniyyətlərarası dialoq və mədəniyyətlərin toqquşması kimi həm ictimai, həm də elmi məsələlər qeyd edilə bilər.***

Din, Allah tərəfindən seçilmiş insanlara xoşbəxtlik yollarını göstərən, yaradılışlarındakı qayə və hədəfi, Allaha nə şəkildə ibadət ediləcəyini bildirən bir qanundur. Dinlər arasındakı fərqliliklərə baxmayaraq, birləşdikləri ən önəmli nöqtə insan ilə uca bir varlıq arasında müəyyən münasibətin varlığının qəbul edilmiş olmasıdır.

İnsan cəmiyyətdə yaşadığı üçün onun bir çox maddi və mənəvi ehtiyacları mövcuddur. İnsanın mənəvi tələbatlarından biri də onun dinə olan ehtiyacıdır. Bu da öz-özünə yaranmır, bir səbəbi vardır. Belə olduğu halda, insanın doğuşdan təbii bir din ehtiyacı ilə dünyaya gəldiyini və dini fəaliyyətinin təməlində də səbəb olaraq bu fikri irəli sürmək məntiqə daha uyğundur. Dinə olan ehtiyac insan yarandığı gündən meydana gəlsə də, onun sonradan bu ehtiyacı artırıb-azaltması özündən asılıdır. İnsan inkişaf etdikcə, dinə olan tələbatı gündən-günə artar, əksini etsə, dinə bağlılığı azalar.

Bütün dinlərin əsasını inanc təşkil edir. Bəs insanlar nə üçün inanırlar? Niyə özlərindən daha güclü təbiətüstü bir qüvvənin varlığını qəbul edirlər? Bütün bu sualların bir cavabı vardır. Bu da hər bir insanın fitrətində uca bir varlıq inancının olması ilə əlaqədardır.

Bəzən insanlar inandıqları düşüncə sistemlərini dəyişə bilirlər. Buna psixoloji, sosioloji və digər səbəblər də təsir göstərə bilir.

İnsanın dindəyişdirməsinə təsir edən faktorlardan biri də psixoloji amillərdir. Dinin psixoloji təminsizliyinin fərdin dinini dəyişməsinə təsiri olduqca güclüdür. Fərd özündə meydana gələn hüzursuzluğu və gərginliyi aradan qaldıra bilmək üçün müxtəlif yollar axtarır. Belə olduğu zaman, fərd öz inandığı dinin əsaslarına qarşı şübhə etməyə başlayır. O, şübhələrini aradan qaldırmaq üçün araşdırmalara başlayır. Nəticədə, fərdi təmin edən rahatlığı başqa dində gördüyü üçün dinini dəyişir. Günahkarlıq duyğusu da insanın, bəzən dinini dəyişdirməsinə səbəb olur.

Fərd günahlardan xilas olmaq və həyatını, sanki yenidən başlamaq arzusu ilə də dinini dəyişə bilər. Bəzən isə fərd öz dindar yoldaşları tərəfindən neqativ hərəkətlərlə qarşılaşır. Bu onda həmin din mənsublarına qarşı ikrah hissi oyadır və fərd dinini dəyişmək qərarına gəlir. Bəzən isə dindəyişdirməyə başqa din nümayəndələri ilə edilən mübahisələr də təsir edir. Bu zaman fərd əks-tərəfin dəlillərini daha məntiqə uyğun görür və bu da ona psixoloji cəhətdən təsir etdiyi üçün həmin din nümayəndəsinin mənsub olduğu dini qəbul edir. Bəzi psixoloqlar isə dindəyişdirmədə İlahi müdaxilənin də rolunun olduğunu söyləyirlər.

Dindəyişdirməyə təsir edən amillərdən biri də sosioloji faktorlardır. Belə ki, fərd başqa dindən olan insanların müsbət davranışlarını gördüyü zaman, eləcə də fərqli dinə bağlı olan cəmiyyətdə yaşadığı dövrdə həmin cəmiyyətdəki insanlardan təsirlənərək dinini dəyişə bilər. Sosioloji cəhətdən dindəyişməyə ən çox təsir edən faktor isə evlənmədir. Tərəflərdən biri ailəsi naminə öz dinindən imtina edir və əks-tərəfin dininə keçir. İnsanların bəzisi isə dinini dəyişdirdiyi zaman maddi mənfəəti əsas gördüyü üçün daha xeyirli olan dini seçir.

Bütün bu psixoloji və sosial səbəblərə görə, dindəyişdirməyə qərar verən şəxs dinini dəyişdirməzdən əvvəl bir neçə mərhələ keçir. İlk mərhələdə fərd daxilən böhran yaşayır, daha sonra araşdırmalara başlayır. Ən sonda isə təslim olaraq yeni dini qəbul edir.

Səmavi dinlərdən olan Yəhudilikdə dindəyişmə ilə əlaqəli olan məfhumlar, əsasən, yəhudi inanclarına laqeydlik, onun əmrlərini pozmaq, eləcə də məcburi olaraq dinini dəyişdirmək mənalarını ifadə edir. Xristianlıqda isə bu amillər, ümumilikdə, kilsə əleyhinə çıxanlar üçün istifadə edilir. İslamda bu ifadələr, əsasən, Haqq olan İslamı tərk edir, başqa dinə yönəlmə

mənasını bildirir. Yəhudilikdə dindəyişdirmənin növlərini inanc əsaslarını qəbul etməmə və müqəddəs kitabları tənqid və ya inkar etmə şəklində bölmək olar. Xristianlıqda isə bunu doktrindən qaynaqlanan və qaynaqlanmayan şəklində araşdırmaq mümkündür.

İslam dininə görə, dindəyişdirmə növlərini insanların söz və ifadələrinə, eləcə də davranış və hərəkətlərinə görə bölmək olar. Bütün bu ümumi məlumatları nəzərdən keçirdikdən sonra, indi isə səmavi dinlərin dindəyişdirmə ilə əlaqəli hansı hökmlər verdiyinə nəzər salaq.

Yəhudi əqidəsinə görə, şəxs bu etiqaddan dinini dəyişsə belə, o, Yəhudilikdən çıxmaz. Ona verilən cəzaları isə iki qismə bölürlər: Tanrının onları cəzalandırması və dini qanunlara görə verilən cəzalar. Dinini dəyişən şəxs bütün hüquqlardan məhrum olur. Əgər tövbə etməsə, həmin şəxs daş-qalaq olunaraq öldürülər. Xristianlıqda isə dinini dəyişdirənlərə verilən hökmlər zamana görə fərqli olub. İlk dövrlərdə dinini dəyişdirənlərə mənəvi təzyiq edilirdisə, sonrakı dövrlərdə dindəyişdirmə cinayət hesab olunurdu. Bu şəxslərin malları əllərindən alınır, vəsiyyətləri etibarsız hesab olunur, vətəndaşlıqdan çıxarılırlar. Yəhudilikdə olduğu kimi, Xristianlıqda da dindəyişdirmənin hökmü ölümdür. Xristianlıqda ölüm hökmü tonqaldayandırma və ya edam şəklində tətbiq olunurdu. İslam dininə görə isə dindəyişdirmənin hökmü Quran və sünnəyə görə sabitdir. Qurani-Kərimdə dindəyişdirmənin qınanılmış bir hərəkət olduğu və bunu edənlərin axirətdə cəzalandırılacağı qeyd olunur. Açıq bir şəkildə isə dinini dəyişdirənə bu dünyada hansı cəzanın veriləcəyi bildirilmir. Dinini dəyişdirənə veriləcək cəza isə hədislərlə sabitdir. İslam hüquqçuları dinini dəyişdirən şəxsə ölüm cəzasını vermə məsələsində ittifaq ediblər. Burada iki məsələ vardır. Bunlardan biri mürtədin öldürülməsi məsələsində, digəri isə mürtədi öldürməzdən əvvəl tövbə etmək imkanının verilib-verilməməsi məsələsidir. Ümumilikdə götürsək, İslam dininin əsas məqsədi insanın dinini dəyişsə belə, tövbə edərək geri qayıtmasını istəməsidir.

Bəzi fəqihlər qadın və ya kişi olmasından asılı olmayaraq, dinini dəyişdirən hər kəsin cəzalanmasını məqbul görsə də, bir qism yalnız kişilərin cəzalana biləcəyi görüşünü müdafiə edib. Beləliklə, hər üç səmavi dində dindəyişdirmənin böyük günah olduğunu, dinini dəyişdirənlərin həm bu dünyada, həm də axirətdə cəzalandırılacağını görürük.

Hər bir insan yaşadığı mühitdən asılı olmayaraq, xoşbəxt olmaq istəyir. Bəziləri xoşbəxtliyi maddi olan amillərdə, bəziləri isə mənəvi olan şeylərdə görür. İnsanların da din dəyişdirməsinin səbəbi kimi, mənəvi



cəhətdən özlərini zənginləşdirmək üçün atılmış bir addım olduğunu düşünməliyik.

Təbii ki, dindəyişdirmədə psixoloji və sosioloji səbəblər də az rol oynamır. Səbəbindən asılı olmayaraq, dindəyişdirmə hadisəsi hər bir cəmiyyətdə və hər dövrdə baş verib. Bu hərəkət hər bir din tərəfindən tənqid olunan və cəzaya səbəb olan bir hadisə olsa da, bir şeyi unutmamalıyıq ki, dinini dəyişdirən şəxs özünü yeni dinində rahat hiss etdiyi üçün bu hərəkətə rəvac verir.

Müasir dövrümüzdə insanların başqa dinlərlə də tanış olması üçün hər cür vasitələr mövcuddur.

XXI əsr qloballaşan dünyada insana verilən azadlıqlar, sərbəst düşünmə fərdlərə hansı dində olmasından asılı olmayaraq, dinlərini dəyişdirməyə imkan verir. Son dövrlərə diqqətlə nəzər yetirsək, görərik ki, Yəhudilik və Xristianlıqdan ayrılıb, İslam dinini qəbul edənlərin sayı gündən-günə artır. Bu, insanların İslam dininə olan marağından və xilasolmanın yalnız bu din ilə baş verəcəyi düşüncəsindən irəli gəlir. Təəssüflə onu da qeyd etməliyik ki, qərbli missionerlərin apardıqları təbliğat nəticəsində də İslamı tərk edənlərin sayı az deyildir. Bu, əsasən, onların başqa dinlərdə xoşbəxtliyi tapması kimi düşünülməməlidir.

İnsanların İslamı tərk etməsinin əsas səbəblərindən biri maddi mənfəətdir. Digər səmavi dinlərdə – istər Yəhudilik, istər Xristianlıq olsun, hal-hazırda din dəyişdirdiklərinə görə hər hansı bir cəza tətbiq olunmur. İslam dininə gəldikdə isə müsəlman dövlətlərinin əksəriyyəti şəriət qanunları ilə idarə olunmadığına görə, dinini dəyişdirən insanlara hər hansı cəza tətbiq olunmur. Son olaraq onu da qeyd edək ki, dinini dəyişdirən şəxsə bu dövrdə cəza verilməsə də, axirətdə Allahın qarşısında etdiyi bütün əməllərinə görə mütləq hesab verəcəkdir.



**Orxan Abışlı,**
**AİI-nin III kurs tələbəsi**

# Azərbaycan Xalq Cümhuriyyəti dövründə din tədrisi

XX əsrin əvvəllərinə baxdığımız zaman, bu dövrün gərgin siyasi hadisələrlə dolu olduğunu görə bilərik. Belə gərgin ictimai-siyasi şəraitdə Çar hökuməti bəzi güzəştlərə getməyə məcbur olmuşdu. Buna görə də 4 mart 1906-cı ildə "Cəmiyyətlər və ittifaqlar haqqında müvəqqəti qaydalar" təsdiq olundu. Bu fərmandan sonra Şimali Azərbaycanda mədəniyyət, maarifləndirmə istiqamətində canlanma baş vermişdi. Sözügedən sahədə atılan hər bir addım milli-siyasi şüurun oyanmasına təkan verirdi və bu məqsədlə də müxtəlif adlar altında bir sıra milli ictimai təşkilatlar yaradılırdı. Əslində, milli ictimai təşkilatların yaradılmasının əsas hədəfinə baxdıqda, Azərbaycan dilinin inkişafı, Azərbaycan dilində savadın yayılması, milli məktəblərin açılması, din və azərbaycançılıq uğrunda aparılan siyasi-mədəni mübarizə və s. bu kimi məsələlərin qarşıya qoyulduğunu görərik.

Bu dövrdə fəaliyyət göstərən milli ictimai təşkilatların Nizamnaməsində Azərbaycan dilinin və ədəbiyyatının inkişafı məqsədilə bir çox layihələrin həyata keçirilməsi, əhali arasında dini xurafatın aradan qaldırılması, İslam dininin düzgün təbliği üçün ruhani məktəb və mədrəsələrin əsaslı şəkildə dəyişdirilməsi və yenidən qurulması, kitabxana və qiraətxanaların təşkili, xalqın mütaliəsi üçün Azərbaycan dilində kitablar, dərsliklər, həmçinin pedaqoji vasitələrin çap etdirilməsi və s. layihələrin icrası nəzərdə tutulurdu.

XX əsrin əvvəllərində milli-ictimai təşkilatların Azərbaycandan kənarda həyata keçirdiyi ən böyük uğurlardan biri də Azərbaycan milli məktəblərinin açılması idi. Azərbaycan milli məktəbləri adlanmanın səbəbi isə bu yeni tipli təhsil ocaqlarının Azərbaycan ziyalılarının təşkilatçılığı və sahibkarlarının maliyyə dəstəyi ilə yaradılması idi. Rusiya imperiyasının bir çox şəhərlərində açılan bu məktəblərdə azərbaycanlı uşaqlarla yanaşı, digər müsəlman uşaqları da təhsil alırdılar. Milli məktəblərin bir qismində qeyri-müsəlman uşaqlar da təhsil ala bilirdilər (erməni uşaqları kimi).

Bu mövzuda isə təbii ki, AXC dövründə mövcud olan din tədrisindən danışacağıq. Əslində, AXC-nin ilk hədəfi ordu qurmaq olub. Çar Rusiyasına baxdığımız zaman görürük ki, müsəlmanlar orduya çağırılmır və yüksək dövlət vəzifələrinə yaxın buraxılmırdılar, yalnız dinlərini dəyişdirmələri şərti ilə hərbdə, universitetlərdə vəzifə tuta bilirdilər.. Bu səbəbdən, Cümhuriyyət dövlət vəzifələrində işləyəcək kadrları yetişdirmək üçün təhsilə böyük əhəmiyyət verirdi. Ali məktəblər və institutlar açıldı. 1919-cu ildə Bakı Dövlət Universiteti fəaliyyətə başladı..

AXC dövründə tədrisin dili Azərbaycan türkcəsində aparılırdı. XIX əsrdən etibarən yeni üsullara uyğun məktəblər yaranırdı. Əsas məsələ o idi ki, Cümhuriyyət dövründə dünyəvi təhsil verən məktəblərlə yanaşı, dini təhsil verən mədrəsələr də öz fəaliyyətlərini davam etdirirdi.

Bu dövrdə də çarlıq dövründəki kimi, din tədrisi verən və verməyən məktəblər ayrı deyildi. Bütün ibtidai və orta məktəblərdə din tədrisi proqramda yer alırdı. Bunlar dövlət məktəbləri idi. Bir də şeyxülislamlığın nəzarətində olan, klassik formatda tədrisini davam etdirən məktəb və mədrəsələr də mövcud idi. Nəticə etibarilə, müasir dövrümüzdəki kimi düşünməməliyik: yəni dövlətin orta məktəblərində din tədrisi yoxdur, din tədrisi xüsusi mədrəsələrdə, bəzi özəl liseylərdə yer alır. İstər çarlıq dövründə, istərsə də AXC-də belə bir qruplaşdırma yox idi. "Məktəb varsa, din tədrisi də var" prinsipindən çıxış edə bilərik.

XX əsrin əvvəllərində maarif sahəsində heç bir dəyişiklik aparılmadı. Həmçinin bu dövrdə ibtidai məktəblərin sayı kifayət qədər deyildi və bu say daha da azalmağa doğru gedirdi. Belə vəziyyətin meydana çıxmasının əsas səbəbləri, əsasən, məktəblərdə dərslərin keçirilməsinə lazımi şəraitin olmaması, müəllim kadrlarının, bina və dərs vəsaitinin çatışmazlığı və s. bu kimi digər səbəbləri göstərə bilərik.

XX əsrin əvvəllərində azərbaycanlılar üçün nəzərdə tutulan rus-tatar məktəblərinin mövcud olması Bakı quberniyasında təhsilin nisbətən yayılmasına kömək edirdi. Nə

qədər himayə olsa da, öz varlığını qoruyub-saxlamış olan məktəblər əhalinin təhsilə olan tələbatını ödəmək üçün kifayət etmirdi, bu da xalq arasında savadsızlığın kütləvi hala çevrilməsi demək idi.

Qafqaz Təhsil İdarəsi qəyyumunun 1903-cü ilə aid olan hesabatına nəzər yetirsək, görərik ki, İrəvan quberniyasının bütün ibtidai məktəblərində 92,4% hallarda dərslər rus dilində aparılır, məktəblərin yalnız 7,6%-də şagirdlərə Ana dilində dərs keçirilirdi.

1902-ci ildə Bakı quberniyasında ibtidai məktəblərin sayı 209, bu məktəblərdə təhsil alan şagirdlərin sayı isə 3141 nəfər idi. 1903-cü ildə isə bu rəqəm aşağı enərək, məktəblərin sayı 151, burada təhsil alan şagirdlərin sayı isə 2 761 nəfər olub.

XX əsrin əvvəllərində Azərbaycanda, həmçinin, o cümlədən Bakı quberniyasında bütün yaş qrupları arasında, həmçinin məktəbyaşlı uşaqlar arasında savadsızlıq baş alıb gedirdi. Bunun qarşısını almaq üçün dövlət heç bir addım atmırdı. 1905-ci ildə qeyd olunurdu ki, Bakı quberniyasında Xalq Maarifi Nazirliyinin ibtidai məktəblərində yer çatışmazlığından 1623 uşağın qəbulundan imtina edildi..

1916-cı ildə Tiflis şəhərindəki "Əli və Ömər" məktəbində ilk dəfə olaraq tədris türk dilində aparılmağa başlandı. Tədrisin Ana dilində olması və tədris planında yeniliklərin aparılmasına yer verildi. Bu məsələ mətbuatda tədris dili haqqında diskussiyaların başlamasına səbəb oldu. Məhəmməd Əmin Rəsulzadənin "Açıq söz" qəzetində "Məktəb və mədrəsə" adlı silsilə məqalələri dərs olunmağa başladı. Bu adla tanınan tədris müəssisələri məscidlərə və dini idarələrə tabe idilər. Məktəblərdə yalnız Ana dili və şəriət, mədrəsələrdə isə gələcək din xadimlərinə zəruri olan fənlər – 



fars və ərəb dilləri, ilahiyyat fənləri keçirilirdi. Böyük maarifçi Ömər Faiq Nemanzadə "Diləklərimiz" adlı məqaləsində yazırdı ki, rus dili rəsmi dil olduğundan onu öyrənmək lazımdır. Milli məktəblərdə tədrisin dili doğma dildə aparılmalıdır. Ərəb dilində dini və dünyəvi fənləri öyrənmək bizim inkişafımızın 500-600 il arxaya atılması demək idi. Ömər Faiq digər məsələyə də toxunmuşdu: layihəyə görə, "Əli və Ömər" məktəblərində dini dərslər çox olduğundan, dünyəvi dərslərin sayının artırılması tələb edilirdi.

AXC-nin milli təhsil siyasəti ölkədə milli kadrların hazırlanmasında əsaslı təməl yaradılmasına hesablanmışdı. Bununla bağlı olaraq, AXC Xalq Maarifi Nazirliyinin 28 avqust 1918-ci il tarixli qərarında göstərilirdi:

a) Bütün ibtidai məktəblərdə tədris Ana dilində aparılsın. Türk dili məcburi və gücləndirilmiş şəkildə öyrədilsin.

b) Ali ibtidai və orta təhsil müəssisələrində dərslər türk dilində aparılsın.

c) Digər erməni və rus dillərində aparılan dərslər ləğv edilsin.

d) Həmin tədris müəssisələrinin birinci və ikinci siniflərində dərslər türk dilində aparılsın.

e) Beşinci sinifdən başlayaraq sona qədər dərslər rus dilində aparılsın.

f) Bütün orta məktəblərdə qeyri-müsəlman tələbələri üçün dini dərslərin yerinə din dərslərinin tədrisinə imkan yaradılsın.

AXC-nin təhsil sahəsində atdığı ən uğurlu addımlardan biri də məktəblərin milliləşdirilməsi sayılmalıdır. Milli hökumət təhsildə milliləşdirmə sahəsində işlərə Fətəli xan Xoyskinin imzaladığı "İbtidai, ali ibtidai və ümumi orta təhsil müəssisələrinin milliləşdirilməsi haqqında" 28 avqust 1918-ci il tarixli qərarı ilə başladı.

AXC hökumətinin ümumtəhsil müəssisələrinin milliləşdirilməsi sahəsində apardığı siyasət və həyata keçirdiyi tədbirlər nəticəsində 1919-cu ilin rəsmi məlumatlarına əsasən, Bakı politexnik və kommersiya məktəbləri, iki kişi və üç qız gimnaziyası istisna olmaqla, bütün orta məktəblər milliləşdirildi.

Araşdırmalara görə, 1919-1920-ci illərdə Azərbaycanda 643 ibtidai və 23 orta məktəb fəaliyyət göstərirdi. İbtidai məktəblərdə 48070, orta məktəblərdə isə 9611 şagird təhsil alırdı. Milliləşdirmə siyasətinə uyğun olaraq müsəlman şagirdlərin sayının artması müşahidə edilirdi.

Bu dövrdə dünyəvi məktəblərlə yanaşı, dini məktəblər də fəaliyyət göstərirdi. Dünyəvi məktəblər, əsasən, dövlət məktəbləri idi və din tədrisi də tədris planında yer alırdı. Dini məktəblər isə klassik məktəb-mədrəsə sistemi idi. Ümumiyyətlə, məktəblərin dini və dünyəvi adlandırılmasının səbəbləri: din elmlərinə yer verildiyində dini məktəb; tədris planında, əsasən, digər fənlərə və bir dərs kimi din tədrisinə də yer verildikdə dünyəvi məktəb adlanırdı.

Belə ki, hələ 1907-ci ildə Bakıda "Səadət" Müsəlman Ruhani

Cəmiyyəti tərəfindən məhəllə mollalarının hazırlanması üçün ümumi və dini təhsil verən məktəb açıldı. 1919-cu ildə məktəbdə 5 sinif mövcud idi: hazırlıq sinfi, üç böyük hazırlıq sinfi və bir birinci sinif. Hazırlıq sinfinin və böyük hazırlıq siniflərinin proqramlarına diqqət yetirsək, görərik ki, burada daha çox şəhər türk məktəblərinin proqramlarına üstünlük verilirdi. Birinci sinfə gəldikdə isə burada ərəb, fars və alman dilləri nəzərə alınmadan ali ibtidai məktəblərin birinci siniflərinin proqramına uyğun gəlirdi. Bu minvalla, "Səadət" məktəbində aşağıdakı fənlər tədris edilirdi: İlahiyyat, Türk, Ərəb, Fars, Rus, Alman dilləri, Hesab, Coğrafiya və Təbiətşünaslıq. Tədris sistemi bütün siniflərdə fənlər üzrə idi. Məktəbdə 7 müəllim işləyirdi. Onlardan biri müdir vəzifəsini daşıyırdı, təhsil isə pulsuz idi. 1919-cu ilə nəzər yetirəndə burada 123 şagirdin oxuduğunu görə bilərik. "Səadət" məktəbi müsəlman ruhani cəmiyyətinin Mövlud, Qədir-Xum, Ramazan və Qurban bayramlarında (ianələr pul şəklində deyil, həm də qurban kəsilən heyvanın əti, dərisi və s. ilə də toplanırdı) yığdığı ianələr hesabına öz mövcudluğunu saxlayırdı. Həmçinin məktəb Bakı Dumasından ildə 3000 manat müavinət alırdı.

Bir maraqlı məsələni qeyd etmək lazımdır ki, AXC dövründə əvvəlki illərdən fərqli olaraq, xalqın təhsilə marağı artdı. Əsas səbəbi təhsilin milliləşdirilməsi idi.  Xalqımız heç vaxt təhsilə, elmə laqeyd yanaşmayıb. Bunu məktəb-mədrəsə sisteminin geniş miqyasda inkişaf etməsində  müşahidə edirik. Çarlıq dövründə tədrisin ana dilində olmaması, qeyri- müsəlmanların tədrisi inkişaf etdirməsi, müsəlman olmayan şagirdlərlə müsəlman şagirdlərin bir sinifdə oturması və ən əsası İslam tədrisinin bəzi məktəblərdə tamamilə olmaması və ya lazımi səviyyədə aparılmaması və s. xalqın dövlət məktəblərindən üz döndərib uşaqlarını məktəb-mədrəsəyə göndərməsinə səbəb olub. Xalq məktəbləri müfəttişlikləri kənd icmalarından onların kəndlərində məktəb açmaq üçün vəsatət alırdılar. Bir çox kənd icmaları, hətta məktəbin bütün xərclərini öz üzərinə götürürdü.

Bu dövrdə təhsilə maraq çox olsa da, iqtisadiyyatın bərbad hala düşdüyü vəziyyətdə məktəblər üçün bina çatışmazlığı mövcud idi. 1919-cu ilin oktyabrında Gəncə qəzasının I nahiyəsində 88 məktəbdən, ancaq 14-ü dövlət binalarında, 24-ü bağışlanılmış xüsusi və ya ictimai binalarda (kənd idarələrinin, məscidlərin binalarında), 50-si isə icarəyə götürülmüş binada yerləşirdi.

Orta təhsil müəssisələrinin əlifba və hazırlıq siniflərində İlahiyyat yerinə Din tədrisi, Türk dili, Hesab, Rəsm, Nəğmə, İdman, Əmək kimi fənlər tədris edilirdi. Qadın müəssisələrində isə Tikmə dərsi keçirilirdi. Birinci üç sinifdə İlahiyyat, Türk dili, Riyaziyyat, Tarix (ikinci sinifdən), Coğrafiya, Alman dili, Fransız dili (ikinci sinifdən), Tarix, Rəsm, Hüsnxətt (ancaq birinci sinifdə), İdman, Nəğmə, Əmək (tikmə) fənləri aparılırdı.

Bu dövrdə Bakı Kommersiya (ticarət) Məktəbi də uğurla fəaliyyət göstərirdi. Burada aşağıda göstərilən fənlər – Türk, Fransız, Alman, Rus və erməni dilləri; Təbiətşünaslıq, Coğrafiya, İlahiyyat, Qanunşünaslıq, Musiqi və Nəğmə, Siyasi iqtisad, Tarix, Riyaziyyat, Fizika, Kimya, Ticarət hesabı, Yazışma, Kosmoqrafiya, Mühasibat öyrədilirdi.

Digər orta təhsil müəssisələrində olduğu kimi, kommersiya məktəbində də milliləşdirmə siyasəti uğurla həyata keçirilirdi. 1918-ci ildə burada müsəlman uşaqları üçün tədris türk dilində aparılır və hazırlıq sinifləri açılırdı.

Ümumi olaraq AXC-nin maarif, təhsil, elm və mədəniyyət sahəsində apardığı tədbirlərə baxsaq, nəzərdə tutulmuş fəaliyyətləri görə bilərik:

a) Azərbaycanda fəaliyyət göstərən maarif müəssisələrinin qısa müddət ərzində milliləşdirilməsi.

b) Ölkədə tədrisin, əsasən, dövlət dilində – Azərbaycan türkcəsində aparılması.

c) Ümumi icbari təhsilə keçilməsi.

d) Ölkənin idarə olunması və iqtisadi müstəqilliyin təmin olunması üçün milli mütəxəssislərin hazırlanması.

e) Ana dilində təhsilin, maarifin inkişafı, əhali arasında savadsızlığın aradan qaldırılması.

XX əsrin ikinci onilliyində əsası qoyulan Azərbaycan Xalq Cümhuriyyəti hökuməti azərbaycanlı maarifçilərin uzun illər təbliğ etdikləri fikirləri həyata keçirməyə başladı. Əslində, biz bu dövrü Azərbaycanın təhsil sisteminin inkişafı tarixində xüsusi olaraq qeyd etməliyik. AXC-nin milli təhsil sisteminin yaradılması istiqamətində atdığı ən mühüm addımlardan biri Azərbaycan dilinin dövlət dili elan edilməsi, anadilli tədrisin dövlət səviyyəsində kütləviləşdirilməsi, ana dilində dərsliklərin nəşr etdirilməsi ilə nəticə verdi. Həmçinin din sahəsi üçün böyük töhfə olaraq yeni qəbul edilmiş "İbtidai, ali ibtidai və ümumi orta təhsil müəssisələrinin milliləşdirilməsi" nəticəsində ibtidai və orta təhsil məktəblərində İlahiyyat fənləri, həmçinin ərəb dilinə də əhəmiyyət verilirdi. Bu mövzu bir məqaləyə sığmayacaq dərəcədə genişdir.



Ələddin Məlikov,
f.f.d., dos.,
Aİİ-nin müəllimi

# SƏDRƏDDİN ŞİRAZİ - Şərqdə transsendental fəlsəfi fikrin banisi

Sədrəddin Şirazi (1571-1640) Şərq-İslam fikir tarixində öz fəlsəfi və teosofik baxışlarının orijinallığı ilə tanınan filosofdur. Məhəmməd ibn İbrahim Qəvami Şirazi, həmçinin "Sədra", "Molla Sədra", "Sədrül-mütəəllihin", yaxud "Sədrəddin Şirazi" adları ilə məşhur olmuş, hicri-qəməri tarixi ilə X və XI əsrlərdə yaşamışdır. S.Şirazi tanınmış və böyük ailənin yeganə oğlan övladı olmuşdur. Atası Şiraz şəhərində məhkəmə vəzifələrində və sarayda çalışmış, həmçinin Səfəvi şahlarının vəziri olmuş, dəyanət, fəzilət və xeyirxahlıqları ilə ad qazanmışdır. Onun atası – Xacə İbrahim ibn Yəhya Qəvami varlı farslar yaşayan məhəllədə hökumətin icra nümayəndəsi və nazirlik işləri ilə məşğul idi. Övlad nemətindən məhrum olan İbrahim ibn Yəhya uşaq arzusuna çatmaq üçün nəzir, sədəqə, dualar edir və Allahdan ona kömək etməsini diləyirdi. İllər sonra onun bu övlad intizarı fəxarətli oğlan uşağı ilə sona çatdı. Uşağın adını Məhəmməd qoydu ki, bəlkə bir gün fəlsəfə, fəqihlik və dinin mütəfəkkiri taxtına otursun. Körpəyə "Sədrəddin" ləqəbini verirlər. Sonralar "filosoflar məclisinin başçısı", "mütəkəllimlərin rəisi" və "sədrül-mütəllihin" adlarını qazanır. Hazırda ona "Sədrəddin Şirazi", yaxud "Molla Sədra" adı ilə müraciət edirlər.

Həmin zamanlar Şiraz özünün sakit və xoşbəxt dövrlərindən birini yaşayırdı. Oranın hakimi Səfəvilər sülaləsindən olan Məhəmməd Mirzə Xudabəndə (II Şah İsmayılın qardaşı) din, elm və hünər sahibi idi. Buna görə Xacə İbrahim Qəvami (S.Şirazinin atası) hökumət aparatında və həmçinin camaat arasında xüsusi hörmət və nüfuza sahib idi. S.Şirazi ailə və sosial cəhətdən uyğun şəraitin olmasından əlavə, özü də istedadlı və dərrakəli uşaq idi və müdrikliyi günəş kimi nur saçırdı. Elə uşaq yaşlarından atasını öz heyranedici istedadı ilə gələcəkdə elmi və ictimai cəhətdən özünə yüksək mövqe tutacağına ümidvar etmişdi. Həmin dövrü izah edənlər yazırlar ki, atası evdə olmadığı zamanlarda ailənin maddi və daxili işlərini ona tapşırması Şirazinin yüksək ləyaqət və işin öhdəsindən gəldiyini göstərir.

S.Şirazi atasının və onun üçün seçilmiş ustadlarının köməyi ilə fars və ərəb ədəbiyyatlarını öyrəndi. Bu onun əsərlərində özünü göstərməkdədir. Ədibin kitablarının bəzi yerlərində Quran ayələrini dərindən bilməsi aşkar şəkildə görünür. Ümumiyyətlə, hər elmi tədqiqatçı fars və ərəb ədəbiyyatlarını öyrəndikdən sonra tədris ocaqlarına üz tutur. Buna uyğun olaraq S.Şirazi də uşaqlıq və yeniyetməlik dövründə o zamanın ən məşhur tədris ocaqlarında oxumuş, şəriət hökmlərinin və ictihadın qayda və qanun elmləri olan məna, bəyan, bədi, üsul, fiqh, hədis, rical elmlərinə yiyələnmişdir. "Şərhe hikmətül-işraq Sührəvərdi" kitabının müəllifi və işraq fəlsəfəsinin ardıcıllarından olan mütəkəllim və filosofların ustadı Qütbəddin Şirazi Şiraz elm hövzəsində güclü nüfuza sahib idi. Bu, Sührəvərdinin və Qütb Şirazinin şərhi "Hikmətul-işraq" kitablarının orada tədris olunduğunu göstərir. Burada, xüsusilə məntiq, kəlam və fəlsəfə kimi əqli elmlər əsas dərslərdən hesab olunurdu. Şiraz elm ocağı Xacə Nəsirəddin Tusinin şagirdləri Nəcməddin Qəzvini (Nəcməddin Qəzvini, eləcə də Katibi Qəzvini kimi də tanınmışdır) (1203- 1277) və Qütbəddin Şirazi (Qütbəddin Mahmud ibn Məsud Şirazi (1236- 1321) kimi böyük şəxsiyyətlər yetirmişdir. Orada riyaziyyat və astronomiya kimi elmlərin geniş yayılması vurğulanır. Şübhəsiz, S.Şirazi də bu ustadlardan fəlsəfə və rasional elm sahələrində yararlanmışdır. S.Şirazi "Əsfar" kitabının girişində belə yazır: "Yeniyetməlik və cavanlıq dövrümün qüdrət və bacarığını İlahi fəlsəfəni öyrənmək üçün xərclədim". Buradan məlum olur ki, o, öz təhsilinin əvvəlində fəlsəfəni öyrənməyə başlamışdır. S.Şirazi atasının ölümündən sonra İsfahana gedir, Şeyx Bəhai və Mir Damad kimi müəllimlərin elmini mənimsəyir.

### S.Şirazinin elmi həyatının mərhələləri

S.Şirazinin elmi həyatını üç mərhələyə bölmək mümkündür:

1) Şagirdlik və mütaliə mərhələsi. Bu dövrdə Şirazi bütün fəlsəfə və əqaid elmlərinin, işraq, məşa filosof, dəlil və cədəl mütəkəllimlərinin fikir və düşüncələrini öyrənmişdir. Buradan görünür ki, Şirazi ömrünün çox hissəsini bu mərhə-



ləyə sərf etmiş və bütün bu qanunları və təfəkkürləri diqqətlə araşdırmışdır. Sonda bütün vaxtını sərf etdiyi bir çox fikirlərə ehtiyac hiss etməmiş, daha mühüm təşəbbüs və məsələlərə zaman sərf etmişdir.

2) İkinci mərhələdə siyasi, ictimai və elmi təzyiqlər nəticəsində S.Şirazi İsfahanı tərk etməyə məcbur olur, Qum şəhərinin yaxınlığında yerləşən Kəhək kəndində həyatını yenidən qurur. O, bu sakit və aram mühitdə öz nəfsi ilə mübarizə apararaq feyz əldə edir, fikir və düşüncələrini təkmilləşdirməyə başlayır.

3) Ədib üçüncü mərhələdə kitab və elmi əsərlər yazmışdır. Bu dövrdə öz fikir və düşüncələrini qruplaşdıraraq, onların yazılmasına başlamışdır. Şirazinin ən məşhur kitabı olan "Əsfar ul-ərbəə" ikinci mərhələnin sonları və üçüncü dövrün əvvəllərinin məhsuludur.

### S.Şirazinin müəllim və şagirdləri

S.Şirazinin müəllim və ustadları: Şeyx Bəhai (1547-1621, nəqli elmlərdə); Mir Damad (969-1040 hicri-şəmsi, əqli elmlərdə); Mir Fendereski (1562-1640, əqli elmlərdə).

Ədibin məşhur şagirdləri: Molla Əbdürrəzzaq Lahıci, Molla Möhsün Feyz Kaşani.

### Şirazinin məşhur əsərləri

S.Şirazinin bütün əsərləri çox dəyərlidir. Bu kitablar özündənsonrakı filosof, arif və mütəkəllimlərin müraciət etdikləri kitablar olmuşdur. Ədibin yazıları çox aydın və səlisdir. Bu onun əsərlərinin digər əsərlərə nisbətən daha çox oxunmasına səbəb olmuşdur. Burada onun ən mühüm əsərlərinin adlarını xülasə şəklində qeyd edirik:

1. **"Əl-hikmətül mütəaliyə fil əsfaril əqliyyətul ərbəə".** Kitab S.Şirazinin ən məşhur əsəridir. Əsərin əhəmiyyətini artıran onun ensiklopedik xarakterə malik olması və transsendental fəlsəfə cərəyanını ehtiva etməsi səbəbindəndir. Ədibin digər əsərləri bu kitabın qollarından hesab edilir. S.Şirazinin özü bu kitabın əvvəlində qeyd edir ki, arifın kamala çatması üçün onun dörd mərhələdən keçməsi vacibdir. Bu mərhələlər aşağıdakılardır:

1) Xəlqdən-Haqqa səfər: Yəni, özündən Allaha doğru səfər etmək (ümumi işlərdə);

2) Haqda Haqdan-Haqqa səfər, yəni Allah-Taalanın daha çox tanınması üçün səfər (təbii işlərdə);

3) Haqda Haqdan-Xəlqə səfər, yəni varlıqlara yenidən qayıdış (ilahi elmdə);

4) Haqda Xəlqdən-Haqqa səfər, yəni Allah-Taalaya yenidən qayıtmaq (nəfs elmində).

Rasional yolla səadətə çatmaq istəyən şəxs bu dörd mərhələni keçməlidir. Bu kitabda qeyd edilən dörd mərhələ haqqında təfərrüatlı məlumat verilir.

2. **"Əl-məbdə vəl məad".** Bu, fəlsəfi bir əsərdir. Əsasən, Allahı tanıma və məad haqqındadır. Bu kitab iki hissəyə bölünür; birinci hissə rübubiyyət, ikinci bölüm məad haqqındadır. Molla Hadi Səbzəvari, Əllamə Zunuzi və Əllamə Təbatəbai kimi müxtəlif şəxslər ona şərh yazmışlar.

3. **"Əl-şəvahidil rübubiyyə fil mənahicil slukiyyə"** irfani yolla yazılmış fəlsəfi kitabdır.

4. **"Əl-məşair".** Bu kitab vücud, vücudun əsl və mahiyyətinin etibarlı olmasının, onun başlanğıc və əqli əlamətlərinin isbatı haqqındadır.

5. **"Əl-hikmətil ərşiyyə".** S.Şirazinin başlanğıc və məad barəsində fikir və düşüncələrinin xülasəsidir.

6. **"Təliqate bər İlahiyyate şəfa İbn Sina".** Bu əsər tamamlanmamış və bu mövzu altıncı məqaləyədək davam edir.

7. **"Kəsrətil əsnamil cahiliyyə"** kitabı sufiliyin rədd edilməsi haqqındadır.

8. **"Təfsiril Quran".** Bu kitabda "Həmd", "Bəqərə", "Nur", "Cümə", "Yasin", "Həşr", "Vaqeə", "Səcdə", "Tariq", "Əla", "Zilzal", "Züha", "Talaq" və "Hədid" surələri təfsir edilmişdir.

9. **"Şərhi-üsuli-kafi"** əsəri "Üsuli-kafi" kitabının "İnnəl Əimmətə (ə) və lati əmrəllah" bölməsinədək olan hissəni ehtiva edir və tamamlanmamış qalmışdır. "Üsuli-kafi"nin şərhi kitabı S.Şirazinin ömrünün sonlarında qələmə alınmışdır. Bəziləri, hətta bu kitabı

onun sonuncu əsəri hesab edirlər. Bu kitab üsuli-kafi barəsində yazılan ən dəqiq araşdırmadır.

10. **"Məfatihul-ğeyb"** kitabı Şirazinin sonuncu əsəri və ən yaxşı təfsiri, Quran maarifi haqqında qələmə aldığı yazısıdır. Bu kitab onun təfsir əsərinə giriş hesab edilir.

## Şirazinin metodologiyası

Metodologiya düşüncə sahəsində epistemoloji müqəddimə və aksiomalar sırasındadır. Ümumi şəkildə zehni dünya həqiqətlərinin dərk və başa düşülməsi proseslərinin kəşfinə hazırlayır. Buna görə Şirazidən öncə olan həqiqətlərin kəşfi metodlarına diqqət etmək lazımdır ki, onun baxışı daha dəqiq aydınlaşsın.

Ədibdən öncə İslam dünyasında həqiqətin kəşfi üçün dörd müxtəlif metod var idi. Bu metodların hər biri digərini səhv hesab edirdi. Bu dörd metod aşağıdakılardan ibarətdir:

1. **İrfani metod.** Bu metodda həqiqəti-şühud və bütün aləmin qanunauyğunluqları öz nəfsi ilə mübarizə etməklə kəşf edilir; yəni ariflər inanırlar ki, isbat yolu ilə insan həqiqəti aydın və aşkar görə bilməz.

2. **Peripatetik metod.** Bu metod həqiqətə çatmaq üçün yalnız isbat və dəlil yolunu qəbul edir.

3. **İşraq metodu.** Bu metod dəlil və isbatdan əlavə, həqiqətə çatmaq üçün kəşf və şühudu da qəbul edir. Başqa sözlə, ibtida həqiqəti şühudla dərk edib, sonra xüsusi dəlil və sübutlarla bəyan etmək lazımdır.

4. **Quran və hədis metodu.** Bu metoda əsasən, ağıldan istifadə ilə deyil, Quranın və hədisin zahirinə istinad etməklə həqiqəti kəşf etmək mümkündür. Şirazinin irəli sürdüyü metod isə bu dörd qaydanın hamısını əhatə edərək, ortaq bir məxrəcə gətirmişdir. Bütün bu metodlardan istifadə etməklə həqiqətə çatmaq olar. Məsələn, "aləmin qanunauyğunluğunda səbəbiyyət" məsələsi bu dörd metodda müxtəlif şəkildə izah edilmişdir. Hər dörd metod eyni sözü deyir. Yaxud ən azından, bu dörd metoddan istifadə etməklə həqiqətə çatmaq mümkündür. S.Şirazi bu metodu "transsendental fəlsəfə" adlandırmışdır. Əlbəttə, bu termini ilk dəfə İbn Sina "İşarat" kitabının sonunda işlətmişdir. Qeyd etmək yerinə düşər ki, bu adlandırmada iki ehtimal mövcuddur:

1. Hikmətin sinonimi "yüksək" olarsa, riyaziyyat və təbiyyət müqabilində ilk fəlsəfədir.

2. Mütəaliyə hikməti dedikdə, xüsusi cərəyan nəzərdə tutulur ki, bütün qərinələr də bunu təsdiq edir. Mürtəza Mütəhhərinin çox gözəl ifadəsi vardır: "S.Şirazi fəlsəfəsi dörd metodu əvəz edir ki, dörd cərəyanı, yəni Aristotel və Sinanın peripatetik hikməti, Sührəvərdinin işraq hikməti, İbn əl-Ərəbinin ürfan və kəlamın məna və anlayışlarını bir- biri ilə birləşdirmiş və dörd çayı bir- birinə qovuşduraraq, daha coşqun və dalğalı çay əmələ gətirmişdir".

## Sədrəddin Şirazinin müstəqil fəlsəfi fikirləri

Sədrəddin Şirazinin ən böyük üstünlüyü ondadır ki, öz fəlsəfəsində müstəqil fikir irəli sürərək, fəlsəfəyə yenilik bəxş etmişdir. S.Şirazinin görüşləri İslam fəlsəfəsi tarixində unikal hadisədir. Onun fəlsəfəsində heç bir filosofun fikrinə bənzəməyən, hətta onları kölgədə qoyan xüsusi nizam, dəstxətt mövcuddur. Onun fəlsəfəsi möhkəm qayda-qanunlar üzərində qurulmaqla yanaşı, dəlillərə söykənmişdir. Mürəkkəb fəlsəfi məsələlərin həllində xüsusi riyazi üsullardan istifadə edən Sədrəddin Şirazi bu üsulları elə münasib formada tətbiq edir ki, hər bir məsələ özündənöncəkində isbat olunur. Məhz bu forma fəlsəfi mövzuların isbatı yollarını pərakəndəlikdən çıxarır. Çox təəssüfedici haldır ki, respublikamızda S.Şirazi fəlsəfəsinin bu cür uyğun isbat mexanizmi tədqiq olunub aşkara çıxarılmamışdır. Ümumiyyətlə, Şirazi fəlsəfəsinə səthi yanaşılmışdır. Onun banisi olduğu nəzəriyyələr qısa olaraq bunlardır:

1. Varlıq anlayışı (vücud məfhumu) məna cəhətdən omonimdir.
2. Varlığın əsl olmasına etiqad.
3. Kəsrətdə vəhdət və vəhdətdə kəsrət.
4. Möhtaclıq imkanı termininin yaradılması.
5. Nəticə möhtaclıq imkanı olduğundan səbəbə ehtiyacı vardır.
6. Səbəblə-nəticənin nisbəti.
7. Substansial hərəkət.
8. Nəfsin cismanı cəhətdən hadisliyi (başlanğıcı və sonu olan) və ruhi cəhətdən əbədi olması.
9. Düzgünlərin arqumenti (borhane-siddiqin) S.Şirazi fəlsəfəsində. S.Şirazi 9 cildlik "Əsfar" kitabının ¼ hissəsini yalnız "düzgünlərin arqumenti" və onun izahına həsr etmişdir.
10. Dərk edən, dərk edilən və idrakın vəhdəti konsepsiyası.

## Yekun

Sədrəddin Şirazi fəlsəfəsinin populyarlığı öz zamanından günümüzədək tənəzzül nə olduğunu bil- məmişdir. Onun fəlsəfi irsi XVIII-XIX əsrlərdə yenidən canlanmağa başlamış və sürətlə yayılmışdır. Müasir dövrdə dünyanın bir çox qabaqcıl universitetlərində onun fəlsəfi irsi tədris və tədqiq edilir. Əlalxüsus, onun transsendental fəlsəfəsi, dörd əsas səyahəti, substansial hərəkət nəzəriyyəsi, dərk edən, dərk edilən və idrakın birliyi konsepsiyası, varlığın əsliliyi və vəhdətdə olması, nəfsin yaranışı və qalması barədəki nəzəriyyələri barədə konfranslar keçirilir və tədqiqatlar aparılır.



**Mehman İsmayılov,**
**i.f.d.,**
**Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru**

# İslamofobiya: Qarabağ müstəvisində

İslamofobiya mövzusu XX əsrin sonlarına doğru aktuallaşsa da, bu gün, xüsusilə də Qərbdə yüksəlişdədir. Bu ifadə İslam və yunanca "phobos" sözlərindən törəyib. "Phobos" yunan mifologiyasında "dəhşət tanrısı"na verilən addır. İslama qarşı "ön mühakiməli olmaq və müsəlmanlara qarşı irqçilik etmək" deməkdir. Başqa cür desək, islamofobiya "İslama kin, nifrət və düşmənçilik bəsləmək, müsəlmanlara nifrət etmək" demək olan irrasional qorxunun adıdır. O, özünü daha çox müsəlmanlara qarşı mənfi davranışlar, ayrı-seçkilik, fiziki və sözlü hücumlar şəklində göstərir.

İslamofobiya dünya ədəbiyyatında qlobal problemi əks etdirən yeni qavramdır. Bu qavram 11 Sentyabr hadisələrindən sonra məşhurlaşsa da, əslində, islamofobiyanın köklərini bəzi tədqiqatçılar İslamın başlanğıcına qədər aparıb çıxarırlar. Belə ki, İslamın ortaya çıxdığı Məkkədə bütpərəstlər onu özləri üçün bir təhdid kimi görməyə başlamış və İslama qarşı hücumlar təşkil etmişlər.

İslamın xristianlar üçün yeni dini-siyasi düşmən halına gəlməsi Bizans imperiyasının hökmranlığı altında olan Yaxın Şərq və Şimali Afrikanın böyük bir hissəsinin VII-VIII əsrlərdə İslamın hakimiyyəti altına girməsi ilə başlamışdır. 732-ci ildə baş verən və xristianların müsəlmanlara qalib gəldiyi Puatye döyüşü Avropada tarixi baxımdan hələ də ən mühüm döyüş hesab olunur. Əndəlüsün (müsəlman İspaniyası) müsəlmanlar tərəfindən ələ keçirilməsi də islamofobiyanı gücləndirmişdir.



Orta əsrlərdə Qərb dünyasında İslam saxta din və Xristianlığın yeni növü kimi qiymətləndirilirdi. Tarixdə islamofobiyanı qüvvətləndirən amillərdən biri Səlib yürüşləri olmuşdur. Bəzi araşdırmaçılar isə islamofobiyanın tarixini İstanbulun türklər tərəfindən fəthi ilə başladırlar. İstanbul fəth olunarkən Şərqi Romadan qaçan bir səyyah belə deyirdi: "İstanbul türklərin əlinə keçdi və mədəniyyət bitdi. Yaxşılıq, gözəllik, incəsənət adına nə vardısa bitdi və günəş batdı. Dünyanın sonu gəlib çatdı".

Vaxt keçdikcə hər iki din mənsubları arasında qurulan münasibətlər islamofobiyanı zəiflətsə də, son illərdə, xüsusilə də 1980-ci illərdən başlayaraq yenidən dirçəlmiş və 11 Sentyabr hadisələrindən sonra ən yüksək dərəcəsinə çatmışdır. Dinlərarası və mədəniyyətlərarası ədavət orta əsrlərdə və sonrakı dövrlərdə davam etmişdir. Bu ədavət müxtəlif dövrlərdə artmış və azalmışdır. İslamofobiya məsələsinin son illərdə populyarlaşması onun tamamilə siyasi məqsədlər üçün ortaya atılmış olduğunu göstərir.

Amerikada yerləşən "Pew Research Center" tərəfindən keçirilən sorğu, ümumiyyətlə, dindarlıq barədəki qorxuların, xüsusilə də İslam haqqındakı qorxuların digər dinlərlə müqayisədə xeyli artdığını göstərir. Bir neçə il əvvəl aparılan bu sorğuda İslama mənfi baxışın

İspaniyada 52%, Almaniyada 50%, Polşada isə 46% təşkil etməsi Avropada İslam düşmənçiliyinin nə qədər yüksək olduğunu ortaya qoyur.

2019-cu ildə Fransada 1043, Almaniyada 871, Avstriyada 1 051, Finlandiyada 910, Belçikada 278 islamofobiyamənşəli cinayətlər törədilib.

İslamofobiyanı yaradan səbəblər hansılardır? Bu səbəblər təkyönlü, yoxsa çoxyönlüdürmü? Bu səbəbləri psixoloji, sosial-mədəni, siyasi, tarixi, dini, iqtisadi, medianın təsiri və s. kimi amillərə bağlayırlar. Ümumiyyətlə, islamofobiyanı ortaya çıxaran səbəbləri, əsasən, iki yerə ayırırlar. 1. Qərblilərdən, onların müsəlmanlara baxışından qaynaqlanan səbəblər. 2. Müsəlmanlardan qaynaqlanan daxili səbəblər.

Qərblilərdən qaynaqlanan səbəbləri miqrantlar, Avropada yüksələn populist siyasət, sağçı siyasətçilərin istifadə etdiyi islamofobik dil, media və s. kimi göstərmək olar. Müsəlmanlardan qaynaqlanan səbəblərə gəldikdə, onları bu şəkildə qruplaşdıra bilərik: tarix və mədəniyyətdən qaynaqlanan səbəblər, siyasi səbəblər, iqtisadi səbəblər, teoloji səbəblər, terrorlar və s. Son illərin hadisələri bir daha göstərir ki, dünyada artan islamofobiyanın kökündə əsas siyasi səbəblər durur. Bunu İkinci Qarabağ müharibəsi dövründə də gördük.

Ermənistan ilk gündən müxtəlif vasitələrdən istifaqdə edərək, müharibəyə "din donu", "mədəniyyət donu" geyindirməyə çalışdı. Özünü Qafqazda xristian mədəniyyətinin son qalası kimi təqdim edərək, müharibədə dönüş yarada biləcəyinə ümid bəslədi. Azərbaycan Dövlətinin uzun illər daxildə və xaricdə apardığı tolerant siyasət bu



ümidləri puça çıxartdı. Bununla yanaşı, Gəncə, Bərdə, Tərtər, Naftalan və s. kimi müharibə ərazisindən kənarda yerləşən şəhər və rayonlarımızda mülki əhaliyə qarşı ermənilər tərəfindən həyata keçirilən terrora dünya mediasının susması, bəzi xarici ölkələrin Azərbaycan Ordusunda, guya Yaxın Şərqdən gətirilən terrorçuların mövcudluğunu iddia etmələri, Azərbaycanın Haqq davasına uzun illər laqeyd münasibət və müharibə əsnasında bəzi Qərb siyasətçilərinin tutduğu mövqe islamofobiya ilə yaxından əlaqəlidir.

Uzun illər Azərbaycana məxsus dini abidə və ibadət evlərinin ermənilər tərəfindən dağıdılmasına, bunlarda, hətta heyvan saxlanılmasına göz yuman dünya mediasının müharibənin getdiyi ərazidə yerləşən Şuşadakı kilsəyə dəyən müəmmalı zərəri böyük faciə kimi təqdim etməyə çalışmasının kökündə də məhz islamofobiya dururdu. İkinci Qarabağ müharibəsində Azərbaycana mənəvi cəhətdən böyük dəstək verən Türkiyəyə dünya ölkələrinin bəslədiyi münasibəti də islamofobiya ilə əlaqələndirə bilərik.

Yuxarıda qeyd olunanlar çərçivəsində daha bir məsələyə baxsaq, deyə bilərik ki, Ermənistan və onun havadarları İkinci Qarabağ müharibəsi əsnasında islamofobiya amilindən də istifadə etməklə, dünya ictimaiyyətini Azərbaycan əleyhinə yönəltməyə çalışdı. "Terrorçular", "kilsənin vurulması", "müsəlman Türkiyə" və s. kimi ifadələrin dünya mediasında yayılmasına səy göstərdi. Azərbaycan Dövlətinin bu günə qədər apardığı din siyasəti, tarixən formalaşan tolerant dini ənənə və cəmiyyətimizin dünyəvi prinsiplərə əsaslanması onların bu səylərini tamamilə boşa çıxardı.



**Elvüsal Məmmədov,**
f.f.d., dos.,
AİI-nin müəllimi

# İSLAMDA AĞIL: mahiyyəti və funksiyaları

İslam dinində ağıl, təfəkkür anlayışlarına böyük əhəmiyyət verilir. Əgər biz İslamın zəkaya, rasional təfəkkür və intellekt əməliyyatlarına (təhlil, mühakimə, müqayisə...) münasibətini obyektiv şəkildə müəyyən etmək istəyiriksə, bu, dinin başlıca mənbəyi olan Qurani-Kərimə müraciət etməliyik. İslamın əşya və hadisələrə baxışını Quran təyin edir, bu Müqəddəs Kitabın mövqeyi İslamın mövqeyidir. Araşdırma apararkən məlum oldu ki, İslamda ağıl rasional və irrasional mahiyyətləri dərk etmək, insanda Allaha dair təsəvvürlər formalaşdırmaq, ilahi kəlamı qavramaq baxımından mühüm vasitə olaraq nəzərdən keçirilir.

Mövzu haqqında ətraflı təsəvvür yaratmaqçün nəticələri göstərməyi münasib hesab edirik:

1. Quran ayələrində insan zəkasına həqiqəti aşkara çıxarmaq, bilik kəsb etmək baxımından toxunulur və imanın möhkəmlənməsi vasitəsi kimi əhəmiyyətindən danışılır. Ayələrdə zəkaya ona görə müraciət olunur ki, həqiqi funksiyasını icra etsin. Allah Quranda insanları iman gətirməyə çağırarkən, ilk növbədə, onların ağıllarına müraciət edir, onları düşünməyə çağırır. Bu səbəbdən, Quran mətnində "ağıl" sözü morfoloji formada mücərrəd isim kimi deyil, funksional feil olaraq işlənib.

Göründüyü kimi, ayələrdə qınaq ("Heç düşünmürsünüzmü?"), təmənna ("Bəlkə, düşünəsiniz"), mühakiməyə çağırış ("Əgər düşünsəydiniz") motivləri mövcuddur. Məlum olur ki, Allah bəzi insanları düşünmədikləri üçün tənbehləyir; bəzilərinə isə xitab edir ki, düşünsünlər; bir sıra ayələrdə isə onların diqqətinə çatdırır ki, ağıllarını işlədə, həqiqəti görə bilərdilər.

Deməli, imana çağırışda Quran üslubu ağla müraciətlə səciyyələnir. Ayələrin təhlili göstərir ki, iman təsisatı rasional qənaətbəxşliyə, əqli yəqinliyə əsaslanmalıdır.

"İslam insanlardan zəkalarına qıfıl vurmalarını istəmir, əksinə, onlardan tələb edir ki, düşünərək Rəbbə iman gətirsinlər".

Zəka ilə əlaqəli ifadələr göstərir ki, Qurani-Kərim insanları intellektual fəaliyyətə, əşya və hadisələrin rasional tədqiqinə həvəsləndirir. Bu səbəbdən ayələrdə əcdad kultunun təqlidi və instinktiv ağıl forması tənqid olunur:

***"Onlara (bütpərəstlərə): "Allahın göndərdiyinə (Qurana) tabe olun!" – deyildiyi zaman, onlar: "Biz ancaq atalarımızın getdiyi yolla gedəcəyik!" – deyirlər. Bəs ataları bir şey anlamayıb doğru yolda deyildilərsə, necə? (Yenə də mi onlara tabe olacaqlar?)"*** ("əl-Bəqərə", 170).

Qurani-Kərim təkcə maddi məlumu deyil, həm də bütün varlıq aləmini dərk edib düşünməyə çağırmaqla, sillogistik ağıla üstünlük verir. Müqəddəs kitabları oxuyanların bilə-bilə qadağaları pozduqları üçün daşıdıqları məsuliyyət, əvvəlki xalqların başına gələn bəlalara laqeydlik motivli mövzularda müraciət obyekti ağıldır.

Quran kontekstinin təhlili məlum edir ki, nəzərdə tutulan yeknəsəq, donuq ağıl deyil, dərk edən, düşünən, qanan, kortəbii təqlidə qarşı çıxan ağıldır. Bir sözlə, Quranın zəka anlayışı sillogistik baxımdan təkcə maddi aləmi deyil, həm də metafizik mahiyyətləri düşünmə prosesini ifadə edir:

"Quran insanlara kompleks düşünməyi öyrədir. Onlara elementləri bir-biri ilə əlaqədə olan universal metod bəxş edir. Bu metod həyata bağlıdır, ona zidd deyildir; elmi imanla, ideyanı materiya ilə (fizikanı metafizika ilə), gizli instinktləri aşkar duyğularla əlaqələndirir, onları əlahiddə nəzərdən keçirmir".

"Psixoloji baxımdan müəyyən etmək mümkündür ki, (Quranda) mənəvi və intellektual ab-hava mövcuddur".

Yuxarıda qeyd etmişdik ki, Quranda iman gətirsinlər deyə insanlar düşünməyə çağırış edilir. Belə imanın formasını intellektin doğurduğu iman adlandırmaq mümkündür:

"Həqiqətən, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birini əvəz etməsində (bir-birinin ardınca gəlib-getməsində) ağıl sahibləri üçün (Allahın varlığını, qüdrətini, kamalını və əzəmətini sübut edən açıq) dəlillər vardır.

O kəslər ki, ayaqüstə olanda da, oturanda da, uzananda da Allahı xatırlar, göylərin və yerin yaradılması haqqında düşünər (və deyərlər): ***"Ey Rəbbimiz! Sən bunları boş yerə yaratmamısan! Sən pak və müqəddəssən! Bizi cəhənnəm odunun əzabından (Özün) qoru!"*** ("Ali-İmran", 190-191);

***"Onun (Quranın) haqq olduğu onlara (müşriklərə) bəlli olsun deyə, Biz öz qüdrət nişanələrimizi***

***onlara həm xarici aləmdə (üfüqlərdə, kainatda, göylərin və yerin ətrafında), həm də onların öz*** daxilində mütləq göstərəcəyik" ("Fussilət", 53).

Bu səbəbdən, Quran düşünən insanlara xitab edir, ağlını işlətməyənləri qınayır.

Ağılla əlaqəli ayələrdə müxtəlif obyekt və hadisələr haqqında düşünmənin vacibliyi nəzərə çatdırılır. Sillogistik intellekt formalaşdırmaq məqsədi daşıyan bu ayələrdə aşağıdakı obyektlər üzərində düşünməyə çağırış vardır:

1. Müqəddəs Kəlam. Aşağıdakı ayələrdə vəhy haqqında düşünməyə çağırış edilir:

***"(Ya Peyğəmbər! Bu Qur´an) sənə nazil etdiyimiz mübarək (xeyir-bərəkətli) bir Kitabdır ki, (insanlar) onun ayələrini düşünüb dərk etsinlər və ağıl sahibləri də (ondan) ibrət alsınlar!"*** ("Sad", 29);

***"Onlar Quran barəsində (onun Allah kəlamı olması haqqında) düşünməzlərmi? Əgər o, Allahdan qeyrisi tərəfindən olsaydı, əlbəttə, onda çoxlu ziddiyyət (ixtilaf, uyğunsuzluq) tapardılar"*** ("ən-Nisa", 82);

***"Onlar Quran barəsində düşünməzlərmi? Yoxsa ürəklərinə kilid vurulmuşdur? (Yoxsa ürəklərinin öz kilidləri vardır?)"*** ("Muhəmməd", 24).

2. Varlıq aləmi (kainat, insan, təbiət). Ayələrdə diqqət ona cəlb edilir ki, varlıq aləmi barədə fikir yürütmək, müəyyən nəticələrə gəlmək rasional əsaslar üzərinə qaldırılmış etiqad institutunu formalaşdıracaqdır.

***"O kəslər ki, ayaqüstə olanda da, oturanda da, uzananda da Allahı xatırlar, göylərin və yerin yaradılması haqqında düşünər (və deyərlər): "Ey Rəbbimiz! Sən bunları boş yerə yaratmamısan! Sən pak və müqəddəssən! Bizi cəhənnəm odunun əzabından (Özün) qoru!"*** ("Ali-İmran", 191);

***"Məgər onlar öz-özlüklərində Allahın göyləri, yeri və onların arasındakıları ancaq haqq-ədalətlə və müəyyən bir müddət üçün yaratdığını düşünmürlərmi? Həqiqətən, insanların çoxu Rəbbi ilə qarşılaşacağını (qiyamət günü dirilib haqq-hesab üçün Allahın hüzurunda duracağını) inkar edir"*** ("ər-Rum", 8);

***"Məgər dəvəyə baxmırlar ki, necə yaradılmışdır? Göyə (baxmırlar ki) necə ucaldılmışdır? Dağlara (baxmırlar ki) necə dikəldilmişdir? Və yerə (baxmırlar ki) necə döşədilmişdir?"*** ("əl-Ğaşiyə", 17-20).

3. İbadətlər. Müqəddəs mətnlərdə insanlara müəyyən dini ayinlər, ibadət növləri haqqında düşünmək təşviq edilir. Fikrimizcə, bu, imanda yəqinliyi, etiqadda qənaətbəxşliyi formalaşdırmaq, beləliklə, ibadət institutunun şüurlu hərəkətlər məcmusu halına gətirmək məqsədi daşıyır.

***"Bilsəydiniz, oruc tutmaq sizin üçün nə qədər xeyirlidir!"*** ("əl-Bəqərə", 184).

4. Keçmiş xalqların başına gələn müsibətlər.

Quranda tarixi presedentlər təqdim olunur və insanlara bu hadisələr barədə düşünmək əmr edilir. Bu, müqayisə, təhlil, mühakimə elementlərindən ibarət kompleks təfəkkür və sillogistik yanaşma formalaşdırmaq baxımından çox mühümdür.

***"(Ya Rəsulum!) De: "Yer üzünü dolaşın və sonra görün ki, (peyğəmbərlərə) yalançı deyənlərin aqibəti necə oldu?""*** ("əl-Ənam", 11);

***"Məgər özlərindən əvvəl neçə-neçə nəsilləri (ümmətləri) məhv etdiyimizi görmədilərmi? Onlara yer üzündə sizə (məkkəlilərə) vermədiyimiz imkanlar (qüvvət və sərvət) vermişdik. Göydən onlara bol yağış göndərmiş, (evlərin, saraylarının və bağçalarının) altından çaylar axıtmışdıq. Biz onları günahlarına görə məhv etdik və onlardan sonra başqa yeni bir nəsil (ümmətlər) yaratdıq"*** ("əl-Ənam", 6).

5. Dünya və fani nemətləri.

***"(Ya Rəsulum! Səndən yoxsulları öz məclisindən qovmağı tələb edən təkəbbür sahiblərinə) bu dünyanı misal çək: (Bu dünya) göydən yağdırdığımız yağmura bənzər. Yerdəki bitkilər onunla qarışıb (onu içib) yetişər, sonra isə dönüb küləyin sovurduğu quru çör-çöp (həşəm) olar. Allah hər şeyə (hər şeyi yaratmağa və məhv etməyə) qadirdır!"*** ("əl-Kəhf", 45).

2. Ağıl İslam şəriətində dini öhdəliklərin vacibliyinin başlıca şərti kimi çıxış edir. Fiqh ədəbiyyatına nəzər saldıqda görürük ki, bu və ya digər ibadət növünün bir insana vacibliyi şərtlərindən (yaş, maddi imkan, azadlıq və səfərdə olmamaq və s.) biri olaraq "ağıl" göstərilmişdir. Dinin vacib buyruq və qadağaları ağlı başında olanlara şamil edilir. Müsəlman ilahiyyatçısı İzzəddin ibn Əbdüssəlam yazırdı: "Müsəlmanlar bütünlükdə həmrəydirlər ki, ağıl mükəlləfiyyətin başlıca şərtidir".

"Ağıl vasitəsilə vəhyin mətnini, ondakı müxtəlif dini hökmləri başa düşürük. Ağıl bu mətnin necə tətbiq edilməsində məsuliyyət daşıyır. Çünki məhz ağlımızla həmin mətnə, onu tətbiq etmək istədiyimiz mühit və gerçəkliyə qiymət veririk. Əgər insan düşünmə qabiliyyətini itirərsə, dini öhdəliklər ona şamil edilmir".

İbadətləri öhdəlikdə ağıl ona görə şərtdir ki, məhz onunla xeyir və şər bir-birindən fərqləndirilir, Allah və məxluqat dərk edilir.

3. İslama görə, Allah insanları əbəs yerə yaratmamış, səbəbsiz hökmlər təsis etməmişdir. İstər ilahi xəlqetmənin (kreasionizm), istərsə də şəriətqoymanın bir məqsədi vardır. Məsələn, Orta əsr müsəlman

ilahiyyatçısı İbn əl-Qəyyim bildirirdi ki, şəriət "...dünyada və axirətdə bəndənin mənafeyini təmin edən, müdrikliyə əsaslanan sahədir. O, bütünlüklə ədaləti, lütfü (rəhməti), hikməti (müdrikliyi), mənafeni (insanların mənafeyini) ifadə edir. Ədaləti zülmə, mərhəməti qəddarlığa, xeyri zərərə, müdrikliyi kortəbiiliyə çevirən şey… şəriətdən deyildir".

Deməli, İslam şəriətinin, həm də istənilən səmavi hökmün arxa planında müəyyən məqsəd dayanır və bu məsələdə müsəlman alimləri həmrəydirlər.

Bu səbəbdən müsəlman üsulşünasları bildirmişlər ki, dinin əmr və qadağalarını, hökmləri düzgün başa düşmək, ayə və hədislərə şüurlu münasibət bəsləmək lazımdır.

Üsulşünaslıq elmində "Hökmlərdəki gizli prinsiplərin nəzərə alınması" qaydası mövcuddur. Bəzi hökmlərdə həmin hökmlərin təsis edilməsinin məqsədi açıq-aydın göstərilsə də, bunu bir çox dini qadağa və ehkamlar üçün söyləmək mümkün deyildir. Odur ki, əqli yanaşmanın müxtəlif üsullarından istifadə etməklə bu və ya digər hökmün nə üçün təsis edildiyini müəyyənləşdirmək mümkündür. Əks halda, müqəddəs mətnlərə münasibətdə təqlid və donuqluq hökm sürəcəkdir.

Mühüm olaraq qeyd edilməlidir ki, müsəlman hüquqşünas və üsulşünasları dinin sosial münasibətlər və ibadət institutlarını bir-birindən fərqləndirmiş, "ehkamlardakı məqsəd və hikmət"in müəyyənləşdirilməsində ümumi qayda qoymuşlar. Orta əsrlərin məşhur üsulşünası İbrahim Şatibi bu iki məsələyə münasibətdə zəkanın nüfuz dairəsi haqda yazırdı:

"İbadətlərə münasibətdə qayda budur ki, mahiyyətə diqqət yetirmədən tapınmaq lazımdır. Həmçinin icazəsiz bu işə girişmək (çox güman ki, Şatibi burada ayə və hədislərə əsaslanmadan yeni növ ibadətlər təsis etməkdən danışır – E.M.) yolverilməzdir, çünki ibadətləri "icad"da ağıl kara gəlmir.

"Adətlər"ə (sosial münasibətlərə) gəlincə, onlara münasibətdə başlıca qayda mahiyyətə (məqsədə, mənaya) fikir verməkdir...".

Zəka, təfəkkür həm də ona görə mühümdür ki, bəzi dini mətnlər bir-biri ilə zahirən ziddiyyət əmələ gətirir. Bu problemi həll etmək üçün ayələrin nazilolma səbəbinə, aidiyyəti mühit və subyektlərə, əlaqədar hədislərə bələd olmaq tələb edilir. Deməli, dini mətnləri (hökmləri, qadağa və əmrləri...) düzgün başa düşmək üçün idrak proseslərinə (müqayisə, sintez, analiz, induktiv və deduktiv təhlil, mühakimə) ehtiyac yaranır ki, belə funksionallığı da ağıl daşıyır.

4. İslam dininin qorumağı məqsəd bildiyi beş əsasdan biri ağıldır . Üsulşünas alimlər bu əsasları şəriətin məqsədləri (məqasid) adlandırmış və üç kateqoriyada təsnif etmişlər:

a) Zərurətlər (zəruriyyat);
b) Ehtiyaclar (haciyyat);
v) Yaxşılaşdırıcılar, gözəlləşdiricilər (təhsiniyyat).

Məqasidşünaslıqda "zərurətlər" (zəruri məqsədlər) beş yerə bölünür:

1. Dinin qorunması.
2. Canın qorunması.
3. Var-dövlətin (mülkiyyətin) qorunması.
4. Ağlın qorunması.
5. Nəslin qorunması.

Göründüyü kimi, din insanların mənafeyini əsas götürür, onlarla əlaqəli anlayışlara diqqət yetirir. Bu beş məqsədi insanın toxunulmaz hüquqları da adlandırmaq mümkündür. Bəhs etdiyimiz hüquqlar insanın mənəvi və fiziki kimliyinin təminində mühüm rol oynayır. Məsələn, intellekt (ağıl) hər hansı bir təhlükəyə məruz qalarsa, ümumilikdə insan həyatı təhlükə altına girər. Bununla da aydın olur ki, İslamda şərab, sərxoşedici içkilər, uyuşdurucu maddələr nə üçün haram edilib.

Xülasə, "məqasid", İslam şəriətinə görə, insanların mənafeyi ilə əlaqəlidir. İnsanın mənafeyini təmin etməyən, onun canına, mülkiyyətinə, intellektinə təhlükə yaradan istənilən ideya, fikir, davranış, əşya və hadisə şəriət tərəfindən rədd edilir. İntellektə xələl gələrsə, insan şəxsiyyəti bir məna ifadə etməz, çünki ağıl insanda ən mühüm elementdir, onu digər canlılardan fərqləndirən başlıca cəhət də məhz şüurdur (ağıldır). Elə bu səbəbə görə din ağılın qorunmasını beş məqsəddən biri seçib. Bu baxımdan Quranda "ağıl" sözünün sinonimlərindən birinin "lubb" sözü ilə ifadə olunması maraq kəsb edir. Bu söz Quran mətnində cəmdə işlədilmir və "bir şeyin əsası" deməkdir. Görünür, ağıl insanda əsas ünsür olduğundan ayələrdə bu sözlə ifadə olunmuşdur.

5. Ağlın (təfəkkürün) İslam dinindəki yüksək məqamı, eyni zamanda, müsəlman hüququ mənbələrinin təsnifat elementi kimi çıxış etməyində bariz görünür. Belə ki həmin mənbələr ikidir: a) "nəqli" mənbələr (Quran və Sünnə); b) əqli mənbələr (qiyas, istehsan, istishab, məsalehi-mürsələ, səddi-zərai).

İslam nöqteyi-nəzərinə görə, Quran və Sünnədə dinin ana ehkamları konkret məzmunda göstərildiyi üçün bu ehkamlara iman gətirmək, heç bir yozuma getmədən, dəyişiklik aparmadan onlara riayət etmək lazımdır. Ehkamlarla əlaqəli dini mətnlərə nəzər saldıqda məlum olur ki, vacib hökm və əmrlər, eləcə də qadağalar ya Quranda açıq-aydın öz əksini tapmışdır, ya da ümumi səciyyə kəsb etdikdə təfərrüatı ilə Sünnədə təqdim edilmişdir.

Lakin bir tərəfdən, zaman keçdikcə yeni əşya və hadisələrin meydana çıxması, İslam coğrafiyası arealının genişlənməsi, fərqli mə-

dəniyyət və ənənələrlə təmas, digər yandan isə dini mətnlərin (ayə və hədislərin) məhdud olmağı ictihad institutunun yaranmasına səbəb oldu. İctihad əməliyyatı sırf rasionaldır, qiyas, istehsan, istishab, məsalehi-mürsələ, səddi-zərai metodlarını ehtiva edir. Yeni hadisə və vəziyyətə dinin münasibətini müəyyən etmək üçün müsəlman hüquqşünası mövcud dini mətinləri əsas götürmək şərti ilə bir sıra əqli "əməliyyatlar" aparmalıdır.

Yuxarıda göstərilmiş metodların bəzisinin nədən ibarət olduğuna nəzər salaq:

Qiyas (ərəb – müqayisə) – dini mətnlərdə münasibət bildirilməyən bir faktı haqqında dini mətnlərdə söz açılan ümumi faktla müqayisə etmək və ortaq məxrəci müəyyənləşdirmək əməliyyatıdır. Adətən, bir hökmün nə üçün vacib edildiyinin səbəbi əlaqədar dini mətnlərdə göstərilmir. Bunu müəyyənləşdirib, yeni situasiyalara şamil etmək üçün dərin bilik və zehni bacarıq tələb olunur.

İstehsan (ərəb – "bəyənmə", bəyənib seçmə) – bir məsələ haqqında mövcud olan bir-neçə görüşdən birini seçmək; ümumi mənafe və ədaləti əsas tutub münasib görüşə meyil etmək hökmü bir görüşdən digərinə keçirməkdir. Mənafelər insandan-insana, mühitdən-mühitə dəyişdiyi üçün bunları diqqətlə öyrənmək, düzgün seçim etmək lazım gəlir.

Yuxarıda qeyd edilmişdi ki, İslamın ehkamları təsis edilərkən insanların mənafeləri nəzərə alınmışdır. Mənafe dedikdə, dinin, canın, ağlın, nəsil və varın qorunması başa düşülür. Qiyas üçün münasib dini mətn tapılmadıqda bu mənafelər özlüyündə dəlil sayılır. Bu səbəbdən onları İslam hüququnda "məsalehi-mürsələ" (sərbəst, azad mənafelər) adlandırmışlar. Bu metod məqasidşünaslığın əsas elementini əmələ gətirir.

Səddi-zərai (ərəb. yolları, bəhanələri bağlama) – haram əməl və davranışlara aparıb çıxara biləcək şeylərin qadağan edilməsidir. Müsəlman ilahiyyatçıları bildirmişlər ki, harama səbəb olacaq əməl və davranışların qadağan edildiyi situasiyalarda bu ehtimal əks ehtimaldan çox olmalıdır.

Məlum olur ki, sözügedən metod bir işin doğura biləcəyi nəticəni nəzərə alır, ehtimalları öyrənir ki, bu da mürəkkəb zehni əməliyyatı ifadə edir.

Deməli, yeni dini hökmlərin çıxarılmasında ağıl əhəmiyyətli rol oynayır və əvəzsiz vasitə kimi çıxış edir; müqayisə, induktiv-deduktiv təhlil, analiz, sintez, mühakimə kimi məntiqi-rasional metodlar dini hökmlərin çıxarılması əməliyyatına cəlb edilir.

6. Quran ayələri və Peyğəmbər hədislərini təhlil etdikdə, məlum olur ki, İslam dini və ya dünyəviliyindən asılı olmayaraq faydalı elmi alqışlayır, elm öyrənməyi, savadlanmağı vacib ("fərz") hesab edir, mənbəyi nə olursa-olsun, hikmət və elmin mənimsənilməsinə çağırır, elmin və alimlərin məqamını uca tutur, elmin dərəcəsini ibadətin dərəcəsindən üstün bilir, təbiətlə əlaqəli, sensual-empirik məsələlərdə təcrübəni (həm də müşahidəni) əsas vasitə olaraq qəbul edir.

Müsəlman mütəfəkkirləri bildirirlər ki, İslamı düzgün başa düşmək, sağlam cəmiyyət qurmaq, mədəniyyət formalaşdırmaq, nümunəvi millət təsis etmək üçün elm çox mühümdür. Bununla yanaşı, iman institutunun elmlə möhkəmləndirilməsi də elmə təşviqin səbəblərindən birini əmələ gətirir. Buna görə Quranda elm sahibləri Allah və mələklərlə bir kontekstdə nəzərdən keçirilir.

7. İslam fikrini əmələ gətirən müxtəlif rasional və qeyri-rasional cərəyanlarda (kəlam, fəlsəfə, təsəvvüf) ağıl ayrıca kateqoriya olaraq öyrənilmiş, müxtəlif təsnifatda nəzərdən keçirilmişdir.

8. Ağıl etiqad təsisatının isbatlanması baxımından mühüm vasitə kimi çıxış edir. Etiqadın əsasını əmələ gətirən Allahın mövcudluğu və peyğəmbərlik institutu ağılla isbatlanmalıdır. Çünki vəhy (ilahi bilik) onu göndərən – Allah və göndərilənin – peyğəmbərin həqiqiliyi isbatlanmadıqca bir məna ifadə etmir. Bu məsələyə münasibətdə əşəri nöqteyi-nəzəri belə səslənir: "Ağıl nəqlin (ilahi biliyin) əsasıdır". Müsəlman müfəssiri və dilçisi Rağib əl-İsfəhani deyirdi: "Kitab olmasaydı, ağıl da olmazdı", – deyənlərə heyrətlənirəm. Əslində isə ağıl olmasaydı, insan Kitabdan faydalana bilməzdi".

Eyni zamanda, müsəlman mütəfəkkirləri göstərirlər ki, dinin irrasional (metafizik, qeyb) elementlərinin substantiv izahında, konkret konturlu əxlaq dəyərlərinin müəyyənləşdirilməsində, ibadət institutunun təsis edilməsində ağlın imkanları məhduddur. Bu sahələr ilahi biliklə (vəhylə) əlaqəlidir və "iman" kateqoriyası çərçivəsində nəzərdən keçirilir.

Bütün bu deyilənlərdən məlum olur ki, İslamda dinin düzgün başa düşülməsi, etiqad institutunun möhkəmləndirilməsi, Allahın mövcudluğu, təkliyi, peyğəmbərliyin isbatlanması, dini buyruqların bir insana vacib edilməsi, ictihad əməliyyatlarının aparılması, yeni vəziyyətlərə dinin münasibətinin öyrənilməsi, dünyanın abadlaşdırılması, mədəniyyət və sağlam cəmiyyətin qurulması baxımından ağılın rolu daha böyükdür. Dünyaya və dinə baxışda mühüm idrak vasitəsi kimi çıxış edən ağılın (intellektin) qorunmasının şəriətin beş məqsədindən birini təşkil etməsi faktı da İslamın zəkaya münasibəti haqda çox şey deyir.

# İSLAMDA QADININ MÖVQEYİ



**Faiq Əhmədzadə,**
**f.f.d., AİI-nin müəllimi**

Hər cəmiyyətdə fərdlərin rolu özünəməxsus şəkildə müəyyən edilir. Bəzilərində cinsinə, bəzilərində yaşına, bəzilərində millətinə, bəzilərində rənginə xüsusi önəm verilir. Müasir dövrümüzdə insanların düşüncələrinə görə də üstünlük əldə etdiyi məqamlar olub. Bunların içərisində tarix boyu əksəriyyət etibarilə iki cins arasındakı rol üstünlüyünə daha çox rast gəlinir. Kişi və qadın arasındakı rol paylaşımı, onun cəmiyyətdə öz yerini tutması, söz sahibi olması cəhətdən hər zaman mübahisələrə səbəb olub.

**Digər din və cəmiyyətlərə əsasən qadın**

Dünya tarixinə nəzər yetirildiyində görünəcəkdir ki, hər cəmiyyətin qadınla bağlı düşüncələri öz ənənəsinə və mədəniyyətinə görə fərqlidir. Bəzi cəmiyyətlərdə qadınlara böyük rol tanınarkən, digərlərində, ümumiyyətlə, qadınlara barmaqarası yanaşılıb. Nümunə olaraq qeyd etmək mümkündür ki, qədim hitit və türk mədəniyyətlərində matriarxat anlayış hakim olduğu üçün qadınlar rəhbər kimi söz sahibi olub, bir çox üstünlüklər əldə ediblər. Bəzi qəbilələrdə tanrıların heykəlləri qadın fiqurları kimi təsvir edilib, lakin cəmiyyətlərin bir çoxunda bu ənənə mövcud olmayıb.

Bəzi mədəniyyətlərdə qadının heç bir hüququ olmayıb, o, sadəcə, övlad dünyaya gətirən bir varlıq kimi düşünülüb. Yunan-Roma mədəniyyətində qadın əsla söz sahibi ola bilməzdi, istənilən zaman ondan boşana bilər və cehizi əlindən alınmış ola bilərdi. İdarəçilikdə qadına heç vaxt yer verilməzdi, hətta yunan fəlsəfəsində qadının ağlının olub-olmaması, əşyadan fərqinin nə olması mövzusunda mübahisələr də mövcud idi.

Hind və ərəb cəmiyyətlərində qadın xüsusi nəslə aid deyilsə, onun heç bir dəyəri yox idi. Qız dünyaya gətirən və ya qısır olan qadının boşama haqqı tanınardı. Manu qanunnaməsinə əsasən, qadının vəzifəsi uşaq doğmaq və ev işlərinə baxmaqdır. Onlar yeni anadan olan qızlarını diri-diri basdırırdılar. Müasir dövrdə də Hindistanda yeni doğulan qızların basdırıldığı xəbərinə tez-tez rast gəlinir.

Bəzi dinlərdə qadına şahidlik, miras haqqı tanınmayaraq, ruhunun olub-olmaması haqqında mübahisələrə yer verilir. Həmin dinlərin elə məzhəbləri var ki, hər gün səhər ibadətində "Rəbbim, məni qadın yaratmadığın üçün şükürlər olsun" duası yer alıb. Bununla yanaşı, qadının Adəmə qadağan edilmiş meyvəni yedirdiyi üçün insanı günaha sürüklədiyi qeyd edilir və doğuş sancısının bu günahın qarşılığı olduğu düşünülür.

Qədim və Orta əsrlərdə qadına duyulan bu münasibət böyük ölçüdə dəyişsə belə, yenə də günümüzdə buna bənzər anlayışlara rast gəlmək təəssüf ki, mümkündür. Orta əsr ərəb cəmiyyətində İslam meydana çıxdıqdan sonra, bu münasibət böyük ölçüdə dəyişdi, sonradan bu dini qəbul edən bütün cəmiyyətlərin ənənələrində özünə yer etdi. İslam dininə əsasən, qadının cəmiyyətdəki rolu kişi ilə demək olar ki, eyni hesab edilməyə başladı, hətta bəzi hüquq qaydalarında ona daha çox haqq verildi.

**Qurani-Kərimə əsasən qadın...**

Qurana əsasən Allah qatında heç bir fərdin nəyə görəsə digərinə üstünlüyü yoxdur. Hansı millətdən, hansı statusa sahib olmasından asılı olmayaraq, istər qadın, istər kişinin tək bir üstünlüyü odur ki, o, təqvalı olsun. Buna görə də kişinin qadından üstün olması Qurana görə xətalı bir düşüncədir. Bəziləri bu haqda ayənin ("Nisa" surəsi, 34) olduğunu qeyd etsələr də, onun qadının ehtiyaclarını ödəmək kontekstində deyildiyini görməzdən gəliblər. Həm qadın, həm də kişi etdiklərinin qarşılığını bərabər şəkildə alacaqlar:

*İstər qadın, istərsə kişi olsun, heç birinizin əməlini puça çıxarmaram* ("Ali İmran", 3/195).

Qurani-Kərim qadının yaradılışını ülvi duyğularla birləşdirir. Onun yaradılmasının məqsədi bəzilərinin düşündüyü kimi kişiyə xidmət etmək, ona tabe olmaq deyil, onu daha yüksək dəyərlərə, sevgiyə doğru daşımaqdır. Qadının yaradılması Allahın qüdrətinin əlaməti kimi görülərək, onu yaratmasındakı əsrarəngiz gücü ortaya qoyub.

*"Sizin üçün onlarla ünsiyyət edəsiniz deyə, öz cinsinizdən zövcələr xəlq etməsi, aranızda sevgi və mərhəmət yaratması da Onun*

*qüdrət əlamətlərindəndir"* ("Rum", 30/21).

Eyni zamanda, qadın kişiyə bir dost kimi mənəvi dəstək ola bilər. Yaxşı iş görməkdə biri digərini həvəsləndirər, pis işlərdən çəkindirmək üçün bir-birilərini xəbərdar edərlər. Bu da onu göstərir ki, istər gündəlik həyatda, istərsə də idarəçilikdə qadınlar kişilərdən mənəvi dəstək kimi məsləhətlərini əsirgəməməli, diqqətli mülahizələri ilə doğru olanı qarşı tərəfə çatdırmalıdırlar. Bu anlayış Qurani-Kərimdə açıq şəkildə qeyd edilib:

*"Mömin kişilərlə mömin qadınlar bir-birinə dostdurlar (hayandırlar). Onlar (insanlara) yaxşı işlər görməyi əmr edər, pis işləri yasaq edər, namaz qılıb zəkat verər, Allaha və Peyğəmbərinə itaət edərlər. Allah, əlbəttə ki, onlara rəhm edəcəkdir. Allah, həqiqətən, yenilməz qüvvət sahibi, hikmət sahibidir"* ("Tövbə", 9/71).

Qadının İslamdakı rolu o qədər əhəmiyyətlidir ki, onun haqqında deyilən hər hansı bir nalayiq sözün cəzası Qurani-Kərimə əsasən, axirətə qədər gözlədilmir, elə bu dünyada verilir. Belə ki, qadının həyatında onun üçün ən əhəmiyyətli şey iffəti, namusu hesab edilir. Həmçinin ona çox rahat şəkildə vurulan ən böyük zərbə də onun iffəti sayılır. Qurana görə qadının iffəti ilə bağlı böhtan atanın cəzası bu dünyada ikən verilir:

*İsmətli qadınla zina isnad edib, sonra (dediklərini təsdiqləyəcək) dörd şahid gətirə bilməyən şəxslərə səksən çubuq vurun və onların şəhadətini heç vaxt qəbul etməyin. Onlar sözsüz ki, (Allahın itaətindən çıxmış) əsl fasiqlərdir* ("Nur", 24/4).

Tarixdən ərəb ictimaiyyətinə İslam gəlməzdən əvvəlki illərə nəzər yetirsək görərik ki, qadınlar zəif məxluqlar olduğu üçün onlara miras haqqı tanınmayıb. Günümüzdə də hətta qadınlara miras haqqı tanımaq ənənə olaraq bir çox yerlərdə yayılmayıb. Bu düşüncəni qırıb qadına mirasın verilməsi Qurani-Kərimdə əmr olunarkən, onlara yenidən öz həyatlarını qurma şansı əta olunur. Yəni bu şəkildə İslamda yenə də qadının sosial təminatı düşünülür. Qurani-Kərimin "Nisa" surəsinin 11-12-ci ayələrində qadına mirasdan düşən payın nə qədər olması və onların əsla bundan məhrum edilməməsi qeyd edilmişdir. İstər həyat yoldaşı, istər övlad, istərsə də ana olsun, mirasdan mütləq pay verilməli, həmin pay zorla onun əlindən alınmamalıdır:

*"Ey iman gətirənlər! Qadınlara zorla varis çıxmaq sizə halal deyildir. Açıq-aşkar pis bir iş görməyincə, verdiyinizin bir hissəsini geri qaytarmaq üçün onlara əziyyət verməyin. Onlarla gözəl rəftar edin. Əgər onlarda xoşunuza gəlməyən bir şey varsa, ola bilsin ki, Allah xoşunuza gəlməyən bir şeydə çoxlu xeyir nəzərdə tutmuşdur"* ("Nisa", 19).

Ayədən göründüyü kimi, qadınlarla xoş rəftar etmək əmr edilib. Onların, hətta xoşagəlməz hansısa xüsusiyyətləri olanda belə, mütləq müsbət bir keyfiyyətin olması düşünülməli və həmin yönü nəzərə alınaraq münasibətə davam etmək lazımdır. Əsla qadına nəyə görəsə əziyyət vermək düzgün hesab edilmir. Qadının ikinci planda göründüyü bir cəmiyyətdə ayəyə əsasən, onlarla mehriban davranmaq və onlara diqqət yetirmənin əmr edilməsi düşüncələri dəyişib, münasibətləri yenidən gözdən keçirmək üçün mühüm bir məqam hesab edilə bilər.

Məlumdur ki, bir çox cəmiyyətlərdə ayrılma, boşanma hadisələrində ən böyük əziyyəti qadınlar çəkməkdədirlər. Belə ki, kişi tərəfinin evlənərkən verdiklərini geri almaq istəyi, onları yalnız buraxma, onlara mənəvi əzab vermə anlayışı qadınlar üçün çox sarsıdıcı məqamlardandır. Qadınlar ayrıldıqları üçün istər-istəməz psixoloji olaraq böyük sarsıntı yaşayırlar. Bu gərginliyi az da olsa, yüngülləşdirmək üçün Qurani-Kərimdə kişi tərəfinə bəzi məsləhətlər və əmrlər verilib. Beləcə, hər kəs istədiyi şəkildə hərəkət etmə haqqına sahib olmayacaqdır:

*"Əgər başqa biriylə evlənmək istəsəniz, onlardan birinə çoxlu mal vermiş olsanız da, ondan heç bir şey geri almayın. Məgər bu malı böhtan tamaq və aşkar bir gunah iş görməklə gerimi alacaqsınız?"* ("Nisa", 20).

*"Ayrılarkən xoşluqla ayrılmaq lazımdır. Onlara verilən mehrdən bir şey vermək tələb etmək halal deyildir"* ("Bəqərə", 229).

*"Qadınları boşarkən onları ya xoşluqla saxlayın, ya da xoşluqla buraxın"* ("Bəqərə", 231).

Ayrılsalar belə, hətta övladın bütün xərcləri ilə yanaşı, ananın da yemək və geyim xərcləri imkan daxilində kişi tərəfindən ödənilməlidir. Beləcə, qadının ən azından maddi sıxıntısı aradan qaldırılmış olur:

*"Anaların yeməyi və geyimi öz qüvvəsi dairəsində uşağın atasının üzərinə düşər"* ("Bəqərə", 233).

Bu ayələr onu göstərir ki, Allah qadına haqsızlıq edilməsinə, zəif bilib ona əziyyət verilməsinə qarşı çıxıb və bu mövzuda ən kiçik qapıları belə bağlayıb.

**Hədislərdə qadın**

Həzrət Peyğəmbərin istər zövcələrinə, istərsə də çevrəsindəki müsəlman qadınlara qarşı nə qədər nəzakətli davrandığı bir çox rəvayətlərdə mövcuddur. Qadını zəif,

hər hansı bir haqqa sahib olmayan bir varlıq kimi görən cəmiyyətdə bu anlayışa qarşı çıxan Peyğəmbər onların dəyərinin nə qədər yüksək olduğunu göstərib. O, heç vaxt xanımlarına ağır söz deməz, onları əsla incitməzdi. Rəvayətə görə, hətta Hüdeybiyyə sülhü zamanı nə edəcəyini bilməyib çətin vəziyyətdə qalan Peyğəmbər xanımı Həfsə ilə məsləhətləşib, onun uyğun gördüyü şəkildə vəziyyətdən çıxış yolu tapıb. Qız övladını diri-diri basdıran bir cəmiyyətdə "üç qız övladı olan və onları namuslu şəkildə yetişdirib evləndirən cənnətlikdir" hədisi ilə onları qoruyaraq dəyərini artırıb. Xanımı ilə sərt davranan müsəlmanları görəndə onları xəbərdar etməsi, bir çox hədislərində belə buyurması rəvayət edilir:

"Bir mömin yaxşı xasiyyətli deyildir deyə xanımına əsəbiləşməsin. Yaxşı xasiyyəti də var".

"Xanımı ilə xoş rəftar edəni Allah sevər, ruzisini artırar".

"Ən yaxşı müsəlman xanımına ən yaxşı davranandır".

"Xanımına gülərüzlə baxan kişinin dəftərinə bir kölə azad etmiş savabı yazılır".

Hədislərdən göründüyü kimi, müsəlmanın ən ümdə vəzifələrindən biri həyat yoldaşı ilə mehriban olması, onları qoruması, onunla xoş davranmasıdır. Bunun mükafatının istər bu dünyada, istərsə də axirətdə qat-qat artıqlaması ilə veriləcəyi müjdəsi də qeyd edilir. Həzrət Peyğəmbər, sanki hər addımda qadınları cəmiyyətin əsas fərdləri kimi qəbul etdirməyə çalışıb, onların dəyərini kişilərin nəzərinə daha çox çatdırıb. Bəzi dinlərin məzhəblərində qadınların dini yerlərə gəlməsi, ibadət etməsi doğru qəbul edilmədiyi halda, Həzrət Peyğəmbər müsəlman qadınların Məscidi-Nəbəvidə namaza gəlmələrini istəyib, onları sosial həyatda fəal rol oynamağa çağırıb.

Müharibə zamanı ən çox əziyyət çəkənlərin içərisində qadınların olduğunu bildiyi üçün döyüşə girməzdən əvvəl əsgərlərə qadınlara toxunmamağı, onları öldürməməyi əmr edib. Qadınlara olan bu mərhəməti sayəsində bir çoxları İslam dinini qəbul edərək, müsəlmanlara heyranlıqla bu dinin yayılmasında əlindən gələni əsirgəməyib.

Qurani-Kərimin ən mükəmməl təbliğatçısı sayılan Həzrət Peyğəmbərin əxlaqi dəyərləri içərisində qadına xüsusi əhəmiyyət verməsi İslamın qadına layiqli dəyərin ən böyük nümunəsidir. Təsadüfi deyil ki, o, müsəlmanlara son xitabı olan Vida xütbəsində "Qadınlarınız Allahın sizə əmanətidir, onlara sahib çıxın", – deyərək, dəyəri ən çox kimlərin verəcəyini də xüsusi vurğulayıb:

"Qadınlara, ancaq əsalət və şərəf sahibləri dəyər verər. Onları pis və həqir insanlar xor görə bilər".

**Sosial həyatda qadın**

Ərəb cəmiyyəti İslamın gəlməsindən sonra xeyli dəyişdiyindən, qadının rolu ictimai həyatda artmağa başlayır. Yuxarıda deyildiyi kimi, Həzrət Peyğəmbər qadınların məsciddə ibadət etməsini istəyir ki, onlar da cəmiyyətin sosial dəyişikliklərindən xəbər tutsunlar. Bir çox qadını və onların həyat yoldaşlarını İslamın təbliğində iştiraka cəlb edib. Onlarla mühüm məsələlərdə məsləhətləşib, mühüm qərarlar verib. Həmin dövrdə, hətta müharibələrə qatılan qadınlar da olub. Bunlardan Ümmü Süleym, Ümmü Haram, Ümmü Sinan əl-Əsləmiyyə, Rübeyyi bint Müəvviz kimi qadınların adlarını çəkmək olar.

Peyğəmbər vəfat etdikdən sonra, xələfləri də qadınlara eyni şəkildə münasibət göstərib, onların ictimai və sosial həyatda rol oynamalarına şərait yaradıblar. Belə ki, Xəlifə Ömər zamanında Mədinə şəhərinin bazarına nəzarət etmə vəzifəsini Şifa bint Abdullah adlı xanıma tapşırıb. Bununla yanaşı, o, qadınların dediklərinə də qulaq verərdi. Belə ki, yaranmış maddı sıxıntılı mövcud vəziyyəti nəzərə alaraq, Xəlifə Ömər bir dəfə evlənərkən qadınlara verilən mehrin azaldılmasını xütbədə söyləyərkən qadınların içərisindən kimsə ona etiraz edərək belə deyib: "Peyğəmbərin bizə tanıdığı haqqı bizdən necə ala bilirsən, ey Ömər?". Bu sözü eşidəndə o, "Ömər yanılmışdır", – deyə sözünü geri götürüb.

Qadınların işləməsini məsləhət görməyən bəzi müsəlmanların əksinə olaraq, məşhur alim və malikilik məzhəbinin qurucusu hesab edilən Malik ibn Ənəs onların işləyə biləcəklərinə dair hökm çıxarır. Bu da onların ictimai həyatda aktiv ola biləcəklərinə dair bariz nümunələrdən biri hesab edilə bilər.

İslama görə qadınlar mal sahibi ola bilərdilər. XVIII əsrdəki məhkəmələrdə Osmanlıda əmlak satışlarının 40 %-də tərəflərdən ən azı biri, bunlardan 2/3-də satıcı, 1/3-də alıcı qadın olub. Misirdə və Hələbdə XV əsrdə qadınlar fond qurub xeyriyyə işləri ilə məşğul olardılar. Osmanlı dövründə hökmdarların ailələrindəki qadınlar məscid, xəstəxana, mədrəsə tikdirərək xalqa xidmət edirdilər. Onların adını alan məscidlər, hətta günümüzə qədər gəlib çıxıb. Qeyd etmək yerinə düşərdi ki, Azərbaycanda da xeyriyyəçi qadınların rolu böyük olub. Belə ki, Şuşada bir çox xeyriyyə işləri görən Məhsəti Gəncəvi, Təzəpir məscidinin tikintisindəki bütün maliyyəni öz üzərinə götürüb heç kəsdən ianə

qəbul etməyən Nabat xanım Aşurbəyli həmin azərbaycanlı müsəlman qadınlardan sayılır.

**Siyasətdə qadın**

Müasir dövrümüzdən fərqli olaraq istər Avropada, istərsə də Yaxın Şərqdə qadınların siyasətdə rolu, demək olar ki, yox idi. İslam dini gəlincə Yaxın Şərqdə, xüsusilə də ərəblərdə bu vəziyyət dəyişdi. Belə ki, Həzrət Peyğəmbərin Mədinəyə hicrətindən əvvəl həmin şəhərin əhalisi ilə əhdləşmə olaraq bilinən ikinci Əqəbə beyətində qadınların iştirak etdiyi bildirilir. Bu da onu göstərir ki, hələ XIX əsrdə Amerikada qadınların səs verməsi absurd sayılarkən, VII əsr müsəlman cəmiyyətində onlara bu haqq tanınmışdı (bu barədə qeyd etmək olar ki, 2012-ci ildə çəkilmiş "Avraam Linkoln" filmində isə Senatda qadına səs hüququ verilməyə edilən etiraz diqqətçəkicidir.) Siyasi rəhbər kimi Osman xəlifə seçilərkən seçim heyətinin rəhbəri olan Əbdürrəhman ibn Afvın qadınlarla məsləhətləşdiyi, onların qərarına yer verdiyi də bilinir. Məhz bu anlayış nəticəsində ola bilər ki, Şərqdə ilk dəfə müsəlman dövləti sayılan Azərbaycan Demokratik Cümhuriyyəti də qadınlara səsvermə hüququnu tanımaqda öndərliyini göstərmişdir.

Həzrət Peyğəmbərin xanımlarından biri olan Aişənin Cəməl müharibəsində ordu komandanı olması diqqətdən yayınmır. Məsələyə haqlı olub-olmaması baxımından yanaşdıqda qeyd etmək lazımdır ki, ərəb cəmiyyətində bir qadının rəhbərliyi ətrafında birləşib döyüşə getmək adi rastlaşdığımız bir hal deyildir. Bu da onu göstərir ki, İslamda qadına hər sahədə hüquq verilib.

Müsəlman dövlətlərində qadınlar liderlərin ən yaxın məsləhətçisi kimi tanınır. Məsələn, tarixdə qeyd edilir ki, Səlcuq hökmdarı Toğrul bəy xanımı Altuncan xatunla, Qaraqoyunlu hökmdarı Uzun Həsən anası Sara xatunla, Səfəvi hökmdarı Təhmasib şah qızı Zeynəb bəyimlə, eyni zamanda, bir çox Osmanlı sultanı anası və ya həyat yoldaşı ilə idarəçilikdə məsləhətləşərdi. Adları çəkilənlərin içərisində, Sara xatun hətta diplomat qadın kimi tanınıb.

Müsəlman dövlətlərinin idarə edilməsində siyasi rəhbər kimi qadınların rolu hər zaman boyük olmuşdur. Nümunə olaraq qeyd etmək mümkündür ki, Orta əsrlərdə tanınmış hökmdar qadın müsəlman Erva əs-Süleyhi Yəməndə Süleyhilərin hakimiyyəti dövründə 1138-ci ildən ölümünə qədər - 71 il hökmdarlıq edib. Ona "Əl-məlikə əl-hurra" (azad hökmdar qadın) adı verilib. Bununla yanaşı, tarixdə digər müsəlman idarəçi qadınlarla da rastlaşmaq mümkündür. Dehlidə Sultan Şəmsəddin İltutmuş 1236-cı ildə vəfat edincə, dövləti 4 il qızı Radiyyə bəyim idarə edib. Həmçinin Əyyubilərdə Nəcməddin Əyyubun xanımı Şəcərüddür hökmdar kimi fəaliyyət göstərib. Bu nümunələrdən göründüyü kimi, İslam bir çoxlarının səhv təsəvvürünün əksinə olaraq, qadınlara siyasi arenada da haqlar tanıdıb. Onlar dövlət idarə edərək siyasi qərarlar veriblər.

**Elmdə qadın**

Hər sahədə olduğu kimi, müsəlman qadınlar elmdə də öz güclərini göstərib, sözlərini deyiblər. Bəzi dinlərin əksinə olaraq, İslama görə qadınların elmlə məşğul olmaları qadağan edilməyib, hətta onlar tanıdılıb. Bunların içərisində Rufeydə bint Sad adlı xanımı xüsusilə vurğulamaq lazımdır. O, ilk tibb bacısı və ilk səhra xəstəxanasının qurucusu hesab edilir. Onunla yanaşı, ‚Süteyta əl-Məhamali 987-ci ildə vəfat etmiş riyaziyyatçı, Kordovalı Lübna Xəlifə III Əbdürrəhman dövründə 500 min kitabı olan kitabxanaya rəhbərlik edən riyaziyyatçı, Fatimə əl-Məcritiyyə astronom kimi fəaliyyət göstəriblər. Fatimə bint Sad adlı qadın XIII əsrdə İspaniyadan Çinə qədər elm öyrənmək üçün səyahət edib. Müsəlman qadınların içərisində universitet (mədrəsə) qurmaqla tanınmış alimlər də mövcud olub. Fatimə Məhəmməd əl-Fehri əl-Qüreyşi 859-cu ildə dünyada ilk sayılan əl-Qaravin Universitetini Mərakeşdə qurub.

Bu nümunələr onu göstərir ki, İslam tarixi qadınlara tanıdığı bir çox haqlar, onlara verdiyi dəyər və yaratdığı şəraitlə həm öz dövrünün, həm də günümüzdəki bəzi cəmiyyətlərin qadınlar haqqındakı təsəvvürlərindən çox-çox irəli gedib. Qadın, sadəcə, ana və ev xanımı deyil, o həm də cəmiyyətdə öz sözünü deyə biləcək ictimai-siyasi bir xadimdir. Təsadüfi deyil ki, bu anlayış həm Qurani-Kərimdə qadınlara verilən dəyər haqqındakı ayələrdə, həm də peyğəmbərin hədislərində öz əksini aydın tapıb.

Mövzunu tanınmış Azərbaycan şairi Hüseyn Cavidin bir beyti ilə yekunlaşdırmaq istəyirəm;

Qadın gülərsə, bu ıssız mühitimiz güləcək,
Sürüklənən bəşəriyyət qadınla yüksələcək...



Mehrixanım Miryaqubqızı,
AİT-nin əməkdaşı

# Şəhidlik məqamı

***Şəhid – yüksək amal, məslək, əqidə, din və ya inanc uğrunda ölən, canını fəda edənlərə verilən addır. Vətənpərvərliyin ən ali məqamı – şəhidlikdir. Vətəni, milləti, dini, milli-mənəvi dəyərləri uğrunda şəhid olmaq yalnız ləyaqətli insanlara xas olan bir xüsusiyyətdir. Şəhidlik şücaət, igidlik və cəsarət tələb edir. Bu ucalığa yüksələnənlərin ömür yolu şərəfli keçir və sonrakı nəsillərə örnək olur.***

Qəhrəmanlıq bir anın bəhrəsi deyil, xarakterin, tərbiyənin, igidliyin, Vətənə olan sevginin gücü ilə diktə olunan keyfiyyətdir. Bu gün minlərlə şəhid vermiş Azərbaycan xalqının nümayəndəsi olaraq söyləyə bilərəm ki, hər biri Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda qəhrəmanlıqla mübarizə aparan, azadlığı hər şeydən uca tutan, bu yolda həyatlarını belə qurban verərək yüksək zirvəyə – şəhidlik məqamına yetişən Vətən övladları sonsuz ehtirama, sevgi və məhəbbətə layiqdirlər. Şəhidlik Allah dərgahında da xüsusi bir məqama malikdir. İslam dünyasında şəhidlik mərtəbəsi peyğəmbərlikdən sonra ən yüksək zirvə hesab edilir. Həzrət Məhəmməd (s.ə.s.) şəhidlik haqqında buyurmuşdur ki, cənnətə girən şəxs, yer üzünün bütün nemətləri ona verildiyi təqdirdə belə, dünyaya qayıtmaq istəməz. Təkcə şəhiddən başqa. Şəhid on dəfə dünyaya gəlib, on dəfə də şəhid olmaq istər. (Buxari, Cihad, 21 Müslim, İmarə, 109; Tirmizi, 13, 25)

İslamda şəhidlik, həmçinin günahların bağışlanmasına vəsilə olan fəzilətli əməldir. Bununla bağlı Həzrət Məhəmməd (s) demişdir: “Şəhidin qul borcundan başqa, bütün günahlarını Allah bağışlayır” (Müslim, İmarə, 119) Şəhidlik məqamının Allahın bəxş etdiyi böyük nemət olması barədə Qurani-Kərimdə buyurulur: “Onlar Allahın Öz mərhəmətindən onlara bəxş etdiyi nemətə (şəhidlik rütbəsinə) sevinir, arxalarınca gəlib hələ özlərinə çatmamış (şəhidlik səadətinə hələ nail olmamış) kəslərin (axirətdə) heç bir qorxusu olmayacağına və onların qəm-qüssə görməyəcəklərinə görə şadlıq edirlər” (“Ali-İmran”, 170). İslamda Allah yolunda, Haqq yolunda, İslam uğrunda döyüşərək həlak olmaq ali şəhidlik hesab edilir. Şəhidlərin Allah qatındakı məqamı ilə bağlı Qurani-Kərimdə buyurulur: “Allah yolunda öldürülənlərə (şəhid olanlara) “ölü” deməyin. Əksinə, onlar (Allah dərgahında) diridirlər, lakin siz bunu dərk etmirsiniz” (“Bəqərə”, 154). Allah yolunda şəhid olanlarla və savaşda düşməni öldürənlərlə bağlı buyurulur: “Allah, şübhəsiz ki, Allah yolunda vuruşub öldürən və öldürülən möminlərin canlarını və mallarını Tövratda, İncildə və Quranda haqq olaraq vəd edilmiş cənnət müqabilində satın almışdır…!” (“Tövbə”, 111). Əgər Allah yolunda öldürülər və ya ölərsinizsə, Allahın sizi bağışlaması və rəhm etməsi şübhəsiz ki, (kafirlərin dünyada) topladıqları şeylərdən (sərvətdən) daha xeyirlidir (“Ali- İmran”, 157). Hər kim Allah yolunda vuruşaraq ölərsə və ya (düşmənə) qalib gələrsə, ona böyük mükafat verəcəyik (“Nisa”, 74). Ali-Məhəmmədin sevgisi ilə ölən kəs şəhiddir. İmam Cəfər Sadiq (ə) buyurur: “Allah yolunda öldürülən şəxsin heç bir günahı qiyamət günündə elan edilməz (sayılmaz)”. Peyğəmbərimiz (s.ə.s.) də şəhidlik mərtəbəsinin ucalığına işarə edərək buyurmuşdur: “Allaha and içirəm ki, Onun yolunda döyüşüb öldürülməyi, sonra dirildilib yenə öldürülməyi, sonra təkrar-təkrar dirildilərək öldürülməyi nə qədər də çox istəyirəm” (Buxari, İman, 26; Müslim İmarə, 103,107) Digər bir hədisdə Həzrət Məhəmməd belə söyləyir: «Bəndənin nail ola biləcəyi bütün yaxşılıqlardan (savablardan) daha üstün bir yaxşılıq var. Ən böyük yaxşılıq isə budur ki, insan Allah yolunda savaşıb şəhid olsun. Bundan üstün bir savab ola bilməz». “Qiyamət günündə üç dəstə izzət və cəlal sahibi olan Allahın qarşısında şəfaət edər və onların şəfaəti qəbul olunar: peyğəmbərlər, alimlər və şəhidlər”. “Cənnətə ilk girən şəxs şəhid olacaq”. Kim Allah yolunda savaşıb yaralansa, qiyamətdə bədənindən müşk ətri gələr. Kim şəhid olmağı sidq-ürəklə Allahdan istəsə, hətta öz əcəli ilə yataqda ölsə belə, Allah ona şəhidin savabını verər». İmam Rza (ə) hörmətli ata-babaları (ə) vasitəsilə Allah Rəsulundan (s.ə.s.) belə nəql edir: “Cənnətə daxil olacaq ilk şəxs şəhid və qul bəndədir”. Həzrət Peyğəmbər (s) buyurur: “Ən şərəfli ölüm - şəhadətdir”. İmam Cəfər Sadiq (ə) Allah Rəsulunun (s.ə.s.) belə buyurduğunu söyləyir: ”Ən şərəfli ölüm, şəhid edilərək öldürülməkdir”. Əbədi ölməzlik və kamil şəhidlik zirvəsi isə İmam Hüseynə



(ə) məxsusdur. İmam Hüseynin məşhur ləqəbi “Seyyidüş-Şühəda”dır, yəni şəhidlərin ağası. İslam dini haqq uğrunda şəhid olan hər kəsi cənnətlə müjdələmişdir. Zaman-zaman xalq olaraq şəhid vermiş və bununla qürur duymuş bir millətin vətəndaşı olaraq söyləyə bilərəm ki, Haqq yolunda döyüşən igid oğullarımız mütləq ki, Allah dərgahında xüsusi bir məqama malikdirlər. Azərbaycan xalqı öz Haqq torpaqları olan Birinci Qarabağ və yenicə Ordumuzun qələbəsi ilə nəticələnmiş İkinci Qarabağ döyüşlərində də minlərlə şəhid vermişdir. Xalqımın mərd oğulları Vətən, torpaq, xalq uğrunda döyüşmək, döyüşə gedərkən şəhid olmaq, “şəhadət şərbətini içmək” üçün can ataraq, sarsılmaz imanını öz şücaətləri ilə nümayiş etdirmişlər.

Bu gün Azərbaycan xalqı Ali Baş Komandan Prezident İlham Əliyevin başçılığı altında öz torpaqlarının bütövlüyünü bərpa edir, əzəli əbədi Azərbaycan torpağı olan Qarabağı mənfur düşmən tapdağından öz qanı və canı bahasına azad edir. Azərbaycan xalqı Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu və uzaqgörən siyasəti sayəsində bu günlər tarixinin ən şərəfli dövrlərindən birini yaşayır. Biz öz Haqq torpaqlarımızı geri aldıq, bu şərəfli, bu müqəddəs anların canlı şahidi olduq. Biz qalib gəldik.

Müharibə şəhidsiz olmur. Bu gün Azərbaycan xalqı öz şəhidlərini mənliyimiz və qürurumuzun rəmzi olan Bayrağımıza bükür və dəfn edir. Şəhidi olmayan xalq torpaq məhəbbətindən, yurd sevgisindən məhrumdur. Şəhidi olmayan xalqın mənliyi, kimliyi bilinməz, azadlığı qanı, canı ilə qazanmayan xalq kölə kimi gözükölgəli, həyəcan içində yaşayar. Hər zaman Azərbaycan milləti olaraq, “Ölsəm şəhid, qalsam qazi”; “Torpaq – uğrunda ölən varsa, Vətəndir” şüarları ilə tarixdə zəfərlər qazanmışıq.

Tarix boyunca şəhidlik xalqımızın mənliyində yaşayan yüksək əxlaqi keyfiyyət olmuşdur. Xalqımız Vətən və müqəddəs dəyərlər naminə həmişə döyüşmüş, bu yolda ölməyi yaşamaqdan üstün tutmuşdur. "Torpaq, əgər uğrunda ölən varsa, Vətəndir!”. Bu müqəddəs deyim, eləcə də bu torpaq, bu Vətən babalarmızın yadigarıdır bizlərə. Zaman-zaman igid oğullarımız öz qanları ilə təsdiqləyib bu sözləri. Onlar şəhidliyi dadmış, o müqəddəs məqama yüksəlmişlər.

Şəhidlik zirvəsi ən uca və müqəddəs zirvədir. Bu gün bu tarixin şanlı səhifələrini yazmaq, öz müqəddəs torpaqlarımızı düşmən tapdağından azad etmək, güclü rəhbər, düzgün siyasət, sarsılmaz şərəfli ordu, bir yumruq kimi birləşmiş xalq, müqəddəs zirvəyə yüksəlmiş şəhidlərimiz sayəsində qalib gəlmişdir.

Haqqa qovuşduq. 30 ildən sonra tarixi torpaqlarımızı - Qarabağı geri aldıq. Şuşamızı, Kəlbəcərimizİ, Laçınımızı və bütün zəbt olunmuş torpaqlarımızı şəhidlərimizin canı, qanı və savadlı, müdrik, uzaqgörən, təmkinli və əbədi Prezidentimiz, Respublika Silahlı Qüvvələrinin Ali Baş Komandanı cənab İlham Əliyevin strategiya və taktikası, Şanlı Ordumuzun, əsgər və zabitlərimizin mübarizliyi sayəsində işğaldan azad etdik.

Haqq yolunda həyatını itirmiş bütün Şəhidlər qarşısında baş əyirik! Ruhunuz şad, məkanınız cənnət olsun, ruhunuz Allahladır, Müqəddəs Şəhidlərimiz.

*Materialın hazırlanmasında internet resurslarından istifadə olunmuşdur.*



**Azanə Əhmədova,**
**AİI-nin II kurs tələbəsi**

# Övlad tərbiyəsi

Müasir cəmiyyətimizdə ailə məfhumunun önəmi gündən-günə daha çox aşınır. Bunun bir çox səbəbi vardır. Ən böyük səbəb kimi isə müasir texnologiyaların inkişafını göstərmək olar. Hər gün yenilənən dünyamızda və cəmiyyətimizdə ailənin və ailədə olması labüd hesab edilən qarşılıqlı hörmətin zəruriliyi yenidən xatırlanmalı və bu mövzuya diqqət yetirilməlidir.

Bizim nəzərə çatdırmaq istədiyimiz məsələ ailədə yetərincə fikir verilməyən və nəticədə, dəyərlərin aşınmasına səbəb olan övlad tərbiyəsi problemidir. Gələcəyimiz olan uşaqları hər hansı bir metodla, başdansovdu şəkildə tərbiyələndirmək olmaz. Cəmiyyətdə bu mövzunun necə əhəmiyyət kəsb etdiyini hələ dərk etməyənlər də var. İstərdim ki, bu mövzuya İslam dini aspektindən yanaşaq. Quran və sünnədə, Peyğəmbərimizin (s.ə.s.) və Əhli-Beyt İmamlarının (ə) bizə çatdırdıqları öyüd-nəsihət vasitəsilə övlad tərbiyəsində nələrə diqqət etməliyik kimi mövzular geniş izah olunur.

Digər cəhətdən, ailə üzvlərinin psixoloji vəziyyətlərinin övladın tərbiyəsində hansı təsirinin olduğu mövzu da önəmli məsələdir. Məlumdur ki, uşaqların həyatında din haqqında ilkin biliklər məhz ailə və onları əhatə edən cəmiyyət əsasında formalaşır. Dini təlimlərinin uşaqlara vaxtında və doğru çatdırılması da mühüm əhəmiyyət kəsb edən amildir ki, bu da araşdırmamızın bir hissəsini təşkil edir.

### Ailədə övladın yeri

Danılmaz faktdır ki, ailədə övladın yeri çox böyükdür. Ailə övladın doğulduğu andan etibarən yaşamını, özünü və digər ailə fərdlərini ilk tanımağa başladığı, həyatı ilk olaraq dərk etməyə çalışdığı mühüm bir qurumdur. Uşağın yetişkən bir insan olanda sahib olacağı şəxsiyyət, şübhəsiz, onun həyatının digər mərhələlərində yaşanacaq hadisələrlə əlaqədə olduğu kimi, ailədə yaşadığı hadisələrlə bilavasitə əlaqədardır.

Həmçinin bəzi filosoflara görə, yetişkən bir insanın davranışlarını anlamağın əsas qaynağı erkən uşaqlıqda yaşanmış (xatırlanmayan) təcrübələr və şüuraltında cəmləşmiş fikirlər, xatirələrdir. Ailədə uşağın tərbiyəsi bu səbəblərlə kənara atılmayacaq qədər önəmli bir mövzudur. Tərbiyəni əlaqələndirən digər mövzu isə tərbiyənin yaşı ilə əlaqədardır. Normalda ailənin məsuliyyəti altına düşən tərbiyə həddi-büluğ çağına qədər olan tərbiyədir. Qurani-Kərimdə də kiçik yaşlarda veriləcək tərbiyəyə işarə edilərək buyurulur: “Ey Rəbbim! Kiçik yaşda məni tərbiyə etdikləri üçün Sən də onlara (ata-anama) mərhəmət et”.

Hz. Peyğəmbər (s.ə.s.) kiçik yaşlarda öyrənilən bilginin “daş üzərinə çəkilmiş naxış” kimi olacağını buyurmuşdur. Mümkün qədər erkən tərbiyə prinsipini qoyan Hz. Peyğəmbər (s.ə.s.), həmçinin yeni doğulan uşağın qulağına Azan və İqamə oxunmasını və danışmağa başlayanda Qurandan kiçik hissələr əzbərlətməyə başlanmasını tövsiyə etmişdir. Ailə fərdlərinin bir-birlərinə qarşı olan davranışları uşağın öz əhatəsinə göstərəcəyi münasibətin təməlini əmələ gətirir. Hər an xoşagəlməz bir hadisənin yaşandığı, etdiyi hər hərəkətə qarşı mənfi cavab alan, güvənc hissinin olmadığı ailədə yetişən uşaqla, din və əxlaq çərçivəsində, hüzur və güvənc hissi ilə yetişən uşaq necə fərqlənirsə, eyni ilə onların həyata baxış bucağı da həmin şəkildə özünü büruzə verəcəkdir.

Həmçinin uşaq dünyaya müdafiəsiz bir şəkildə gəlir və ilk olaraq anası ilə münasibət qurur, onu hiss edir. Uşaqların həyatı boyunca ailə üzvlərinin yanında olması onun üçün böyük əhəmiyyət kəsb edir. Ailə üzvlərinin yanında olması ilə yanaşı, həmin üzvlərin doğru xarakterə sahib olmaları da böyük əhəmiyyət kəsb edir. Ata və ana necə məsuliyyətli bir işin boyunlarında olduğunu anlamalı və övladları ilə bunu nəzərə alaraq rəftar etməlidirlər. Uşağı təhqir etmək, döymək, kobud davranmaq, onu dinləməmək, təklikdə və cəmiyyət içərisində daim tənqid atəşinə tutmaq olduqca təhlükəli və yanlış rəftarlardır. Belə bir tərbiyə İslam qayda-qanunlarına zidd olan amillərdir.

### Qurani-Kərimdə övlad haqqında ayələr

İnsan həyatı normal şəkildə doğumla başlayıb, ölümlə bitən bir

dövrü əhatə edir. Bununla bir yerdə bu dövr istər bədəni, istərsə də ruhi olmaqla bir neçə mərhələyə bölünür. Bu mərhələlər uşaqlıq, yeniyetməlik, yetişkənlik və yaşlılıq olaraq dövrlərə bölünür və xüsusilə də uşaqlıq bu mərhələlər içərisində xüsusi əhəmiyyətə malikdir. Çoxalma bütün canlılarda təbii olaraq ümumi qanundur. İslam dininə görə, evlənmənin səbəblərindən biri, hətta ən önəmli səbəbi övlad sahibi olmaq və nəsli davam etdirməkdir. İnsanda öz nəsəbini, nəslini artırmaq arzusu fitri bir arzudur. Qurani-Kərim ümumi olaraq insanların Allahdan qüsursuz, yaxşı bir övlad tələb etdiklərini bildirir ("Əraf" surəsinin 189-190-cı ayələri).

Bununla bərabər, bəzi peyğəmbərlərlə saleh qulların Allahdan özlərinə təmiz bir nəsil və nəsillərindən Allaha ibadət edən millətlər verməsi üçün dua etdikləri bildirilir ("Bəqərə" surəsi, 128, "Ali-İmran" surəsi, 35-38). Qurani-Kərimdə də insanların özlərinə yaxşı həyat yoldaşı və övladları olsun deyə Allaha dua etmələri buyurulmuşdur. Hz. Peyğəmbərin (s.ə.s.) "Evlənin, uşaq sahibi olun. Mən qiyamət günündə ümmətimin çoxluğu ilə iftixar edəcəyəm" buyurduğu hədisində də insanlara nəsillərini artırmağı və onları qorumağı tövsiyə etdiyi aydın görünür. Uşağın yaxşı insan və səmimi bir müsəlman olması üçün əlindən gələni etmək və lazım olan fədakarlığı göstərmək valideynin əsas vəzifəsidir.

Uşaqla əlaqəli mühüm bəhslərdən biri də ailədir. Quranda ailəyə və ona aid məsələlərə çox yer verilir. Yuxarıda qeyd etdiyimiz kimi, "keçmiş peyğəmbərlərə həyat yoldaşları və övlad verildiyini" ifadə edən Qurani-Kərim, başda Peyğəmbərimiz (s.ə.s.) olmaqla, Hz. Musa (ə), Hz. Harun (ə), Hz. İbrahim (ə), Hz. İmran (ə), Hz. Saleh (ə), Hz.Yaqub (ə), Hz. Lut (ə), Hz. Davud (ə), Hz. Nuh (ə), Hz. İsmayıl (ə), Hz. Əyyub (ə) kimi peyğəmbərlərin ailələrindən bəhs edir. Haqqında ən çox danışılan ailə isə Fironun ailəsidir. Hz. İbrahim (ə) və Hz. İmranın (ə) ailələri ideal ailə kimi göstərilir, ancaq Hz. Nuh (ə), Hz. Lut (ə) və Fironun ailəsindən bəzi kəslər isə Allahın qəzəbinə uğramışlar. Ailə ilə əlaqəli bəhslərdə valdeynlərdə uşaqlarına qarşı olan fitri sevgi, əlaqə, şəfqət kimi hisslərə geniş yer verilir. Hz. Nuhun (ə) kafir olaraq ölən oğluna qarşı hiss etdiyi iztirab, Hz. Yaqubun (ə) itən oğlu Yusifin (ə) qarşısında ağlaması, Hz. Musanın (ə) anasının çaya atdığı uşağı qarşısında narahatlığı və bu kimi nümunələr qeyd olunur. Qurani-Kərimdə haqqında danışdığımız övlad tərbiyəsi mövzusuna da toxunulmuşdur. Quranda tərbiyə ilə əlaqədər məsələlər çoxluq təşkil edir. İslam dininə görə, ata evdə rəisdir və maddi mövzular ondan asılıdır. Ana isə evdə övladın tərbiyəsi işlərinə baxmalıdır. Ailə rəisi maddi ehtiyacları təmin etdiyi kimi, mənəvi məsələlərə də toxunmalıdır. Ayədə buyurulur: "Ey iman edənlər! Özünüzü və övladlarınızı yanacağı insanlar və daşlar olan cəhənnəm əzabından qoruyun". Ayədən məlum olur ki, ailə rəisi ailəsinin təlim-tərbiyəsindən ötrü məsuliyyət daşıyır. Quran, həmçinin tərbiyə əsnasında bərabərlik prinsipinə üstünlük verir. Cahil ərəblərin etdikləri kimi, qız-oğlan arasında fərq qoymaq İslam qanunlarına ziddir.



Ailənin önəmini qeyd edən zaman onun dini məsələlərdəki əhəmiyyətini də vurğulamaq la-

zımdır. Ailədə veriləcək doğru bir din təlimi uşaqda dini duyğu və düşüncənin müsbət yöndə istiqamətlənməsinə xidmət edəcəyi kimi, əks-istiqamətdə veriləcək təlim isə uşaqdakı dini duyğunun məhv olması ilə nəticələnə bilər. Bu məsələdə ata-ananın ən böyük vəzifəsi uşaqda olan dini duyğunun aşkarlanması və onun düzgün istiqamətə yönləndirilməsidir. Hər bir insan ailəsinin cismani xüsusiyyətlərini daşıdığı kimi, onun inanclarını, tutum və davranışlarını da özündə ehtiva edir. Diqqət yetirmişiksə, uşaqlar bizim onlara dediyimiz sözlərdən çox etdiyimiz davranışları daha tez qəbul edir və onları icra etməyə çalışırlar. Bu, onların eyni ilə dini həyatına da aiddir. Hz. Məhəmmədin (s.ə.s.) fitrət hədisində "Hər doğulan fitrət üzərinə doğular. Sonra ana-atası onu yəhudi, xristian və ya məcusi edər", – deyə buyurmuşdur. Qeyd etdiklərimizə görə, valideynlər uşaqlarına Allahın əmr və qadağalarını bildirməli və buna uyğun bir həyat yaşamaları üçün lazimi təlim və tədris prosesini həyata keçirməlidirlər.

Dindar olmağın əhəmiyyəti bildirilməlidir ki, bu mövzuda Hz. İbrahim və Hz.Yaqubla (ə) əlaqəli ayəni demək olar. "Rəbbi ona (özünü Haqqa) təslim et dediyi zaman o, "Aləmlərin Rəbbinə təslim oldum", - demişdi. İbrahim



bunu oğullarına da tövsiyə etdi. (nəvəsi)Yaqub da (belə etdi): "Ey oğullarım! Allah sizin üçün (İslam) dinini bəyənib seçdi. O halda siz də ancaq müsəlmanlar olaraq can verin", - dedi.

Bildiyimiz kimi, övladın tərbiyəsində ətraf mühitin də böyük rolu vardır. Buna görə də ailə rəisi yaşayacaqları yerə önəm verməlidir və əxlaqi normalara riayət olunan yerdə öz ailəsini yaşatmalıdır.

**Valideynlərin övladın, həmçinin övladın valideynləri üzərindəki haqları və İmamların (ə) bu mövzuda tövsiyələri**

İslam dinində övladın valideynin üzərində, həmçinin valideynin də övlad üzərində müəyyən haqq və öhdəlikləri vardır. Hz. Peyğəmbərdən (s.ə.s.) rəvayət olunan hədislərə görə övladın valideyn üzərindəki haqları bunlardan ibarətdir. Birincisi, uşağa gözəl ad qoyulmasıdır. Uşağa qoyulacaq ad diqqətlə seçilməlidir. Belə ki, hansı dildə olur-olsun, uşağa veriləcək ad onun yetişdiyi cəmiyyətdə lağ ediləsi bir ad olmamalıdır və uşaq adına görə utanc hissi keçirməməlidir. Hz. Peyğəmbər (s.ə.s.) bu mövzudaki hədisində "Siz qiyamət günündə öz adlarınız və atalarınızın adları ilə çağırılacaqsınız. Belə isə gözəl adlar seçin", – buyurmuşdur. Hz. Peyğəmbərin (s.ə.s.) müxtəlif səbəblərdən İslam dininə uyğun olmayan adlara sahib olan uşaqların və yetişkənlərin adlarını dəyişdirib, yeni isimlər verməsi də bu mövzunun önəmini əhatə edir. İkincisi, yaxşı tərbiyədir. Bir hədisdə gözəl ad və yaxşı tərbiyə uşağın atası üzərindəki haqları arasında qeyd edilir. Uşağın mükəmməl şəkildə böyüməsi, lazımi ehtiyaclarının ödənilməsi, ona yaxşı tərbiyə verilməsi, dini bilgilərlə maariflənməsi üçün ata və ana əlindən gələni etməlidir. Üçüncüsü, evləndirmədir. Ata-anaya aid olan nəsli qorumaq vəzifəsi övladın həddi-büluğa çatdıqdan sonra, onun evlənib yuva qurmasına şərait yaratmaları ilə başa çatır. Hz. Peyğəmbər (s.ə.s.) bununla əlaqəli hədisində "Uşaq büluğ çağına gəldikdə atası onu evləndirsin", – buyurmuşdur.

Həmçinin Allahın Rəsulu (s.ə.s.)

buyurmuşdur: “Ata-anaların övlad üzərində haqları olduğu kimi (bu haqqı ödəməyən övlad ağ-valideyn sayılır), övladların da onların üzərində haqları vardır. Bu hüquqlara riayət etməyən valideynlər ağ-övlad sayılırlar. Hz. Əli də (ə) ata ilə övladın biri-birlərinin boyunlarında olan haqqı barədə buyurmuşdur. Övladın atanın, eləcə də atanın övladın boynunda haqqı vardır. Atanın övladın boynunda olan haqqı budur ki, o, eyib və nöqsan sifətlərdən pak və uzaq olan Allaha itaətsizlikdən başqa hər bir işdə ataya tabe olmalı və itaət etməlidir. Övladın atanın boynunda olan haqqı budur ki, ona yaxşı ad qoysun (məsumlar əleyhimus-səlamın özlərinin və ya övlad və ailə üzvlərinin birinin adını qoysun övladına), onu ədəbli və gözələxlaqlı tərbiyə etsin və ona Quran öyrətsin. Bu mövzularla yanaşı, həm də uşaqlarda olan digər hallarla bağlı da hədislərə diqqət yetirək.

Uşaqlara mərhəmət göstərilməsi. Uşaqlara qarşı dərin sevgi və mərhəmət göstərən Hz. Peyğəmbər (s.ə.s.) onların problemləri ilə yaxından əlaqədar olmuşdur. Onun uşaqları qucağına alıb əzizlədiyi ilə əlaqəli bir çox rəvayət var. Bir dəfə Hz. Peyğəmbər (s.ə.s.) nəvəsi Həsəni (ə) öpərkən yanında olan bədəvi qəbilə rəislərindən olan Əqra ibn Haris “Siz uşaqları öpürsünüz? Mənim on uşağım var, heç birini öpməmişəm”, – deyir. Buna cavab olaraq isə Hz.Peyğəmbər (s.ə.s.) “Mərhəmət etməyənə mərhəmət edilməz” cavabını verir. Başqa bir şəxs də “Siz uşaqları öpürsünüz?” – deyə sual verəndə cavab olaraq Peyğəmbər (s.ə.s.) “Allah sənin qəlbindən mərhəmət hissini alıbsa, buna mən nə edim?” – deyə buyurmuşdur.

Onlara səbirlə yanaşmaq və səbirli olmağı təşviq etmək. Allahın Peyğəmbəri (s.ə.s.) buyurmuşdur: “Uşağın balaca vaxtı dəcəlliyi, böyüyəndə əqlinin çoxluğuna dəlalət edir”, – buyurmuşdur.

Həmçinin İmam Kazım (ə) buyurmuşdur: “Oğlanın uşaqlıq dövründə dəcəlliyi, böyüyəndə dözümlülüyünə səbəb olduğuna görə bəyəniləndir”. Bu qeyd etdiyimiz hədislərdən də məlum olur ki, uşağın kiçik vaxtlarda etdiyi dəcəllik normaldır və ailə fərdləri tərəfindən də belə qarşılanmalıdır. Onların dəcəlliklərinə səbirlə yanaşmaq lazımdır. Bundan əlavə, uşaqlara səbirli olmağı təşviq etmək çox önəmli xüsuslardan biridir. Hz.Əli (ə) səbirlilik barədə buyurub: “Səbirliliyin nicat verVmədiyi kəsi dözümsüzlük məhv edər (çünki o, səbirliliyin savabını əldən verərək dözümsüzlüyün cəzasına düçar olar).

Övladlarımıza ailə içərisində digər bacı və qardaşlarına qarşı, məktəbdə və digər qurumlarda isə yaşıdlarına münasibətdə səbirli olmağı təşviq etməliyik.

Uşaqlara oyun üçün fürsət yaratmaq. İmam Sadiq (ə) buyurur: “Körpənin həyatının, xüsusilə ilk yeddi ili azad şəkildə oyunlara və fiziki hərəkətlərə sərf olunmalıdır”. Burada diqqət edəcəyimiz mövzu uşağa oyun oynamaq üçün fürsət yaratmaqdır. Onu çox kiçik yaşlardan, ancaq dini və yaxud elmi işlərlə məşğul etmək yanlış davranışdır, çünki uşağın oyuna ehtiyacı var. Yeddi yaşdan sonra yavaş-yavaş dini biliklər öyrədilməli və uşaq dinin müxtəlif gözəllikləri ilə tanış edilməlidir. Uşaqla münasibət qurarkən anlayışlı olmaq və onunla dostyanə rəftar etmək lazımdır. Bu xüsusiyyətlər olmasa, uşaq bizi sadəcə, məcbur olaraq dinləyər və dediklərimiz onun üçün heç bir məna kəsb etməz.

Burada İmam Əlinin (ə) oğlu İmam Həsənə (ə) verdiyi qısa və olduqca mənalı öyüd-nəsihəti diqqətinizə çatdırmaq istədik: “Oğulcanım, məndən dörd şeyi yadında saxla ki, onlarla gördüyün heç bir iş sənə zərər yetirməz. Var-dövlətin ən üstünü ağıldır ki, şəxs onun vasitəsilə dünya və axirət səadətini və xoşbəxtliyini əldə edir. İkincisi, ən böyük yoxsulluq ağılsızlıqdır ki, iki dünyada da bədbəxtliyə səbəb olur. Üçüncüsü, ən böyük qorxu xudpəsəndlikdir ki, belə olan şəxs heç kəslə ünsiyyətdə olmur və bu səbəbdən, hamı onunla düşmənçilik edir və o, həmişə qorxu içində olur. Dördüncüsü, ən üstün böyüklük xoşxasiyyətlilikdir. Xoşxasiyyət olan kəs hamının yanında yüksək məqama malik olur. Oğulcanım, axmaqla dostluq etməkdən çəkin. O, sənə xeyir vermək istəyər, amma ziyan vurar. Xəsis adamla dostluq etməkdən çəkin. O, xəsislik və simicliyinə görə, çox ehtiyacın olan şeyi səndən əsirgəyər. Pis əməl sahibi ilə dostluq etməkdən çəkin ki, o, səni lap az şeyə satar. Çox yalan danışan adamla dostluq etməkdən çəkin ki, o, uzağı yaxın və yaxını uzaq edən ilğım kimidir. Öz nadürüst məqsədlərini həyata keçirmək üçün çətin işi asanlaşdırar, asan işi çətinləşdirər.

Burada atanın övladına verəcəyi ən gözəl fikirlər və nəsihətləri görürük. İmam Əli (ə) oğluna verdiyi nəsihətlərdə kimlərlə dostluq edib, kimlərlə edilməyəcəyini bildirir ki, bu da uşağın həyatında böyük rol oynayan bir xüsusdur. Övladın tərbiyəsində ailənin böyük rolu olduğu kimi, cəmiyyətin və uşağın qurduğu dostluqların da rolu vardır.

**Valideynlərin psixoloji vəziyyətinin övlad tərbiyəsinə təsiri və uşaqda davranış problemləri**

Ümumiyyətlə, övladın tərbiyəsində ailə içərisində olan hər hadisənin özünəməxsus təsiri vardır.

Qeyd etdiyimiz kimi, ailədə fərdlərin qarşılıqlı münasibətləri çox önəmlidir, xüsusilə də ata və ananın davranışları. Biz bilirik ki, ailə başçısı, əsasən, ailənin maddi gəlirlə bağlı hissəsi ilə məşğul olarkən, ana da evdə daha çox ev işləri və övladların tərbiyəsi ilə məşğul olur. Ailə başçısı yalnız maddi işlərlə məşğul olub, ailəsinə qayğı göstərməyi ikinci plana çəkməməlidir. Ailəsinə ev işlərində yardım etməli və övladın tərbiyəsində xanımına kömək göstərməlidir. Xoşbəxt ailə də belə formalaşır. Ata evdə xanımına zülm edərsə bu, ilk növbədə, övladın psixoloji vəziyyətinə və ailə, cəmiyyətlə bağlı fikirlərinə təsir edər. Anaya qarşı edilmiş pis rəftar sonda məhv olmuş uşaq tərbiyəsi ilə nəticələnə bilər. Xanım ailə başçısına qarşı nifrətinin əvəzini övladından çıxma hissi duyur və sanki günahkar övladmış kimi, bütün acığını onun üstünə tökür. Bu barədə Hz.Əli (ə) buyurur: "İşinin çoxunu arvad-uşağına həsr etmə. Əgər onlar Allahın dostu olsalar, Allah öz dostlarını puç etməz və onlara yardım etməkdə başqasına möhtac deyildir. Əgər Allahın düşməni olsalar, Allahın düşmənləri üçün kədərlənərək iş görməyin nəyə gərəkdir?!".

Uşaqlıq çağındakı davranış problemləri, əsasən, genetik, bioloji və sosial vəziyyətlərin, işsizlik, yoxsulluq, valideynlərarası münasibətlər və boşanma ilə əlaqədar olur. Xüsusən də ailənin övladına qarşı, ancaq təhqir və cəzalandırmaya əsaslanan "tərbiyə" üsulu, ailə daxilində şiddət, qeyd etdiyimiz ünsürlərin özəyini təşkil edir. Bu kimi problemlər uşağın psixologiyasında qalıcı qüsurlar yarada bilər.

Bəzi valideynlər, əsasən, uşaqlarının, ancaq pis davranışlarını görüb onları cəzalandırmağa üstünlük verirlər. Əslində isə uşaqların yaxşı davranışlarını qiymətləndirmək lazımdır. Uşaqlar isə vaxt keçdikcə, artıq valideynlərini dinləmək istəmir və məcburiyyət qarşısında qalaraq, bəzi mənfi hərəkətlər etməyə başlayırlar. Yəni ailə fərdləri arasında hörmət yavaş-yavaş aradan qalxır. Bu kimi hadisələr ailədə artmağa başlayanda, artıq valideynlərin də psixologiyası zərər görür və xüsusilə ananın bu kimi hallardan təsirlənməsi qaçılmaz olur. Ananın psixoloji vəziyyətinin gərgin olması övladının bir çox xüsusiyyətinə öz təsirini göstərir. Xüsusilə də kiçik yaşlarda olan uşağın anasının bu kimi hallarda olması daha pisdir. Əvvəldə qeyd etmişdik ki, uşaq əsas anlayışları 0-2 yaş ərəfəsində qəbul edir. Uşaqların davranış problemlərini minimuma endirmək üçün ana və ata yaşadığı gərginliklərin və mənfi halların uşağa təsir etməməsinə çox diqqət etməlidirlər. Ailədə birlik və qarşılıqlı hörmətin olması üçün bəzi işlər həyata keçirilməlidir. Məsələn, birgə fəaliyyətlər çoxaldıla bilər. Birgə oyunlar oynamaq, uşaqlarla dostyana söhbət etmək, problemlərinin nə olduğunu onların dilindən eşitmək, yemək-içmək kimi fəaliyyətlərin birgə edilməsi. Yəni daim bir arada nahar yemək də önəmlidir. Ailə bir masa ətrafına toplandıqda əsl ailə olur və birlik də güclənir. Bu xüsuslara diqqət etməklə daha yaxşı ailə nümunəsi meydana gələ bilər.

Gəldiyim nəticə bundan ibarətdir ki, ailəiçi problemlərə xüsusi diqqət yetirməli və övladlarımızın bunlardan təsirlənəcəyini göz önünə gətirib davranışlarımıza xüsusi diqqət yetirməliyik. Övladımızın gözəl tərbiyə almağı üçün İslam Peyğəmbərinin (s.ə.s.) və İmamlarımızın (ə) övladlarına göstərdikləri tərbiyədən örnək götürməli, bacardığımız qədər onlar kimi uşaqlara qarşı səbirli və nəvazişli olmalıyıq. Onlar bizim gələcəyimizdir. Qiyamət günü Rəbbimiz qarşısında sorğu-sual olunacağımız zaman Onun bizdən razı olması üçün bu xüsuslara diqqət yetirək. Ailə və övlad haqqındakı ayələrdən də bizə məlum olur ki, insan yaranışından bəri ailə məfhumuna ehtiyac duyur. Bunu peyğəmbərlərin dualarından aydın görmək mümkündür. Həmçinin Allah da bizdən yaxşı ailə və övladlar üçün Ona dua etməyimizi əmr edir. Bundan başqa, övlad və valideynlərin bir-birləri üzərindəki haqlarından bəhs edərkən, ailə fərdlərinin qarşılıqlı olaraq necə böyük məsuliyyət daşıdıqlarının şahidi olduq. Övlada tərbiyə verilməsi, ona gözəl ad qoyulması və ehtiyaclarının təmin olunması valideynlərin əsas vəzifələridir. Buna cavab olaraq övladın da hər mövzuda ailəsi ilə məsləhətləşməsi önəmlidir. Ailə daxilində fərdlərin bir-birləri ilə səbirlə rəftar etmələri, hər məsələnin şişirdilməməsi, ata-ananın övladlarının yanında etdikləri hərəkət və davranışlara xüsusi önəm verməsi labüddür. Yenə də vurğulayırıq ki, ailə başçılarının etdiyi hər şey övlada bilavasitə təsir edir. Buna görə də səbir, mərhəmət və təqvanı özümüzdə cəmləşdirək ki, cəmiyyətə faydalı övladlar yetişdirə bilək.



**Məmmədəli Babaşlı,**
**i.f.d., dos.,**
**Aİİ-nin müəllimi**

# Qloballaşan dünyada elmi araşdırmaların əhəmiyyəti

Keçən əsrin 80-ci illərində dünya siyasətinin gündəminə daxil olan "qloballaşma" məfhumu müasir həyatımızın inkarolunmaz atributuna çevrildi. Tarixən inteqrasiyaya can atan bəşəriyyət yeni bir dünya sisteminin təşəkkülü reallığı ilə qarşı-qarşıya qaldı. Sadəcə, sənayenin inkişafının deyil, siyasi, iqtisadi və mədəni həyatda da inteqrasiyanın qaçılmaz bir proses olduğu anlaşıldı. Müxtəlif siyasi, iqtisadi, sosial inkişaf səviyyəsinə malik olan dövlətlər arasında qarşılıqlı əlaqələr intensiv səciyyə qazandı. Xəbərləşmə və telekommunikasiya sahəsində heyrətamiz yeniliklər və ciddi irəliləyişlər baş verdi.

Əslində, "kim olması", "haradan gəlməsi" və "haraya getməsi" barədə əbədi suallara cavab axtaran bəşər övladı üçün elmi biliklərə yiyələnmək ehtiyacı hər zaman aktual olub. Bunun da məntiqi nəticəsi olaraq, bir insanın digərindən, bir cəmiyyətin başqa bir cəmiyyətdən üstünlüyü sahib olduğu elmi biliklər nisbətində olub. Bu səbəbdən, istisnasız olaraq bütün sivilizasiyaların təməlini elmi nailiyyətlər təşkil edib. Bu mənada, elmin vətəni olmadığı kimi, dini və irqi mənsubiyyəti də olmayıb. Başqa sözlə, elm, sadəcə, bir cəmiyyətin, yaxud da bir dövlətin deyil, bütün insanlığın dəyəridir. Tarixin müəyyən dövrlərində bu dəyəri yaşatmaq və inkişaf etdirmək missiyasını yunanlar, romalılar və ərəblərlə yanaşı, soydaşlarımızın və digər müsəlman xalqların təmsil etdiklər ümum-İslam mədəniyyəti öz üzərinə götürüb. Son üç əsrdə isə estafeti Şərqdən qəbul edən Qərb bu missiyanı təmsil etməkdədir.

Sürətli dəyişikliklərin baş verdiyi qloballaşma şəraitində bir daha yeganə yolun elmi-texniki tərəqqidən, fundamental elmi tədqiqatlardan keçdiyinə şübhə yeri qalmadı. Başqa sözlə desək, ictimai həyatın bütün sahələrinə nüfuz edən elmin son nailiyyətlərinə istinad etmədən inkişafın mümkün olmadığı ortaya çıxdı. Bu və ya digər cəmiyyətin inkişaf səviyyəsinin onun elmə verdiyi əhəmiyyətin dərəcəsindən, iqtisadi, mədəni və təhsil səviyyəsinin vəziyyətindən asılı olduğu anlaşıldı. Eyni zamanda, müasir dünyanın qlobal problemlərinin həllində sosial amil olaraq elmin müstəsna rol oynadığı öz təsdiqni tapdı. Xüsusilə, alternativ enerji mənbələrinin axtarılıb tapılması və ətraf mühitin qorunub saxlanılması məsələləri elmin qarşısında ciddi vəzifələrin durduğunu ortaya çıxardı. Bu ehtiyacı zamanında dərk edən ölkələr uzunmüddətli davamlı iqtisadi inkişafı təmin etmək üçün bilik iqtisadiyyatının formalaşmasına, elmtutumlu texnologiyaların, məhsulların istehsalına daha çox üstünlük verdi. Bu məqsədlə elmi infrastrukturun təkmilləşdirilməsinə, maddi-texniki bazanın modernləşdirilməsinə, elmin maliyyələşdirilməsinə xüsusi fikir verilməyə başlanıldı. Qarşıya qoyulan məqsədə çatmaq üçün ümumdaxili məhsuldan elm üçün ayrılan vəsaitin həcmi artırıldı. İsveçrədə bu rəqəmin 3,8 faiz, Yaponiyada 3,5 faiz, Finlandiyada 3,2 faiz, Amerikada və Almaniyada 3 faiz, Fransada 2,6 faiz, Danimarikada 2,3 faiz təşkil etməsi sözügedən yanaşmanın ən bariz göstəricisidir.

Təbii ki, iqtisadi cəhətdən sürətlə inkişaf edən Azərbaycanın da bu məsələyə xüsusi diqqət yetirməsi son dərəcə vacibdir. Zəngin karbohidrogen ehtiyatlarına malik olan ölkəmizdə elmin tətbiqi istiqamətlərinin inkişafı üçün ciddi sosial tələbat mövcuddur. Belə ki, neft sənayesinin inkişafı yeni texnologiyalardan, müasir texniki avadanlıqlardan istifadə etməyi bacaran milli kadrların hazırlanmasını zərurətə çevirdi. Bu da öz növbəsində, ölkəmizdə elm və təhsil imkanlarının artması, insan qaynaqlarının daha aktiv hala gəlməsi ilə nəticələndi. Ən başlıcası, müasir Azərbaycan cəmiyyətində elmin optimal yerinin müəyyənləşdirilməsinin, aparılan elmi tədqiqatların səmərəliliyinin artırılması və alınan elmi nəticələrin tətbiqini asanlaşdıran yeni mexanizmlərin axtarılıb-tapılmasının vacibliyini gündəmə gətirdi.



Bu zərurətdən çıxış edərək istedadlı gənclərin dünyanın aparıcı ali məktəblərində təhsil almasına, müasir biliklərə yiyələnməsinə imkan verən "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" qəbul edildi. 2015-ci ilə qədər elmin inkişafını özündə əks etdirən "Azərbaycan elminin inkişafı üzrə Milli Strategiya və Dövlət Proqramı təsdiq olundu. Ölkə rəhbərinin irəli sürdüyü "iqtisadi potensialımızı intellekt kapitalına çevirək" çağırışına uyğun olaraq, "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasında elm qarşısında duran məsələlərin icrasına nəzarət etmək məqsədilə AMEA tərəfindən Azərbaycan Elminin İnkişaf Konsepsiyası işlənib hazırlandı. Konseputual inkişaf təyinatlı layihələri dəstəkləmək məqsədilə Elmin İnkişaf Fondu təsis edildi. Gənclər və İdman Nazirliyi, yeni fəaliyyətə başlamış Gənclər Fondu tərəfindən gənc tədqiqatçıların beynəlxalq səviyyəli elmi tədbirlərdə iştirakını təmin etmək üçün maliyyə vəsaitinin ayrılması praktikasına başlanıldı. Bütün bunlar Azərbaycanın zəngin elmi ənənələrinin qorunub-saxlanılacağına və inkişaf etdiriləcəyinə olan inamımızı artırır.

Unutmamalıyıq ki, bir-birindən ayrılması mümkün olmayan elm və təhsil məsələlərinin həllini, sadəcə, dövlət qurumlarından gözləmək doğru olmazdı. Sözün həqiqi mənasında, ümummilli məsələ olan bu iki sahənin inkişafında ictimaiyyətin də maddi və mənəvi dəstəyinə ciddi ehtiyac vardır. Əminliklə deyə bilərik ki, Azərbaycanın həm maddi, həm də insan resursları onun elmdə də böyük nailiyyətlər əldə etməsinə imkan verir. Mövcud resurslardan səmərəli istifadə etdiyimiz təqdirdə, müasir texnologiya istehsal və ixrac edən ölkələr sırasına daxil olmağımız heç də əlçatmaz deyildir.

Belə bir şəraitdə, qloballaşma prosesini düzgün dərk etməli, elmə və texnoloji imkanlara yiyələnməyə çalışmalıyıq. Gələcəyimizin firavan olmasını istəyiriksə, vaxt itirmədən elmə və fundamental elmi tədqiqatlara diqqəti artırmalı, sözün əsl mənasında, sağlam bir elmi mühit formalaşdırmağın qeydinə qalmalıyıq. Azərbaycanın yeraltı sərvətləri ilə yanaşı, zəngin insan potensialının da olduğunu unutmamalı, onun maksimum inkişafı üçün əlimizdən gələni etməliyik. Bunun da ən düzgün yolu istedadlı gənclər üçün əlverişli şərait yaratmaqdan, təhsil və tədqiqat imkanları təmin etməkdən keçir.

Azərbaycandakı mövcud elmi ənənənin qorunub-saxlanılmasını və inkişaf etdirilməsini gündəlik fəaliyyətimizin əsas devizinə çevirməliyik. Başqa ölkələrdən texnoloji asılılığa son verərək müasir texnologiya ixrac edən dövlət səviyyəsinə yüksəlməliyik. Bu isə hər birimizdən fədakarlıq tələb edir. Elmi müəssisələrdə, ali məktəblərdə fəaliyyət göstərən alimlərimiz istedadlı gənclərə maksimum diqqət və qayğı göstərməli, elmdə varislik prinsipinə əməldə sədaqət nümayiş etdirməlidirlər. Gələcəyin alimlərini yetişdirərkən şam kimi əriməyin vacibliyinə ürəkdən inanmaldırlar.

Elmi tədqiqata həvəsi və qabiliyyəti olan gənclərimiz isə öz növbəsində onlara bəxş edilmiş istedada arxa çevirməməli, fədakarlıqdan boyun qaçırmamalıdırlar. Qarşılarına daha böyük hədəflər qoymalı və elmə bir vasitə kimi deyil, məqsəd olaraq baxmalıdırlar. Müvəqqəti çəinliklərə sinə gərməli və bu işin öhdəsindən ancaq onların gələ biləcəyini nəzərə almalıdırlar.

# Yalançı peyğəmbərlər



**Cəlil Cavanşir,**
**yazıçı, publisist**

***Peyğəmbərlik bütün səmavi dinlərdə ciddi qəbul olunan, dinlərin təməl sütunu hesab edilə biləcək qədər vacib mövzudur. Sonuncu səmavi din hesab olunan İslamın Müqəddəs Kitabı "Qurani-Kərim"də 25 (bəzi araşdırmaçılara görə 26) peyğəmbərin adı çəkilir. Hədislərə görə bu say 124 mindir və bütün İslam biliciləri buna inanırlar.***

Sonuncu peyğəmbər hesab olunan Məhəmməd əleyhissalamdan sonra özünü peyğəmbər elan edənlər "yalançı peyğəmbərlər" olmuşlar. "Peyğəmbər" kəlməsi dilimizə farslardan keçən sözdür, "qeyb aləmi ilə əlaqəsi olan insan" mənası daşıyır. Din alimləri, təxminən, bu tezisi irəli sürürlər: "Peyğəmbər, Allah tərəfindən öz bəndələrini varlıq aləminin yaradılışığına inama dəvət edən, onları doğru yola çəkib, pis işlərdən uzaqlaşdırmaq üçün göndərilmiş insandır və Allahla peyğəmbər arasında ayrı bir insanın vasitə olması qeyri-mümkündür". Qeyd edək ki, zaman keçdikcə bu müqəddəs işi özününküləşdirən saxta insanlar da meydana gəlməyə başlamışdır. Özlərinin peyğəmbər olduğunu iddia edən belə yalançılar hər cəmiyyətdə mövcud olmuşdur.

Yalançı peyğəmbərlərlə bağlı ilk xəbərdarlıq xristianların Müqəddəs Kitabı "İncil"də yazılır: "Yalançı peyğəmbərlərdən özünüzü gözləyin! Onlar yanınıza quzu cildində gələrlər, amma daxilən yırtıcı qurddurlar. Onları bəhrələrindən tanıyacaqsınız. Qaratikandan üzüm, yaxud qanqaldan əncir yığıla bilərmi? Beləcə də hər yaxşı ağac yaxşı bəhrə, pis ağac isə pis bəhrə verir. Yaxşı ağac pis bəhrə verə bilməz, pis ağac da yaxşı bəhrə verə bilməz. Yaxşı bəhrə verməyən hər ağac kəsilər və oda atılar. Beləliklə, yalançı peyğəmbərləri bəhrələrindən tanıyacaqsınız (Mat. 24:4-5; Yəh. 15:2.6; Kor. 11:13-15; Qal. 5:19-23)".

İslama görə peyğəmbərlərin sonuncusu Məhəmməd əleyhissalamdır. Xristianlar isə onun peyğəmbərliyini qəbul etmirlər.

### Sarışın hoqqabaz Müseyləmə

Məhəmməd peyğəmbərin sonuncu peyğəmbər olduğunu qəbul etməyən ilk "yalançı peyğəmbər" Müseyləmə ibn Sümamədir (müsəlmanlar ona Müseyl əmət-ül Kəzzab, yəni yalançı Müseyləmə deyirlər ). Balacaboy və sarışın olan Müseyləmə müxtəlif hoqqabazlıqları ilə məşhurlaşıb. 586-cı ildə doğulan və ikinci adı Həbib olan "yalançı peyğəmbər" Ərəbistanın Nəcd bölgəsindəki Yəmamə yaşayış məntəqəsində məskunlaşmış Bəni-Hənifə qəbiləsindən idi. Bütün tayfadaşları kimi, o da xristiandır. Bəzi araşdırmaçılar Müseyləmənin Məhəmməddən əvvəl özünü peyğəmbər elan etdiyini, Quranın müxtəlif ayə və surələrinin Müseyləmənin kitabından götürüldüyünü iddia edirlər. İngilis şərqşünası David Samuel Margoliouth iddia edir ki, Müseyləmə peyğəmbərliyini Məhəmməddən 20 il əvvəl elan edib. Eyni zamanda, məqalələrinin birində Məhəmməd peyğəmbərin Müseyləməni təqlid etdiyini bildirir. İslam alimləri isə bu fikri qətiyyən qəbul etmirlər.

On beş yaşında Qüdsə səfər edən Müseyləmə burada iki il yaşayır və İsa Məsihinin özündən sonra gələcək peyğəmbər haqqında dediklərini ətraflı olaraq araşdırır. Bu fikirləri öyrəndikdən sonra, Müseyləmə özünün həmin peyğəmbər olması üçün hər gün dua etməyə başlayır.

### Hind fəlsəfəsi ilə tanışlıq və zülmətdən alınan vəhy

Ərəbistana qayıtdıqdan sonra Omanda məskunlaşan Müseyləmə, Hindistana ticarət səfərləri təşkil etməyə başlayır. Hindistana etdiyi səfərlər onun həyatında böyük dönüş yaradır. Səfərləri ona böyük təcrübə qazandırır və Müseyləmə hind fəlsəfəsini öyrənir. 628-ci ildə Yəmaməyə qayıdan Müseyləmə görür ki, Bəni-Hənifə qəbiləsinin başçısı və qəbilə üzvlərinin böyük əksəriyyəti İslam dinini qəbul edib.

Hicri təqvimi ilə 9-cu ildə Müseyləmə bir qrup həmqəbiləsi ilə birlikdə Mədinəyə gəlir. Məqsədi Məhəmməd peyğəmbərlə görüşmək olan Müseyləmə son



anda qərarını dəyişsə də, onunla gələnlər Məhəmməd peyğəmbərlə görüşüb, İslamı qəbul edir. Müseyləmə isə karvandakı yükün yanında qalmaq bəhanəsi ilə Peyğəmbərlə görüşməkdən imtina edir və İslamı qəbul etmədən geri qayıdır.

Məhəmməd peyğəmbərin "Vida həcci"ndən sonra Müseyləmə fəallaşır və elçilər vasitəsilə Məhəmməd peyğəmbərə öz "dəvət" məktubunu göndərir.

Müseyləmə iddia edirdi ki, Allah Harunu Musaya şərik etdiyi kimi, onu da Məhəmmədə şərik edib. Ona Rəhman adlı mələk vasitəsilə zülmətdən vəhy gəlməsini iddia edirdi. Müseyləmənin ətrafında olan insanlar, əsasən, qəbilə təəssübünə görə onunla həmrəylik nümayiş etdirirdilər.

**Quranı yamsılayan və möcüzəsiz "peyğəmbər"**

Müseyləmə yalan vədlərlə və qəbilə təəssübkeşliyi ilə camaatı öz tərəfinə çəkməyə başladı. Onun yalançı olması addımbaşı aşkara çıxırdı. Bir dəfə ona demişdilər: "Məhəmməd suyu azalmış quyulara ağzının suyundan tökəndə quyuların suyu artır. Sən də bizim üçün belə bir möcüzə göstər". Müseyləmə hansı quyuya tüpürdüsə, suyu birdəfəlik çəkilib qurudu. Başqa bir vaxt ona dedilər: "Məhəmməd öz səhabələrinin başına əlini sürtüb onlara şəfa verir. Sən də bizim xəstə balalarımızı sağalt". Müseyləmə hansı uşağın başına əlini çəkdisə, nəinki sağalmadı, üstəlik, uşağın saçları tökülüb keçəl oldu. Bir gözü görməyən qocanın sağalması üçün dua edəndə, qocanın ikinci gözü də kor oldu.

Məhəmməd Peyğəmbərin ən böyük möcüzələrindən birinin Quran olduğunu bilən Müseyləmə ona gələn vəhyləri yazmağa başlayır. Müseyləmə Qurandakı "Fil" surəsinə cavab olaraq bu surəni oxuyarmış: "Əlfil. Məlfil. Və ma ədrakə məlfil. Ləhu zənbin vəbil. Və xurtumin təvil" ("Fil. Nədir fil? Sən nə bilirsən ki, nədir fil? Onun bərk quyruğu və uzun xortumu vardır").

**Müseyləmənin sonu**

Müseyləmə getdikcə müsəlman icması üçün təhlükəli qüvvəyə çevrilir. O, Nəcdin müsəlman valisini qovur və böyük bir ərazini ələ keçirir, ardıcıllarının sayı 40 mini keçir. Məhəmməd Peyğəmbər Müseyləməyə qarşı qoşun göndərməyə imkan tapmasa da, Xəlifə Əbu Bəkr Müseyləməyə

qarşı iki hərbi səfər təşkil edir, ancaq müsəlmanlar məğlub olur. Nəhayət, dövrünün böyük sərkərdəsi Xalid ibn Vəlid yalançı peyğəmbərin üzərinə göndərilir.

Xalid döyüşdən öncə Müseyləmənin ardıcıllarının inamını qırmaq üçün onunla görüşüb danışıq aparmaq istədiyini bildirir. Müseyləmə görüşə gələndə Xalid qılıncını çəkib ona hücum edir. Yalançı peyğəmbər qaçıb canını qurtarsa da, hamının gözü qarşısında rüsvay olur.

633-cü ildə baş vermiş "Yəmamə savaşı"nda 1200 nəfərdən artıq müsəlman, o cümlədən yüzlərlə Quran hafizi öldürülür. Müseyləmənin 20 min tərəfdarı qılıncdan keçirilir. Müseyləmə "Rəhman bağı" adlı qərargaha sığınsa da, Məhəmməd peyğəmbərin əmisi Həmzəni qətlə yetirən Vəhşi onu da öldürür. İslam dini üçün təhlükə yaradan ilk yalançı peyğəmbərin acı sonluğu digər saxtakarları da qorxudur.

**Səccah bint Haris – saxtakar qadın, yoxsa peyğəmbər?**

Müseyləmə ilə eyni zamanda Ərəbistanın müxtəlif yerlərində yalançı peyğəmbərlər zühur etməyə başladı. Bəni-Təmim qəbiləsindən olan Səccah bint Haris adlı qadın da özünü peyğəmbər hesab edirdi. O, siyasi və hərbi cəhətdən daha güclü idi. Öz gücünə arxayın olan Səccah Müseyləmənin tərəfdarlarından ibarət olan Yəmaməyə qoşun yeridir, Müseyləmə qüvvələrinin azlığına görə sülh təklif edir. Sülhün şərtlərinə görə Müseyləmə ilə Səccah bir çadırın içində təklikdə görüşüb, həqiqi peyğəmbər olduqlarını bir-birinə sübut etməli idilər. Məğlub olan şəxs qalibə biət etməli idi.

Müseyləmə ilə çadırda bir gecə keçirən Səccah öz adamlarına elan edir ki, Müseyləmə özünün haqq peyğəmbər olduğunu ona sübut edib. Məhz buna görə də o, Müseyləməyə ərə gedir. Təmim qəbiləsi də öz liderinə tabe olub Müseyləməyə qoşulur və Müseyləmə xeyli güclənir və "başlıq" kimi Səccahın qəbiləsini sübh və ikindi namazlarından azad edir. Səccah bir neçə ay Müseyləmə ilə yaşadıqdan sonra yenə öz vətəninə qayıdır. "Peyğəmbərlər"in evliliyi uzun çəkmir... Maraqlıdır ki, Müseyləmənin ölümündən sonra Səccah İslam dinini qəbul edir.

**Eşşəklə möcüzə göstərən Əsvəd "peyğəmbər"**

Saxta peyğəmbərlərdən ən təhlükəlisi Əsvəd-ül Ansi sayılır. Yəməndə Ans qəbiləsində doğulan, əsl adı Abhala ibn Kaab olan bu şəxs həm də "Zul Himar"(eşşəkli) adı ilə tanınıb. Rəvayətə görə, Əsvəd-ül Ansinin müxtəlif bacarıqları olan bir eşşəyi varmış. Səlis nitqi, müxtəlif illüziyaları ilə xalqı aldatmağı bacaran bu hoqqabaz tez bir zamanda məşhurlaşmağı bacarır.

Eşşəyinin qulağına "Rəbbinə səcdə et" deyən kimi eşşək çökür, "qalx" deyincə qalxırmış. Bundan başqa yüzlərlə heyvanı bir düz xətt üzrə düzüb "bizləyir", lakin heyvanlar xətdən çıxmazmış. Bu səhnəni görən insanlar onun ilahi gücünə, peyğəmbərliyinə şübhə etmir. Əslində, Əsvəd-ül Ansi güclü hipnozçu sayıla bilər. Məhəmməd peyğəmbərin xəstələndiyini eşidən Əsvəd-ül Ansi kahin paltarı geyinərək özünü "Yəmənin rəhmanı", peyğəmbər elan edir. Eyni zamanda, İslam ordusunun başının qarışdığı bir vaxtda bütün Yəməni hakimiyyəti altına almağa cəhd edir. Müsəlmanlara qarşı xüsusi qəddarlığı ilə seçilən Əsvəd sui-qəsd nəticəsində aradan götürülür və Yəmən müsəlmanların idarəetməsi altına keçir.

**Zinanı halal hesab edən Tüleyha "peyğəmbər"**

Tüleyha ibn Hüveylid yalançı peyğəmbərlərin ən qorxağı və zavallısı hesab oluna bilər. Əsl adı Talha olan, Əsəd qəbiləsinin tanınmış insanlarından biri olan bu şəxs təhlükəli olmasa da, Xalid ibn Vəlidin ordusunda böyük narahatlıq yaratmağı bacarıb.

Müsəlmanlar ona qarşı kin bəslədiklərindən, onu Tüleyha – yəni "Talhacığaz" adlandırırdılar. Tüleyhanın da həyat və fəaliyyəti olduqca maraqlıdır. Hicrətin 5-ci ilində Mədinənin mühasirəsində iştirak edən bu insan hicrətin 9-cu ilində tayfadaşları ilə birlikdə Mədinədə İslamı qəbul edir, hicrətin 10-cu ilində mürtədlərə rəhbərlik edərək özünü peyğəmbər elan edir və nəhayət Kadisiyə və Nihavənd döyüşlərində müsəlman əsgəri kimi özünü göstərir. Məhəmməd peyğəmbərin xəstəliyindən istifadə edərək, ona "Zün-Nun" adlı mələyin vəhy gətirdiyini iddia edir.

Həqiqətdə isə Tüleyha saxtakar və yalançı idi. Onun özünü peyğəmbər elan etməsi daha çox İslam aləmində başlayan hərc-mərcliklə bağlıdır. Tüleyhanın ətrafına toplaşan adamların sayının artması, elan etdiyi dində ibadətin olmaması, zinaya icazə verməsi ilə əlaqəli idi. İslama uzun müddət ziyan vursa da, Tüleyha müsəlman əsgəri kimi Qəzvində dünyasını dəyişib.



**Vüqar Səmədov,**
**f.f.d., AİI-nin müəllimi**

# İbn Xəldunun bədəvi (səhrada köçəri həyat sürən ərəblər) ümran nəzəriyyəsinin analizi

İslam düşüncəsində önəmli mütəfəkkirlərdən olan İbn Xəldun ümran elminin təməllərini yaratmaqla yeni bir elmin əsasını qoyduğunu iddia edib. İbn Xəldunun ümran nəzəriyyəsi bədavət, hadarət, əsəbiyyət kimi terminlərlə ictimai hadisələrə yeni izahlar gətirib. İbn Xəldunun fikirləri Qərbdə də maraqla qarşılanıb. Onun əsəri bütün zamanlar üçün aktual olub. Məqaləmizdə İbn Xəldunun bədavət nəzəriyyəsini araşdıracağıq.

Bədəvilər qəbilə quruluşu halında yaşayan ictimai qruplardır. Bədəvilikdə qəbilə təzyiqi, basqısı və qınağı, fərdinin davranışlarını təftiş edən, söz və hərəkətlərinə nəzarət edən yeganə qüvvə, onu tərifləyən, yaxud tənqid edən, lazım gəldikdə isə acımadan günahlandıran vahid gücdür. Səhranın quraqlığı, monotonluğu və davamlılığı bədəvi ərəblərin fiziki quruluşuna, məntiqinə və təfəkkürünə, demək olar ki, tamamilə təsir edib. Qəbilənin dar çevrəsində hər kəsin bir-birini tanıması (sosial nəzarət), nə etdiyini görməsi səbəbindən, şəhərdə yaşayanlara görə əxlaq baxımından pozulmağa daha az əlverişlidir. Məhz elə bu səbəbdən qəbilə qınağı bədəvi ərəbləri bir-birinə nəzarət etməyə məcbur edirdi. İbn Xəlduna görə, bədəvi ərəblər ehtiyaclarının azlığı, buna bağlı olaraq da arzu, istək və ehtiraslarının məhdudiyyəti səbəbindən xeyrə, yaxşılığa, fəzilət və gözələxlaqlı olmağa şəhərdə yaşayanlara nisbətən daha əlverişlidirlər. Bolluğa və rahatlığa alışmadıqları üçün çox qənaətkar idilər, qəbilənin şərəfini öz mənfəətlərindən üstün tuturdular. Qəbilə fərdlərinə qarşı eqoist olmayıb, lazım gəldikdə onlar üçün canlarını belə fəda edirdilər. Məhz elə buna görə də mətanət, cəsarət və şücaət kimi xüsusiyyətlər onların ən diqqətçəkən əxlaqi keyfiyyətləri idi. Həyatın çətinliklərinə qarşı mətin idilər. Onlar təbiətə yaxın olduqları üçün təbiilik, sadəlik və sükunət xarakterlərinə hopmuşdu.

**Bədəvilik**

Səhra və vahələrdə dəvələri ilə birlikdə yerləşən, köçəri həyat sürən mənasında işlədilən "bədəvi" kəlməsi "b-d-v" ifadəsindən törənmişdir. Bu kəlmə "başlamaq, ortaya çıxmaq, əvvəl gəlmək", həmçinin "çöldə yaşamaq, səhrada oturmaq, səhraya çıxmaq" mənalarını əhatə edir. Ərəbcə "bədavət (bidavət), bədəvi, badiyə" kəlmələri "məskunlaşmış həyat, mədəniyyət" mənasına gələn "hadr, hadıra, hadarət" kəlmələrinin ziddidir. "Düzənlik, çöl, səhra" mənalarına gələn "badiyə"də yaşayan kimsələrə isə səhraya mənsubiyyətinə görə bədəvi və ya "əhlul-badiyə, əbnaül-badiyə" deyilib. "Bəda əl-qövm" deyildiyi zaman, o qövmün (qəbilənin) köçəri həyat sürmək məqsədilə səhraya getdiyi anlaşılırdı. "Təbədda" deyiləndə isə bədəviləşdiyi, bədəvilərə bənzədiyi nəzərdə tutulurdu. Bədəviliyin sinonimi "ə-rəb" kəlməsidir. Bu kəlmə lüğətdə "yabançı, yad olmayan" mənasını verən "ərəb" ifadəsindən meydana gəlib. "Ərəb" kəlməsi şəhərdə yaşayan ərəbləri ehtiva edir. Eyni zamanda, bu kəlmə bədəvi və hadari olan bütün ərəbləri də əhatə edən daha geniş məfhumdur. İlk dəfə Qurani-Kərimdə məskun həyatı yaşayan ərəblərlə bədəvi ərəblər açıq şəkildə bir-birindən ayrılmış və bədəvilər "ə-rəb" ( الأعراب ) adlandırılmışlar. Beləcə, bir irqin adı olmaqla yanaşı, ərəb yarımadasının kənd və şəhərlərində yaşayanlarına "ərəb", səhrada köçəri həyat sürənlərə isə "ə-rab" (bədəvi) deyilib.

"Badiyə" isə "səhra" insanlarının heyvanlarını otlatmaq üçün dolaşdıqları yer deməkdir. Bədəviliyi ifadə edən başqa kəlmə isə "vəbər"dir. Lüğətdə çadır düzəldilən heyvan tükü və yunu mənasına gəlir. Çadır bədəvi həyatının simvolu qəbul edildiyi üçün yalın olaraq işlədiləndə bədəviliyi ifadə edir. Bədəvilər dəvə və ya keçi tükündən düzəldilmiş çadırlarda köçəri həyat yaşadıqları üçün "əhlul-vəbər, əhlul-xiyam və ya səkənətul-xiyam" adları ilə da anılırlar. Buna qarşılıq kənd, qəsəbə və şəhərlərdə kərpicdən düzəldilən evlərdə məskunlaşaraq həyat sürənlərə isə əhlul-mədər adı verilir.

Hədislərdə də bədavət, bidavət ifadəsi hadarətin, mədəniyyətin ziddi olaraq səhrada köçəri həyat sürmək mənasında işlədilib. Həmçinin bu kəlmənin qabalıq, kobudluq və cahilliklə eyniləşdirildiyi görünür. Yenə hədislərdə bədəviliyi ifadə edən, onların psixoloji xarakterini açıqlayan başqa mühüm ifadə isə dəvə çobanları mənasına

gələn "əhlul-fəddadin" kəlməsidir. Bu kəlmə Həzrət Peyğəmbər tərəfindən "sükunət, vüqar qoyun güdənlərdə; təkəbbür, lovğalanma isə dəvə çobanlarında (əhlul-fəddadin), at sahiblərində olur" şəklində işlədilib. "Fəddad" sözü səsini kobud bir şəkildə yüksəltmək mənasına gəlir. Mənbələrdə bədəvilər üçün "əbnaül-badiyə", "əshabül-cimal" ifadələrinin də işlədildiyi görünür.

İbn Xəldun bədəviliyi daha geniş mənada tədqiq edib. Ona görə bədəvilər iki ana sinifdən meydana gəlməkdədir:

a) Köçərilər: dolanışıqlarını heyvandarlıqla təmin edən topluluqlardır. Heyvanları otarmaq məqsədilə daim gəzdikləri üçün torpağa bağlı deyillər.

b) Kəndlilər: bu sinif bədəvilərin məskun həyat keçirənlərindən meydana gəlir.

Göründüyü kimi, İbn Xəldunun bədavət tərifində "məskunlaşmaq" (səkən) və "köçərilik" (zan) ölçü deyildir. Oturaq kəndlilər və köçəri tayfaların hamısı bədəvi sinfini meydana gətirirlər. Buna görə şəhər xaricində yaşayan bütün topluluqlar bədəvidir. Şəhərlərdə yaşayan topluluqlar isə hadaridir. Həzrət Peyğəmbərin köçərilərlə kəndliləri bir-birindən ayırdığı görünür. Həzrət Peyğəmbər verdiyi bir dəvənin qarşılığında birdən çox dəvə istəyən bədəvinin üzsüzlüyü səbəbindən də onlardan hədiyyə qəbul etməkdən imtina edib. Mədinə ətrafında yaşayan bədəvilərdən Ümmü Sünbülə əl-Əsləmiyyə Həzrət Peyğəmbərin evinə süd gətirib, amma Həzrət Aişə bu hədiyyəni qəbul etməyib. Bu zaman evə gələn Həzrət Peyğəmbər "Hədiyyəni al, çünki artıq onlar bədəvi deyil, bizim səhrada yaşayanlarımız, biz də onların şəhərliləriyik; biz onları dəvət edəndə qəbul edərlər, yardım istəyəndə də bizə yardım edərlər", – buyurub.

Daha açıq bir ifadə ilə desək, qida, sığınacaq və paltar kimi ən zəruri ehtiyacları qarşılamaq üçün bir yerə toplaşan toplumlar bədəvilərdir. Bunlardan fərqli olaraq, ozamankı şərtlərlə lüks sayılan bəzi yeyəcək, qida və s. vasitələrdən istifadə etməyə başlayan toplumlar isə hadari, yəni mədənidir. Bədəvilər çox zaman dəvə yunundan düzəldilən, yüngül, tez quraşdırılıb yığıla bilən və rahatlıqla daşına biləcək çadırlarda yaşayırdılar. İraq və Suriyada yaşayan bədəvilər isə qara keçi tükündən düzəldilmiş çadırlar işlədirdilər. Çadırlarda silahlar, ailənin azuqəsi, heyvanların yemləri, tuluq və bunabənzər dəridən düzəldilmiş qablar, qoşqu alətləri və s. kimi zəruri əşyalar var idi. Çadırların qurulması, yığışdırılması, köhnələn və yırtılan yerlərinin düzəldilməsi, tikilməsi qadınların öhdəsinə düşürdü.

Cavad Əli isə bədəvilərin iki qrupa ayrıldığını deyir: davahi bədəvilər və "səhra bədəviləri. Davahi bədəviləri yaşayış məntəqələrinə yaxın yerlərdə məskən saldıqları üçün səhra bədəvilərinə nisbətən daha mülayim, daha anlayışlı, səhra bədəviləri isə onlara nisbətən qaba, kobud, qatıqəlbli, düşüncə dairəsi dar, dikbaş, anlayışsız və şiddət tərəfdarı olurlar. İbn Xəldun isə bədəvilərin əxlaqi keyfiyyətlərini bəyənərək tərifləyir. Qapalı qəbilə toplumlarından sayılan bədəvi qəbilələrinin fərdləri cəsur, igid, dözümlü, qorxmaz, mərd və təmizəxlaqlıdır. Sevgi və hörmət kimi fitri hisslərə möhkəm şəkildə bağlıdırlar. Bütünləşmək, yardımlaşmaq və məsləhətləşməyə son dərəcə əhəmiyyət verirlər, adət-ənənə və ümumi təmayülləri bu istiqamətdə formalaşıb. Zülm və haqsızlığa qarşı ortaq bir duruş göstərmək vaz keçmədikləri amillərdəndir. Məzluma sahib çıxar, zərər çəkəni himayə edər, möhtac olana kömək əli uzadar, fağır və kasıblara, əlil və şikəstlərə yardım edərlər. İbn Xəldun, həmçinin qeyd edir ki, bədəvi və hadari toplumların var olması təbiidir. Bədəvilər zəruri ehtiyac maddələri ilə keçinmək məcburiyyətindədirlər. Daha yüksək həyat şərtlərinə isə gücləri çatmaz. Ona görə köçərilik şəhərlilikdən öncə gəlir. Köçərilər üçün şəhərlərdə yerləşmək bir məqsəddir. Onlar bu məqsəd uğrunda çalışar və arzularına çatmağa çalışarlar. Mürəffəh və yüksək həyat şərtləri, bolluq əldə etdikdə isə buna yönəlir, şəhərin rahatlığına özlərini təslim edirlər. Köçəri yaşayan bütün qəbilələrin halı budur. Köçərilər şəhərlilərdən cəsur olurlar. Onlar toplumdan ayrı qalıb, təkbaşına yaşayırlar. Qalalarla, qapılarla qorunan yerlərdə yaşamaqdan imtina etdikləri üçün, özlərinin mühafizəsini başqalarına həvalə etməzlər. Bu mövzuda heç kimə güvənməzlər. Köçərilər hər zaman yanlarında silah gəzdirər, yolda gedərkən, təhlükəli yerlərdən keçərkən ətrafa diqqətlə baxarlar. Onlar oturduqları yerdə, miniklərinin yəhəri istina olmaqla, bəzən gecə yuxusundan belə özlərini uzaq tutarlar. Qüvvət və igidliklərinə güvənərək çöllərdə, səhralarda ucu-bucağı olmayan izsiz və kimsəsiz ərazilərdə təkbaşına gəzərlər. Mətanət və cəsarət xarakterləri olub.

İbn Xəldun dəvənin təsirinin bədəvilərin (köçərilərin) xarakteri üzərində güclü olduğunu vurğulayır. Belə ki, dəvənin əti və südü ilə bəslənən köçərilərin daxili orqanları sağlam və dözümlü olur. Bağırsaqları da sağlamlıq və yoğunluq yönündən dəvələrin bağırsaqları kimi olur. Buna görə də başqalarına zərər gətirən qidalar köçərilərə zərər verməz. Dəvə ilə bütünləşən bədəvilərin (köçərilərin) xarakterlərinin dəvənin xüsusiyyətinə bənzədiyi görünür. Buna görə də bədəvilər səbirli, dözümlü, yekəpər və ağır yükdaşıma qabiliyyətinə malik olurlar.

İbn Xəlduna görə məişətlərini dəvədən təmin edənlər daha çox

köçəri həyat yaşayaraq səhralara köçüblər. Məskun ərazilərdəki bitkilər və ağaclar dəvələrin yaşamaları üçün əlverişli deyildir. Dəvələr çöllərdə və səhralarda yetişən ağacların meydana gətirdiyi əkinlərə, buralardakı duzlu suları içməyə ehtiyac duyar. Qışda səhranın ılıq havasına sığınmaq, qumlar arasında balalamaq dəvələr üçün vazkeçilməzdir. Məlumdur ki, dəvələr ən çətin balalayan, nəsil verən heyvanlardan sayılır. Buna görə də isti iqlimə çox dəvələr ehtiyac duyar və sahibləri uzaq otlaqlar axtarmaq məcburiyyətində qalaraq, köçəri həyat sürərlər. Bəzən də münbit ərazilərin sahibləri onları qovar, onlar da səhraların içərilərinə doğru uzaqlaşıb getməyə məcbur qalıb, insanların ən vəhşilərindən olarlar.

Bədəvilik (köçərilik) şəhərin mədəni həyatından öncə gəlir və onun əslidir. Yəni köçəriliyin qabalığı, şəhərin mədəniliyindən əvvəldir. Buna görə də köçəriliyin mədəniləşməyə doğru getdiyini görürük. Bədəvilər (köçərilər) də həmçinin bu qayə, məqsəd uğrunda çalışar və bu xüsusdakı arzusuna çatmağa can atarlar. Nəhayət, köçəri çalışaraq arzusunda olduğu şəhər həyatına qovuşar. Yemə-içmə, geyim-kecim kimi zəruri ehtiyacları qarşıladıqdan sonra, şəhərin mürəffəh həyatına özünü alışdırar. Bədəvi (köçəri) həyat sürən qəbilələrin aqibəti belədir. Şəhərdə yaşayanlar isə köçəriliyə məcbur qalmadıqca, şəhərdə yaşamaqda acizlik göstərmədikcə arzulamaz. Bədəviliyin (köçəriliyin) şəhər həyatının təməli olduğunu göstərən dəlili isə şəhər əhalisini əksəriyyətinin ətraf kəndlərdən gələnlərdən və köçərilərdən meydana gəlməsi ilə izah edilir.

İbn Xəldun köçərilərin şəhərlilərdən xeyrə daha yaxın olduğunu qeyd edir. Bunun səbəbini köçərilərin yaradılış fitrətinə yaxın olmaları, bir çox pis vərdişlər, xasiyyətlər səbəbindən nəfsdə meydana gələn çirkin alışqanlıqlardan uzaq olmalarına bağlayır. Onların həzz, zövq almaq kimi vərdişləri yoxdur. Buna görə də köçərilərin islahı şəhərlilərin islahından asandır. O həmçinin qeyd edir ki, şəhərlilər çeşid-çeşid ləzzətlərə, bolluğun gətirdiyi adətlərə, mənfəətlərə meyil etmək, dünyəvi



arzu və istəklərinin düşkünü olmaqla, nəfslərini bir çox pis vərdişlərlə, ehtiraslarla ləkələyirlər. Buna görə də yaxşılıq, fəzilət və xeyir vasitələrindən uzaqlaşıblar. Hal və hərəkətlərində belə utanma, sıxılma yox olub gedib. İbn Xəldun köçərilərin xeyirxahlığını onların arzu-istəklərinin az olması səbəbindən ehtiraslarının da çox olmadığına bağlayır. Bunun müqabilində şəhərlilərin isə ehtiyacları, arzu və istəkləri çox olduğu üçün ehtirasları da güclüdür. Ehtiraslar da müxtəlif pisliklərin və haqsızlıqların ortaya çıxmasına səbəb olur. Bədəvilərdə (köçərilərdə) isə bu azdır. Buna görə də xeyrə, fəzilətə və gözəl əxlaqa yaxın olurlar. Bədəvi qəbilələrdə isə ictimai təzyiq güclü olduğu üçün hər kəs bir-birinin hal və hərəkətlərinə nəzarət edıər. Qəbilənin adət-ənənələrinə riayət etməyənlər cəzalandırılır.

İbn Xəldun bədəvilərin (köçərilərin) şəhərlilərdən daha cəsur olduğunu söyləyir. Bunun səbəbinin şəhərlilərin rahata alışmalarına, nemət və bolluq içində üzmələrinə, mallarını və canlarını qorumağı hökumətə, polisə həvalə etmələrinə, qalalarla əhatə olunmuş, qorunmuş yerlərdə yaşamalarına bağlayır. Köçərilər toplumdan uzaq qalıb təkbaşına səhralarda, çöllərdə yaşadıqları, sığınacaq qalaları olmadığı üçün cəsur olurlar. Ailələrini və mallarını özləri qorumaq məcburiyyətindədirlər. Onlar hücumlar zamanı özlərindən başqa heç kimə güvənməzlər. Ona görə də köçərilər yanlarında daim silah daşıyır və yolla gedərkən ətraflarına diqqətlə baxaraq irəliləyərlər. Bu halı səhrada yalnız dolaşan Şənfəra belə ifadə edir:

"Üç dostum var: cəsur ürək, qınından çəkilmiş ağ qılınc, bir də ox və yay".

Yatmaqdan uzaq durarlar, ancaq oturduqları yerdə, yaxud dəvə və at yəhəri üzərində xəfif mürgüləyərlər. Öz qüvvə və şücaətlərinə güvənərək səhralarda, çöllərdə dolaşarlar. Bu məziyyətlər onların xarakteridir.

Yolkəsən, quldur, səalik şairlərdən olan Təabbata-Şərran əmisioğlu Şəms bin Maliki belə təsvir edir:

*Çöl olsun, səhra olsun, təhlükəli*

*anları vecinə almadan orada tənha qalacaq.*

*İti nəfəsi ilə səhradan əsən küləyi, nəfəs kəsən sürəti ilə ötüb-keçəcək.*

*Yuxusu gələndə də qəlbi hər an oyaqdır, qəriblərə müjdəçidir, dayaqdır.*

*Ürəyinin səsinə qulaq asır həmişə, bu səs onu döyüşə dəvət edir.*

*Vurduğu kimsədən ölüm qəhqəhəsi yüksəlir.*

*Tənhalığı özünə dost bilib dostluq edir.*

*Günəş işiq saçdığı yollara gedir.*

Həmçinin, səhrada kimsə köçərilərdən yardım istəsə, çətin zamanlarda onun yardımına qoçaqlıqla gedərlər. Tərəfə ibn Əbdin beytlərində bu vəziyyət belə təsvir edilir:

*"Ey Malik, sənin başına çətin iş gəlsə, sənin köməyinə gələrərm. Böyük bir iş üçün çağırılsam, sənin namusunu qoruyanlardan olaram və düşmənlərin hər tərəfdən hücum etsə, səni müdafiə etmək üçün hər şeyimi sərf edərəm".*

İbn Xəldun şəhərlilərin isə idarəçilərin hökm və əmirləri altında qalaraq, zülm və zəhmətlərə qatlanmaları səbəbindən qüvvət və şücaətlərinin getdiyini söyləyir. Onları qorxaqlığa alışdıraraq özlərini müdafiə etmək qabiliyyətindən məhrum qoyduğunu söyləyir.

İbn Xəldun səhrada, ancaq güclü bir əsəbiyyətə (təəssübkeşlik duyğusuna malik olmaq) sahib olanların, özünü qoruyacaq əşirət və qəbiləyə sahib olanların yaşaya biləcəyini söyləyir. Bir nəsildən gəlməyənlərin çöl və səhrada yaşamaları isə qeyri-mümkündür. Şəhərlərdə, qəsəbələrdə yaşayan insanlar bir-birlərinə düşməndirlər. Onların bir-birlərinin haqlarına təcavüz etmələrinə, ancaq hökumət və hakimlər mane olur. Hökumətin qoyduğu hökmlər, qaydalar və qanunlar əhalinin bir-birinə zülm etməsinin qarşısını alır. Köçərilərə gəldikdə isə onlar arasındakı çəkişmələr, narazılıqlar hamının hörmət bəslədiyi ağsaqqallar, şeyxlər tərəfindən ortadan qaldırılır. Bu şeyxlər onların hakimləri olub, bir-birlərinə zülm etmələrinə və hücum çəkmələrinə mane olurlar.

Bədəvilərin qəbilə formasında məskunlaşdıqları yerləri o əşirətin şücaətləri ilə tanınmış bahadır və gənclər düşmənlərin hücumundan qoruyarlar. Bunların qəbilələrini qorumalarına bir nəsildən, soydan gəldikəri halda güvənmək olar. Cücləri yalnız bir soydan, nəsildən gəlməklə qüvvə qazanır. O zaman onların qüvvə və qüdrətlərindən çəkinirlər və hər birinin ürəyində öz qəbiləsinin düşmənlərinə qarşı bir kin və həyəcan meydana gəlir. Hər kəs öz soyundan gələnlərin köməyinə çatmağa önəm verir. Bu, Uca Allahın bəndələrin qəlblərinə qoyduğu qohum-əqrəbaya qarşı sevgi və şəfqət duyğusu olub, insanlar üçün təbii olaraq yaradılışlarında, fitrətlərində olan bir haldır. Bu duyğu sayəsində insanlar bir-birlərinə arxa çıxar, dayaq durarlar.

Nəsəbləri fərqli olan kimsələr arasında qardaşlıq bağı olmadığı üçün döyüş zamanında, fəlakət anında təəssüb duymazlar, buna görə də bir-biilərinə kömək göstərmələri və yardım etmələri zəif olur. Hər kəs öz həyatını qorumağı düşünür. Qorxaraq yoldaşlarını buraxır, savaş meydanından çəkilib gedirlər. Buna görə də bir soydan, bir nəsildən gəlməyənlərin çöl və səhralarda yaşaması qeyri-mümkündür. Bu cür insanlar səhrada yaşadıqları təqdirdə, əsəbiyyəti güclü olan digər qövmlər tərəfindən bir loğmada udulurlar.

Çöllər, səhralar darlıq və aclıq yeridir. Bədəvilər, köçəri tayfalar buna alışıblar, onların nəsilləri bu tərzdə ömür sürüblər, bu cür yaşamaq onların təbiəti olub. Heç bir qövm onlar kimi yaşamaq istəməz. Bədəvilər alışdıqları bu səhra həyatını tərk etmək, bu çöllərədən qaçmaq imkanını tapsalar belə, vərdişlərini, adətlərini getdikləri yerlərdə davam etdirərlər. Ona görə də nəsəblərinin qarışıb-itməməsindən əmindirlər. Məhz bu xüsusiyyətlərinə görə də İbn Xəldun saf, təmiz nəsəbin, ancaq səhrada ibtidai formada həyat sürən bədəvilərə məxsus olduğunu və ya bunabənzər ictimai siniflərdə olduğunu iddia edib.

Çöl və səhralarda köçəri həyat sürən qəbilələr digər qövmlərə qələbə çalır. Cəsarətin əsas səbəblərindən biri köçərilik olduğu üçün bədəvi bir qövm şəhər və qəsəbələrdə yaşayan digər qəbilələrdən, boylardan daha cəsur olur. Bu cəsarət və şücaət zamanla dəyişir. Köçəri qəbilələr məskun həyata keçdikdən, münbit və bərəkətli torpaqlarda yerləşərək nemətlərin, bolluğun adətlərinə alışdıqdan sonra, köçəriliyin alışqanlıqlarını tərk etdikləri miqdarda cəsarət və bahadırlıqları azalar.

İbn Xəldun ərəblərin, bədəvilərin təbiətləri etibarilə yağmaçı, talançı olduğunu söyləyir. Bunlar çətinliklərə qatlanmadan nizami sıralar tərtib etmədən, gücləri çatdığı qədər əllərinə keçirdiklərini yağmaladıqdan sonra səhradakı məskənlərinə dönərlər. Qalalara və ələ keçirilməsi çətin olan yerlərə isə hücum etməzlər, ələ keçirilməsi asan olan yerlərə hücum edərlər və yalnız özlərini qorumaq məcburiyyətində qaldıqda döyüşərlər. İbn Xəldun bədəvilərin ələ keçirdikləri yerləri viran qoyduqlarını da qeyd edir. Onlar daşlara, ancaq qazanın ayağı olaraq işlətmək üçün ehtiyac duyarlar, bunun üçün binaları yıxaraq daşlarını bu məqsədlə götürər, ağacları da ancaq çadırlara dirək olaraq görərlər. Bu hal bədəvilərin vəhşi bir qövm olmasından irəli gəlir. Bir yerdən başqa yerə köçmək, talan, yağma etmək onlar üçün adi haldır.



**Aişə Baxşiyeva,**
**Aİİ-nin əməkdaşı**

# Memarlıq abidələri tarixin canlı şahididir

*"Tarix və mədəniyyət abidələri xalqın milli sərvətidir. Dövlət tarix və mədəniyyət abidələrinin qorunmasına təminat verir, onların elmi tədqiqi üçün zəruri qanunların yaradılmasını, fəaliyyətini və inkişafını təmin edir, abidələrdən səmərəli istifadə üçün şərait yaradır".*

Ümummilli lider Heydər Əliyev

Hər bir xalqın qədimliyini sübut edən əsas faktorlardan biri onun mədəniyyəti, tarixi və memarlıq abidələridir. Azərbaycan memarlığında dinixarakterli tikililər xüsusi istiqamət təşkil edir. Ölkəmizdə tarixin hər mərhələsinə aid müxtəlif dinlərlə bağlı çoxlu sayda memarlıq abidələri qorunub saxlanılır. Çox təəssüf ki, erkən dövrlərdə inşa edilən dini tikililər ilə bağlı məlumatların azlığından dinixarakterli memarlıq abidələrindəki üslub xüsusiyyətlərinin inkişaf xəttini izləmək mümkün deyildir. İslam dininin yayılmasından sonra, İslam mədəniyyətinin təsiri insan həyatının hər sahəsində olduğu kimi, memarlıq sahəsində də duyulur. Məscid, xanəgah, pir, türbətipli dini ictimai tikililər böyük mərkəzləşdirilmiş şəhərlərlə yanaşı, ən ucqar əyalətlərdə belə geniş vüsət alıb. İslamdanönçəki dinlərin məbədlərinin memarlıq xüsusiyyətləri yuxarıda sadalanan dini tikililərin arxitekturasının formalaşmasına birbaşa təsir edib. Bədiiliyi və monumentallığı ilə seçilən Naxçıvandakı Cümə məscidi və Qəzvində yerləşən Heydərabad məscidi buna bariz nümunədir. Müxtəlif bölgələrdə eyni məqsəd üçün istifadə olunan dini tikililərin bədii tərtibatındakı fərqliliklər maraqlı və orijinaldır. Bu baxımdan, Naxçıvanın Culfa rayonu ərazisində yerləşən Orta əsrlərə aid Gülüstan türbəsini xüsusi qeyd etmək olar. Abidə Möminə xatun türbəsinin təsiri ilə tikilmiş və XIII əsrin qülləvari türbələr qurupuna daxildir. Türbənin 12 üzlü gövdəsi qırmızı qum daşından, orijinal quruluşlu kürsüsü isə yonulmuş daşlardan tikilib. Türbənin üst çadır örtüyü tamamilə dağıdıldığından, onun konikbiçimli və ya piramidaşəkilli olduğunu müəyyən etmək çətindir. Türbənin 12 üzü həndəsi ornamentlərlə bəzədilərək, dekorativ tağlar ilə çərçivələnib. Bu ornamentlər üç üzdən bir fərqli naxışlar ilə əvəz olunub. Pir Hüseyn xanəgahı isə kaşılarının gözəlliyinə görə, dinixarakterli nadir memarlıq kompleksidir. XV əsrə aid Diri Baba türbəsinin orijinallığı ondan ibarətdir ki, abidə qayanın içində yonulub, ikimərtəbəli, günbəzli tikili Şirvanşah Şeyx İbrahimin əmri ilə tikilib. Türbənin kitabəsi hazırda Ermitaj Muzeyində saxlanılır.

Məlumdur ki, İçərişəhər paytaxt Bakının tarixi özəyidir. Bakı yaşayış məskəni kimi, Qız qalasının yerləşdiyi ərazidə yaranıb və zaman keçdikcə böyüyərək möhkəm müdafiə sistemi olan şəhərə çevrilib. Bakının ilk inkişaf mərhələsi XI əsr Səlcuqlar dövrünə təsadüf edir. XII əsrdə Şirvanşahlar dövlətinin paytaxtı olan Bakı qala şəhərinə çevrilir. Belə ki, Şirvanşah Məniçöhrün əmri ilə şəhərin ətrafına müdafiətipli qala divarları tikilir. XV əsrdə Bakı, artıq qala divarları olan, bayırdan dərin xəndəklərlə əhatələnən, inkişaf etmiş liman şəhəri idi. Heç təsadüfi deyil ki, 2000-ci ildə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu, o cümlədən, Şirvanşahlar Sarayı Kompleksi və Qız qalası, 2007-ci ildə Qobustan Dövlət Tarixi-Bədii Qoruğu UNESCO-nun Dünya Mədəni İrs Siyahısına daxil edilib. Bu abidələr, artıq beynəlxalq miqyasda tanınır. Həmin abidələr ölkəmizdə turizmin inkişafına əhəmiyyətli təsir göstərir.

İçərişəhər abidələri arasında məscidlər önəmli yer tutur. Ümumiyyətlə, İçərişəhərdə həm məhəllə arasında tikilmiş kiçikölçülü minarəsiz "məhəllə məscidləri", həm də azanın bütün şəhərə yayılması üçün hündür minarəyə sahib şəhərin "əsas məscidləri" mövcuddur. Aşur (1169), Xıdır (1301), Gileyli (1309), Çin (XIV), Mirzə Əhməd (1345), Şeyx İbrahim (1415), Seyid Yəhya Murtuza (XVII), Hacı Bani (XVI - XX əsr-

lər), Hacı Heybət (1791) və Xanlar (XIX) minarəsiz məhəllə məscidləridir. 1895-ci ildə inşa edilmiş Bəylər məscidi, Cümə məscidi və Məhəmməd məscidi isə qədim şəhərin hündür minarəyə sahib əsas dini məkanlarıdır. Şəhərin ən qədim məscidi isə Qız qalasının yanında inşa edilmiş, IX əsrə aid məscid hesab edilir. Çox təəssüf ki, məscidin dövrümüzə yalnız qalıqları gəlib çatıb.

Şəhərin ən uca minarəsinə sahib məscidin dağılmış binasının yerində XIX əsrdə yeni tikili inşa edilib. Came məscidləri dini kompleks şəklində fəaliyyət göstərən, həm camaatın cəm halda toplaşıb ibadət etdiyi, həm də dövlət yığıncaqlarının keçirildiyi mərkəz olub. Belə komplekslərə məscid, mədrəsə binası və tələbələrin qalmaları üçün hücrələr daxil idi. Cümə məscidi də vaxtilə dini kompleks olub. Cümə məscidinin önündə yerləşən və hazırda "Kiçik karvansara" adlanan tarixi tikili də zamanında Cümə məscid kompleksinə daxil olan mədrəsə binası olub. Elxanilərin hakimiyyəti illərində yenilənən məscidin minarəsinin aşağı hissəsindəki daş kitabədə Bakını bir çox vergilərdən, o cümlədən, neft vergisindən azad edən Elxani hökmdarı Məhəmməd Olcaytunun və digər hökmdarların fərmanları həkk edilib. Bu fakt Came məscidlərinin dövlətin siyasi həyatında nə qədər əhəmiyyətli yer tutmasına bariz nümunədir. Qədim şəhərin digər maraqlı məscidi isə təkcə Azərbaycanda deyil, Yaxın Şərq regionunda da ilkin quruluşunu saxlayan ən qədim minarəyə sahib Məhəmməd məscidinin minarəsidir. Zəngin dekorativ tərtibata sahib birotaqlı ibadət zalı olan məscidin girişində kufi xətti ilə "1078–1107-ci ildə ustad rəis Məhəmməd Əbu Bəkr tərəfindən tikildiyi" qeyd olunub. 1723-cü ildə rus hərbi gəmilərinin Bakıya yağdırdığı mərmilər bu tarixi abidəni zədələyib. Minarəsinin yuxarı hissəsi dağıldığından, məscid xalq arasında "Sınıqqala" kimi tanınıb. Məscidə bitişik dairəvi minarə "azançı eyvanı" ilə tamamlanır. Eyvan gözoxşayan memarlıq elementi sayılan stalaktit ilə tərtib olunub. Minarənin yuxarı hissəsində stalaktit kəmər boyu ilə kufi xətti ilə Quran ayəsi həkk edilib. Minarənin forması kvadratşəkillidir. Daxildən dolamapilləkənli minarədən məscid binasının damına qapı açılır.

Qədim şəhərin dininə bağlı əhalisi əsrlər boyu hər iki məscidi qoruyub yeni nəsillərə çatdırıb. İçərişəhərin dini abidələrindən danışarkən Şirvanşahlar Saray Kompleksinə daxil olan dini tikililərə xüsusi diqqət yetirmək lazımdır. Uzun illər Şirvanşahlar dövlətinin iqamətgahı olmuş saray kompleksinin tarixin keşməkeşlərindən keçərək, zamanımıza gəlib-çatan məscid, türbə kimi dinixarakterli tikililəri İslam memarlığının nadir incilərindəndir.

Şirvan şahlarının iqamətgahı olan Şirvanşahlar sarayı Orta əsr memarlığının ən parlaq abidələrindəndir. Saray kompleksi divanxana, əndərun (şah ailəsinə məx-



sus bina), şah məscidi, Dərviş türbəsi, Murad qapısı, Şirvanşahların ailə türbəsi, Keyqubad məscidi, saray hamamı və şah ovdanından ibarət olmuşdur. Sarayın əsas hissəsi 1439-cu ildə Şirvanşah Xəlilüllah tərəfindən inşa etdirilmişdir. Bu tikililər əhəng daşından inşa olunmuş, günbəzlərin üstü isə firuzəyi rəngdə sirli kaşılarla örtülmüşdür. 1500-cü ildə Şirvanşah Fərrux Yasar Səfəvilərə məğlub olduqdan sonra, bu saray iqamətgah kimi öz əhəmiyyətini itirmişdir.

Şirvanşahlar sarayının orta həyətində xalq arasında "Dərviş türbəsi" adlanan, I Xəlilüllahın böyük rəğbət bəslədiyi XV əsr Azərbaycan filosofu və alimi Seyid Yəhya Bakuvinin məzarının ehtimal olunduğu türbə yerləşir. Böyük olmayan səkkizbucaqlı tikili yüksək sənətkarlıqla işlənib. Yaraşıqlı görünməsi üçün günbəzin piramidaya oxşayan səthi azacıq qabardılıb. Türbə yeraltı və yerüstü hissələrdən ibarətdir. Türbənin daşşəbəkəli üç pəncərəsi var. Qeyd etmək lazımdır ki, tikilinin üzərində olan kitabə və daxilində məzar daşı dövrümüzə qədər gəlib-çatmayıb. Vaxtilə bu türbəyə bitişik halda Keyqubad adlanan məscid-mədrəsə binası mövcud idi. Güman edilir ki, Keyqubad məscidi saray kompleksinin digər tikililərindən xeyli əvvəl tikilibmiş. Məscidin adı Şeyx I İbrahimin babası Keyqubadın adı ilə bağlıdır. Tikili düzbucaqlı ibadət zalından və onun önündəki dəhlizdən ibarət olub. Zalın mərkəzindəki günbəzi 4 ədəd sütun saxlayırmış. Əfsuslar olsun ki, məscid 1918-ci ilin Mart qırğınında yandırılıb. İndi yalnız məscidin günbəzini saxlayan sütunların qalıqlarını görmək olar. Dərviş türbəsi də daxil olmaqla,



saray kompleksinin aşağı həyətindəki bütün abidələrin vaxtilə xanəgah tikililəri kompleksinə aid edilməsi əsassızdır.

Saray kompleksindəki digər dinixarakterli tikili isə Şirvanşahların ailə türbəsidir. Bu abidə Şah məscidi ilə birgə kompleksin aşağı həyətində yerləşir. Türbəyə yuxarıdan baxdıqda, onun kəsmə ulduzla bəzədilmiş altıguşəli günbəzlə tamamlanan düzbucaqlı olduğunu görmək mümkündür. Günbəzin üzərindəki ulduzvari çökəkliklərə vaxtilə mavirəngli kaşı düzülüb. Türbənin yeganə girişi olan əsas fasadda yerləşən təmtəraqlı portal Şərq memarlığına xas zəngin dekorativliyə malikdir. Bu portal Şirvanşahlar sarayına daxil olan Divanxana portalının kompozisiyasını təkrar edir, lakin ona nisbətən bir qədər sadə həll edilib. Burada portalın günbəzi yalnız dörd cərgə stalaktitdən ibarətdir. Yan divarları hamar olub, giriş qapısında yalnız tağların timpanları ornamentlidir və onların yuxarısında iki cərgə kitabə həkk edilib. Burada yazılır: "Dinin müdafiəçisi, peyğəmbərin adamı, böyük sultan Şirvanşah Xəlilüllah, Allah onun sağlığını və hakimiyyətini daimi etsin, bu işıqlı türbəni öz anası və 7 yaşlı oğlu üçün tikdirməyi əmr etdi. 839-cu il (miladi)". Giriş qapısının üstündəki timpanların ornamentinə altıbucaqlı bir fiqur daxil edilib. Onun içərisində "Əli" sözü altı dəfə qabarıq şəkildə təkrar olunur. Portal divardan, demək olar ki, yarım metrə qədər irəli çıxır. Portalı bəzəyən damla formasında olan medalyonlarda memarın adı güzgü əksi ilə oxunacaq tərzdə yazılıb. Portalın ən yuxarı hissəsində Quranın 12-ci surəsinin 92-ci ayəsi həkk edilib. Çıxıntı şəklində olan portalın önündə baş fasad boyunca uzanan və portalın içərisinə daxil olan adamların oturması üçün skamya vəzifəsini görən səki vardır. Belə quruluş həmin dövrdə inşa edilmiş binaların bir çoxu üçün xarakterik sayılır. Portaldan dəhlizə keçilir. Dəhlizin sağ və sol tərəflərində iki balaca otaq vardır. Bu otaqların hər birindən dəhlizə bir qapı açılır. Otaqların din xadimlərinə aid olması ehtimal edilir. Ziyarətçilər

dəhlizdən əsas salona – sərdabəyə daxil olurlar. Sonradan türbədə Şirvanşahlar ailəsinin digər üzvləri də dəfn edilib.

Uca minarəyə malik Şah məscidi sarayın aşağı həyətində yerləşir. Məscidin minarəsini əhatə edən yazıda deyilir: “Bu minarəni I Xəlilüllah əmr etmişdir. Allah onun şahlığını və hakimiyyət illərini ucaltsın”. Ucu yüngülvari sivrilmiş, iki günbəzlə tamamlanmış məscid böyük ibadətgah zalından, qadınlar üçün nəzərdə tutulmuş kiçik zaldan və bir neçə kiçik xidməti otaqdan ibarətdir. Günbəzin altında yuxarı künclərdə 4 ədəd saxsı küp yerləşdirilib. Bu texnikadan istifadədə məqsəd nazik boğazlarının salona doğru çevrilmiş küplərin rezonans – səs effekti yaratmasından ibarətdir. Məscidin daxilində çıraq qoymaq üçün oyuqlar mövcuddur. Bu oyuqlar inşa edilərkən divarlarda çırağın tüstüsünün çıxması üçün boş məsamələr qoyulub. Məscid iki giriş portalına malikdir: bunlardan biri Şirvanşahlar türbəsinin portalının açıldığı tərəfə baxır, digəri isə onunla yanaşı olub, yan divardadır. Birinci portal kənardan gələnlərə, ikinci isə sarayda yaşayanlara – Şirvanşah və onun yaxın adamlarına aid idi. Giriş qapısı ilə üzbəüz divarda yerləşmiş mehrab cənuba baxır. Yaxın Şərq ölkələrinin məscidlərinin çoxunda mehrabın bədii tərtibatına xüsusi fikir verilsə də, çox sadədir. Bu məscidin oturacağı kvadrat şəklində olan minarəsinin stalaktit üzərinə oturmuş şərəfəsi çox gözəl işlənib. Çox hündürə qalxmış bu uca minarə, məscidin böyük və kiçik günbəzləri ilə birlikdə tikiliyə maraqlı siluet verir. 1723-cü ildə I Pyotr qoşunlarının Bakını dənizdən top atəşinə tutması zamanı saray məscidinin şimal-şərq fasadı ziyan çəkib.

Saray kompleksinin dekorativ baxımdan bəlkə də ən zəngin tikilisi hesab edilən divanxana haqqında dinixarakterli olmasa da, üzərində yazılmış Quran surələrinə görə, danışmaq istərdim. Onun hansı məqsədlərlə tikilib istifadə olunduğu elm xadimlərinin mübahisəsinə səbəb olub. Tikilinin rəsmi qəbullar və divan işləri üçün nəzərdə tutulduğu ehtimal edilir. Dini xarakter daşımamasına baxmayaraq, nəfis memarlıq elementlərinə sahib olan divanxananın qərb portalının yuxarı hissəsində Qurani-Kərimdən “Yunis” surəsinin 25-ci və 26-cı ayələri həkk olunub. Bundan başqa, portal üzərindəki iki altıguşəli rombun içərisində “Allah təkdir”, “Allahdan başqa Allah yoxdur”, “Məhəmməd Allahın elçisidir” və “Məhəmməd” sözləri yazılıb. Beləliklə, Şirvanşahlar Saray Kompleksini Azərbaycan İslam memarlıq tarixinin nəfis nümunələrini özündə əks etdirən dinixarakterli tikililərin məcmusu hesab etmək olar.

Azərbaycan memarlıq abidələri tarixin hər mərhələsində özünəməxsus üslub elementlərinə sahib olduğu üçün unikal xarakter daşıyır. Ulu babalarımızdan yadigar qalan memarlıq abidələri keçmişdən xəbər verərək, həmin dövrün mədəni mühitini, xalqımızın sənətkarlıq xüsusiyyətlərini, təfəkkür və düşüncə tərzini gələcək nəslə ötürür. Belə ki, Azərbaycanın ən nadir abidələri onun tarixini, adət və ənənələrini, mədəni kökünü özündə ehtiva edir.

Məlumdur ki, Azərbaycan memarlıq abidələri ilə zəngin bir ölkədir. Tarixin keşməkeşlərindən keçən həmin memarlıq abidələri zaman-zaman düşmən hücumlarına məruz qalıb, yararsız hala salınıb, bəziləri isə tamamilə dağıdılıb, məhv edilib. Mənfur düşmən tərəfindən işğal olunan, doğma el-obamızda məhvə məhkum edilən neçə-neçə maddi-mədəniyyət abidələrimiz, milli sərvətimiz mövcuddur. Faktlara əsaslanaraq demək olar ki, işğal nəticəsində Azərbaycana məxsus 500 tarixi-memarlıq abidəsi, 100-dən çox arxeoloji abidə dağıdılaraq məhv edilib. Qarabağın tarixi abidələrinin darmadağın edilməsi mədəniyyət və mənəviyyat tariximizin daşlaşmış yaddaşının silinməsi kimi ağrılı və acılıdır. Ermıəni qəsbkarlarının bizə məxsus abidələrin saxtalaşdırılması istiqamətində apardığı işlər Ermənistanın özünü təsdiqləmək, qondarma “tarixi mədəniyyəti”ni yaratmaq məqsədinə xidmət edir. Bu siyasət boş xülyadan başqa bir şey deyildir. Bu gün şücaətli Ordumuz tərəfindən işğal olunmuş ərazilərimizin geri qaytarılması istiqamətində uğurlu hərbi əməliyyatlar aparıldı. İnanıram ki, hər qarışına kimi azad olunan əzəli Azərbaycan torpaqlarında məhv edilmiş bütün memarlıq abidələri yenidən bərpa ediləcək və gözbəbəyi kimi qorunacaq.

Şəhidlərimizin qanı, ordumuzun səyi, Ali Baş Komandanımızın uğurlu siyasəti nəticəsində azad edilən Şuşada məscid bərpa ediləcək, yenidən azan səsləri eşidiləcək...



**Aslan Həbibov,**
**i.f.d., dos.,**
**Aİİ-nin müəllimi**

# QURANA GÖRƏ İNSANIN YARANMASI

Allahdan (c.c.) başqa heç nə və heç kəs yox idi. Bir tək O var idi. Gizlin bir xəzinə idi, tanınmaq istədi. Beləliklə, Allah (c.c) kainatı yaratmağı iradə etdi.

Yaratmağa göylər və yerdən başladı ("Yunis", surəsi, 3). Duman halında olan yer və göyə "İstəyərək və ya istəməyərək gəlin (itaət edin)", – deyə buyurdu. Onlar da "İstəyərək gəldik (itaət etdik)", – deyə cavab verdilər. ("Fussilət" surəsi, 11). Kainatı altı gündə yaratdı ("Hud" surəsi, 7-ci ayə).

Sonra Allah (c.c.) yeri döşədi. Orada dağlar və çaylar var etdi, hər meyvədən cüt-cüt yaratdı ("Rəd" surəsi, 3). Dağlarda müxtəlifrəngli yollar yaratdı ("Fatir" surəsi, 7). Sudan canlı varlıqları yaratdı ("Nur" surəsi, 45).

Kainat kamil varlıq, yaranmışların ən şərəflisi üçün hazır idi. Şah əsəri yaratmağın vaxtı idi.

Sənətkarların ən üstünü və yaradanların ən gözəli olan ("Möminun" surəsi, 14) Allah-Taalanın şah əsəri insandır.

İnsan Allahın yaratdığı ən mükəmməl varlıqdır. Bununla yanaşı, eyni zamanda çox qəribə bir varlıqdır. Bu qəribə varlığı tanımaq olduqca çətindir.

İnsanı ən yaxşı, şübhəsiz, onu yaradan Allah tanıyır. İnsana şah damarından daha yaxın olan Allah ("Qaf" surəsi, 16) yaratdığı insanın nə cür bir varlıq olduğunu da çox yaxşı bilir.

Əgər biz insanı tanımaq istəyiriksə, onu yaradan Allah-Taaladan soruşmalıyıq. Bunun üçün də Yaradan ilə qopmayan rabitəmiz olan Qurani-Kərimə müraciət etməliyik.

Quranda ilk insan Həzrət Adəmin yaranma səhnəsinin təsvir olunduğu ayələrə baxdığımız zaman, əslində, bəşər övladının bir sıra xüsusiyyətləri ortaya çıxır. Allah-Taala insan nəslinin tamamını maraqlandıran bu məqamları əvvəlcə Həzrət Adəmin timsalında təsvir edərək, bizə insanın nə cür bir varlıq olduğunu xatırladır. Bu qissə, eyni zamanda, insanın mənşəyi haqqında da bizə məlumat verir.

İnsanın mənşəyi məsələsi hələ də aktuallığını qoruyur. Bütün varlıqların təkamül yolu ilə başqa bir varlıqdan yarandığı fikri ortaya atılmış, habelə insanın atasının meymun olduğu iddia edilmişdir. Son dövrlərdə ortaya atılan başqa bir iddiaya görə, insan Yer kürəsinə başqa bir planetdən gəlmişdir.

Quran hər iki iddianı təkzib edir. Qurana görə, insan nə təkamül nəticəsində başqa bir varlıqdan meydana gəlib, nə də yad bir planetdən Yer kürəsinə göndərilib. Əksinə, insan Yer kürəsi üçün xüsusi olaraq yaradılıb.

Quranda insanın yaradılış səhnəsi 7 surədə nəql olunur. Allah-Taala "Bəqərə", "Əraf", "Hicr", "İsra", "Kəhf", "Taha" və "Sad" surələrində Həzrət Adəmin yaranma hadisəsini bizə bildirir. İlk baxışda təkrar kimi görünsə də, hər bir parça fərqli kontekst içində nəql olunduğu üçün bizə hadisənin fərqli tərəflərini bildirir.

***Bir gün Allah-Taala mələklərə "Mən palçıqdan bir insan yaradacağam"*** ("Sad" surəsi, 71) və ya ***"Mən quru və qoxumuş qara palçıqdan insan yaradacağam"*** ("Hicr" surəsi, 27) buyurdu.

Allah-Taala bu əsnada yaradacağı insanın eyni zamanda yer üzündə xəlifə olacağını da bəyan etdi. Bunu isə "Bəqərə" surəsinin 30-cu ayədəki "Mən yer üzündə bir xəlifə yaradacağam" buyuruğundan anlayırıq. Yəni yer üzündə bir insan yaradacaq və bu insan orada O-nun xəlifəsi olacaqdır.

İndiyə qədər söylədiklərimiz insanın başqa bir planetdən göndərildiyi fikrini açıq şəkildə təkzib edir. Bəs insan nədən yaradılıb? Bu sualın cavabı da Quranda verilmişdir.

Qurandakı yaradılış səhnələrinin təsvir olunduğu ayələrə baxdığımızda insanın torpaqdan yarandığını görürük ("Ali İmran" surəsi, 59; "Hicr" surəsi, 26-cı və 28-ci ayələr; "İsra" surəsi, 61-ci, "Sad" surəsi 71-ci ayələr). Adəmin ilk maddəsi olaraq təqdim edilən "salsal" (quru palçıq) və "hemeun mesnun" (qoxumuş palçıq) torpağın fərqli iki şəklidir. Allah-Taala daha sonra bu palçığı bir neçə mərhələdən keçirərək insanı yaratmışdır. Bu mərhələlərin torpaq ("Ali İmran" surəsi, 59), palçıq ("Səcdə" surəsi, 7), yapışqan palçıq ("Saffat" surəsi, 11), quru palçıq ("Hicr" surəsi, 28), bişmiş palçıq ("Rəhman" surəsi, 14) şəklində olduğunu görürük.

Torpaqdan alınıb bir neçə mərhələdən keçirilərək formalaşdırılan varlığın insan halına gələ bilməsi üçün bir şeyə ehtiyacı vardı ki, o da ruh idi. Allah-Taala ona ruhundan üfürdü ("Sad" surəsi, 72). Beləcə, cansız varlıq həyat qazandı və ilk insan oldu. Torpaq və ilahi ruh qarışığı olan bu varlığa Adəm adı verildi və o, bəşəriyyətin atası oldu.

Az əvvəldə qeyd etdiyimiz kimi, yeni yaradılan varlıq yer üzündə Allah-Taalanın xəlifəsi olacaqdı. Şübhə yoxdur ki, Allahın xəlifəsi olmaq şərəflərin ən üstünüdür. Bütün kainatın sahibi olan Allahın adına yer üzünü idarə etmə işi şərəfli olduğu qədər məsuliyyətli bir işdir. Bu qədər böyük bir işi yerinə yetirə bilmək üçün elmə ehtiyac vardı. Bu səbəbdən, Allah Adəmə kainatda var olan hər şeyin ismini öyrətdi ("Bəqərə", 31-33), yəni ona elm verdi.

Daha sonra Allah-Taala ilk insanın həyat yoldaşını da yaratdı ("Nisa" surəsi, 1) və beləcə, ilk ailə meydana gəldi. Həzrət Adəmin yoldaşının nədən yaradıldığı məsələsi də mübahisəlidir. Çox sayda müfəssir Allahın "Sizi tək bir şəxsdən (Adəmdən) xəlq edən, ondan zövcəsini yaradan…" ayəsinin təfsirində Həvvanın Həzrət Adəmin sol qabırğasından yaradıldığını qeyd edir. Fikrimizcə, "ondan zövcəsini yaradan…" sözündən məqsəd "onun maddəsindəndir". Yəni Allah-Taala Həzrət Adəmi yaratdığı torpaqdan Həvvanı da yaratmışdır.

Hər şey tamamlanmış və insan yaranmışdır. Allah ilk insanı və onun həyat yoldaşını cənnətə yerləşdirdi. Belə bir sual meydana gələ bilər ki, Allah-Taala Həzrət Adəmi yer üzü üçün xəlifə olaraq yaratdığını buyurduğu halda, niyə onu cənnətə qoydu?

Əslində, müfəssirlər Həzrət Adəmin yerləşdirildiyi cənnət haqqında həmfikir deyildirlər. Bəziləri buranın əbədi həyatın olduğu axirət cənnəti, bəziləri isə yer üzündə bir bağça olduğunu deyir. Üçüncü qrup alimlərə görə isə bu cənnət yerdə deyil göydədir, ancaq axirət cənnətindən fərqlidir.



Fikrimizcə, bu cənnət yer üzündə bir bağçadır. Əks halda, "Allah yer üzünə xəlifə yaratdığı bir varlığı niyə axirət cənnətinə və ya göydəki bir bağçaya yerləşdirdi?" sualına veriləcək əsaslı bir cavab tapılmaz.

Allah-Taala Həzrət Adəm və yoldaşını cənnətə yerləşdirdikdən sonra onları sərbəst buraxdı. Bir ağaca yaxınlaşmamalarını onlardan istədi. (Bəqərə 35) Ancaq şeytan Həzrət Adəmi və onun yoldaşını yoldan çıxardı. Onlar da Allahın buyruğunu unudaraq qadağan olunan ağacın meyvəsindən yedilər.

Allah-Taala Həzrət Adəmi və yoldaşını cənnətdən çıxarıb yer üzünə göndərdi. Onlar orada yaşayacaq, orada öləcək və oradan (dirilib) çıxarılacaqlar ("Əraf" surəsi, 25).

Nəhayət, Həzrət Adəm yer üzünə, yer üzü də ilk insana qovuşdu. Beləliklə, yer üzünün əskikliyi tamamlandı.

Həzrət Adəm və Həvva ilə başlayan insan həyatı yer üzündə davam etdi. Həzrət Adəm və Həvvadan sonra insanların necə çoxaldığı məsələsi də tam olaraq cavabını tapmamışdır. Müfəssirlərin bir qisminə görə, Həvva biri qız, digəri oğlan olmaqla, iki dəfə əkiz dünyaya gətirdi. Allahın əmri ilə bu əkizlər çarpaz bir şəkildə evləndilər. Yəni bu əkizin qızı digər əkizin oğlu ilə evləndi. Bu şəkildə insanlar artdı. Başqa müfəssirlərə görə, Adəmin oğullarından biri cinlə, digəri isə mələklə evləndi. İnsanlıq bu şəkildə çoxaldı. İmam Sadiqdən (ə) nəql olunan "Allah-Taala Adəmin oğulları üçün zövcə yaratmaqdan acizdirmi?" şəklindəki sözü məsələnin, əslində, çox fərqli olduğunu bizə göstərir. İmamın sözündən belə anlaşılır ki, Allah Həzrət Adəm və Həvvanı necə yaradıbsa, onların övladları üçün də o şəkildə zövcələr yaratmışdır. Fikrimizcə, Allah-Taala Həzrət Adəmi əvvəlcə nümunə olaraq yaratdı. Daha sonra bu nümunəyə uyğun olaraq, daha bir qrup insan yaratdı. Bu insanlar bir-biri ilə evlənib çoxaldılar. Beləliklə, yer üzündə insan nəsli artmağa başladı.



**Hilal Ağamoğlanov,**
**AİI-nin əməkdaşı**

# Ölümün qardaşı - yuxu

İnsanlar arasında yuxunun özünəməxsus yeri var. Bəzən yuxularımız bizim gündəlik həyatımıza təsirsiz ötüşmür, gördüyümüz xoş və ya narahatlıq gətirən yuxunun təsiri əhvalımızda, insanlarla münasibətlərimizdə və düşüncələrimizdə təzahür edir.

Burada müqəddəs İslam dininin yuxulara yanaşmasına nəzər salacağıq.

İmam Sadiqdən (ə) nəql edilən hədisdə buyurulur: *"Yuxu üç növdür: möminə Allah tərəfindən verilən müjdə, şeytanın vəsvəsə etdiyi qorxu, pərişanlıq (nigaranlıq) gətirən yuxular"* ("əl-Kafi", c.8, səh.90, hədis 61).

Bu hədisə əsasən, alimlər yuxunu üç qismə bölürlər: saleh (sadiq) yuxu, şeytani yuxu və insanın gündəlik həyatda yaşadığı hadisələrdən doğan yuxu.

Saleh və sadiq yuxular Allahın bəndələrinə olan nemətidir. Xüsusilə, peyğəmbərlər bu nemətə daha çox layiq görülmüşlər. Qurani-Kərimdə peyğəmbərlərin və sıravi şəxslərin yuxuları barədə söhbət açılır. İbrahimin (ə) İsmayılı (ə) qurban etməsi barəsində gördüyü yuxu, Yusifin (ə) və onun zindan yoldaşlarının gördüyü yuxular, Misir padşahının yuxusu və Məhəmməd peyğəmbərin (s) Məkkənin fəth olunacağı ilə bağlı yuxusu bu qəbildəndir. Həmçinin Peyğəmbərimizdən (s) və İmamlardan (ə) nəql olunan rəvayətlərdə də bunlara rast gəlmək olar.

Saleh yuxu baş verəcək hadisəni öncədən dərk etməkdən ibarətdir. Məhəmməd peyğəmbər (s) bununla bağlı buyurur: *"Möminlərin sadiq yuxusu peyğəmbərliyin qırx altı hissəsindən biridir"*.

Şeytani yuxu insanı qorxudub qəm və qüssəyə sövq etməklə, yuxuda şeytanın insanın ürəyinə verdiyi vəsvəsədən ibarətdir. Həzrət Peyğəmbər (s) belə buyurur: *"Sizdən biriniz xoş bir yuxu görsə, o yuxu Allahdandır. Bunun üçün Allaha həmd edib yuxusunu söyləsin. Xoş olmayan yuxular isə Şeytandandır. Şərindən Allaha sığınsın və onu kimsəyə də açmasın"*.

İnsanın içində yaşadığı hadisələrdən doğan yuxu isə əməli və ya düşüncə məşğuliyyətindən xəyal olunan və ya bir mövzu ilə çox maraqlanmaqdan doğan yuxulardır. Bu amillərdən qaynaqlanan yuxular insanın həmin gün və ya öncəki günlər ərzində fəaliyyətindən, psixoloji, fizioloji vəziyyətindən asılı ola bilər. Məsələn, susuz yatmış insanın yuxuda özünü çay kənarında hiss etməsi kimi və s. Bu cür yuxuların izahı asandır. Gündəlik həyatımız bizim beynimizdə öz təsirini qoyur və yuxuda sanki bu həyatın davamını yaşayırıq. Bu cür yuxuları da ciddi qəbul etmək lazım deyil. Bu qəbildən olan yuxular xəyal gücünün məhsuludur.

İmam Sadiq (ə) səhabəsinə buyurur: *"Gördüyün yuxular barədə dərindən düşünüb-daşın. Bax gör, Allah-Taala bunlarla sənə nə demək istəyir, doğru və yalan yuxuların bir-biri ilə necə əlaqələndiyinə diqqət yetir. Yuxuların hamısı doğru olsaydı, hamı peyğəmbər olardı. Əgər bütün yuxular yalançı olsaydı, onların heç bir əhəmiyyəti olmaz və insanlar yuxuya lazımsız bir şey kimi nəzər salardılar. İnsanların hidayət olub faydalanmaları üçün yuxuların bəziləri doğru, çox əhəmiyyət verməmələri üçün də bəziləri yalançı olur"*.

Yuxunun yaranma səbəbi ilə bağlı "əl-Kafi" kitabında İmam Cəfər ibn Məhəmməd Sadiqdən (ə) belə rəvayət edilir: *"Yaradılışın ilk vaxtlarında insanlar yuxu görmürdülər, sonradan görməyə başladılar. Allah həmin dövrün insanlarına bir elçi göndərdi, insanları ibadət və itaətə dəvət etdi. Həmin dövrün insanları dedilər: "Əgər sənin dəvətini yerinə yetirsək, xeyrimiz nə olacaq? Sənin mal və nəsil cəhətdən bizdən heç bir üstünlüyün yoxdur". Allahın elçisi dedi: "Əgər mənə itaət etsəniz, Allah sizi cənnətə daxil edər. Əgər boyun qaçırsanız, cəhənnəmə varid olacaqsınız". Dedilər: "Cənnət, cəhənnəm nədir?". Peyğəmbər (ə) də cənnət və cəhənnəmi onlar üçün vəsf etdi. Dedilər: "Oraya nə vaxt gedəcəyik?". Buyurdu: "Öldüyünüz zaman". Dedilər: "(Bu, mümkün deyil!). Biz ölülərimizin sümüklərə və torpağa çevrildiyini görürük".*

*Onlar peyğəmbəri inkar etdilər və sözlərinə əhəmiyyət vermədilər. Allah da yuxunu onlara göndərdi. (Gecə yuxu görən) insanlar peyğəmbərin (ə) yanına gəlib bu gördüklərinin nə olduğunu soruşurdular. O dedi: "Uca Allah sizə bunun (öldükdən sonra həyatın varlığına) dəlil olmasını istəmişdir. Siz öldüyünüz zaman*

*ruhunuz belə olacaq. Ölümdən sonra ruhunuz qiyamət günü dirilənədək cəzaya məruz qalacaq"* (Kuleyni, c.8, səh.90).

Bu rəvayətdən Məhəmməd peyğəmbərin *"Yuxu ölümün qardaşıdır"* sözü də aydın olur.

Şübhəsiz ki, hər birimiz yuxuda çoxlu qəribəliklərin şahidi olmuşuq. Bu qəribəliklər bəzən maddi aləmdə müşahidə etdiyimiz, bəzən də müşahidə etmədiyimiz varlıqları, məkanları və ya xüsusiyyətləri ehtiva edir.

Bəzən yuxuda ölüm təhlükəsi ilə üz-üzə olduğumuzu görürük. Bəzən də qəribə bir qorxu bütün vücudumuzu əhatə edir. Bu zaman, hətta fəryad edir, yardım üçün səslənirik. Bu cür yuxudan vahimə içində oyanır, səsimizin hamı tərəfindən eşidildiyini zənn edirik. Bağırmaqdan boğazımızda ağrılar hiss etdiyimiz halda, ətrafdakılar heç bir səs eşitmədiklərini söyləyirlər. Yaxud yuxuda müəyyən səbəb və şəraitdə boğulduğumuzu görürük. Nə qədər fəryad ediriksə, heç kəs dadımıza yetmir.

Yuxu ilə bağlı hədislərin birində Allahın elçisi (s) buyurur: *"Sizlərdən kim yaxşı yuxu görsə, onu yozsun və başqalarına danışsın. Əgər pis yuxu görsə, onu yozmasın və heç kəsə söyləməsin"* ("Kənzul-ümmal", hədis 4162). Həmçinin Peyğəmbər (s) başqa bir hədisində buyurur: *"Yuxunu paxıllıq və ədavətdən pak olan mömindən başqasına danışma"* (əl-Kafi, c.8, səh.336, hədis 530).

İmam Baqir (ə) buyurur: *"Bəndələr yuxuya gedən zaman ruhları səmaya qalxar. Ruhun səmada gördükləri nə varsa həqiqətdir, fəzada gördükləri isə pərişan edən yuxulardır"* ("Əmali", Səduq, səh. 125, hədis 16).

Quranda buyurulur: ***"Allah (əcəli çatan kimsələrin) canlarını (ruhlarını) onlar öldüyü zaman, ölməyənlərin (hələ əcəli çatmayanların) canlarını isə yuxuda alar (çünki yuxu da ölüm kimi bir şeydir, yuxu zamanı ruh bədəni tərk edər). Ölümünə hökm olunmuş kimsələrin canlarını (ruhlar aləmində) saxlayar (onların ruhu bir daha bədənlərinə qayıtmaz, beləliklə də bədən ölüb gedər). Digər (ölümünə hökm olunmamış) kimsələrin canlarını isə müəyyən bir müddətədək (əcəlləri gəlib çatıncaya qədər yuxudan oyandıqda bədənlərinə) qaytarar. Həqiqətən, bunda düşünən bir qövm üçün (Allahın hər şeyə qadir olmasına, qiyamət günü ölüləri dirildəcəyinə dəlalət edən) əlamətlər vardır!"*** ("Zumər", 42).

İmam Sadiq (ə) Əbu Bəsirin "Yuxu vaxtı ruh bədəndən çıxırmı?" – sualının cavabında deyir: *"Xeyr, ey Əbu Bəsir! Ruh bədəndən ayrılsa, bir daha ona qayıtmaz. Ruh səmanın ortasında günəş kimidir, onun şüası hər yerə saçar"* ("Camiul-əxbar", səh. 488, hədis 1360).

İmam Kazim (ə) buyurur: *"İnsan yatanda onun həyat ruhu bədəndə qalır. Ondan çıxan isə əql ruhudur"* ("Biharul-ənvar", c.61, səh. 43, hədis 19).

Bu mübarək ayədən və hədislərdən aydın olur ki, ruh yuxu halında bədəndən müəyyən qədər ayrılır və zahiri bədənlə əlaqəsini kəsib Allaha tərəf yüksəlir. Bu, ölümə bənzəyən bir haldır.

Bəzən yuxu aləmində ölmüş insanları yaxşı və xoşhal, yaxud pis və ağır vəziyyətdə görürük. Yuxunu görən şəxs bu yuxunu həqiqət kimi hesab etməməlidir. Yuxuların əksəriyyəti insanın xəyal qüvvəsinin məhsuludur, onların çoxunun yozuma ehtiyacı var. Onlardan bir qismi sadiq yuxular olub həqiqətdən söz açırlar. Sadiq yuxularda belə ölmüş bir şəxsi yaxşı halda görmək, onun halının daim belə olduğunu bildirməz. Ölən insanın həmin vaxtda itaət və xeyir əməlllərinin müqabilində müəyyən nemətlərdən bəhrələndiyi, başqa vaxtlarda isə nalayiq, yaramaz və pis əməllərinin cəzası ilə üz-üzə qaldığı ehtimal olunur. Bunun əksi də mümkündür, əgər vəfat etmiş şəxsi pis və ya xəstəlik halında görsələr, bu onun həmişə belə halda olmasına dəlalət etmir. Bu onun etdiyi günahlar müqabilində gördüyü sıxıntı anı ola bilər və sonradan yaxşı işlərinin qarşılığında nemətlərdən bəhrələnər.

Bunları qeyd etməkdə məqsədimiz budur ki, əgər ölmüş şəxsi yuxuda pis halda görsək, heç də məyus olmayaq, ehtimal verək ki, sonradan o, yaxşı əməllərinə görə xoşhal olacaq. Onun üçün dua edək, əvəzindən sədəqə verək ki, bu səbəbdən aramlıq və rahatlıq tapsın. Əgər ölmüş şəxsi yuxuda yaxşı halda görsək, həmişə bu halda olmasına yəqin etməyək və "onun bizə ehtiyacı yoxdur" deyə düşünməyək.

Sonda İmam Sadiqin (ə) bəd yozumla bağlı bir hədisini qeyd etmək faydalı olar. Buyurur: *"Bəd yozumun (falın) təsiri özünüzdən asılıdır. Əgər ona yüngül yanaşsanız, yüngül olar, ciddi yanaşsanız, ağır nəticələnər. Heç bir əhəmiyyət verməsəniz, heç nə olmaz"* ("əl-Kafi", c.8, səh.197, hədis235).

Yuxularımızı xeyrə yozub saleh insanlarla bölüşək!

# Allah həddini aşanları sevmir



**Mirhakim Sadıqov,**
**AİI-nin III kurs tələbəsi**

İslam həyat dinidir və ona görə də Allah bizi özü kimi əbədi yaratmışdır. Bəli, əbədi. Yəni həyatımız dünya ilə məhdudlaşmır. Dünya həyatı əbədi həyatın müqəddəratını təyin edən bir həyatdır. Dinimiz dünya həyatımızı da, axirət həyatımızı da gözəl görmək istəyir və öz buyuruqları ilə bu gözəl həyatı təmin edən qaydaları açıqlayır. Allah-Taala Qurani-Kərimdə bəndələrindən bəzisinin "Ey Rəbbimiz, bizə dünyada da yaxşılıq əta et, axirətdə də yaxşılıq əta et və bizi (Cəhənnəm) odun(un) əzabından qoru", – dediyini buyurur. Biz bu ayə ilə yola qoyulsaq, müşahidə edərik ki, Allah həm bu dünyamızın, həm də axirətimizin xeyirli olmasını istəyir. Dünyada baş verən terror aktları, milyonlarla insanın həyatına son qoyan soyqırımılar bəşəriyyətin sakit və xoşbəxt həyat sürməsinə mane olmaqdadır və bütün bunlar Allah qarşısında ən böyük günahlardan hesab olunur. Tarix boyu irqi, dini, milli və s. zəmində baş verən qanlı savaşlar, terror aktları saysız-hesabsız günahsız insanları məhv edib. Hansısa dini, yaxud etnik mənsubiyyətə görə milyonlarla insan işgəncələrə, təhqirlərə və qətllərə məruz qalıb.

İslamın Vətənə verdiyi dəyər haqqında, Vətən uğrunda ölən şəhidlərin məqamı haqqında çoxlarımız bilirik. İslamda hər ölənə şəhid deyilməz. Şəhid Haqq uğrunda mübarizə aparıb, uğrunda həlak olana deyərlər. Hz. Əlidən bir dəfə vacib cihadlar haqqında soruşduqda, o, torpaq uğrunda vuruşmağın vacib olduğunu deyir. Bu aspektdən baxdıqda görünür ki, Azərbaycanın mübarizəsi Haqq mübarizəsidir. Bu mövzuya Qurani-Kərimdən bir ayə ilə başlamaq daha gözəl olar ki, Allah-Taala "Bəqərə" surəsinin 190-cı ayəsində belə buyurur: "Sizinlə vuruşanlara qarşı Allah yolunda siz də vuruşun və həddi aşmayın! Həqiqətən, Allah həddini aşanları sevmir". Bu ayədən də bizə məlum olduğu kimi, Vətənimiz uğrunda vuruşmaq bizim Haqq işimizdir, vəzifəmizdir.

*"Biz Qiyamət günü ədalətli ölçü və tərəzilər qoyacağıq. Beləliklə, heç kəsə heç bir şəkildə zülm olunmayacaq və onların haqlarından kəsilməyəcək. Əgər (insanın əməli kiçiklik baxımından) xardal dənəsi ağırlığında olsa belə, onu (tərəziyə) gətirəcəyik"* ("Ənbiya" surəsi, 47).

Unutmayaq ki, qullarına haqq-ədaləti əmr edən Allah, daim məzlum bəndələrinin yanındadır. Əgər dünyada haqqı, ədaləti tapdalayaraq, qurtulacağını zənn edənlər, bir gün Allahın hüzurunda boyun büküb hesab verəcəklər. Qurani-Kərimdə Uca Rəbbimiz insanlara sülhü, əmin-amanlığı, xeyir və qardaşlığı əmr edir. Əlbəttə ki, İslam əxlaqı terror mənbəyi ola bilməz, çünki terrorizm problemi məhz İslam dinində öz ədalətli həllini tapır. Allah İslam dinini bəşəriyyətə həqiqət, sülh və xoşbəxtlik yolunu göstərmək üçün nazil edib. İslam əxlaqının əsasları – mərhəmət, əliaçıqlıq, fədakarlıq, insanlara qarşı xoşniyyətli olmaq və ədalətdir. Əsrlərdən bəri Azərbaycan xalqı bir çox etnik və dini birlikləri öz qoynunda birləşdirərək, İslam dininin mahiyyətindən doğan sülh, həmrəylik kimi prinsiplərə sadiqlik nümayiş etdirmiş, bu torpaqlarda yaşayan hər kəsə bərabər dərəcədə yanaşmışdır.

Erməni vandalizmindən yetərincə danışmaq mümkündür. Ermənilərin XX əsrin əvvələrindən bəri Azərbaycan xalqının başına gətirdiyi müsibətlər sonsuzdur. Hələ keçən əsrin əvvəllərində Şamaxıda Cümə məscidinin axundu Cəfərqulunun başına ermənilər olmazın müsibətlər açıblar. Onun saqqalının tüklərini bir-bir yolub, sonra da amansızlıqla qətlə yetiriblər. Onların vəhşilikləri bununla bitmir. Elə həmin dövrdə təzə nəşr olunan Quran kitablarının yandırılması, 90-cı illərdə Şuşanın işğalından sonra Şuşa məscidini donuz tövləsinə çevirmələri və s. bu kimi hadisələri təkcə Azərbaycan xalqına deyil, ümumən İslam ümmətinə qarşı edilən soyqırımı adlandırmaq olar.

Tarixi-dini abidələr xalqımızın milli kimliyini, mənəvi-əxlaqi dəyərlərini və adət-ənənələrini özündə təcəssüm etdirən, onun ruhani

yaddaşını hifz edən müqəddəs məkanlardır. Buna görə də Azərbaycanın işğal olunmuş ərazilərində yerləşən maddi-mədəniyyət nümunələrini, o cümlədən tarixi-dini abidələri məhv etmək Ermənistanın təcavüzkar siyasətinin tərkib hissəsidir. Belə ki, 2020-ci il sentyabrın 27-dən başlayaraq, Ermənistan silahlı qüvvələrinin müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək Azərbaycanın yaşayış məntəqələrini atəşə tutması nəticəsində Füzuli rayonunun Babı kəndinin yaxınlığında yerləşən qəbiristanlıqdakı Şeyx Babı türbəsinə ciddi ziyan dəymiş, həmçinin düşmən tərəfindən atılan mərmi Beyləqan rayonundakı Cərciz peyğəmbər ziyarətgahının yaxınlığına düşmüşdür. Bütün bunlar kifayət edir ki, Azərbaycan və Ermənistan münasibətlərində kimin haqlı tərəf olduğu və ədalət məhkəməsi qarşısında kimin cavab verəcəyi məlum olsun. Təəssüf ki, nə bu vandalizm hərəkətləri bununla yekunlaşıb, nə də ki, BMT-nin 822, 853, 874 və 884-cü qətnamələri qüvvəyə minib. Bunlara baxmayaraq, təxminən, son bir ayda Azərbayacan əsgərlərinin ön cəbhədə, Azərbaycan xalqının isə arxa cəbhədəki mübarizəsi qələbəyə tam inamı özündə ehtiva edirdi. Nəhayətdə biz qalib gəldik. Çəkdiyimiz maddi və mənəvi iztirablara Ulu Tanrı son qoydu.

Haqq nazilər, üzülməz. Yumruq kimi birləşən xalqımıza qılınan namazlar, Allaha edilən dualar kömək oldu. Ordumuzun gücü, müdrik və uzaqgörən Ali Baş Komandanımızın siyasəti ilə düşmənə qalib gəldik. Qarabağ bizimdir və Qarabağ Azərbaycandır! Bunu bizim qismətimizə yazan Allahdır!



# İmam Hüseyn (ə) və Kərbəla hadisəsi



Nicat Hüseynov,
Aİİ-nin II kurs tələbəsi

Bəşər tarixində baş vermiş ən böyük cinayətlərdən biri də Kərbəla hadisəsidir. İslam Peyğəmbəri Həzrət Məhəmmədin (s) əziz nəvəsi İmam Hüseynin (ə) 72 tərəfdarı ilə birlikdə şəhid edildiyi bu hadisə əsrlər keçsə də, müsəlmanların yaddaşından silinmir, təzəliyini hər keçən gün qorumağa davam edir.

İmam Hüseynin (ə) Kərbəlada şəhadətindən sonra, Onun yandırdığı azadlıq məşəli sönməmiş, gün keçdikcə daha da alovlanmışdır. Əsrlər bundan əvvəl "Mənə kömək edən yoxdurmu?" nidasına hər əsrdə cavab verilmiş, gün keçdikcə bu səs daha da gur eşidilir.

Hər şeydən əvvəl onu qeyd edək ki, əhli-beytə məhəbbət ilahi əmrdir. Belə ki, Qurani-Kərimdə Allah-Taala ***"Allah iman gətirib yaxşı əməllər edən bəndələrinə bununla müjdə verir. (Ya Peyğəmbər!) De: "Mən sizdən bunun (risaləti təbliğ etməyimin) müqabilində qohumluq məhəbbətindən (əhli-beytə sevgidən) başqa bir şey istəmirəm. Kim bir yaxşı iş görərsə, onun yaxşılığının savabının (mükafatını) artırarıq!". Həqiqətən, Allah bağışlayandır, qədirbiləndir! (Şükrün və itaətin, gözəl əməllərin əvəzini verəndir!)"*** ("Şura" surəsi, 23) ayəsi ilə əhli-beytə məhəbbəti hər bir müsəlmana vacib buyurmuşdur.

Təəssüflər olsun ki, bəziləri ilahi əmrə itaət etməmiş, əhli-beyti nəinki sevməmiş, onlara düşmən olmuş, işgəncəyə məruz qoymuş, qətlə yetirmişlər.

Məlum olduğu kimi, İmam Hüseynin (ə) qiyam etməkdə məqsədi və məramı fitnə törətmək, məqam-mövqe əldə etmək olmamışdır. Əksinə O, İslam qanunlarının, prinsiplərinin ucalması və dirilməsi üçün çalışmışdır. Zülmə qarşı müqavimət göstərmək, məzlumun yanında olub zalıma qarşı çıxmaq İmam Hüseynin (ə) qurmuş olduğu mübarizə məktəbinin əsas sütunlarını təşkil edir. İmam Hüseyn (ə) hələ kufəlilərin dəvət məktublarını almamışdan öncə, Məkkəni tərk edəcəyinin mesajını Vəlidin Yezidə beyət üçün dəvət etdiyi məclisdə açıq-aşkar vermişdi. İmam Hüseynin (ə) *"Yezid şərab içən, yaşamaq hüququ olan insanları qətlə yetirən və nümayişkaranə surətdə günah işləyən bir kəsdir. Mənim kimi bir şəxs onun kimisinə əsla beyət etməz!"* sözü Onun əsas məqsədini açıq şəkildə bəyan edir.

Həmçinin İmam Hüseyn (ə) *"Mən nə xudbinlik və dikbaşlığımdan, nə də fitnə törətmək və zülmə rəvac vermək üçün (Mədinədən) çıxıb gedirəm. Səfərimin məqsədi (yalnız və yalnız) babamın ümmətində (ictimai) islahatlar aparmaqdır. (Müsəlmanları) yaxşı işlərə sövq edərək, pis əməllərdən çəkindirmək və babamla atam Əli ibn Əbu Talibin yolu ilə getmək istəyirəm"* sözləri ilə həqiqi hədəfini bizə göstərir.

İmam Hüseynin (ə) qiyamı, hətta qeyri-müsəlmanların diqqətini çəkmişdir. Hindistan Azadlıq Hərəkatının başçısı İndira Qandi öz xalqına müraciətlə deyirdi: *"Mən bütün dünyanı gəzib-dolandım, müstəmləkə caynağından qurtarmaq üçün sizə böyük bir ərməğan gətirdim. Bu ərməğan İraqın Kərbəla şəhərində azadlıqsevərlərin qibləsinə çevrilmiş İmam Hüseyn əleyhissalamın böyük şəhidlik məktəbidir. Əgər azad olmaq və zülmə qalib gəlmək istəyiriksə, hər bir şeyimizdən keçməyə hazır olmalıyıq!"*

İmam Hüseynin Mədinədən Kərbəlaya qədər məktublaşmaları, müxtəlif bölgələrdə etdiyi çıxışlar, ayrı-ayrı şəxslərlə görüşlər, Kərbəlaya gəldikdən sonra, istər səhabələrinin, istərsə də İmamın özünün düşmən tərəfinə etdiyi moizələr, söylədiyi fikirləri İmam Hüseyn (ə) qiyamının həqiqi simasını açıq şəkildə göstərməkdədir. Kərbəla hadisəsini həqiqi tərəfləri ilə öyrənmək, həqiqətləri təbliğ etmək, insanları bu məktəbin həqiqi mesajları ilə tanış etmək, İmam Hüseyn (ə) və əshabının, eləcə də Kərbəlada əsir düşənlərin həqiqi düşüncə və istəklərinin nələrdən ibarət olduğunu gələcək nəsillərə çatdırmaq hər bir müsəlmanın vəzifəsidir.

Tarixdə İmam Hüseynin (ə) qiyamına münasibət birmənalı olmamışdır. Bir qrup Onun (ə) tarixi izlərini aradan qaldırmağa çalışmışdır. İmamın məzarını dağıdıb, zəvvarlarını öldürmüş, bu yolla insanların yaddaşından silə biləcəklərini düşünmüş, lakin buna nail ola bilməmişlər.



Başqa bir qrup isə İmam Hüseynin (ə) hədəflərini təhrif etməyə, inqilabının miqyasını saxtalaşdırmağa və bundan ticarət və ucuz gəlir əldə etmək, yaxud şəxsi maraqlar üçün istifadə etməyə çalışmışdır. Böyük mütəfəkkir Musa Sədr beləlarini İmam Hüseynin (ə) ən təhlükəli düşməni adlandırır, Onu qətlə yetirənlərdən və tarixdəki izini silməyə çalışanlardan daha təhlükəli hesab edir.

İmam Hüseynin qiyamını təhrif edənlər əsası olmayan bəzi rəvayətləri nəql edirlər. Məsələn, İmam Hüseynin (ə) səhabələrinə dair söylənilən hadisələrə diqqət etdikdə görürük ki, belə bir səhabə ümumiyyətlə olmayıb, ya da haqqında danışılan səhabənin başına bu cür bir hadisə gəlməyib. Əli Əkbərin anası Leylanın hekayəsi, Haşim Mirqal əfsanəsi, Kərbəlada öldürülənlərin sayı, Kufədən Kərbəlaya gələnlərin bir milyon altı yüz min nəfər olması, təzə bəy Qasımın toyu, İmam Zeynalabdinin (ə) hadisələrdən və İmam Hüseynin səhabələrinin şəhadətindən bixəbər olması, İmam Hüseynlə bacısı Zeynəb bint Əlinin vidalaşması, İmam Hüseyn ata süvar olduğu zaman atın hərəkət etməməsi, İmam Zeynalabdinin Ərbəin günü əsirlərlə bərabər Kərbəlaya gəlib, Cabir ibn Abdullah Ənsari ilə görüşməsi, İmam Hüseynin üç yüz min, Əbülfəz Abbasın isə iyirmi beş min nəfəri qılıncdan keçirməsi, boş qazana yığılmış daşların çevrilib yemək olması, xanım Zeynəbin Aşura axşamı xeymələri gəzməsi, Kufə qasidlərindən birinin İmam Hüseynə məktub gətirməsi və cavab istəməsi, Həzrət Əli ibn Əbu Talib (ə) xütbə söylədiyi zaman İmam Hüseynin su tələb etməsi kimi əsası olmayan rəvayətlər təəssüflər olsun ki, Kərbəla hadisəsi çərçivəsində nəql olunmaqdadır. Halbuki Kərbəla hadisəsi haqqında təfərrüatlı məlumat verən səhih mənbələrə baxdığımız zaman bəhsi keçən rəvayətlərin heç biri orada qeyd olunmur.

Şübhəsiz, bu cür təhrifatlar həmişə əhli-beytə qarşı bəslənən nifrətdən və ya mənfəətpərəstlikdən qaynaqlanmır. Əksinə, bəzən ifrat sevgi və elmsizlik də buna səbəb olmuşdur. Eşitdikləri sözlərin səhih olub-olmadığını dəqiqləşdirmədən xalqa çatdırmağa çalışırlar. Həmin insanlar güman etmişlər ki, bu şəkildə insanların qəlbində İmam Hüseynin (ə) sevgisini yerləşdirəcək, beləliklə, Kərbəla həqiqətlərini onlara çatdıra biləcəklər. Onlar başa düşmürlər ki, ifrat sevgi insanı həlaka da apara bilər. Belə ki, Həzrət Peyğəmbər İmam Əliyə (ə) buyurmuşdur: "Ya Əli! Sənin haqqında iki qrup həlak olacaqdır: sənə qarşı ifrat sevgi və ifrat nifrət bəsləyənlər".

Son olaraq qeyd etmək istərdik ki, hansı məqsədlə olur-olsun, əsası olmayan qeyri-səhih rəvayətlərə istinad edərək, İmam Hüseynin (ə) qiyamını və Kərbəla hadisəsini təhrif edərək insanlara çatdırmaqla bu insanlar İmam Hüseynin (ə) hədəflərinə ən böyük zərəri vermiş olurlar.



**Mehrab Dəmirzadə,**
**Aİİ-nin III kurs tələbəsi**

# Ədl

Ərəb dilində doğru olmaq, düzgün davranmaq, ədalətlə hökm etmək, çox adil olmaq kimi mənalara gələn "ədl", dini termin olaraq zülmün ziddi olub "hər kəsin haqqını özünə vermək" və "hər şeyi öz yerinə qoymaq" şəklində tərif edilmişdir.

Ədlin tərifi ilə əlaqədar İmam Əli (ə) "Nəhc əl-Bəlağə"də belə buyurur: "Ədalət hər şeyi öz yerində qərar verməkdir."

Ədl Allahın doxsan doqquz adını sadalayan "Əsmaül-Hüsna" hədisində yer alır. Ədl Allahın adlarından biri olaraq, istifadə olunanda "çox ədalətli, əsla zülm etməyən, haqdan başqasını söyləməyən və etməyən" anlamına gəlir. İslam alimləri ədl sifətini "Allahın hər varlığa layiq olduğu imkan və qabiliyyətləri bəxş etməsi" mənasını verən comərdlik sözləri ilə izah ediblər.

İbn Teymiyyə də bundan yararlanaraq, ədlə "Allahın yaratdıqlarına nemət verməsi" mənasını verir. Qəzzali Allahın ədalətinin nə mənaya gəldiyini bilmədən onun adil olduğunu anlamağın, felllərini yaradıb idarə etdiyi kainatı tanımadan da ədalətini başa düşməyin mümkün olmadığını söyləyir və kainatın tanınması məsələsində çoxlu nümunə verir.

Bütün müsəlman alimlər Allahın adil olduğu məsələsində həmfikirdirlər. Ədl sifətinin şərhində fərqli fikirlər ortaya qoyulmuşdur.

Ədaləti təkvini və təşrii olmaq üzrə iki qismə ayırmaq mümkündür. Təkvini ədalətdən məqsəd, kainatda ilahi ədalətin hökm sürməsi və bütün varlıqlar arasında hakim olmasıdır. Yəni kainatda nizam-intizamın mövcud olmasıdır. Həzrət Peyğəmbərdən (s) nəql olunan "bil-ədli qamətis-səməvatu vəl-ərd" (yer və göy ədalət əsa-



sında bərpa olunmuşdur) hədisi də buna işarə edir. Əgər Yer kürəsi cazibə qüvvəsini itirsə, öz tarazlığını saxlaya bilməz və çox böyük fəlakət baş verər.

Təşrii ədalət də iki qismə ayrılır: Birincisi, peyğəmbərlər vasitəsilə göndərilmiş qanun və şəriətlərin ədalət əsasında olması; yəni Allah-Taalanın göndərdiyi şəriət və hökmlərin hamısı ədalətə uyğundur, insanın qüdrət və imkan dairəsi daxilindədir. Belə ki, Qurani-Kərimdə buyurulur: "Allah hər kəsi yalnız gücü yetdiyi qədər yükləyər (bir işə mükəlləf edər) ("Bəqərə", 286).

Təşrii ədalətin ikinci qismi isə axirət aləminə aiddir; yəni axirətdə saleh bəndələrlə günahkarlar eyni tutulmayacaq, hər biri haqda ədalətli və insaflı hökm veriləcədir: ***"Kim (dünyada) zərrə qədər yaxşı iş görmüşdürsə, onu (onun xeyrini) görəcəkdir (mükafatını alacaqdır). Kim də zərrə qədər pis iş görmüşdürsə, onu (onun zərərini) görəcəkdir (cəzasını çəkəcəkdir)"*** ("Zilzal", 7-8).

Ədalət Allahın kamal sifətlərindəndir. Yuxarda da qeyd etdiyimiz kimi, Allahın bütün işləri ədalət əsasında yerinə yetirilir. Yaradan heç vaxt zülm etməz.

Allahın ədalətinin ən böyük sübutu Quran ayələridir. Məsələn, "Nisa" surəsinin 40-cı ayəsində Allah-Taala belə buyurur:

"Həqiqətən, Allah (heç kəsə) zərrə qədər zülm etməz. Əgər yaxşı bir əməl baş verərsə, onu (onun savabını) ikiqat artırar və öz tərəfindən də (bu əməlin sahibinə) böyük mükafat verər!".

Həmçinin Allah-Taala buyurur:

***"(Ya Rəsulum) Allahı zalımların etdikləri əməllərdən, əsla qafil sanma! (Allah) onların cəzasını yubadıb elə bir günə saxlayar ki, həmin gün gözləri hədəqəsindən çıxar"*** ("İbrahim", 42).

***"Həqiqətən, Allah (Quranda insanlara) ədalətli olmağı, yaxşılıq etməyi, qohumlara (haqqını) verməyi buyurar"*** ("Nəhl", 90).

***"Ey iman gətirənlər! Ədalətdən möhkəm yapışan Allah şahidi olun"*** ("Nisa", 135).

Məsumların hədislərində də Allahın ədaləti məsələsi vurğulanır. Nəql olunduğuna görə, bir yəhudinin Allahın ədaləti barədə verdiyi suala Həzrət Peyğəmbər (s) belə cavab vermişdir: "Allah-Taala zülmün pisliyindən agah olub, zülmə ehtiyacı olmadığı üçün heç vaxt zülm etməz»; yəni, başqalarına zülm edən, onların hüququna əhəmiyyət verməyən insan ya etdiyi işin pisliyini anlamır, ya da məzlumlardan aldıqlarına möhtacdır. Öz ehtiyaclarını ödəmək üçün insanların qazancına şərik çıxır, qazandıqlarını əlindən alır, onların haqqını qəsb edir.

Uca Allaha bu xüsusiyyətləri aid etmək olmaz. O, öz işlərini elm və hikmətlə yerinə yetirir. Allah çox səxavətlidir. Başqalarına kamal sifətləri bəxş etməklə nəsə itirməz ki, mənfəət verməkdə də paxıl olsun. Mütləq qüdrət sahibidir. Zülm bütün ağıl sahibləri üçün qəbahətli bir iş olduğuna görə, mərhəmətli Allah zülm etməz.

Uca Allah öz feyzini heç kimdən əsirgəməz və (ciddi bir səbəb olmadan) ayrı-seçkiliyə yol verməz. Bu sözün aydın olması üçün aşağıdakı məsələlərə diqqət edək:

Varlıq aləmini iki qismə bölmək olar: mücərrəd və maddi aləm.

Mücərrəd aləm hərəkət və təkamül etməyən varlıqlardan ibarətdir. Allah onlara əldə edə biləcəkləri bütün xüsusiyyətləri, elmi əvvəlcədən verib. Cisim deyillər, gözə görünməzlər və məhv olmazlar. Allaha itaətsizlik etməzlər.

Bu görünməyən varlıqlar şəriət dilində mələklər, dünyanın işini idarə edənlər, ruzi bölənlər, kürsü, lövh və s. adlarla tanınanlardır. Bu kimi adlardan belə başa düşülür ki, aləmlərin Yaradıcısı olan Allahla məxluqlar arasında gözəgörünməz vasitələr var. Daha aydın desək, yaranış sistemi xüsusi bir nizam-intizamla təşkil olunub, idarə olunur. Mələklər Allahın göstərişlərinin icraçısıdırlar və əmrindən çıxmırlar. Hər birinin xüsusi məqamı və vəzifəsi vardır:

***"Bizdən (mələklərdən) elə birisi yoxdur ki, onun müəyyən bir məqamı olmasın"*** ("Saffat", 164).

Maddi aləm isə mücərrəd olanların əksinə, maddə və surətdən ibarətdir. Onlar maddi cəhətdən dəyişir və irəliləyərək hərəkət edib, təkamülə doğru gedirlər. Maddinin surətləri dəyişir, amma özü qalır.

Maddi dünya çox genişdir və bəşərin onlardan tam, dəqiq məlumatı yoxdur. İnsanların bilikləri müxtəlif bitkilər, heyvanlar, su, hava kimi yerdə olan varlıqlar və Günəş, bəzi ulduzlar, planetlər haqqındakı biliklə məhdudlaşır. İnsanı heyran edən qalaktikalar, ulduzlar haqqında məlumatımız məhduddur.

Xülasə, Allahın ədaləti Onun hikməti ilə əlaqədardır. Mütləq qüdrət və ixtiyar sahibi olan Allah-Taala istədiyini etməyə qadirdir. Onun bütün işləri hikmətə uyğundur. Bu səbəbdən, insana iradə və seçim hüququ tanımış, işlərində onu sərbəst buraxmışdır. Bununla yanaşı, doğru ilə yanlışı göstərən peyğəmbərlər və kitablar da göndərmiş, əmr və qadağalar qoymuş, mükafat və cəza təyin etmişdir. Bütün bunlar İlahi ədalət çərçivəsində reallaşmışdır.



**Mübariz Camalov,**
i.f.d., dos.,
AİI-nin prorektoru

# Hira: peyğəmbərliyə hazırlıq, yoxsa fikri böhran?!

Hira Məkkədən 5 km uzaqlıqda yerləşən dağın və eyni zamanda, dağın zirvəsinə yaxın yerdəki mağaranın adıdır. Mənbələrdə müxtəlif rəvayətlər olmaqla yanaşı, geniş qəbul edilmiş görüşə görə, Həzrət Peyğəmbərə ilk vəhy bu mağarada gəlib. Həzrət Peyğəmbər nübüvvətə yaxın yaşlarında bu mağarada inzivaya çəkilərmiş. Buna görə də bu dağın və mağaranın müsəlmanlar üçün mənəvi dəyəri böyükdür. Həcc ziyarətlərinə gedənlər bu müqəddəs məkanı ziyarət etməyə çalışarlar.

Hira mağarasında inzivaya çəkilmək ərəblərdə çox geniş yayılmasa da, bir adət idi. Həzrət Peyğəmbər də təxminən, 35 yaşından etibarən Hira mağarasına çıxar, burada ibadət, zikr və təfəkkürlə məşğul olardı. Həzrət Peyğəmbərin burada hansı formada ibadət və zikr etdiyinə dair məlumatımız yoxdur, lakin belə bir inziva adətinin mövcud olması hansı formada olur-olsun, ibadət və zikrin də mövcud olduğunu göstərir. Buradakı inzivanın, təxminən, bir aya qədər çəkdiyi anlaşılır. Kifayət qədər uzun olan bu müddətin hansı formada səmərəli keçirilməsi maraqlı məqamdır. Digər tərəfdən, Həzrət Peyğəmbərin təfəkkürlə məşğul olmasına dair rəvayətlər də diqqəti cəlb edir.

Hira mağarasındakı inzivanın çətin bir proses olduğunu xüsusi qeyd etmək lazımdır. Mağara evdən kifayət qədər uzaqda, çıxılması çətin olan bir zirvədədir. Buraya mağara deyilsə də, əslində, bir-birinə söykənən qayalar arasındakı boşluqdur. Ölçüləri isə təxminən, bir adam boyu yüksəklikdə və uzunluqda olub, eni də yenə bir adamın sığa biləcəyi həcmdədir. Belə məkanda bir ay vaxt keçirmək o qədər də asan olmaz; gündüzün istisi, gecənin soyuğu və məkanın narahat olması buradakı inzivanın rahat bir səssizlik deyil, çətin bir yalnızlıq olduğunu göstərir. Bu çətinliyə dözmək ağır bir yükdən xilas olmaq, yaxud dəyərli nəsə əldə etmək bahasına mümkün ola bilər. Hər iki halda da Həzrət Peyğəmbərə ilk vəhyin burada gəlməsi təsadüf olmamalıdır. İlk nazil olan ayələrin məzmunu isə bu inzivanın təfəkkür ağırlıqlı olması ilə daha çox uyğun gəlir. Belə ki, bu təfəkkür insanın öz varlığını, yaradılış məqsədini və doğru yaşamağın yollarını axtarmaq yolunda olmalıdır ki, ilk nazil



olan ayələr də “Yaradan Rəbbinin adı ilə oxu. O, insanı ələqdən yaratdı. Oxu! Sənin Rəbbin ən böyük Kərəm sahibidir. O Rəbbin ki, qələmlə (yazmağı) öyrətdi. O, insana bilmədiyini öyrətdi” (“əl-Ələq”, 96/1-5) şəklində, sanki bu kimi suallara cavab verir.

Həzrət Peyğəmbərin Hiraya çəkilməsi, adətən, Məkkə şəhərinin səs-küyündən uzaqlaşma, Kəbəni yuxarıdan görmə kimi ifadələrlə izah edilir. Hira inzivasının rahat təfəkkür məkanı kimi deyil, çətin çilə hücrəsi kimi görünməsi daha doğru olar.



35-40 yaşlarında olan bir insanın ailəsini, rahat ev şəraitini tərk edərək belə çətin şəraitdə günlər və hətta həftələrboyu münzəvi həyat keçirməsi, sadəcə, səssiz məkan və Kəbəni uzaqdan seyr etməklə izah olunmamalıdır. Belə anlayışa sahib olmaq Həzrət Peyğəmbəri dünyaya gəlməsindən, hətta kainatın yaradılmasından etibarən peyğəmbər kimi görmənin nəticəsi ola bilər. Bu yanaşmaya görə, peyğəmbərlik əzəldə qərarlaşdırılmış bir hədiyyədir. Halbuki peyğəmbərlik kimi bəşər övladının yüksələ biləcəyi ən uca məqama heç bir cəhd göstərib, çiləsini çəkmədən, mənəvi və fikri böhranlar yaşamadan çatmağı düşünmək məsələni daha da bəsitləşdirməkdir. Hirada ilk vəhyin nazil olması və ardından Həzrət Peyğəmbərin yaşadıqları da Onun peyğəmbərlik və vəhy haqqında çox anlayışlı olmadığını göstərir.

Həzrət Peyğəmbərin vəhyöncəsi iki növ qeyri-adi hal yaşadığı rəvayət edilir. Bunlardan birincisi gördüyü yuxuların olduğu kimi gerçək çıxması idi. Mənbələrin verdiyi məlumatlara görə, Həzrət Peyğəmbər sıxlıqla sadiq röyalar görərdi. Bu hal peyğəmbərliyin başlanmasından əvvəl, təxminən, altı ay davam edib. İkincisi isə Həzrət Peyğəmbərin müxtəlif səslər eşitməsi idi. O, ətrafında heç kim olmadığı halda, “əs-səlamu aleykə, ya Rəsulallah” deyə onu salamlayan səslər eşidirdi. Bunun ardından Hirada ilk vəhyin gəlməsi, yaxud vəhy mələyi ilə ilk qarşılaşma Həzrət Peyğəmbər üçün çox gözlənilməz olub. Həzrət Peyğəmbər ilk dəfə vəhy mələyinin səsini eşitdiyi zaman o qədər qorxub ki, tələsik evə gəldiyi halda, hələ də qorxudan titrəyirdi. Bir müddət yatıb-dincəldikdən sonra başından keçənləri xanımına, Həzrət Xədicəyə danışdı. Xədicə: “Allah heç vaxt səni utandırmayacaq və kədərləndirməyəcək. Sən qohumlarının qayğısına qalır, doğru danışır, kimsəsizlərə əl tutur, kasıblara kömək edir, qonaqlara hörmət göstərir, haqsızlığa məruz qalanların yanında durursan”, – deyə təsəlli edib, ona inandığını bildirdi. Sonra Xədicə Həzrət Peyğəmbəri Vərəqə ibn Nofəlin yanına apardı. Xristianlıq haqqında məlumatı olan Vərəqə Həzrət Peyğəmbəri dinlədikdən sonra, onun yanına gələn mələyin bütün peyğəmbərlərə vəhy gətirən mələk olduğunu dedi. Sonra əlavə etdi: “Səni yalançı adlandıracaqlar; səninlə pis davranacaqlar. Sənə qarşı müharibə edəcək və bu şəhərdən çıxaracaqlar. O günlərə çatsam, Allah üçün sənə kömək edərəm". Bu görüşdən sonra Həzrət Peyğəmbər bir qədər sakitləşərək evinə qayıtdı. Bu görüşdən bir müddət sonra vəhyin qısa müddət ərzində kəsilməsi və bu səbəbdən Həzrət Peyğəmbərin yaşadığı dərin kədəri nəzərə almasaq, Məhəmmədlə (s.ə.s.) vəhylə ilk tanışlığının yeni mərhələyə keçdiyini demək mümkündür.

Hira inzivasının peyğəmbərliyə hazırlıqmı, yoxsa fərdi böhranlardan çıxış yolumu olduğu məsələsinin bizə baxan üzü Həzrət Peyğəmbərin müsəlmanlar üçün nümunə olmasıdır. Həzrət Məhəmmədin peyğəmbərliyinin əzəldən məlum olması qədərçi və qismətçi bir anlayışın toxumunu səpmək kimi görünür və onun nümunə olmasına töhfə vermir. Hər şeyi Allahın bəxş etməsi və lütfü kimi görən insan çalışma və əməyə nə qədər əhəmiyyət verə bilər? Peyğəmbərliyin çalışaraq əldə ediləcək bir mərtəbə olduğunu demək, əlbəttə, doğru olmazdı. Kainat yaradılmazdan, yaxud dünyaya gəldiyi andan peyğəmbərliyin bəlli olması da sual doğurur. Yəqin ki, bu məsələnin orta yolu belədir: peyğəmbərlik çalışmaqla qazanılmaz, amma qazananlar da çalışanlardır.

# Qubanın ən qədim Əbu Müslim məscidləri



Tərxan Paşazadə,

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin əməkdaşı

Füsunkar təbiətə malik olan Quba rayonu tarixi abidələri ilə də zəngindir. Belə tarixi abidələr sırasında dini məkanların özünəməxsus yeri var. Tarixboyu müxtəlif dinlərin təəssübkeşləri Quba torpağında tolerantlıq ənənələrini formalaşdırıb, onu qoruyub saxlayıblar.

Etnik-dini baxımdan rəngarəngliyə malik olan bu yerlərin İslam dininə möhkəm bağlılığından soraq verən ən qədim məkanlar isə Əbu Müslim məscidləridir. Bu məscidlər dövrümüzə qədər tam şəkildə gəlibçatmasalar da, Qubanın ən qədim tikililəri olmaqla yanaşı, həm də Azərbaycan Respublikası ərazisindəki tarixi ibadətgahlardandır.

Hazırda Quba rayonunun üç kəndində – Cek, Qrız və Xınalıq kəndlərində "Əbu Müslim" məscidləri var ki, onların inşa olunma dövrü VIII əsrə–İslam dünyasındakı Əbu Müslimlərdən ən məşhurunun hakimiyyəti illərinə və yaxud bir qədər ondan sonraya təsadüf edir. Ümumilikdə isə bu məscidlərin ilk tikilmə tarixinin Əbu Müslim əl-Xorasaninin bu ərazilərə ilk gəldiyi illər – 740-cı illər olduğunu qəbul etmək olar.

Əbu Müslim kimdir? Bəzi mənbələrdə 700, bəzi mənbələrdə isə 718-ci ildə tarixi Xorasan bölgəsinin Bəlx şəhərində (indiki Əfqanıstan ərazisinin şimalında yerləşir) və ya Mərv şəhərində (indiki Türkmənistan ərazisində yerləşir) anadan olduğu qeyd edilən Əbu Müslimin Əməvilər xilafətinin xəlifəsi əl-Validin qardaşı olduğu bildirilir. Abbasilər xilafətinin banisi Abbasın da məşhur sərkərdəsi olmuş Əbu Müslim əl-Xorasani VIII əsrdə Şirvanı və Dağıstanı işğal edərək İslamı yayıb, Azərbaycanın hakimi olub. Ehtimal olunur ki, Dağıstan xalqlarının bəzilərinin İslamı qəbul etməsi də məhz onun adı ilə bağlıdır.

Çox güman ki, ceklilər, qrızlılar, xınalıqlılar və digər Şahdağ xalqları da məhz Əbu Müslimin zamanında İslam dinini qəbul edibər. Əbu Müslimin bu məscidləri tikdirməsinin başlıca səbəbi əhali arasında İslam dinini yaymaq olub. Qeyd edim ki, bəzi mənbələrdə Əbu Müslim əl-Xorasaninin həm də Xürrəmilər hərəkatının ən görkəmli rəhbəri olan Babəkin babası olduğu qeyd edilir.

Əbu Müslimin rəhbərlik etdiyi qüvvələr Əməviləri yıxıb hakimiyyətə Abbasiləri gətiriblər. Abbasilər isə Əbu Müslimin xalq kütləlləri arasında olan nüfuzundan qorxaraq, onu hakimiyyətin devrilməsində təqsirləndirib, 755-ci ilin fevral ayında xəlifə əl-Mənsurun əmri ilə edam ediblər. Əbu Müslimin öldürülməsi Xilafətin bütün ərazisində, o cümlədən, Azərbaycanda da Abbasilərə qarşı üsyanlara səbəb olub.

"İslam dünyasındakı Əbu Müslimlərdən ən məşhuru" ifadəsinin açması bu qısa şərhdə əhatə olundu. Əbu Müslim məscidlərinin tikilməsi, bilavasitə Əbu Müslim əl-Xorasani ilə əlaqələndirilir. Bu barədə olan mənbələrin əksəriyyətində də müvafiq məlumatlara rast gəlinir.

Bəzi mənbələrdə iddia olunur ki, müvafiq məscidlər Əbu Müslim əl-Xorasaninin adı ilə bağlı deyildir. Bəzi mənbələrdə, hətta həmin məscidlərin VIII əsrdə deyil, daha əvvəl – VII əsrdə tikilməsi barədə məlumatlar mövcuddur. Qeyd edilir ki, bölgə xalqı tərəfindən şeyx hesab edilən Əbu Müslim Xorasandan deyil, başqa Əbu Müslimdir və onun həyatı, şəxsiyyəti haqqında, demək olar ki, ətraflı məlumat bizim dövrümüzə gəlib çatmayıb. İlk dəfə İslam dinini Qafqazda yaymağa çalışaraq, bu işdə müvəffəqiyyət qazanan şəxsin məhz Əbu Müslim adlı müsəlman olduğu həmin mənbələrdən də anlaşılır. Onun döyüşçü deyil, İslam dinini yayan bir mürşid olduğu bildirilir. Bəzi mənbələrə görə, Əbu Müslimin İslam dinini yaymaq üçün ordunun tərkibində buralara gəlmiş Şeyx Yusif adlı bir mürşidin oğlu olması barədə də məlumatlar var.

Başqa bir rəvayətə görə, Əbu Müslim Şahdağ platosunda yerləşən yaşayış məskənlərinə Qazi-Qumuqdan (indiki Rusiya Federasiyası Dağıstan Respublikasının Lak rayonu ərazisində yerləşən Qumuq kəndi) gəlib, missiyasını bitirdikdən sonra isə çeçenlərin məmləkətinə gedərək orada şəhid olub, türbəsi də Xunzax kəndindədir.

Maraqlıdır ki, o, hələ sağ ikən özü üçün məzar daşı hazırlatmış və inanılır ki, həmin məzar daşı hazırda Qumuq kəndində olan böyük məsciddədir. Bu səbəbdən də qumuqlular iddia edirlər ki, Əbu Müslim məhz Qumuq kəndində dəfn edilib.

Əbu Müslim məscidlərinin tikildiyi ərazidə müşahidə apardıqda,



onların necə möhtəşəm memarlıq abidələri olduğunu görmək mümkündür. Bu məscidlərin ətrafında geniş elmi-arxeoloji və memarlıq tədqiqatlarının aparılması çox vacibdir. Əgər onlar tədqiq edilərsə, Azərbaycanda İslam memarlığının, eyni zamanda, milli memarlığımızın bir sıra məqamları işıq üzünə çıxa bilər. Tarixin sınaqlarından dəfələrlə üzüağ çıxan bu məscidlər, təəssüf ki, sovet hakimiyyəti dövründə təyinatı üzrə istifadə olunmayaraq ya dağıdılıb, ya da baxımsız vəziyyətə düşüb.

Cek kəndindəki Əbu Müslim məscidi sovet hakimiyyəti illərində dağıdılaraq daşından məktəb binası, ağaclarından isə taxıl anbarı tikilib. Məscidin dağıdılma tarixi bizə tam bəlli deyildir. Cek kəndində isə məktəb binasının 1928-ci ildə tikildiyi bizə məlum olduğu üçün güman ki, məscid də ya həmin il, ya da bir qədər əvvəl dağıdılıb. Sovet hakimiyyətinin son illərində, daha dəqiq desək, 1988-ci ildə kənd ağsaqqallarından biri Şıxəli Muradovun təşəbbüsü və kənd sakinlərinin köməkliyi ilə məscid qismən bərpa edilib. Təəssüf ki, maddi çətinliklər üzündən onun inşası hələ də lazımi səviyyədə tamamlanmayıb. Hazırda məscidin istifadəyəyararlı sahəsi cəmi 16 kvadratmetr, tutumu isə 16 nəfərlikdir.

Qrız kəndindəki eyniadlı məscidin mövcud vəziyyəti isə daha ağırdır. Ciddi dağıntılara məruz qaldığından, Qrız kəndində Əbu Müslim məscidi hal-hazırda istifadəyə tamamilə yararsız vəziyyətdədir. Məscidin bərpa olunması və tarixi abidə kimi qorunması üçün müvafiq qurumlara müraciətlər edilsə də, təəssüf ki, hələlik bu istiqamətdə heç bir ciddi irəliləyişə nail olunmayıb.

Xınalıqdakı Əbu Müslim məscidini isə digər iki məscidlə müqayisədə daha şanslı hesab etmək olar. Belə ki, kənd sakinləri SSRİ dövründə qışa yığdıqları azuqələrini bu məsciddə saxlayaraq, ondan anbar kimi istifadə edib, nəticədə də onun dağıdılmasının qarşısını alıblar. Sovet hakimiyyətinin son illərində isə yerli əhali tərəfindən məscid əvvəlki halına gətirilib, təyinatı üzrə istifadə edilib. Bir neçə il öncə dövlət tərəfindən əsaslı şəkildə təmir olunub. Hazırda məscidin istifadəyəyararlı olan sahəsi 340 kvadratmetr, tutumu isə 340 nəfərlikdir. Kənd camaatı orada Cümə namazlarını qılır; həmçinin kəndə gələn yerli və xarici müsəlman turistlər də bu məscidi ziyarət edərək, burada yerli sakinlərlə birlikdə namaz qılırlar. Bu məscid isə yalnız kişilər üçündür və qadınların namaz qılmasından ötrü orada yer yoxdur. Qeyd edim ki, Xınalıqdakı Əbu Müslim məscidi çox maraqlı formada tikilib. Məscidin girişində, sağ tərəfdə 2 metr yüksəklikdə yerləşən 2 müxtəlif daş üzərində Avropanın və Şərqi Asiyanın qədim yazı növü olan "runa" yazıları həkk olunub. Məscidin içərisində iki böyük sütun yerləşir. Məscidin ağac sütunları oyma üsulu ilə müxtəlifformalı nəbati motivlər və göl təsvirləri ilə bəzədilib. Alimlərin fikrinə görə, bu sütunların tarixi çox qədimdir. Sütunlardakı yazıların, təqribən, III-VIII əsrlər arasında yazıldığı ehtimal olunur. Bu yazıların tərcüməsi tam bəlli olmasa da, təxminən, "Günəşin doğması" və yaxud "yeni tarixin yaranması" mənasını daşıyır.

# Valeriya Poroxova ilə müsahibə

*(Quranın məşhur tərcüməçisinin “Реальное время” internet-qəzetinə (www.realnoevremya.ru) 2018-ci ildə verdiyi müsahibədən (ixtisarla)*



**Şahin Ələsgərov,**
**Aİİ-nin əməkdaşı**

***– Valeriya Mixaylovna, Rusiyanın bir çox guşələrində, o cümlədən, Tatarıstanda bu ay Mövlud bayramı qeyd olunur. Peyğəmbərin doğum gününün keçirilməsinə sizin münasibətiniz necədir?***

– Bu məsələdə ərəb-müsəlman dünyasında fikir ayrılığı mövcuddur. Misal üçün, sələfilər kimi ortodoksal müsəlmanlar bunu bidət (dinə gətirilən yenilik) sayır və heç vaxt qeyd etmirlər. Yerdə qalan müsəlmanların fikirlərini belə ümumiləşdirmək olar: bizim peyğəmbərimiz ən böyük peyğəmbər olub, Musa (ə.s. – tərc.) və İsa (ə.s. – tərc.) kimi Allahın kəlamlarını insanlara ötürüblər. Əgər başqa yerlərdə bu bayram qeyd edilirsə, biz nəyə görə peyğəmbərimizi uca tutub, onun mövludunu qeyd etməyək?! Beləliklə, evlərdə sadə şəkildə mövlud günü keçirilir, dualar oxunur, peyğəmbərin həyatı ilə bağlı əhvalatlar danışılır və s. Əslində bu, bir yerə toplaşmaq, olub-keçənləri müzakirə etmək və onlardan dərs götürmək, nəticə çıxarmaq üçün gözəl imkandır. Mən bunu çox yaxşı qarşılayıram.

***– Bu dediklərinizdə şirk (Allaha şərik qoşma) əlamətləri yoxdur ki?***

– Mən bunda şirk görmürəm. Zaman bir yerdə dayanmır, insan mentaliteti inkişaf edir, elmi biliklər artır. Müsəlmanların öz həyatlarında eşitdikləri ilk Allah kəlamı nəyə görə “iqra” (Oxu! – tərc.) idi?! Yəni sən oxumalı və yerdəki həyatın, sivilizasiyanın, elmin inkişafına uyğun olaraq yaşamalısan.

Quranın bir çox ayələrinin necə qurtardığına fikir verin: “Bu, bilənlər üçündür”; “Bu, anlayanlar üçündür”; “Bu, ağıllı adamlar üçündür”. Burada, sanki Qurana giriş üçün bir məhdudiyyət duyulur: əgər ağlın yoxdursa, heç bir biliyin yoxdursa, Quranı niyə oxuyursan? Sadəcə, “iki üstəgəl iki dörd edir” demək üçün? Yox, Qurana sənə ilham verən, səni müsbət mənada “yaraqlandıran”, elmə aid hər şeyi dərk etməyə həvəsləndirən Allah kəlamı kimi yanaşmalısan. Həqiqi müsəlman zamanla ayaqlaşır – bunu dərk etmək çox vacibdir. Özümüzü heç bir halda, məsələn, VII-X əsrlərdə olanlara kökləməməliyik. Peyğəmbər hədislərinə yüksək intellektə malik bugünkü insan cəmiyyətinin prizmasından yanaşmalıyıq. “İnsanlarla onların mentalitetinə uyğun davranın ki, Allah və onun elçisini yalançı saymasınlar” hədisini Peyğəmbərin (ə.s.) ən vacib kəlamlarından hesab edirəm. Qeyd etdiyim kimi, İslam VII, yaxud X əsrlərdə donub-qalmayıb. O, dayanmadan irəliləyir, çünki biz Haqq-hesab gününə, Allaha doğru durmadan hərəkət edirik.

***– Bəs öz ad gününüzü necə, keçirirsiniz?***

– Qeyd edirəm. Qonaq gedirik, ya bizi dəvət edirlər. Həyat yoldaşım Məhəmməd duaları çox gözəl oxuyur. Hər kəsin simasında xoşbəxtlik görünür. Sonra Peyğəmbərimizə (ə.s.) bir neçə dəfə salavat gətiririk. Əhvalımız bir az da yüksəlir. Gözəl bir süfrə açılır. Belə vaxtlarda həmişə Peyğəmbərin (ə.s.) yaşadığı dövrdə baş vermiş, hazırda nümunə və əsas ola biləcək hadisələri xatırlayırıq. Bax, beləcə ad günümü keçiririk.

***– Bəs Yeni ili necə, onu da qeyd edirsiniz?***

– Yeni ili, əlbəttə, mütləq qeyd edirik.

***– Hər halda, Yeni ilin qeyd edilməsinə birmənalı münasibət bəsləmirsiniz...***

– Niyə ki?! “WhatsApp”ım Yeni il, müsəlmanların Yeni ili, Mövlud və cümə günləri ilə bağlı çoxsaylı gözəl mesajlarla doludur.

***– Siz, yəqin, Müsəlman təqviminə görə gələn Yeni ili nəzərdə tutursunuz. Bəs yanvarın 1-də qeyd olunan Yeni ili necə, ailənizdə keçirirsiniz?***

– Əlbəttə. Niyə də olmasın?! Bu məsələnin dinə aidiyyəti olmadığından, heç bir ziddiyyət də ortaya çıxmır. Məsələ ondadır ki, çox nüfuzlu ingilis, alman, fransız mənbələrinin yazdığına görə, müsəlman Yeni ili daha dəqiqdir:

o, Ay təqviminə uyğun hesablanır. Avropalıların Yeni ili Günəş təqviminə görə hesablandığından, müəyyən müddət keçəndən sonra günlər əlavə etməli olurlar. Ay və Günəş təqvimlərinin müqayisəsi olduqca maraqlıdır. Bu, elmə aid bir məsələdir və istər İslam, müsəlman, istərsə də dünya alimlərinin sübut etdiyi kimi, Ay təqvimi daha dəqiqdir.

***– Sizin Ufada saxlanılan Peyğəmbər saqqalının tükləri kimi artefaktlara qarşı kifayət qədər ziddiyyətli münasibətiniz var...***

– Mən bunu qəti şəkildə qəbul etmirəm: bu, biabırçılıqdır, bu, şirkdir. Bu, düzgün deyil, ona görə ki, bu dünyada Qurandan və Peyğəmbərimizin (ə.s.) sözündən savayı müqəddəs heç nə ola bilməz. İslamın buna yaxından-uzaqdan heç bir dəxli yoxdur. Moskvaya Peyğəmbərimizin (ə.s.) saqqalının tüklərini gətirdikləri vaxt insanlar onu görməyə can atırdılar. Həmin vaxt da bunun şirk olduğunu, İslama aidiyyəti olmadığını demişdim. Fikrimdə yenə də qalıram. Belə ki, nə lazımdırsa, hamısı haqqında Quranda yazılıb və heç yerdə deyilmir ki, peyğəmbərin saqqalının tüklərinə, yaxud qılıncına sitayiş etməliyik. Bunlar yalnız muzeydə artefakt kimi təqdim oluna bilər, vəssalam.

***– Yeri gəlmişkən, Qroznıda peyğəmbərin kasası var...***

– Bəli, düzdür. Orada sufizmin yayıldığını deyirlər, amma kasanın sufizmlə bir bağlılığı yoxdur. Sufizm İslam fəlsəfəsidir, ən uca elmdir. Mən iliyimə kimi sufiyəm.

***– İliyinizə kimi sufi?! Siz hansısa təriqətə mənsubsunuz?***

– Xeyr, təriqətə mənsubluğum yoxdur. Dünyagörüşü və dəyərlər baxımından sufiyəm. Bu barədə çox oxumuşam, həmçinin “Quranın anlaşıqlı sətri tərcüməsi” adlı kitabım da var (yeri gəlmişkən, ikinci nəşri işıq üzü görən kimi bütün nüsxələr alınıb qurtardı). Birinci fəsildə sufizmin yaranmasından, sözügedən hərəkatın banilərindən (Qəzzali və digərləri) danışılır.

***– Rusiyada hökumət orqanları ilə müsəlmanların qarşılıqlı əlaqəsini təmin edən özünəməxsus sistem – ruhani idarəsi (müftilik) formalaşıb. Necə düşünürsünüz, bu cür münasibət forması artıq köhnəlməyib?***

– Həqiqətən də, müsəlmanlar müftilərin hakimiyyətdə belə təmsilçiliyini təqdir etmirlər. Belə ki, qeyd olunan formanın hər zaman səmərəli olduğunu deyə bilmərik. Hakimiyyətin maraqları və bu maraqlara dair mexanizmin işlənməsi metodologiyası heç də həmişə müsəlmanın maraqları və İslam metodologiyası ilə üst-üstə düşmür, ancaq müqavimət göstərməyə gərək yoxdur. Bu məsələdən kənar durmaq, bir çoxları kimi müxaliflik edib özünü dartmamaq lazımdır. Biz İslam qaydalarına uyğun yaşayır, Quranda buyurulanlara inanır, zamanla ayaqlaşmaqla, peyğəmbərin sünnəsinə əməl edirik. Hazırkı vaxtda əvvəlcə sağ, sonra sol çəkmənin geyilməsi kimi məsələlərlə bağlı bir sıra hədislər zaman baxımından əhəmiyyətini itirib. Mədəniyyət inkişaf etdiyindən, insanlar nəyi edib-etməmək lazım gəldiyini, artıq dünyaya göz açdıqları andan bilirlər. Mənim “200 hədis” adlı tərcümə müəllifi olduğum kitab var. Onu yazmaq üçün 3 500 hədisin yer aldığı ikicildlik kitabı 1.5-2 il ərzində oxudum.

***– Ərəbcə?***

– Bəli, ərəbcə. Bəs onlardan nə qədərini tərcümə etdim?! 200-nü, çünki yerdə qalanları XXI əsrin mentalileti ilə üst-üstə düşmürdü.

***– Seçimi öz bildiyiniz formada etdiniz?***

– Öz bildiyim formada yox, Allahın əmrlərinə uyğun olaraq seçim etdim. XX əsrin sonu – XXI əsrin əvvəllərinə aid ziyalı insanın mentalitetinə əsaslandım. Peyğəmbərin “Onlarla mentalitetlərinə uyğun davranın!” hədisi seçimimdə mənə istiqamət göstərdi.

***– Düşünmürsünüzmü ki, seçiminizdən kənar qalan hədislərdə gözünüzdən qaçan nəsə ola, hansısa məna gizlənə bilər?***

– Xeyr. Mən yetərincə dərrakəli insanam. Hədislərin birində deyilir ki, sən daş atdın və o, birinin gözünə dəydi, çünki həmin şəxs dəlikdən gizlicə baxırdı. Bu hədis çox xoşuma gəlir. Bugünün nəbzinə uyğun gördüyümdən, onu sözügedən kitaba daxil etmişəm: gizlicə baxmaq ədəbsizlikdir. Hədisləri seçərkən burada yalnız insanın təhsili, biliyi deyil, insan təbiəti amili də öz rolunu oynayır. Həmçinin insanın hansı dinə sitayiş etməsindən asılı olmayaraq, ümumi dəyərlər mövcuddur və bu dəyərlər “Öldürmə!”, “Oğurlama!” deyir. Hədislər “etika” kimi bizim üçün olduqca vacib olan ümumbəşəri dəyərlərə toxunanda bir məsələ mütləq nəzərə alınmalıdır: Etika – qanunun icrasıdır. Qanun Quranda öz əksini tapıb. Onun icrası etikası hədislərdə yer alıb. Musanın (ə.s.) “qanunu” Tövratda, onun icrası etikası İncildə ifadəsini tapıb. İsa (ə.s.) qanun gətirməyib, buna dair, hətta hər hansı işarə belə yoxdur. Bu səbəbdən, İsanın (ə.s.) gətirdiyinə “muxtar” din deyə bilmərik, belə ki, din qanundur. Qanun yoxdursa, deməli, din də mövcud deyildir.



İsa (ə.s.) deyib: "Düşünməyin ki, mən qanuna qarşı çıxmağa, yaxud peyğəmbərlərə zidd getməyə gəlmişəm. Yer üzünə onları (qanunları – tərc.) pozmağa deyil, icra etmək üçün göndərilmişəm". Beləliklə, O, bu qanunun icrası üçün etika gətirdi. İsa (ə.s.), Musa (ə.s.) qanunlarını icra etməyə və seçilmiş, lakin yolunu azmış xalqı Allah yoluna qaytarmaq məqsədilə gələn böyük peyğəmbər, mömin bir yəhudidir. Daha sonra Məhəmməd (s.ə.s. – tərc.) gəldi və Allah-Taala Qurani-Kərimin "əl-Maidə" surəsində belə buyurdu: "Biz bu kitabı sənə haqq və doğru olaraq özündən əvvəlki (səmavi) kitabları təsdiq edən və onlara hakim, nəzarətçi, qoruyan və şahid kimi nazil etdik" (48-ci ayə – tərc.).

Beləliklə, əlimizdə, sözün əsl mənasında, yazılı Musa (ə.s.) qanunu və İsa (ə.s.) etikası var. Hər iki yazı bəşəriyyəti onların güclü vəhdətinin baş verdiyi sonuncu yazını mənimsəməyə hazırlamışdır. Sözügedən sonuncu yazı Musa (ə.s.) və İsa (ə.s. ) zamanında əlçatmaz olan güclü elm amili ilə "silahlanıb". Elmi fikirlər İncil və Tövratda deyil, məhz Quran mətnində öz əksini tapıb. Sonuncu kitab özündən öncəkilərin (səmavi kitabların – tərc.) özəyini götürərək onları birləşdirib və insan təbiətinə bələd olduğundan (əşyayi-dəlil sevgisi, belə ki, hər şeyin sübutuna ehtiyac duyuruq), elmlə "təchiz edilib". Qurandakı elmi işarələr Uca Yaradanın əzəmətinin gələcək nəsillər üçün sübutudur.

***– Hazırda İslamın, belə demək mümkünsə, "feminizasiyası" baş verir. Bundan başqa, Avropada elə məscidlər meydana gəlməyə başlayıb ki...***

– Avropada ən böyük məscid Almaniyanın "mədəniyyət paytaxtı"nda – Kölndə tikilib. Bir ay əvvəl onun açılışı olub. "Köhnə qitə"də ən əhəmiyyətli tikililərdən biri Köln kilsəsidir. Bu katolik məbədi füsunkar gözəlliyi ilə seçilir. Almanlar gəlirlərinin 10 faizini kilsənin ehtiyaclarına ödəmək istəmədiyindən, bu ibadət ocaqlarının əksəriyyəti bağlanıb. Sözügedən kilsənin qalması onun UNESCO-nun himayəsi altında olması ilə əlaqədardır. İndi isə haqqında söhbət açdığımız ölkənin həmin bu "paytaxt"ında Avropanın ən böyük məscidinin inşa olunduğunu görürük. Bu, möhtəşəm hadisədir. Onun tikintisi məsələsi müzakirə ediləndə mən Almaniyada idim. Damarlarımda alman qanı axır və bu xəbəri eşidəndə ürəyimə yağ kimi yayıldı.

***– Feminizasiya ilə bağlı sualımı sona çatdırmaq istəyirəm. Avropada bəzi məscidlərdə imam xanımları görmək mümkündür. Həmin ibadət yerlərində qadınlarla kişilərin eyni cərgədə dua etmələrinə icazə verilir.***

– Qətiyyən düzgün deyildir. Qadınlar ayrı ibadət edirlər, çünki motivasiya çox ciddidir. Xanım səcdəyə gedən zaman kişi ilə yanyana dua etməməlidir. Dünyanın heç bir məscidində buna rast gəlinmir. Qadınları xristian kilsələrinə din xadimləri kimi cəmi bir neçə il bundan öncə qəbul etməyə başlayıblar. İslamda isə bu – kişi ilə qadının bir yerdə namaz qılması olmayıb.

***– Hər halda, bu cür məscidlərin olduğu barədə xəbərlər gəlir.***

– Bunlar heç də yaxşı xəbərlər deyil və İslamı gözdən salmağa çalışan bu cür xəbərlərin yayılması, ümumiyyətlə, xoşuma gəlmir. Buna görə də "Xeyr, İslamda belə bir şey yoxdur", – deyib bu xəbərlərə beləcə sərt cavab verməliyik. Bunu bütün məsuliyyətimlə deyirəm.

Londonda olmuşam. Böyük Britaniyanın müsəlman icmasında

uzağı, yarım milyon adam var. Yaxşı, bəs orada nə qədər məscid fəaliyyət göstərir? Təkcə paytaxtda 75 məscid və ibadətxana.

***– Bəs Moskvada nə qədərdir?***

– Moskvada isə cəmi 5 dənə. Şəhərin özündə və Moskva vilayətində 2.5 milyon müsəlman yaşayır və 5-6 məscid fəaliyyət göstərir. Bu, müsəlman əhalisinə qarşı etinasızlıqdır.

***– Yaxşı bəs qadın hüquqlarının sərhədləri hara qədərdir?***

– Qadınların hüquqları ilə bağlı Quranda bu cür buyurulur: "(Kişilərin qadınlar) üzərində şəriətə görə hüquqları olduğu kimi, (qadınların da) onlar (kişilər) üzərində hüquqları vardır" ("Bəqərə", 228 – tərc.). Bu ayə kişi və qadınların hüquq bərabərliyini vurğulayır. Bəzən kişilərə daha çox hüquq verilir ki, bu da onların pulqazanan olmaları ilə əlaqədardır. Qeyd olunan məsələ Quranda belə bildirilir: "Ancaq kişilər (daha artıq əziyyətə qatlandıqları üçün) onlardan bir dərəcə üstündürlər" (həmin ayə – tərc.). Söhbət, təbii ki, ailə saxlamaqdan gedir. Siz də yaxşı bilirsiniz ki, dövrümüzdə ailəni dolandırmaq vəzifəsini kişi qədər qadın da öz çiyinlərində daşıyır. Hərdən isə tamamilə əksi baş verir – baxırsan ki, ağıllı, bacarıqlı bir kişi özünə cəmiyyətdə yer tapa bilmir. Yəni narahatlığa lüzum yoxdur, həyatda hər şey olur. Belə hallarda qadın işə gedir, evin qayğılarını isə kişi çəkməli olur. Bir sözlə, İslam qadın hüquqlarını əsla məhdudlaşdırmır.

***– Valeriya Mixaylovna, bəzən sizi geyim tərzinizə görə tənqid edirlər. Hicab taxmaq məsələsinə xüsusi yanaşmanız var?***

– Başörtüyünün geyilməsi dünyanın bütün dinlərində buyurulub. Yəhudi qadınlarının eyni ilə müsəlmanlar kimi geyindiyinə heç fikir vermisiniz? Rusiya imperiyasında bir qadının belə küçəyə kokoşniksiz (şimal rus kəndli qadınlarının çutquya oxşar başgeyimi – tərc.), örpəksiz çıxmadığını bilirdiniz? Bunları çıxaranlara "abırsız" deyərmişlər. Bir imperatriçə də şlyapasız bayırda görünməyib. İngiltərə kraliçası II Yelizavetanı heç şlyapasız görmüsünüz? Xeyr. Quranda deyilir: "Ey Adəm oğulları! Hər bir ibadət vaxtı (namaz qılarkən, məscidə gedərkən və ya təvaf edərkən) gözəl libaslarınızı geyinin..." ("Əraf", 31 – tərc.). Ən əsası isə başörtüyü olmalıdır.

***– Siz Quranın rus dilinə tərcüməçisisiniz. Necə düşünürsünüz, Müqəddəs Kitabın rus dilinə ən uğurlu tərcümələri hansılardır?***

– Hər bir tərcümənin özünəməxsus əhəmiyyəti var. Mənim tərcüməm çox dəqiq elmi şərhlərlə əsaslandırılıb. Bunda əvvəla, yaxşı elmi təhsil almağım, digər yandan, xarici ölkələrlə güclü əlaqələrimin olması böyük rol oynayıb. Məsələn, Filadelfiyadan mənə embriologiyaya dair bəzi materiallar göndərmişdilər. "Əl-Əzhər" Universitetinin Elmi Tədqiqat Akademiyasında mənim şərhlərim oxunandan sonra, xarici dillərə tərcümə üzrə Baş Departamentdəki ərəblər mənə "Sizin şərhlərinizi tez bir zamanda ərəb dilinə tərcümə etməliyik. Bizdə belə yüksəkkeyfiyyətli iş yoxdur", – deyə söylədilər.

***– Kraçkovskinin tərcüməsi necə, xoşunuza gəlir?***

– Kraçkovski görkəmli ərəbşünas olub. O, heç vaxt Quranı tərcümə etməyib. Keçən əsrin 90-cı illərində Kraçkovskinin tərcüməsi işıq üzü görəndə qardaşı qızı Mərkəzi Televiziyada demişdi: "Nəyə görə Sankt-Peterburq Şərqşünaslıq İnstitutu onu "Quran" başlığı altında nəşr etməyə qərar verib? Əmim buna heç bir halda razılıq verməzdi". Quranın sətri tərcüməsini həyata keçirən Kraçkovskinin yeganə məqsədi, tələbələrə ərəb dilini onun söz və məna baxımından ecazkarlığı ilə seçilən mətni əsasında öyrətmək idi. Yəni bir güllə ilə iki dovşan vururdu: tələbələr bir yandan, ərəb dilini mənimsəyir, digər yandan, Quran ayələrinin mənası ilə tanış olurdular. Kraçkovski peşəkar bir iş ortaya çıxarıb. Mənim də yanaşmam görkəmli alimin yanaşmasından fərqlənmir. Tərcüməyə başladığımda mətnləri tutuşdurub, Kraçkovskinin tərcüməsində yanlışlıqlar aşkarladım. Məşhur ərəbşünas olmasına baxmayaraq, o, "Quranın tərcüməçisi" adına heç vaxt iddia etməyib. Kitabın redaktor və naşirləri Qryazneviç və Belyayev (onlar, həmçinin Kraçkovskinin tərcüməsinə yazılan müqəddimənin həmmüəllifləridir – tərc.) bir dəfə mənə "Bizim kitab anbarlarımız elə acınacaqlı vəziyyətdə idi ki, ciddi təmirə ehtiyac duyulurdu. Burada bir çox nadir əlyazmalar, o cümlədən, xəlifə Osmanın (r.a. – tərc.) Quranı saxlanılır. Təmir üçün çoxlu pul lazım olsa da, maddi vəsait ayıran yox idi. Biz də Kraçkovskinin tərcüməsini çap etdirib satdıq və anbarlar təmir olundu", – demişdilər. Alimin Qurana münasibətini soruşursunuzsa, deməliyəm ki, o, buna Müqəddəs Kitab kimi yanaşmayıb və heç müsəlmanlığı da qəbul etməyib. O, misal üçün, "Ayətülkürsü"nün hansısa yəhudi nəğməsinə bənzədiyini yazırdı.

***– Bəs Quliyevin (Elmir Quli-***

***yev – Quranın rus dilinə tərcüməçisi – tərc.) işini necə dəyərləndirirsiniz?***

– Tərcüməsinin ön sözündə o, çox dürüst davranıb – Poroxova, Kraçkovski və Osmanovun tərcümələrindən bəhrələndiyini qeyd edib. Quliyevin bu iş üçün cəmi 2 ili gedib. Kraçkovski 20, Abdullah Yusuf Əli (Quranın ingilis dilinə tərcüməçisi – tərc.) 40, Valeriya Poroxova 12 il vaxt sərf edib. Kraçkovskinin tərcüməsi kimi bir "vasitə" əlində olduğu halda, onun işini təkrarlamaq nəyə gərəkdir?! Məndə Kraçkovskidən heç nə qalmayıb, istəsəniz, müqayisə edə bilərsiniz. Müsəlmanlara Kraçkovskinin tərcüməsini oxumağa lüzum yoxdur. Mən onu nəhəng ərəbşünas, peşəkar ərəb dili müəllimi və tədqiqatçısı sayıram.

***– Siz Quranı ərəbcədən, yoxsa ingilis dilindən tərcümə etmisiniz?***

– Hər ikisindən.

***– Ərəb dilini lazımi səviyyədə bilirsiniz?***

– Mən Suriyada yaşamışam və orada 12 il Quranın tərcüməsi ilə məşğul olmuşam. Mənim bildiyim ərəbcənin Quranın yazıldığı ərəb dili ilə bir bağlılığı yoxdur. Bəli, mən ərəbcə danışıram. Dil daşıyıcısı olan hansısa ərəbdən sizə bircə dənə də olsun ayəni tərcümə etməsini xahiş eləsəniz, bunu bacarmaz, çünki onların çoxu Quranı, sadəcə, əzbərləyib və Müqəddəs Kitabın yazıldığı dildən bixəbərdirlər. Buna "fusha", yəni ədəbi dil deyilir və bu dil universitetlərdə öyrədilənlərdən tamamilə fərqlidir. "Valeriya Poroxovaya əhsən, ərəbcə mətnin üzərində işləyib və Quranı tərcümə edib" demək, əlbəttə, cəfəngiyat kimi səslənər. Belə ki, Quran şərhlərlə oxunduğundan, onu tərcümə etmək üçün təfsirlərə müraciət etmək lazımdır. Tərcümə zamanı mənasını düzgün dərk edəcəyiniz təfsiri götürüb, Müqəddəs Kitabda sizə qaranlıq qalan məqamları onları oxumaqla aydınlaşdırırsınız. Daha sonra mətni bayaq adını çəkdiyim elmi tədqiqat akademiyasına göndərirsiniz. Quranın xarici dillərə tərcüməsi üzrə Baş Departament mənim tərcüməmi düz, 6 il yoxladı. Dediyim kimi, 12 il tərcümə etdim və 6 il də yoxladılar. Bu işə 37 il bundan öncə – 1981-ci ildə başlamışdım. Beş dəfə ora səfər etdim, hər dəfəsində özümlə hissə-hissə mətnlər aparırdım. Təkcə şərhlərim xırda şriftlə 250 səhifə, yəni elə bir kitab elədi.

***– Sizcə, reinkarnasiya mövcuddur?***

– Mən bunu Quranda görürəm. Həyat yoldaşım Məhəmməd isə görmür. Ərəblər də bizim kimi, kimisi görür, kimisi yox. "Bəqərə" surəsində deyilir: "...Siz ölü idiniz, O sizi diriltdi. O sizi (əcəliniz gəldikcə) yenə öldürəcək, sonra (qiyamətdə) yenə də dirildəcək və daha sonra siz (əməllərinizin haqq-hesabı çəkilmək üçün) Ona tərəf (Onun hüzuruna) qaytarılacaqsınız" (28-ci ayə – tərc.).

"Sonra" sözü cümlədə dörd dəfə (ikisi açıq, ikisi qeyri-müəyyən formada – tərc.) təkrarlanır. Nə məna çıxaracağınıza özünüz qərar verin! Ancaq Valeriya Poroxovanın reinkarnasiya barədə danışdığını yazmayın! Bunun, Allahın yaratdıqlarından ən sevimlisinə– insana bəxş etdiyi mərhəmətin bariz sübutu ola bilmə ehtimalını şərhlərdə qeyd etmişəm. Yəni əvvəlki təcrübədən çıxış edərək, yeni, daha düzgün həyata başlamaq mümkündür ki, bunun da qeyd etdiyim kimi, məhz Uca Yaradanın rəhməti olduğunu düşünürəm.

***– Hazırda müxtəlif psixoloji təcrübələr (teta-hilinq (meditasiya metodu – tərc.), "ailə düzülüşü" metodu və s.) məşhurluq qazanıb. Deyilənə görə, qohumların ruhları ilə necəsə ünsiyyət qurulur. Bu cür təcrübələrin ziyanı yoxdur ki?***

– Hə, belə təcrübələr var. Bunlar daha çox hindmənşəli müsəlmanlar tərəfindən Hindistanda aparılır. Ruhlar hansı dildə danışır? Necə ünsiyyət saxlayır? İnsanlar öz fantaziyalarına çox inanmaq istəyirlər. Misal üçün, 20 il bundan əvvəl anamın dünyasını dəyişməsi mənə ağır gəlməmişdi, ancaq indi evimdə oturub onun üçün ağlayıram. Əlbəttə, rəhmətə getmiş qohumlarından hansı iləsə həqiqətən danışdığını düşünmək istəyirsən.

***– Bu təcrübələrin daha çox faydası var, yoxsa zərərlidir?***

– Meditasiyalar hər zaman insana hansısa yeni biliklər, duyğular aşılayır. Mən qətiyyən analoji təcrübələrdə iştirak etmirəm, onlar mənim üçün tamamilə maraqsız və gərəksiz kimi görünür. Bəlkə də düzgün düşünmürəm, axı bu təcrübələr insanlar arasında məşhurdur. Təkcə maraq dairəmdə olmayan bir şeyin düzgün olmadığını demək özü yanlışdır.

***– Siz dünyanı çox gəzirsiniz. İnsanlar arasında möminlərin sayı artır, yoxsa aşağı düşür?***

– İnanılmaz dərəcədə aşağı düşür. Aşağı düşməyən təkcə İslamdır. İslam ucalmaqda davam edir və bu, çox maraqlıdır. İnsanlar digər dinlərin onlara vermədiklərini gördülər.

# Qatil

Elif Yusif

Bundan sonra neyləsin?! Həbsxanadan çıxandan bəri dilənçi kökündə yaşayır: cibində bir qəpik pulu yox, üstəlik, nə işi-gücü var, nə də ki sabaha ümidi. Həbsxanaya da ki ilk dəfə deyildi düşürdü, yəqin ki, sonuncu dəfə də deyildi. Bu dəfə həyat onu deyəsən, birdəfəlik silmişdi. Kimlərə ki etibar eləyirdi, hamısı ondan üz döndərmişdi. Kimə üz tuturdusa, hamı qapıdan göndərirdi, heç kim iş vermək istəmirdi ona. Həşiş alverçiləri belə ona etibar eləmirdi. Günlər ötür, o isə bir sonrakı gün daha da alçalırdı. Yorğunluqdan aşa-aşa kafeləri gəzib dolaşır, köhnə tanışlıqlarını bərpa etməyə çalışırdı, amma nə fayda – hər kəsin yadından çıxmışdı: kimsə onunla söhbət eləmir, ona yaxınlaşmırdı. Narazı baxışlar içini göynədirdi.

Hərdən hansısa gənc, ürəyiyumşaq ofisiantın yazığı gələr və gizlincə ona həşiş gətirib verərdi. Yazıq bundan sonra şirin yuxuya dalardı, xəyalına çoxlu yemək gələr, çaxır çay kimi axar, pərilər də ki ətrafında dövrə vurardı. Ya da ki illər öncə – təxminən, iyirmi beş il, bəlkə də, daha çox olar – kiçik kafelərdə rəbabın sədaları altında qulaq asdığı sehrli nağıllardan səhnələr gözləri önündə canlanardı.

Əynindəki cındırı çıxmış cələbiyyəsindən cin hürkürdü. Anası ilə birgə Qahirənin köhnə məhəllələrindən biri sayılan Hüseyniyyədə üfunət qoxan balaca bir otaqda daldalanmışdı. Kor və iflic olan, sədəqə ilə yaşayan yaşlı anası sanki oğlunun mövcudiyyətindən bixəbər idi. O özü də qaş qaralan vaxt evə döndüyündən, anasına çox diqqət göstərə bilmirdi.

"Neyləyim?" – elə hey özünə sual edirdi. – "Hara gedim?". Keçmiş həyatında rəngarənglik vardı: bir müddət hambal işlədi, sonra həşiş alverinə girişdi, axırda da oğurluğa əl atdı. Allah bilir, nə qədər davası olmuşdu. Birinci dəfə həbsxanaya da elə adam döymək üstündə düşmüşdü. Qırx yaşı olsa da, əzələləri möhkəmdir, imkan versəydilər, yüklü arabanı yerindən tərpədib pul qazana bilərdi, ancaq indi bir qarın çörəkdən ötrü dilənməyə məcburdur.

Üçüncü dəfədir ki, həbsxanadan çıxır, ancaq həyat indiki kimi ona qarşı heç vaxt amansız olmayıb. Ümidsizliklərlə dolu qəlbindən gələn gizli bir səs vaxtaşırı gəldiyi yerə – soyuq qazamata dönməyi və ömrünün ta axırınadək orada məskən salmağı pıçıldayırdı. Birinci dəfə dəmir barmaqlıqlar arxasına düşəndə xeyriyyə xəstəxanasında oğlu dünyasını dəyişdi. İkinci dəfə tutulanda həyat yoldaşı onu tərk elədi, indi bilmirdi ki, o, haradadır, kiminlədir. Onu qınamaq lazım olduğunu da heç bilmirdi. Tez-tez içəri girən kişiyə sadiq qalası az qadın tapmaq olar. Hanı onu yenidən adam cildinə salacaq möcüzə?! Görəsən, dünya bir də güclü əzələlərə ehtiyac duymayacaq? Məgər doğrudanmı, onun üçün hər şey bitmiş sayılır?

Bir gün yenə küçədə məqsədsiz dolaşdığı vaxt kimsə arxadan onu bərkdən çağırdı:

– Hey... Bayumi!

Qamçı zərbəsindən səksənən kimi oldu. Deyəsən, sonda yenə kiməsə lazım olub. Çönəndə sevincindən uşaq kimi atılmaq istəyirdi. Bayumi onu səsləyən adama sarı qaçdı, çatıb əllərindən öpməyə başladı.

– Xoş gördük, xoş gördük sizi ağa! Cənab Əli Rukn Seyyidə salam olsun...

Ağası kobud formada onun əlini kənara itələyib dedi:

– Az çərənlə! Əsas de görüm, həbsxana üçün darıxmamısan?

– Sizin kimilər olmasaydı, – Bayumi yaltaqlandı, – darıxmaq nədi, ölərdim...

– Yenə çərənləyirsən.

Cənab Əli Bayumiyə faytona sarı gəlib yanında oturmasını əli ilə işarə etdi. Bayumi gözlərinə inanmasa da, itaət etməyə məcbur oldu, başa düşmüşdü ki, onu vacib bir iş üçün axtarırlar. Cənab Əli yüyəni dartdı, at torpaq yolda yortma qaçdı. Əli Rukn qaşlarını çatıb ətrafa göz qoydu, sonra birdən üzünü Bayumiyə tutub soruşdu:

– Hacı Abdus-Saməd əl-Habbənini öldürə bilərsən?

Bayuminin sir-sifəti dəyişdi.

– Öldürmək? – Mızıldandı.

– Hə, – Əli Rukn saymazyana cavab verdi, sanki dediyi sözlərin ciddiliyi onu qətiyyən maraqlandırmırdı.

– Mən indiyə kimi heç kimi öldürməmişəm axı.

– Onda salamat qal! – Onun söz-

lərinə soyuq tərzdə reaksiya verən Əli Rukn yüyəni dartdı.

Bayumi yerindən qımıldamadı.

– Ağa, pulu siz verəcəksiniz? – Soruşdu. Sifəti tutqunlaşmışdı.

– Ya mən, ya da ola bilsin, cənab Mahmud, belə də ki, səninçün nə fərqi var? – Yüyəni boşaldan Əli Rukn gülümsündü. – Cənab Mahmud böyük adamdır. O, fabrik sahibidir, həm də ən böyük həşiş alverçisidir. Cənab Mahmuda əsas lazımdır ki, kimsə nə onun özündən, nə də adamlarından şübhələnsin. Ağıllı adam işlərini ağlı ilə qurar.

– Cənab Mahmudun da, sizin də qulunuzam...

– Yaxşı, boş-boş danışmağı bir qırağa qoy! De görüm, Abdus-Samədi öldürməyə razısan?

– Hesab eləyin ki, o artıq cənnətdədir, – zorakı gülümsündü.

– Görüm sizin ikinizi də cəhənnəmə vasil olasınız...

Bayumi bu "xeyir-dua"nı dost zarafatı kimi qəbul edib güldü, cənab Əli isə fikrini hələ yekunlaşdırmamışdı:

– Yəqin, içəridən çıxandan bəri pul üzünə həsrətsən?!

– Onsuz, əvvəl də elə olub.

– Əlli funt.

– Elə əllicə?

– Axır qiymət budur.

– Adam öldürməyə əlli funt?

– Nədi, yoxsa gözləyirsən səninlə burda bazar açım? – Əli Rukn hirsli-hirsli dedi.

– Axı pula çox ehtiyacım var, bilirsiz də, yaşlı anama da baxıram.

– Anasının qeydinə qalana bir bax! – deyə Əli Rukn qəhqəhə çəkdi və cibindən beş funtluq əskinası çıxarıb Bayumiyə uzatdı.

– Al, bu da sənin behin.

– Cənab, sizin əziz canınıza and olsun ki, bu, çox azdır, – gözləri ilə pulu yeyən Bayumi ucadan dedi.

– Yaxşı, onda on funt beh verirəm, – Əli Rukn güzəştə getməli oldu, sonra gözünü qıyaraq əlavə etdi: – Ə, gicbəsər, yoxsa daha bizə inanmırsan?

– Nə danışırsınız, ağa! Axı ola bilər, bu, mənim qazanacağım son pul olsun...

– İşi nə vaxt bitirməyi düşünürsən?

– Bir həftə vaxt verin!.. Gələn həftənin şənbə gününə kimi, – bir az fikirləşdikdən sonra cavab verdi.

– Yox, yaramır.

– Ağa, axı şübhə doğurmamaq üçün gərək hər şeyi necə lazımdırsa, götür-qoy eləyim, plan hazırlayım. Üstəlik, heç olmasa, bir həftə bolluq içində yaşamaq istəyirəm. Ola bilər, bu, mənim azadlıqdakı son həftəm olsun...

Əli Rukn ikinci beşliyi də cibindən çıxarıb Bayumiyə uzatdı.

– İşi uzatsan, nə olacağını yəqin edirsən də? – Soruşdu.

– Bilmirəmsə, Allah cəzamı versin! – Bayumi gülüb, pulları cibinə soxdu.

– Nə olub-olmamasından asılı olmayaraq, bizlərdən kimsəyə yaxınlaşma! – Əli Rukn xəbərdarlıq edib, yüyəni dartdı.

Bayumi yerə hoppanaraq, uzaqlaşan faytonun arxasınca bir müddət baxdı. Sonra cibindən pulu çıxarıb ovcunun içində sıxdı. Sevincdən onu başgicəllənmə tutmuşdu. Heç vaxt bu qədər pulu olmamışdı... Heç vaxt adam öldürməyə də məcbur qalmamışdı. Dava-dalaş salıb, kimisə şil-küt də eləmişdi, oğurluğu da olmuşdu, ancaq kiminsə canını almamışdı. Bəzən ölümdən daha betər olan, daha çox ikrah oyadan həyatı bütün eybəcərliyi ilə sevirdi. İndi buna görə baş sındırmağın nə mənası?! Əvvəl öldürməyibsə də, indi buna məcburdur. Çox ehtiyatlı olmaq, hər addımı hesablamaq lazımdır. Sabah nə olacağından asılı olmayaraq, bu iş ona daha qırx funt qazandıracaqdı. Əvvəllər bu məbləği heç yuxuda da görməzdi. Ola bilsin, bundan sonra Mahmud ağa onun üçün də bir şey fikirləşər, işlətməsi üçün bir obyektdən-zaddan verər. Onda bütün istəklərini reallaşdıra da bilər.

Hər zaman baş çəkdiyi kafeyə yollandı və tanıdığı hər kəsə pul qazanmaq üçün başqa şəhərə üz tutduğunu bəyan elədi.

– Get, Allah köməyin olsun!

Nəhayət, ondan canlarını qurtaracaqlarını zənn edib, hər kəs bir ağızdan sevincək qışqırdı.

Kafedən çıxanda dodaqaltı donquldandı: "Birinci öldürüləsi adam varsa, o sizsiniz". Sonra bazar hamamına yollandı. İçəri girəndə üst-başı kirdən qapqaraydı, çıxanda adama oxşayırdı. Bazarda özünə alt paltarı, təzə cələbiyyə və uzunboğaz çəkmə aldı: ayaqları yekə olduğundan, münasib ölçüdə çəkmə tapa bilməmişdi. Sonra restorana gedib nəfəsi kəsilənədək yedi, ona qıraqdan göz qoyan ofisiantın gözləri bərələ qalmışdı. "Kaş ki heç kimi öldürmədən həmişə belə yaşamaq mümkün olsaydı", – öz-özünə düşündü.

Hacı Abdus-Saməd əl-Habbənini cəmi bir neçə dəfə görmüşdü, o da kənardan. İndi onun barəsində ətraflı öyrənməliydi. Qurbanının yaşadığı Dərb əl-Cəməmizdəki köhnə, nəhəng evə yollandı, onun yerləşdiyi məkanı diqqətlə gözdən keçirməyə başladı. Sonra Hacının Məbyada məhəlləsindəki ofisinə gəldi və binanın ətrafında beş-altı kərəm dövrə vurub, bu-



Nəcib Məhfuz

raya da bələd olmağa çalışdı. O, bu adamı yaxından təhlil elədi, xarici görkəmini, xüsusilə də, yaraşıqlı simasını və əynindəki bahalı paltarı yaddaşına həkk etdirdi. Bir dəfə onunla baxışları toqquşdu, lakin Bayumi gözə dəyməmək üçün tez də üzünü kənara tutdu.

"Görəsən, Mahmud niyə Abdus-Samədə belə nifrət eləyir?" – tez-tez özünə sual edirdi. Bu adamı nəyə görə öldürmək istədiklərini onun bilmək haqqı yoxdur? Əgər bu sualı verməyə cürət etsəydi, qazanacağı şillə-şapalaq, ya da təpik olacaqdı. Quldur dəstəsi kimə nə istəyirsə, eləyir. Hara ayaq basırdısa, qabağına Mahmudun "qırılmışları"ndan kimsə çıxırdı.

Axşamtərəfi bir-iki qədəh konyak vurub, sirkə yollandı, sonra səviyyəli bir mehmanxanada gecələdi. Bu gün artıq ikinci dəfəydi ki, eyni fikir gəzib-dolaşıb beyninə gəlirdi: nə yaxşı olardı, heç kimi öldürmədən həmişə belə keflə yaşayaydı. Yenə evlənib, arvad-uşaq sahibi ola bilərdi... Ticarətlə məşğul olar, yaxşı pul qırardı... Yaxşı, bəs onu sabah nə gözləyir? Guya əvvəl nə görüb ki?! Uşaqlığı yarıçılpaq vəziyyətdə çirkli dalanlarda keçdi, sonra oğru və dələduzlar dəstəsinə qoşuldu, günü ya dava-dalaşda keçər, ya da ki bir qarın çörəkdən ötrü özünü gah bu, gah da o kafeyə vurar, gizlicə həşiş satmağa cəhd edərdi... Həyatda hələ nə görmüşdü ki?! Sabah nə görəcəkdi?!

Şənbə günü gəlib çatdı. Bayumi həyatının ən çətin gününü qarşılamaq üçün sübh tezdən ayıldı. Bir cibinə donmuş ət parçası qoydu, o birisinə konyak butulkası soxdu, yaxasında iti bıçaq gizlətdi. Heç kimin gözünə görünməmək və şübhələri öz üzərindən atmaq üçün bu gün Mahmud və əlaltıları ofis və mağazalarından ayaqlarını bir addım da kənara atmayacaqdı. Belə fəndlər ona çoxdan bəllidir. Son nəticədə bu alçaq quldurlardan iki şey ala bilər – qırx funt, ya da xaincəsinə arxadan zərbə.

Hacı Abdus-Samədin evindən bir neçə metr aralıda, bir ağacın arxasında gizləndi və qurbanına göz qoymağa başladı. Qapı açıldı və evdən iki qız, bir oğlan uşağı əllərində məktəb çantası bayıra çıxdı. Uşaqların üçü də bir-birinə çox oxşayırdı, lakin oğlanın Abdus-Samədə hədsiz bənzərliyi tez nəzərə çarpırdı. Bu an Bayuminin yadına öz oğlu düşdü, o ölən vaxt necə acı çəkdiyini xatırladı.

Əlağacına söykənən Abdus-Saməd həyətə çıxdı, ətrafa boylandı, arabir əlini ağzına sarı aparıb, dodaqlarının kənarlarında vız durmuş bığlarını bururdu. Arxasınca gələnlə nə barədəsə danışırdı, lakin Bayumi dayandığı yerdən həmin adamı görə bilmirdi. Ev sahibi həmsöhbətinə əl eləyib, çölə tərəf asta addımlarla getdi. Dolu sifətində gülüş dolanırdı. Çox şən görünürdü, onu cəmi on-on beş dəqiqə izləyən Bayuminin gəldiyi qənaətə görə, o, həm də mehriban insan idi. Onun da başqaları kimi əclaf olmadığına əyani sübut haradadır? İstənilən insan yaxınları ilə danışarkən belə mehriban görünə bilər. Məsələn, həbsxana rəisi. Aman Allah! O vəhşinin sifətini heç unutmaq olar?! Bir dəfə necə oldusa, Bayumi onu oğlu ilə oynayan görmüşdü, ata-bala elə gülüşürdülər ki, həbsxana rəisi də kənardan baxana əsl insan kimi görünə bilərdi...

Ara məsafəsi gözləmək şərti ilə Bayumi Abdus-Samədin arxasınca getdi, həyəcandan əlləri əsirdi, bu an yalnız bir istəyi vardı: kaş hər şey tezliklə başa çataydı. Abdus-Saməd çox sakit addımlayırdı. Haradan biləydi ki, arvad-uşağının üzünü bir də görə bilməyəcək və bu gün onun həyatının son günü olacaq. Haradan biləydi ki, indi yalnız arxasınca gələn və mövcudiyyətindən xəbərsiz olduğu adam onun taleyinin necə olacağını deyə bilər və bu adam cəmi əlli funta onun cəlladı olmağa razılıq verib. Maraqlıdır, görəsən, Abdus-Samədin var-dövləti onun qətlinə fərman verənlərin bu iş üçün ayırdığı puldan neçə dəfə çoxdur?

"Bu adam indi hara gedir?" – ətrafa göz qoyan Bayumi fikirləşdi. – "Bu yol axı onun ofisinin yerləşdiyi Məbyadaya aparmır. Həə... Bir evə girmək üzrədir. Evin açıq pəncərəsindən qışqırıq, ağı səsləri gəlir. Deməli, Abdus-Saməd ölü yerinə gəlib. Vay dədəm vay! Düşdüyüm günə bax e!".

Bayumi bir az kənarda dayanıb, olub-keçənləri izləməyə başladı. Əli qeyri-ixtiyari cibində gizlətdiyi donmuş ət parçasına sarı getdi. Ondan bir tikə qoparıb, çeynəməyə başladı. Konyakdan bir qurtum alıb, boğazını yaşlamaq istədi, ancaq nəfsini basa bildi: buna daha çox ehtiyac olana qədər gözləmək lazımdır.

Təxminən, saat on ikidə vida anının yaxınlaşdığından xəbər verən ah-nalə, ağı səsləri gücləndi. Kəfənə bürünmüş mərhumu çölə çıxardılar və mərasim hərəkətə gəldi. Hacı Abdus-Saməd birinci cərgədə gedir, arabir yekə dəsmalla gözlərinin yaşını silirdi.

Qadınların hönkürtüsü, kişilərin qüssəli-kədərli siması – bu qəmgin mənzərəyə biganə qalmaq Bayumiyə çox ağır gəlirdi. Yalnız qəbiristanlığa çatanda bir az rahatladı və qurbanına yenidən göz qoymağa girişdi. Abdus-Saməd isə hələ də gözünün yaşını silirdi. Axı niyə onlar onu öldürmək istəyirlər?

Bax, indi həmişəlik gözlərini yuman mərhumun yerinə Abdus-Saməd ölmüş olsaydı, kimsəni öldürməyə də lüzum qalmazdı. Bir məsələ də var ki, onda o, yerdə qalan qırx funtu qulağının dibində görər, üstəlik, verdikləri behi də geri istəyərdilər...

Qəbiristanlığın darvazası taybatay açılanda Bayumi ayaq saxladı; dəfndə iştirak etmək istəmirdi. Abdus-Samədi gözləyən vaxt beynində qəribə fikirlər dolaşırdı. İndi qəbirqazan işləsəydi, nə yaxşı olardı. Olsun ki, bu, gəlirli sahədir. Burada onu heç kim keçmişi barədə sorğu-sual etməz. Üstəlik, həşiş satmaqla da cibini asanlıqla genişləndirə bilər. Məzarlar arasında alver xod gedərdi... Bayumi bu an hər şey haqqında düşünməyə hazır idi, bircə onu gözləyən missiya olmayaydı.

Nəhayət, Abdus-Saməd göründü. İndi o, ofisinə tərəf gedirdi. Gəlib işə çatanda Bayumi ofislə üzbəüz kafedə oturub, çay sifariş verdi, özü ilə gətirdiyi ətdən bir neçə tikə də qopardı və qəlyan çəkə-çəkə binanın girəcəyinə göz qoymağa başladı. Qapı açıldı, kimsə bayıra çıxdı. Diqqətlə baxanda gözlərinə inana bilmədi, bu, cənab Mahmud idi – Abdus-Samədi öldürmək üçün pul verən adam. Bu da Hacının özü. Qonağını qapıya qədər ötürür, hər ikisi də bərkdən gülür. Mahmud faytonuna əyləşib gedir. Deməli, özünü əvvəlki kimi Abdus-Samədin dostu kimi göstərir. Necə vicdansız, alçaq, ikiüzlü adamdır! Həə... Onun qəddarlığına indi zərrə qədər də şübhə qalmadı. İndi "dostunun" üzünə gülə-gülə bəlkə də, Bayumi barədə düşünür və ürəyində bu yazıq qatilə uğurlar arzu edir... Sən necə bir təhlükəli işə başını soxmusan, Bayumi?! Bu, bu gün baş verməlidir. Bəs sabah necə olacaq? İşi uğurla başa çatdırmasa, qisas və qəzəbin hədəfinə tuş gələcək və dünyanı ona dar eləyəcəklər. Belə... Geriyə yox yoxdur, bir şey dəqiqdir ki, tanımadığı və düşməni olmayan birisini öldürəcək, bunu da başqaları göstəriş verib deyə eləyəcək.

Saat dörddə, iş gününün sonuna yaxın hər zaman olduğu kimi, ofisdə canlanma yarandı. Əl arabalarını həyətə çıxardılar, işçilər dağılışmağa başladı, pəncərələr bağlandı, hacı Abdus-Saməd və daha dörd nəfər qapıdan bayıra çıxdı. Bayumi qalxmağa hazırlaşırdı ki, birdən çıxanların ona tərəf gəldiyini gördü. Onlar hamısı kafeyə girib, bir az aralıda oturdular.

– Mərhumun ailəsinə baş çəkməmişdən qabaq burda bir az dincimi almalıyam, – Hacı dedi.

Sinini gətirdilər. Ofisiant müştərilərə çay və kofe payladı.

– Allah sənə rəhmət eləsin, cənab Abdə! – Hacı Abdus-Saməd köks ötürdü. – Bu gün səni basdıracağımız kimin ağlına gələ bilərdi?!

– Özü də dünən burda bizimlə bir yerdə oturmuşdu, – adamlardan biri əlavə etdi.

– Hə, hər gün bura gələrdik.

Hacının ürəkdən kədərləndiyini görən Bayumi onun halına acıdı. Sonra fikirləşdi ki, eybi yox, onun canı turp kimidir, belə yoğun boyunla, yekə qarınla istənilən kə-

dərə tab gətirə bilər. Onu öldürmək də çətin olmaz. Bu məsələyə bu gün axşam nöqtə qoyulmalıdır, o, evə qayıdanda...

– Mən sabah Yuxarı Misirə yollanmalıyam? – İşçilərdən biri soruşdu.

– Hə, – Hacı cavab verdi. – Bu sövdələşmə bizimçün qızıla bərabərdir, belə yağlı tikəni biz ancaq arzulaya bilərdik.

– Nə qədər verə bilərəm?

– Razılaşdığımız kimi eləyərsən, amma istəsən, yüzə qədər artıra bilərsən. Axı müqavilənin sığortası var.

Bunu deyib elə güldü ki, deyərdin ki, heç yasdan çıxan adam deyil.

– Axşam namazına tələsməliyəm.

– Görüşərik, – dedilər, – sabah saat beşdə görüşümüz var, unutmayın!

– Saat beşdə. Hə, oldu. Geciksəm, narahat olmayın, özümü mütləq çatdıracağam.

Hacı hər dəfə gələcək barədə nə isə deyəndə, görüş təyin edəndə Bayumini həyəcan bürüyürdü. Axı bu adamı niyə öldürmək lazımdır? O ki onu demək olar, tanımır. Bu adamı təkcə bu gün kənardan izləyə bilib. Kənardan göründüyü kimi, ürəyində kimsəyə qarşı kin, ya inciklik yoxdur. Hacının ona ziyanı-filan dəyməyib. Onu niyə öldürsün ki? Öldürməsə, onun özünü öldürəcəklər... Həm də ki artıq söz verib. Yaxşı olar ki, başını çox sındırmasın... İnanmaq lazımdır ki, hər şey öz yolunda gedəcək. Ondan kim şübhələnəcək ki?! Məgər bu adamı öldürməyə bircə dənə də olsun səbəbi var?! Həqiqətən də, ağaları qara işi görmək üçün onu seçməkdə ağıllı iş tutublar...

– Gələn Ramazan, – Hacı Abdus-Saməd ayaqüstəydi, – ola bilər, bəxtimiz daha çox gətirər. Nə isə, Allah köməyimiz olsun!

Gələn Ramazan... Bu sözləri eşitmək adama necə də əzab verir! Bu səs ömrünün axırına kimi Bayuminin qulaqlarında səslənəcək.

– Məni daha bağışlayın, getməliyəm, – Hacı qapıdan çıxırdı, – salamat qalın!

Bayumi onun arxasınca çıxdı. Fənərlərdən uzaqda, qaranlıq bir küncə sığınıb, ətin yerdə qalanını da yeməyə və konyak qurtumlamağa başladı. Azacıq içmişdi ki, ürəyi az qaldı sinəsindən qopub çıxsın, qanı qaynamağa başladı. Quran qarisinin səsi gəldi. Bayumi əmin idi ki, Abdus-Saməd axırıncı çıxanlardan olacaq, ona görə də yeyib-içməyə davam elədi. Uzaqdan polis əməkdaşı ağır addımlarla ona yaxınlaşırdı. Canına titrətmə düşdü: polisin onu görməsinə, ya eşitməsinə lüzum yox idi. Bircə iyini hiss etsə, kifayətdir. Bu iy həbsxana kamerasını, oradakı vedrələri, döşəmələri, vurulan kötəkləri, yağdırılan söyüşləri yada salır... Polis gəlib yanından keçdi, sonra geri qayıtdı, əli silahının üstündə bir neçə dəqiqə dayanıb gözlədi, sonra onu qoltuğunun altına keçirib getdi.

Mərhumun ailə üzvləri yanında cəmi bir neçə nəfər qalmışdı. Bayumi pusqudan çıxdı. Ətrafında nə vardısa, hamısı ona qırmızı rəngdə görünürdü.

Köynəyinin altında gizlətdiyi bıçağı əli ilə yoxlayıb, Abdus-Samədin evinə tərəf getdi. Ətrafda sakitlik hökm sürürdü: dükanlar bağlı idi, yolda kimsə gözə dəymirdi. Bu da uzun, ensiz və qaranlıq küçənin sonundakı tanış ev. Ayaq saxladı, durduğu yerə işıq düşmədiyindən, kənardan baxan onun sifətini seçə bilməzdi, lakin o özü hər şeyi aydın görə bilirdi. Növbəti dəfə əli ilə bıçağı yoxladı. Vaxt ölü-ölü gedirdi.

Saatın əqrəbləri 1-i vuranda uzaqdan Abdus-Samədin silueti göründü. O, tək deyildi. Bayuminin ürəyi bərk döyünməyə başladı. Əgər indi Hacını öldürməyə müvəffəq olmasa, buna bir də cürət edə bilməyəcək və bundan sonra ölüm onun özünü qarabaqara izləyəcək. Abdus-Saməd və yol-yoldaşı küçənin ortasına qədər gəldi. Bayumini məyusluq bürümüşdü. Məğlubiyyətini etiraf edib, gizləndiyi yerdən çıxmaq üzrəydi ki, üzbəüz gələnlər ayaq saxlayıb, bir-birinin əlini sıxdılar. Həmsöhbəti yan döngəyə buruldudqan sonra Abdus-Saməd evinə tərəf yavaş addımlarla irəlilədi. Bayuminin əzələləri yenidən gərildi, baxışlarını qurbanının üzündən ayırmırdı. Bir əlində əl ağacını tutan Abdus-Saməd o biri əlində nazik saat zəncirini oynadırdı.

Budur, o, evin qarşısında qaranlıq döngəyə girir, görüntüsü bir andaca itir, əvəzində indi zil qaranlıqda hərəkət edən qeyri-müəyyən kölgə görünür. Onları bu an bir neçə addım ayırırdı. Bayumi bıçağı çıxardı, əlində bərk-bərk sıxıb saxladı. Bir gözqırpımında qurbanının üstünə atılaraq ona ölümcül zərbə endirdi. Adamdan boğuq qışqırıq səsi çıxdı, ağır bədəni səndələdi və yerə yıxıldı. Qorxudan özünü tamamilə itirən qatil bıçağı ölünün qarnında unudub, yerindən götürüldü. O, üst-başının qana bulaşdığının heç fərqinə də varmamışdı...

**R. İsmayılqızı,**
Aİİ-nin əməkdaşı

# "Bu yağışı dana-dana öparam..."

Payızdır... Baharın əlvan naxış vurduğu yaşıllıqlar, ormanlar, dağlarda yamaclar, çöllər-çəmənlər saralıb-solur. Ağacların yarpaqları bir-bir budaqlarından qopub yerə düşür – solan ümidlər kimi... Bu yarpaq tökümünün içində isə xoş bir mənzərə var – ətraf qızılı rəngə boyanır, meyvə bolluğu yaranır. Bir sözlə, biri ölür, biri dirilir... Bir yandan boşalır, bir yandan dolur dünya... Soyuqlar da gizlicə gəlir. Hərdən sərin payız yelləri əsir. Duyğulandım...

***HAŞİYƏ***

Payızda əlimə məktəbli çantası alıb yerlə sürüyə-sürüyə Dəvəçi (indiki Şabran) şəhər 2 saylı səkkizillik (indiki 3 saylı Şabran orta məktəbi) məktəbinə getdiyim günlərimi xatırladır mənə. Alimlər, filosoflar, mühəndislər, həkimlər, hüquqşünaslar, jurnalistlər, böyük müəllimlər ordusu, şəhidlər yetişdirən məktəb...

Pedaqoji kollektivinin əqidəsi saflıqdan, təmizlikdən, halallıqdan yoğrulmuş həmin məktəb Azərbaycanın Milli Qəhrəmanı Samir Zülfüqarovun adını daşıyır. Həmin Samirin ki, dövlətçiliyimiz, suverenliyimiz uğrunda gənc ömrünü qurban verərək şəhidlik zirvəsini fəth etdi. Elə bu yazımda mən də ömrü payız kimi solan, ümidləri çiçəklənən şəhidlərimizdən bir neçəsini xatırlamaq istəyirəm.

Yazıma məktəbimizin məzunu və hazırda adını bu təhsil ocağının şərəflə daşıdığı Samir Zülfüqarovdan başlamaqla, sanki özümü məktəbimizdəki kimi hiss etdim. Samiri dəhlizdə dəcəlliklə o baş-bu başa qaçan, futbol meydançasında böyüklərə top daşıyan, məktəbin yeməkxanasında şirin kətə yeyirmiş kimi görürəm...

Samir Zülfüqarov 3 iyul 1976-cı ildə Şabran rayonunda anadan olub, VIII sinfə qədər burada təhsil alıb. Ailə vəziyyətləri ağır olub və bu, onu çox narahat edib. “Oğul düşmən çəpəridir, dar günün dayağıdır”, – deyiblər.

... Samir ailəsinə dayaq olmaq üçün təhsilini yarımçıq qoyub, əmək fəaliyyətinə başlayır. Bu həmin vaxtlar idi ki, erməni işğalçıları atəşkəs elan olunsa da, mövqelərimizi atəşə tutur, tez-tez sərhədi pozur, günahsız dinc soydaşlarımızı qətlə yetirirdilər. Həddi-büluğa çatan Samir həmin ərəfədə – 1994-cü ildə Şabran Rayon Hərbi Komissarlığından hərbi xidmətə çağırılır. Vətənə sədaqət andı içib, ordu sıralarına yollanır. Amansız düşmənə qalib gəlmək üçün hərbi texnikanın dilini bilmək tələb olunurdu. Samir xidmətə başladığı ilk günlərdən silahların çoxundan istifadə etməyi, sərrast atəş açmağı öyrənir. Avtomatı tez söküb-yığır, komandirlərin əmrlərini və döyüş tapşırıqlarını vaxtında yerinə yetirirdi. Nizam-intizamı, ciddiliyi az müddətdə ona böyük hörmət qazandırır. Xidmət etdiyi hərbi hissənin komandanlığı bütün bunları nəzərə alaraq, Samirin valideynlərinə təşəkkür məktubu göndərir, üstəlik, ona qısamüddətli məzuniyyət də verilir.

...Ölkə daxilində vəziyyət çox gərgin idi. 1995-ci ilin martında bir qrup xəyanətkar ətrafına topladığı insanlarla qeyri-qanuni silahlı birləşmələr yaradaraq müstəqilliyimizə qəsd etməyə cəhd göstərdi. Ölkədə yaradılmış ciddi nizam-intizama tabe olmaq istəməyən dağıdıcı qüvvələr Azərbaycanın beynəlxalq aləmdə getdikcə artan nüfuzundan təşvişə düşərək, xarici havadarlarının təhriki ilə dövlət çevrilişinə cəhd etdilər. Belə ağır zamanlarda Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev vətəndaş qarşıdurmasına səbəb ola biləcək hadisənin qarşısını aldı və ölkədə davam edən hakimiyyət böhranına, anarxiya və özbaşınalığa son qoydu. Həmin hadisələr bir daha göstərdi ki, Azərbaycan xalqı və onun ordusu ölkə daxilində qarşıdurma yaratmaq istəyənləri dəstəkləmir və onları müdafiə etmir.

Düşmənlə sərhəddə də vəziyyət gərgin idi. Digər həmvətənlərimiz kimi, Samir Zülfüqarovun işğalçılara qəzəb və nifrəti güclü idi. Qaniçən erməni cəlladlarını havadarları yaxşı silahlandırmışdılar. Zirehli texnikanın – tankların və pulemyotların ölümsaçan atəşləri həyatlərində, tarlada iş görən soydaşlarımızı qanına qəltan edirdi. Cəsur əsgər məzuniyyətini yarımçıq qoyub döyüş dostlarının yanına qayıtdı. Qızğın döyüşlərin birində ordumuzun “N” saylı hərbi hissəsi erməni silahlı quldur dəstəsini mühasirəyə aldı və zərərsizləşdirmə əməliyyatında Samir də iştirak etdi, özü də igidliklə. Bu, ona həyatı bahasına başa gəldi. Döyüşün qızğın çağında düşmən gülləsi onu haqladı. Ömrünün çiçəklənən vaxtında, ürəyinin minbir arzu ilə döyündüyü, qollarındakı gücü, qüvvəsi ilə xariqələr yaratmaq, qəlbi qurmaq eşqi ilə çırpınan bir zamanda, dövlətçiliyimiz, suverenliyimiz uğrunda həyatını qurban verdi.

17 mart 1995-ci ildə Samir əbədiyyətə qovuşdu. Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı Fərmanı ilə Zülfüqarov Samir Xəlil oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verildi. Şabran rayonunun Ağbaş kəndində dəfn edildi. Allah rəhmət eləsin!

Kasıb komasında oğlunun qazancını yenicə dadmağa başlayan ana tək qaldı, ümidi, pənahı üzüldü dünyadan. Yeganə təsəllisi bu oldu ki, oğlu Vətən uğrunda qurban gedib, şəhid oldu.

Ana beşik başındaymış kimi, Samirə laylay çalırdı:

– Az yaşadı, şərəflə yaşadı balam. Dünyadan da şəhid kimi köçdü oğlum. Balam laylay, qəhrəman oğlum lay-lay...

*Qaldı, arxada qaldı ömrün xoşbəxt illəri,*
*İndi sənin əlinə dəymir mənim əllərim...*
*Heç olmasa, xəyalın dumanlı aynasında,*
*Sənlə görüşərəmmi, yadına düşərəmmi?..*

Mikayılın ömür-gün yoldaşı qara tellərini ağ hörüb Mikayılın yoxluğu ilə barışa bilmədi. Həzin xatirələrlə yaşayan, ömrün şirin anlarını indi acı göz yaşları ilə xatırlayan bu xanım igid Azərbaycan oğlu ilə evlənəndə çox qürurlanmışdı. Buna haqqı da çatırdı. Dünyaca məşhur Əhmədiyyə Cəbrayılovun ailəsində böyüyən, ağıllı, kamallı, yaraşıqlı polis zabiti ilə ailə qurmuşdu.

...Mikayıl Cəbrayılov 1952-ci il aprelin 27-də Şəkinin Oxud kəndində dünyaya gəlib, İkinci Dünya müharibəsində əfsanəvi partizan – Fransanın Milli Qəhrəmanı Əhmədiyyə Cəbrayılovun ("Armed Mişel") ailəsində. VIII sinfə qədər doğulduğu kənddə, sonra isə Şəki şəhər 5 saylı fəhlə-gənclər məktəbində təhsil alıb. 1971-ci ildə Şəki Şəhər Daxili İşlər Şöbəsində sıravi polis nəfəri kimi əmək fəaliyyətinə başlayıb. Daha sonra Ali Milis Məktəbinə (indiki Polis Akademiyası) daxil olub. 1978-ci ildə peşəkar zabit kimi bu məktəbi bitirib, leytenant rütbəsi alıb və sahə müvəkkili təyin edilib.

Mikayıl gələcəyini qurmaq, arzu və istəklərinə çatmaq üçün çox çalışırdı. Axır ki, arzusuna yetişdi. Azərbaycan polisinin adını, şərəfini qorumaq naminə ardıcıl mübarizəyə qoşuldu. Daxili düşmənlərlə yanaşı, xarici qəsbkarlara da yerini göstərməyin zamanı idi.

Milli azadlıq mübarizəsinin geniş vüsət aldığı vaxtlarda qanunsuz silahlanmış quldur dəstələri, qaçaqmalçılar, hakimiyyəti ələ keçirmək istəyən qüvvələr peyda oldular. Polis gücləndirilmiş iş rejiminə keçdi. Ən dəhşətlisi də o idi ki, belə bir vaxtda ermənilər də torpaq iddiası qaldırmışdılar. Polis həm daxili, həm də xarici düşmənlərə qarşı mübarizə aparmalı oldu. Qızışdırılmış və fitva verilmiş ermənilər Qarabağda at oynadırdılar. Hələ ordu təşkil edilmədiyindən, polis əməkdaşları dəstə-dəstə döyüş bölgələrinə ezam olunurdular.

1990-cı ildə Mikayıl dörd nəfər polislə Qarabağa ezam olundu. Onlar Cəmilli kəndini müdafiə etməli idilər. Bir müddət sonra o, Kosalara əhali üçün ayrılmış taxılı gətirməyə gedir. Cəmilli-Kosalar arasındakı yolda qəflətən erməni quldurları onlara basqın edirlər. Zabitlərdən biri snayper gülləsindən ağır yaralanır, erməni basqınçıları ilə ölüm-dirim savaşına atılan Mikayıl çiynindən güllə yarası alır. Buna baxmayaraq o, təslim olmur və 1990-cı il dekabrın 15-də əsir düşən döyüş yoldaşlarını xilas edərkən son anadək vuruşur, döyüş meydanında qəhrəmancasına həlak olur. Bircə övladı atasız qalır. Oxud kənd qəbiristanlığında dəfn edilib.



Azərbaycan Respublikası Prezidentinin 6 iyun 1992-ci il tarixli 831 saylı Fərmanı ilə Cəbrayılov Mikayıl Əhmədiyyə oğlu ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.

Mikayılın adı əbədiləşdirilərək doğulub boya-başa çatdığı kəndə verilir. İndi onun adını daşıyan Şəkinin Mikayıllı kənd sakinlərinin, həmçinin onu tanıyanların qəlbində bir xatirətək yaşayır. Şəki şəhərində adına küçə də var.

***“Qardaşımın qisasını almaq üçün son damla qanıma qədər döyüşərəm, düşmənin qanını içərəm...”***

Təbiətin şıltaqlıqlarına dözmək üçün bütün canlılar çalışırlar. Qışa azuqə yığılır, qadınlar mürəbbə, tutma, məhsul konservləri tədarük edir, odunla soba yandırılan evlərdə kişilər meşələrə üz tutur, oduncaq əldə edirlər. Mal-qarası olanlar ot-ələf tədarük edir, üstünü, yanını bərkidirlər. Yazda gələn quşlar uçub isti ölkələrə gedib, soyuğadavamlılar qalıb yuva qurublar. Torpaq qarın altında qalıb münbit olsun deyə şumlanır, sulanır, arata qoyulur...

Yağış küçələrin kir-pasını aparır. Ağır və dözülməz vəziyyətdə olan yerlərdə sular yığılır, gölməçələnir, problemlər də çoxalır. Bu problemləri dövlət orqanları aradan qaldırır.

Elə leysan yağışları var ki, onların yaratdığı çətinlik-

ləri heç nə ilə aradan qaldırmaq olmur. Onlar həm də çox istidir, yanaqlardan süzülür, dama-dama yaxalara, ürəklərə axır, yastıqlara süzülür... Onların problemlərini heç bir dövlət orqanı aradan qaldıra, silib apara bilmir... Gözləri yollara dikilən şəhid ana və bacıların yanaqlarına, ailə başçısını itirmiş xanımların yastığına, şəhid övladlarının yaxalarına, qardaş itkisi ilə yaşayan, ürəyi qisas hissi ilə alışıb-yanan igid oğullarımızın ürəyinə axırdı bu yağışlar.

Şəhid jurnalistimiz, Azərbaycanın Milli Qəhrəmanı Alı Mustafayevin xanımı Lalə Mustafayeva üç övladı ilə qaldı. Vətənsevər Alı qələmini süngüyə çevirmişdi, cəbhədən müntəzəm yazırdı. Axırda da adını qanı ilə Qarakənd səmasına yazdı. Od içində, alovlanaraq, yana-yana. Qəhrəmanlığa, mübarizliyə, dözümə, cəsarətə imza atdı, ruhu pərvazlanan göylərdə, Tanrıya bir az da yaxından. Heç yerə də enmədən. Enməyi, əyilməyi özünə sağlığında da sığışdırmazdı...

Zərif çiyinləri yük altında, ailənin ağır şələsini tənha çəkən şəhid xanımları, gözlərinin kökü saralan, baxışları qapıya zillənib ata yolu gözləyən şəhid övladları, bir gün atalarının qayıdacağı ümidi ilə yaşayan ümidsizlər, tənhalar, köməyə ehtiyacı olanlar ağrılı-acılı bir həyat yaşayırdılar. Kişi evin dirəyidir. O yoxdursa, heç nə yoxdur. Belə yerdə qədim bir rəvayət yadıma düşdü...

...Məmləkətin padşahı baş vermiş cinayətə görə bir qadının ərini, oğlunu, qardaşını şübhəli bilib həbs etdirir. Çətinlikdə qalan qadın padşahın yanına gedir, yalvarıb-yaxarır ki, bu kişiləri əfv etsin. Söyləyir ki, şahım, çətinlikdəyəm, mənə kömək edin, evimin dirəklərini əfv edin. Əlimdən iş gəlmir, yaşaya bilmirəm, onları mənim qadınlığıma, analığıma bağışlayın. Padşah deyir ki, üçünü də yox, bunlardan birini əfv edə bilərəm, hansını istərsən-istə, yalnız birini. Qadın yuxarı baxır, aşağı baxır, deyir ki, padşah sağ olsun, ər eldəndi, oğul beldən, qardaş amanı, qardaşımı verin. Bu, əlbəttə, bir deyimdir. Qardaş da kiminsə oğludur, kiminsə əridir. Ümumiyyətlə, ləyaqətli, namuslu ərənlər, igidlər, adını şərəflə doğruldan Azərbaycan kişilərinin hamısı bizim dayağımız, dirəyimizdir və bunu 2020-ci ilin 44 günü ərzində bütün dünyaya göstərdilər. Onlarsız həyat heçdir, kainat boşdur, yaşamaq mənasızdır.

Müharibə igid oğullarımızı əlimizdən aldı, yanan ocaqlarımızı kor, ana və bacıları gözüyaşlı qoydu. Azərbaycan qadınının şirin günlərinə acılar qatdı, çətinliklər gətirdi. Analar ailə yükünü tək daşımalı, övlad ovundurmalı, həm də oxutdurmalı oldular, külfətinin maddi təminatçısına çevrildilər. Şərəf və namusla Vətənə xidmət edən oğullarının əməllərindən nə qədər qürurlansalar da, ürəklərini niskil büründü, qara bağladılar. Axı ciyərparasını itiriblər, doğması üçün gözləri yollarda qalıb, həmçinin həyatın çətinlikləri ilə üz-üzədirlər...

Analar... payız, qış qayğılarına bürünərlər... Övladlarına həyat yoldaşı ilə birlikdə bazarlıq edər, əyinbaş alar, üzü qışa doğru, həm də soyuqdan qorunmağın zərurət olduğunu nəzərə alıb tədarük görərlər. Kənd yerlərində soba qoyular, bacalar quraşdırılar, odundan istifadə olunan yerlərdə oduncaq alınar, doğranar, cərgəyə vurular, üstü örtülər, çal-çəpər, evin axan-sızan yerləri bərkidilər, sel gələndə ehtiyat tədbiri kimi bənd-lər bağlanar. Bunların hamısının başında kişi durar, ər kişi, arxa-dayaq kişi...

Kişisi olmayan evlərdə xanımlar bükülü xatirələrinə qəm çəkər, dərd ovuşdurarlar. Oğlan övladlarının böyüyüb ələ çatacağı günü görmək arzusu ilə ümid bağçalarını suvarar, təsəlli taparlar. Yağış yağar onların yanan ürəklərinə, köz kimi qızaran qəlblərinə. Atəşli gözlərindən od-alov çıxar, onlar da sıxılar, süzülər al yanaqlara. Yağışa laylay çalarlar, özününküləşdirərlər:

*Bu yağışı dənə-dənə öpərəm,*
*Bu yağışı gözlərimə təpərəm.*
*Bu yağışa gözlərimlə çəpərəm.*
*Ağlayaram gözdolusu bahar-qış,*
*Mənimkidir, mənimkidir bu yağış.*

- deyib Tanrı nuru ilə özlərini ovundurarlar. Onu bu günlərə qoyan düşmənə lənətlər yağdırar, “Baisin evi yıxılsın”, – deyərək qarğış tökərlər. Xəyalın lacivərd səmalarında ruhları qovuşar. Xəyalən bir çətir altında yol gedərlər, gənclik çağlarındakı kimi. Qələbəyə ümidlə, rəhbərə inamla üzüişıqlı sabahlara doğru getdiyi yolun sonu oldu bu payız. Ağaclar, çöllər, çəmənlər solan vaxtı, ümidlərimiz göyərdi. Müzəffər Azərbaycan Ordusu, Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızı işğaldan azad etdi. Qəhrıman Azərbaycan əsgəri, zabiti şəhid oldu, yaralandı, qazi oldu, düşmənə yerini göstərdi. 30 il davam edən nəticəsiz danışıqlara uğurlu siyasəti ilə dünyada məşhurlaşan, ordumuzu dünyanın tanınmış 50 ordusu sırasına çıxaran görkəmli Sərkərdə, Ali Baş Komandan İlham Heydər oğlu Əliyev 44 gün ərzində qələbəmizlə son qoydu. Azərbaycan Ordusu son 200 ildə misli görünməmiş tarix yazdı. Torpaqlarımız işğaldan azad edildi.

İndi torpaq nəfəs alıb dincəlir. Qan və göz yaşı ilə suvarılmış qara torpaqlarımızda səadət bağları salırıq. Bu payızda şəhidlərimizin ruhu şad oldu. Yaralılarımız ağrısını belə unudub. Dövlət başçısı şəhid ailələrinin, qazilərimizin bütün qayğılarını öz üzərinə götürüb. Dünya bizi təbrik edir. Özümüz də qürur hissi ilə deyirik-qələbəmiz mübarək!

# Minacat

*Seyid İmadəddin Nəsimi və Hafiz Şirazinin mübarək ruhlarına itbaf olunur*



**Tural Türksoy,**
**BDU-nun İlahiyyat fakültəsinin məzunu**

Etdim istiğfarü tövbət,
Çəkdim nəfsimə riyazət.
Gəldi mənə öylə halət;
Həqqə məzhər oldu canım!

Eyləmədim həyavü ar,
Qıldım fəğanü ahü-zar.
Vücudum mənə gəldi dar;
Qalmadı tabım-təvanım!

Gəl meylə doldur badəmi,
Sirab eylə ləblərimi.
İmtahan etmə səbrimi,
Ey saqiyi-mehribanım!

Qoy şərabdan sərxoş olum,
Vüsalından bihuş olum.
Eşqindən od tutmuş olum,
Alışım, yaxılıb-yanım!

Kaş rəhmətin gələ cuşa,
Məğfirətin coşub-daşa;
Rəhm edəsən bu naxoşa!
Ya Qəfurum, ya Rəhmanım!





Cihad üçün riyazət şərt,
Riyazət üçün xəlvət şərt,
Xəlvətçün mənsubiyyət şərt;
Budurmu ruşi-asanım?!

Əgər Sən salmasan nəzər,
Nəfsi Türksoylunu əzər.
Məğlubiyyətdən dad-həzər!
Hanı zəfəri-zişanım?!

---

sirab eylə = islat
saqiyi-mehribanım = mehriban şərabpaylayanım
mənsubiyyət = bir təriqətə bağlanma, intisab
ruşi-asanım = asan üsulum
zəfəri-zişanım = şanlı zəfərim

*Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi*
*Azərbaycan İlahiyyat İnstitutu*

***Ünvan:*** *AZ1141, Bakı şəhəri, Əhməd Cəmil, 41/A*
***Telefon:*** *(+99412) 510-65-45*
***Rəsmi səhifə:*** *www.ait.edu.az*
***Email:*** *info@ait.edu.az*
***Facebook:*** *ilahiyyatinstitutu*
***İnstagram:*** *ilahiyyatinstitutu*
***Twitter:*** *azeilahiyyat*

*"Azərbaycan" nəşriyyatında çap olunub.*
*Sifariş: 2189*